YYSQ – www.yysq.org
www.elmler.net
İntellektual-Elektron Kitabxananın təqdimatında

“Gənc elektron elm” N 64 (18 - 2014)

İlqar Fəhmi

Qədim miniatür və xəttatlıq sənəti

Bakı tarixindən kollaj

Tarixi-kreativ araşdırmalar toplusu

2014

www.kitabxana.net – Milli Virtual-Elektron Kitabxananın e-nəşri

www.elmler.net

Virtual İnternet Resurs Mərkəzinin təqdimatında

“Gənc elektron elm”: 64 (18 - 2014)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən qismən maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər Qurumunun “Gənc elektron elm – Virtual İnternet resurs mərkəzi” innovativ-intellektual layihəsi çərçivəsində rəqəmsal nəşrə hazırlanır və yayımlanır.

Elektron kitab N 64 (18 - 2014)

Layihənin maliyyələşdirir:

Azərbaycan Respublikasının Prezidenti yanında

Gənclər Fondu:

http://youthfoundation.az

YYSQ - http://www.yysq.org
http://www.elmler.net

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Azərbaycan Gənc Alimlərinin
ELEKTRON KİTABXANASI

AZƏRBAYCAN GƏNCLƏR FONDU

İntellektual resurs YYSQ və www.kitabxana.net – Milli Virtual-Elektron Kitabxananın bir bölümü olaraq hazırlanıb.

İlqar Fəhmi

Qədim miniatür və xəttatlıq sənəti

Bakı tarixindən kollaj

Tarixi-kreativ araşdırmalar toplusu

Bakı, YYSQ – 2014

I Bölüm

MİNİATÜR SƏNƏTİ

İsa nəfəsli qələm

Ey müsəvvir, yar timsalına surət vermədin
Zülfü-rux verdin, fəqət tabü təravət vermədin.

M.Füzuli

Miniatür sənəti tarixindən bəzi cizgilər

Birinci yazı

Behzadın barmaqları

Miladi tarixi təqribən 1507-ci il. Xorasanın paytaxtı Məşhəd şəhəri. Şəhər valisinin sarayı. Şərqin dahi rəssamı, heratlı Kamaləddin Behzad Mavərənnəhrdən Xorasana, Herata basqın edib şəhərləri, kəndləri viran qoyan Özbək hökmdarı Şeybani xanın qarşısında oturub onun şəklini çəkir. Həm də əvvəl çəkdiyi kimi çəkmir, çəkə-çəkə özündən əvvəlki şərq rəssamlarının ən birinci qaydasını pozur, yəni şəkili Şeybani xana oxşatmağa çalışır. Cəhd edir ki, hər cizgi, hər çalar həqiqətdə olduğu kimi kağıza köçsün.

Yaxın Şərq rəssamları arasında belə bir inam vardı ki, əgər rəssam çəkdiyi insanın şəklini onun özünə oxşatsa, onda həmin adamın ruhunun bir hissəsini əlindən almış olur və əgər nə vaxtsa bu şəkilə xətər toxunsa, cırılsa, kəsilsə, yansa, həmin adam da böyük iztirablara düçar olacaq.

Bəli, hamı belə deyirdi və ilk baxışdan mövhumat kimi görünsə də, hamı buna inanırdı. Məhz bu səbəbdən də şərq rəssamların miniatürlərinə baxanda insanların üzdən hamısınnı biri birinə oxşadığını görürsən. Yəni bütün obrazlar elə bil maska taxıb. Heç bir rəssama insanı həqiqətdə olduğu kimi çəkməyə icazə verilmirdi.

Behzad isə əvvəllər öz tələbələrinə öyrətdiyi əsas qaydanın əleyhinə çıxsa da, cidd-cəhdlə Şeybani xanın təsvirini məhz özünə oxşar çəkməyə çalışırdı. Çəkə-çəkə gözünün qarşısına doğma Heratın dağılmış küçələri, sarayları, yandırılmış kitabxanaları gəlirdi. Uzun illər boyu Behzadın himayədarı olan Herat hökmdarı Sultan Hüseyn Bayqara, onun vəziri məşhur şair Mir Əlişir Nəvai bütün varlıqlarını Heratın çiçəklənməsinə həsr etmişdilər, gözəl saraylar, kaşanələr tikdirmişdilər, usta sənətkarları, qələm sahiblərini Herata dəvət edib, bu şəhəri Türk-İslam mədəniyyətinin mərkəzinə çevirmişdilər. Kamaləddin Behzad isə Heartda saray kitabxanasının rəisi idi.

Lakin hökmdarla vəzirin ölümündən cəmisi bir neçə il sonra Buxara çöllərindən gələn bu yarıvəhşi köçəri tayfalar bir ayın içində bütün yaradılanları yandırıb

dağıdır və Şeybani xan bir müddət sonra Kamaləddin Behzada öz şəklini sifariş verir.

Behzad da razılaşır, çəkməyə başlayır və Şeybani xanı özünə oxşadır. Yəqin ki qəsdən belə edir, Şeybani xana qarşı qiyama qalxmağa gücü çatmadığından ona məhz bu yolla intiqam alır, ümid edir ki, şəkli ona oxşatmaqla zülmkar xanın ruhunun, gücünün, əzəmətinin bir hissəsini, bəlkə də böyük bir hissəsini əlindən almış olur.

Uzun əziyyətdən sonra Behzad Şeybani xanın şəklini çəkib qurtarır. Saray əyanları təəccüb içindədirlər. Kağız üzərindən onlara elə bil Şeybani xanın özü baxır. İlk dəfədir ki, belə şəkil görürlər. Pıçıltılar eşidilir: Oxşayır. Elə bil eynən özüdü. Belə də şəkil olarmı? Lap elə bil şeytan əməlidir.

Şeybani xan özündən razı halda gülümsünür. Əlbəttə, ona desələr də inanmaz ki, adi bir nəqqaş fırçası onun ruhunun bir hissəsini, əzəmətini əlindən ala bilər.

Şeybani xan təəccüblənən əyanları seyr edir. Şəklin özünə oxşamasında da qeyri-adi heç nə görmür: Əgər mən islam dünyasının yeni xəlifəsiyəmsə, deməli şəklim də başqalarından fərqlənməlidir, əgər başqalarının şəkli özlərinə o qədər də oxşamırsa, mənimki oxşamalıdır.

Kimlərinsə ürəyində qorxu əmələ gəlir. Bəziləri isə bəlkə də Behzadın əsl niyyətini anlayırlar: Şeybani xanın ruhunun bir hissəsini ondan qoparıb bu kağıza köçürtmək, onun gücünü azaltmaq…

Nə qədər qəribə görünsə də, Kamaləddin Behzadın səyləri hədər getmədi. Şeybani xanın şəklinin çəkilməsindən il yarım sonra, Mərv ətrafında özündən razı, lovğa Şeybani xan Səfəvi hökmdarı Şah İsmayılla üz üzə gəldi və ..məğlub oldu. Bu Mavərənnəhrin özbək hökmdarı və Çingiz xan nəslini yenidən dünynanın başı üzərinə qaldıracağını elan edən Şeybani xanın ilk və son məğlubiyyəti idi.

Kamaləddin Behzad isə Şeybani xanın bu məğlubiyyətində onun da payı oluğunu düşünürdü. Bəlkə də haqlı idi.

Çəyirtkə hücumu

İslam dininin ilkin dövrlərdə rəssamlığa, heykəltaraşlığa mənfi münasibəti hamıya məlumdur. Səbəb: insanların yenidən əski inanclarına, yəni bütpərəstliyə, çoxallahlılığa qayıtması qorxusu.

Bu səbəbdən islamın ilk illərində yaranan möhtəşəm müsəlman mədəniyyətində nə rəssamlığa, nə də heykəltaraşlığa yer yox idi. Heykəltaraşlıq sənətinin üstündən ədəbi olaraq xətt çəkildi. İyirminci əsrə qədər bu sənət növü islam ölkələrində sadəcə mövcud deyildi. Lakin rəssamlıq uzun illər keçdikdən və islam artıq neçə əsrlər boyu ərzində insanların şüuruna həkk olduqdan sonra sonra yaranmağa, formalaşmağa başladı.

On üçüncü əsrdə bütün müsəlman şərqinin üstünü qara buludlar aldı. Uzaq şərqdən gələn monqol tayfaları artıq parçlanmış, biri biriylə yola getməyən və məhz bu səbəbdən də zəifləmiş müsəlman hökmdarlarını taxtlarınan süpürüb atmağa başladı. Xarəzmşahlar, Səlcuqlar. Atabəylər və ən nəhayət öz miskin varlığının

son günlərini yaşayan zəifləmiş Abbasilər xilafəti qısa bir müddət içində tarixin qaranlıq girdabında ədəbi yox oldular. Onların əvəzində demək olar ki bütün yaxın şərqi əhatə edən bir dövlət – Çinqiz xanın nəvəsi Hülakü xanın yaratdığı Hülkülər dövləti formalaşdı. Çiçəklənən bağları qaratikan basdı, par par yanan şəhərlər xarabalığa çevirldi. Bəzi islam tarixçiləri monqolların hücumunu taxıl zəmisinə üz verən çəyirtkə selinə bənzədirdi. Lakin çəyirtkədən fərqli olaraq monqollar xarabazara çevirdikəri bir mədəniyyətin üstündə yeni və ruhən tamam başqa bir mədəniyyət formalaşdıra bildilər. Yeni yaranmağa başlayan bu mədəniyyətin əsas qolu isə miniatür rəssamlığı, onların öz diliylə desək nəqqaşlıq oldu.

İlk cizgilər, ilk rənglər

Hülakü xan yaxın şərq ərazilərini bir bayraq altında birləşdirəndə hələ müsəlman deiyldi, sonradan islamı qəbul etdi və yaratdığı dövlət də islam dövləti oldu. Lakin hakimiyyətinin ilk illərindən onun məmurları, katibləri arasında müsəlmanlar az deyildi. Bunlar əsasən Çinin şimalında yaşayan və islamı artıq neçəə əsrlər bundan əvvəl qəbul etmiş uyqurlar idi. hülakü xan hakimiyyətinin ilk illərində hələ yerli müsəlman əyanlarla sıx əlaqələr qurmamışdan əvvəl müsəlman uyğur katiblərinin yardımından çox istifadə edirdi, yerli müsəlman əhali ilə necə dil tapmağı, onlarla necə yola getməyin üsullarını məhz özüylə gətirdiyi uyqurlardan öyrənirdi.

Lakin uyğurların xidməti təkcə mirzəlik, katiblikdən ibarət deyildi. Məsələ ondaydı ki. uyqurlar Çinin şimalında, əsasən Qaşqarda yaşadıqlarından Çin mədəniyyətiylə sıx ünsiyyətdə olurdular və çinin qədim rəssamlıq sənətinə də çox böyük ustalıqla yiyələnmişdilər. Və Hülakü xanla birgə yaxın şərq

torpaqlarına qədəm qoyduqdan sonra məhz uyqur rəssamlarının köməyiylə müsəlmanlar rəngkarlıq sənətiylə tanış olmağa başladılar. Belə demək olarsa, orta əsr şərq miniatür sənətinin əlifbasını uyqur rəssamları yaratmışdılar. Məhz bu səbəbdən həmin dövrlərdə müsəlman rəssamlarının əsərlərində qədim Çin rəssamlığının çox güclü təsiri hiss olunurdu. müsəlman rəssamları da çin rəssamları kimi solğun rənglərdən istifadə edir, kağızın böyük hissəsini boş saxlayır, əsas təsvir olunan bir-iki obyekti diqqətə çəkirdilər.

Lakin müsəlman rəssamları sadəcə çin rəssamlıq sənətini təqlid etməklə kifayətlənmədilər. Əlli il., yüz il, yüz əlli il – və yavaş yavaş müsəlman rəssamlığı çin təsirlərindən azad olmağa başladı və Hülakü xanla uyqur rəssamlarının yaxın şərqə gəlməsindən iki yüz il sonra şərq miniatür məktəblərindən ən maraqlı və mükəmməlləri – Təbriz və Herat miniatür məktəbi yarandı.

İlahi üçlük

Xristianlardan fərqli olaraq üç rəqəmi islamda müqəddəs sayılmır. Lakin qısamüddətli omlasına baxmayraq tarixə əbədi həkk olunmuş Herat mədəniyyəti öz varlığına. Əzəmətinə görə demək oar ki, üç nəfərə borclu olub; humanist ədalətli hökmdar Hüseyn Bayqara, məşhr vəzir və dünya şöhrəti şair Mirəlişir Nəvai və qızıldan da qiymətli barmaqları olan rəssam, nəqqaş Kamaləddin Behzad. Təbriz və Herat miniatür məktəbinin formalaşmasınan əvvəl islam ölkələrində adda Budda yaranan rəssamlıq nümunələri daha çox yaxın regionların rəssamlığının kölgəsiydi : Əfqanıstan, Hindistan regionundakı miniatürlər Hindistanın qədim rəssamlıq nümunələrini xatırladır, Suriya, və Anadoludakı rəssamların əl işləri isə Bizans freskalarına bənzəyirdi.

Lakin əvvəlcə Təbriz, daha sonra Herat rəssamlarının səyi nəticəsində şərq islam rəssamlığı öz həqiqi simasını, öz identifikasiyasını tapa bildi.

Sultan Hüseyn Bayqaranın kitabxanasının rəisi olan məşhur rəssam Ağamirək tərəfindən kitabxanaya

şəyirdliyə götürülən Behzad qısa müddət ərzində, Təbrizdən dəvət olunan Seyid Əhməd Nəqqaşdan, Xoca Əli Müsəvvirdən rəssamlığın incəliklərini öəyrənərək öz sənətini yüksək səviyyəyə qaldırıb incəsənət, ədəbiyyat himayədarı olan Sultanın rəğbətini qazana bildi və nəhayət onu saray kitabxanasına rəis təyin etdilər.

1488-1505 illərdə Heratın saray kitabxanasında Behzadın rəhbərliyi ilə bir neçə dünya şöhrətli kitab hazırlanmışdı. Bunlaran birincisi hal hazırda Qahirə dövlət kitabxanasında saxlanılan Sədinin «Bustan» poemasıdır. Bu kitab bir neçə il hazırlanmış, və içinə əllidən çox bənzərsiz miniatür yerləşdirilmişdir. Bundan başqa həmin dövrdə kitabxanada Nizaminin «Xəmsə»si (London. Britaniya muzeyi) və Şərafəddin Yəzdinin «Zəfərnamə» kitabları da hazırlanmışdı. Hər üç kitabda çox gözəl xəttat işindən istifadə olunmuş, mətnə uyğun miniatürlər çəkilmiş, kitablar çox nəfis şəkildə cildlənmişdi. Hal hazırda dünyanın məşhur kitabxana və muzeylərində saxlanılan bu ziqiymət kitablar şərq mədəniyyətinini incilərindən hesab olunur.

Hüseyn Bayqaranın sarayında özünü hədsiz dərəcədə xöşbəxt hiss etməsinə baxmayaraq, Behzad bu

mədəniyyət incilərinin gələcəyi üçün çox narahat idi. çünki Hüseyn Bayqaranın varisi Bədiəzzaman mirzənin və başqa şahzadələrin öz atalarından fərqli olaraq çox dar düşüncəyə malik olduqlarını, yalnız eyş-işrət barədə düşündüklərini görürdü.

Sənətkarın narahatçılığı əbəs deyildi. Hökmdar vəfat edəndən bir neçə il sonra özbək hökmdarı Şeybani xan Herata hücum edəndə şahzadə Bədiəzzaman mirzənin və o biri şahzadələrin heç ordu toplamağa da fərasəti çatmadı, ölkəni işğalçının ümidinə qoyub hərəsi bir yana qaçıb dağılışdı.

Kamaləddin Behzad da Şeybani xanın əlinə keçdi.

Təbriz məktəbi

Şeybani xan 1510-cu ildə Mərv yaxınlığında Şah İsmayıla məğlub olandan sonra Kamaləddin Behzad da şagirdləriylə bir yerdə Təbrizə Səfəvi şahının yanına gəldi və Şah İsmayıl onu yenicə yaratmağa başladığı kitabxanaya götürdü.

Taxta çıxandan sonra Şah İsmayıl da, özünə ustad bildiyi Hüseyn Bayqara kimi öz sarayına şairləri, rəssamları, xalçaçıları, xəttatları toplamışdı. Təbriz sarayında yeni kitablar hazırlanır, gözəl miniatürlər çəkilir, əvəzsiz xalçalar toxunur və nəhayət ziqiymət şeirlər yazılırdı.

Hətta Təbriz civarında müsəvvirlərin (rəssamların), xəttatların, kitab cilçilərinin yaşadığı ayrıca məhəllə də salınmışdı.

Kamaləddin Behzad Təbrizə gələndə burada artıq yeni yaranmış Səfəvi mədəniyyəti öz çiçəklənmə dövrünü yaşamaqdaydı və artıq ruhdan düşmüş Behzad burada sanki ikinci vətənini tapmış oldu , yenə də böyük səylə öz sənətini davam etdirməyə başladı.

İndinin özünə qədər bir çox Avropa və rus incəsənət tarixçiləri Təbriz miniatür məktəbinin banisi kimi məhz Heratlı Kamaləddin Behzadı görürlər.

Lakin bu fikir o qədər də inandırıcı görünmür. Düzdür, Behzad Təbriz rəssamlarının yaradıcılığına müəyyən qədər təsir göstərmişdi, lakin nəzərə almaq lazımdı ki onun gəlişindən də əvvəl artıq Təbrizdə miniatür rəssamlığı tam sürətlə inkişaf edirdi və xatıradaq ki, Behzadın özünün də ustadlarından biri şahzadə baysunqur tərəfindən məhz Təbrizdən dəvət olunmuş rəssam Seyil Əhməd Nəqqaş olmuşdu.

İsa nəfəsli qələm

İsa peyğəmbərin nəfəsi ölüləri dirildirdi. Klassik şərq divan ədəbiyyatında «Dəmi-İsa» - İsa nəfəsi obrazı həddən artıq işlənən bədii obrazlardan biridir.

Məşhur Təbriz rəssamı Sultan Məhəmməd haqqında da belə deyirdilər: Onun qələmi İsa dəminə bərabərdir, onun fırçasının altından çıxan hər bir təsvir sanki dirilir, canlanır.

Müasir Avropada mütəxəssislərin arasında söhbət düşəndə klassik şərq klassik şərq miniatür rəssamlarından əsasən iki adamın adı çəkilir: Heratlı Kamaləddin Behzad və Təbrizli Sultan Məhəmməd.

Yaşca Behzad Sultan Məhəmməddən xeyli böyük olsa da, hər iki rəssam təxminən on ilə yaxın bir müddətdə Təbrizdə Səfəvilər sarayındakı kitabxanada çiyin-çiyinə çalışmışlar və məhz onların birgə səyi nəticəsində Təbriz miniatür məktəbi görünməmiş zirvələrə qalxmışdı.

Əgər əvvəllər bir çox hallarda miniatür rəsmlər yalnız illüstrasiya edilən kitablardakı mövzuları əks elətdirirdisə, Təbriz müsəvvirləri, nəqqaşları daha çox

müstəqil mövzularda işləməyə üstünlük verirdilər. Sultan Məhəmmədin yaratdığı ov səhnələri, döyüş epizodları, sevgililərin portretləri, real təbiət peyzajları o qədər təbii, o qədər əlvan alınırdı ki, insanın gözünün sanki məcburi şəkildə özünə çəkir, insan baxışlarını sığallayır, ruhunu dincəldirdi.

Sultan Məhəmməd də daxil olmaqla Təbriz rəssamlarının ən böyük üstünlüyü isə həm kompazisiya, həm də rəng həlli baxımından şərq miniatür sənətini hədsiz dərəcədə zənginləşdirmələri oldu.

Kitab səhifəsi boyda bir rəsmə rəssamlar kütləvi səhnələri, onlarla insan obrazını, yüzlərlə rəng çalarını yerləşdiməyə müvəffəq olurdular. Əvvəlki donuq dekorativlik yavaş-yavaş əriyib gedir, əvəzinə daimi hərəkət, sonsuz dinamika yaranır, bu da rəsmi canlandırırdı. Bir səhifəlik şəkil öz içinə sanki böyük bir dünyanı, reallığın daim hərəkətdə olan bir parçasını sığışdırırdı.

Məhz bu səbəbdən Təbrizdə istehsal olunan kitabların şöhrəti İstanbuldan tutmuş Hindistana qədər bütün islam ölkələrinə yayılmışdı. Bir çox hökmdarlar da öz

saraylarında məhz bu cür sənət ocaqları yaratmaq niyyətinə düşürdülər.

1514-cü il. Çaldıran döyüşündə Şah İsmayıla qalib gələn Sultan Səlim Təbrizi ələ keçirir, lakin burada çox qala bilmir, bir müddət sonra geri çəkilməli olur, lakin Təbrizdən geri çəkilərkən özüylə minlərlə sənətkarı - nəqqaşları, xəttatları, cildçiləri ailələriylə bərabər aparır və zaman keçdikcə özünəməxsus koloriti olan İstanbul miniatür məktəbi formalaşır.

1555-ci il. On il hökmranlıq etdikdən sonra əyanların qiyamı nəticəsində ölkəsindən qovulub Səfəvilər sarayında sığınacaq tapan Moqol hökmdarı Humayun, şah Təhmasibin qızılbaşlarının köməyiylə öz ölkəsindəki düşmənlərini məğlub edib yenidən taxta çıxır. Lakin Hindistana qayıdarkən Səfəvi şahı Təhmasibin icazəsiylə Mir Seyid Əli, Əbdüssəməd Məşhədi kimi Təbriz rəssamlarını da özüylə Dehliyə aparır və nəticədə qədim hind rəssamlığı ilə müsəlman miniatür rəssamlığının sintezində fəaliyyət göstərən Moqol miniatür məktəbi yaranır.

Belə demək olarsa, bütün islam aləmindəki miniatür məktəblərinin başında əsasən Təbrizdən, Qəzvindən çıxan azərbaycanlı rəssamlar dururdu.

Hər nəqşədə min cahan…

Hər nəqşədə min cahan sığışdı,
Hər səhfə üç asiman üçündür.

Miniatür sənəti tarixindən bəzi cizgilər

İkinci yazı

Yetdi ol halətə zəfim ki, çəkər təsvirim
Hər zaman daireyi- heyrətə min nəqqaşi.
M. Füzuli.

İki nəqqaşa dörd vilayət

Dehliyə istiqamət götürən Karvan Səmərqənddən çıxanda şəhərin kamal sahibləri həsrətlə ah çəkir, təəssüflə köks ötürürdülər; Budur, Mavərənnəhrin iki böyük nəqqaşı, rəssamı bizləri əbədi tərk edir. Kimlərsə Hökmdar Abdulla xanın hərəkətinə haqq qazandırırdılar; Əlbəttə, Hindistan moqollarına göstərmək lazımdır ki, yüksək sənətə qiymət verən təkcə onlar deyil, Şeybani xanın özbəkləri də ən ali sənətləri də əxz etmiş, sənətkarların qədrin bilən, sənətə hər cür şərait yaradan maarifpərvər millətdilər.

Lakin əsl sənət xiridarları itkinin nə qədər böyük olduğunu anlayırdılar. Budur, sənətkar kimi Səmərqənddə yetişən, Mavərənnəhr təsviri sənətinin ən yüksək, ən istedadlı nümayəndələri olan, onlarla kitabı əvəzsiz rəsm əsərləriylə bəzəyən iki rəssam, iki nəqqaş – Murad Səmərqəndi və Nadir Məhəmməd əbədi olaraq vətəndən ayrılır. Bu iki sənətkarı Səmərqəndin özbək hökmdarı Abdulla xan Hindistanın Moqol şahı

Cahangirə hədiyyə göndərirdi. Həm də bu addım konkret siyasi məqsədlər güdürdü.

Hadisənin mahiyyətinə varmaqçün kiçicik də olsa tarixi arayış vermək yerinə düşər.

16-cı əsrin əvvəllərində Şah İsmayıl tərəfindən yaradılan böyük Səfəvi qızılbaş dövləti həmin əsrin 80-ci illərində xeyli zəifləmişdi.

Bundan təbii ki ilk növbədə qonşu dövlətlər istifadə etmək fikrinə düşmüşdülər. Qərbdə Osmanlı dölәti Azərbaycan ərazilərinə aramsız hücumlar edir, şərqdən isə Orta Asiyada hakim olan özbəklərlə Hindistanda hökmdarlıq edən Moqolların gözlərini Səvəfi torpaqlarına dikmişdi.

Səmərqənd hakimi Abdulla xan bir neçə dəfə Xorasana hücum etsə də, qızılbaşların təzyiqinə davam gətirməmiş, yenidən geri çəkilməyə məcbur olmuşdu. Məzh bu səbəbdən özünə müttəfiq axtaran xanın nəzəri Hindistan hökmdarı Cahaqgirə yönəlmişdi. Lakin Zahirəddin Babur kimi bir şair-hökmdarın davamçıları olan və yüksək sənətə rəğbətləri isə seçilən Moqollar yarımköçəri, mədəniyyətsiz tayfalar hesab etdikləri özbəklərə

yuxarıdan aşağı baxır və hansı bir məqsəddən ötrü onlarla ittifaqa girməyi özləri üçün əskiklik hesab edirdilər.

Məhz bu səbəbdən Səmərqənd hakimi Abdulla xan vilayətdəki ən istedadlı iki rəssamı səfirliyin tərkibində Hindistan hökmdarı Cahangirə hədiyyə göndərmişdi. Məqsəd də bu idi ki, Cahangir Səmərqənddə bu cür rəssamların, nəqqaşların yetişdiyini görsün və yarımköçəri özbəklərin inkişaf edərək yüksək mədəni səviyyəyə çatmasını anlasın.

Məhz bu hədiyyədən sonra Moqol hökmdarı Cahangir Səmərqənd hakimi Abdulla xanla ittifaq bağladı və onlar birlikdə Səfəvilər dövləti üzərinə hücumlar təşkil etməyə başladılar. Zəifləmiş Azərbaycan-Qızılbaş dövləti bu hücumların qarşısını kəsə bilmədi, beləcə şərq əyalətləri Səfəvilərin əlindən çıxdı. Qəndəhar, Herat Moqolların, Məşhəd və Mazandaran isə Abdulla xanın əlinə keçdi.

Bu hadisənin ən parodoksal cəhəti isə bundan ibarət idi ki, Səfəvi dövlətinə qarşı ittifaqın bağlanmasına müəyyən mənada xidmət etmiş hər iki məşhur rəssam …əslən bizim torpaqlardan idilər və məşhur Təbriz miniatür məktəbinin davamçıları idilər.

Yenə də Behzad

İndi isə haqqında danışdığımız hadisədən yarım əsr əvvələ qayıdaq.

Təbriz. Şah İsmayılın hakimiyyətinin son illəri.

Şərq rəssamlarının ustadı sayılan Heratlı Kamaləddin Behzad nəhayət ki Xorasandan Təbrizə gəlir.

On il əvvəl Herat dövləti özbək Şeybani xan tərəfindən süquta uğradıldıqdan sonra Heratın bir çox nəqqaşları, xəttatları, rəssamları Herat Şahzadəsi Bədi-əz-zaman mirzəylə birlikdə Təbrizə, Şah İsmayılın yanına pənah gətirmişdilər. Lakin Behzad gəlməmişdi, vətəndə qalmışdı və onun bu dövrdə çəkidiyi ən məşhur rəsm Şeybani xanın şəkliydi.

Kamaləddin Behzadın niyə görə bütün bu müddət ərzində çəkdiyi mənəvi və maddi sıxıntılara baxmayaraq vətəndə qalmasını şərq tarixçilərinin hərəsi bir səbəblə əlaqələndirir. Kimsə Behzadın öz vətəni Herata həddən artıq bağlanmasını yazır, kimlərsə məzhəbcə sünni olan

Behzadın şiə Şah İsmayılın sarayında yaxşı qarşılanmayacağından qorxduğunu bildirirdilər. Bir qism alimlərsə yazır ki, Behzad Şah İsmayılın düşməni olan Şeybani xanın şəklini çəkdiyinə görə Şahın onu bağışlamayacağını güamn edirdi.

Lakin zənnimizcə ən düzgün fikir bundan ibarətdir ki, Kamaləddin Behzad artıq formalaşmış olan və Sultan Məhəmməd, Ağa Mirək və sair kimi ustad rəssamlar yetirmiş Təbriz miniatür məktəbində bir növ artıq adam olmaqdan qorxurdu. Başqa sözlə desək Heratda birincilərin birincisi olan Behzad Təbrizdə sıradan bir rəssam olmaqdan çəkinirdi.

Lakin Behzadın qorxuları əbəs idi. O , nəhayət ki, özündə cəsarət tapıb Təbrizə gəldikdə Şah İsmayıl və onun əyanları tərəfindən gözləmədiyi hörmət və etiramı gördü. Şah İsmayıl Behzadın sünniməzhəb olmasına baxmayaraq onu saray kitabxanasının rəisi (kitabdar) və sarayın sənət müfəttişi kimi yüksək bir mənsəbə təyin etdi. Bundan sonra Təbrizdə hazırlanan bütün kitablar, çəkilən bütün şəkillər yalnız Behzadın düzəlişlərindən sonra şaha təqdim olunurdu.

Həmin vaxtda Təbriz miniatür məktəbinin ən dahi yetirməsi olan Sultan Məhəmməd Şah İsmayılın oğlu Təhmasib mirzənin tərbiyəçisi təyin olunmuşdu və gənc şahzadəyə xəttatlıq, nəqqaşlıq və təsviri sənətin sirrlərini öyrədirdi.

Bir dibçəkdə iki gül

Behzadın Təbrizdə Kitabdar olduğu illərdə bəzi şərq sənaməçiləri Saray kitabxanası barədə danışarkən «Bir dibçəkdə iki gül» ifadəsini işlədirdilər. Onlar iki gül dedikdə Behzadla Sultan Məhəmmədi nəzərdə tuturdular. Həqiqətən də həmin illərdə Təbriz kitabxanasında bu iki rəssamın birgə səyi nəticəsində hazırlanan kitablar şərq mədəniyyətinin incilərindən hesab olunur.

Şərq incəsənətini araşdıran alimlərin ən çox mübahisə obyekti Kamaləddin Behzadla Sultan Məhəmməd arasındakı münasibətlər olub. Bir çox alimlər bu iki rəssam arasında gizli rəqabətin, qısqanclığın, qarşılıqlı antipatiyanın, çoxsaylı saray intriqalarının oluğunu qeyd edir. Ən çox belə rəylər tanınmış rus şərqşünasları B.Zaxoderin və Q.Puqaçenkovun və sairlərinin əsərlərində özünə yer. Bütün bu fikirlər isə yalnız bir tarixi fakta əsaslanır: Şah İsmayılın vəfatından və Təhmasib mirzənin taxta çıxmasından sonra yeni şah Kamaləddin Behzadı kitabxana rəisliyindən azad edərək

onun yerinə öz tərbiyəçisi Sultan Məhmmədi təyin etmişdi.

Məşhur Azərbaycan alimi K.Kərimov isə Sultan Məhəmmədə həsr etdiyi elmi araşdırmada bu hadisəni fanatik şiə olan şah Təhmasibin sünniməzhəb Behzadı saray kitabxanasının rəisi görmək istəməməsi ilə izah edir. Zənnimizcə on yaşlı Təhmasibdən belə dini fanatizm gözləmək düz olmaz. Əgər şahzadənin tərbiyəçisi hansısa şiə alimi olsaydı, buna hardasa haqq qazandırmaq olardı, lakin rəssam, nəqqaş Sultan Məhəmmədin yetirməsi olan şahzadədən bu qədər dini fanatizm axtarmaq absurd fikirdir.

Bu hadisələr barədə nəticə çıxararkən məncə iki şəxsin – Behzadın və yeni hökmdarın yaşını nəzərdən qaçırmaq olmaz.

Behzad Təbrizə gələndə arqıt yaşı keçmiş qocaydı və yaradıcılığının əsas və məhsuldar hissəsi arxada qalmışdı. Şah İsmayıl bu dahi sənətkara hörmət əlaməti olaraq onu saray kitabxanasının rəisi təyin edəndə Behzadın etirazı mümkünsüz idi. Lakin məlumdur ki, Şah İsmayılın saray kitabxanası çox böyük bir yaradıcılıq müəsisəsi idi, burada yüzlərlə xəttat, nəqqaş, rəssam, ləvvah, cildçi və

sair sənətkarlar çalışır, il ay ərzində yüzrələ kitab hazırlanırdı. Bütün bu gərgin prosseslərə nəzarət etmək təbii ki, yaşı keçmiş, ömrünün son on ilinə ağır məhrumiyyətlər düşmüş, cismən və ruhən sarsılmış qoca sənətkar üçün o qədər də asan deyildi və ola bilər ki, Şah İsmayıla nəsə deməyə üzü gəlməyən Behzad, onun ölümündən sonra yeni şahdan bu ağır vəzifədən azad edilməyini xahiş etmişdi.

İkinci bir məsələ isə yeni şahın - Şah Təhmasibin yaşıdır. Qeyd edək ki, atasının ölümü vaxtı Təhmasib mirzənin cəmisi on yaşı vardı və öz uşaq təfəkkürü ilə düşünən bu yeni şah çox güman ki öz müəllimi olan Sultan Məhəmmədi tez bir zamanda mükafatlandıraraq, bir növ, xəcalətindən çıxmaq fikrinə düşmüş və onu Behzadın yerinə kitabxanaya rəis təyin etmiş, Sultan Məhəmməd də etiraz etməyə cürət etməmişdi. Şahın əmri o dövrlərdə Allahın hökmü kimi qəbul olunardı.

Bütün bu rəyləri irəli sürməkdə məqsədimiz odur ki, qərb şərqşünaslarının bildirdiyi kimi islam aləminin iki böyük sənətkarı arasında gərgin münasibətlər, paxıllıq, qibtə çox güman ki, onların elə öz uydurmalarıdır. Bircə tarixi faktı (Behzadın mənsəbinə Sultan Məhəmmədin təyin

olunmasını) əsas götürərək müsəlman şərqinin iki dahi rəssamını bir-birinə düşmən elan etmək düzgün yanaşma deyil. Düşünürük ki, onların arasında çox sıx sənət əlaqələri, isti münasibətlər olmuşdur.

Axı Behzad Təbrizə gəlməmişdən on-on beş il öncə Sultan Məhəmməd artıq Şah İsmayılın yanında çalışırdı, ildən ilə öz yüksək sənətiylə şahın hörmətini daha çox qazanırdı. Şah İsmayılın ona isti, doğma münasibəti Sultan Məhəmmədə öz varisinin tərbiyəsini etibar etməsindən məlum olur. Əgər Sultan Məhəmədlə Şah İsmayıl arasında bu cür yaxın münasibətlər vardısa, onda Behzadın Təbrizə gəlməyindən çox-çox əvvəllər də Sultan Məhəmməd özünün saray kitabxanasının rəisi təyin olunmasına nail ola bilərdi. Əlbəttə əgər Sultan Məhəmməd bu vəzifəni tutmaq istəsəydi. Amma görünür ki istəməyib və bu dahi sənətkarı başqa bir dahi sənətkara qarşı intriqalarda, paxıllıqda suçlamaq yersizdir.

Hər səhifədə bir dünya

Sultan Məhəmədin başçılıq etdiyi Təbriz miniatür məktəbinin şərq-islam incəsənətinə ən böyük töhfələrindən biri dinamik kütləvi səhnələri əks etdirmək ənənəsi olmuşdu. Əvvəlki şərq rəssamlarının şəkillərindən fərqli olaraq Sultan Məhəmmədin miniatürlərində («Şahzadə Sam mirzənin məclisi», «Peyğəmbərin meracı» , «Cərgə ovu», «İşrət məclisi» və s) və onun tələbələrinin şəkillərində kitab səhifəsi boyda olan kiçik bir əsərdə üç-beş yox, onlarla obraz əks olunurdu.

Həm də sadəcə dekorativ şəkildə yox, çox canlı, çox kaloritli bir formada. Bu əsərlərə baxanda insana elə gəlir ki, rəssam qızğınlıqla dolu həyatın bir anını kağız üzərində dondurmağa nail olub.

Bəlkə kimlərsə bunu o qədər də böyük nailiyyət hesab etməz. Axı adət etdiyimiz klassik qərb rəssamlarında da kütləvi səhnələrə çox rast gəlmişik. Lakin qərb rəssamları belə kütləvi səhnələri neçə metr eni-uzunu olan monumental tablolarda əks etdiriblər, lakin Sultan

Məhəmmədin başçılıq etdiyi Təbriz rəssamları əlli nəfərlik kütləvi səhnəni 19-27 sm ölçüsü olan bir kitab səhifəsinə sığışdırırdılar. Belə demək olarsa, bir səhifəyə bir dünyanı yerləşdirməyə nail olurdular.

Misalçün, Sultan Məhəmmədin çəkdiyi «Şahzadə Sam mirzənin məclisi» yaxud «Cəgə ovu» rəsmlərinə nəzər salaq. Hər şəkildə əllidən çox insan obrazı, heyvan təsvirləri görürük. Heç kim sadəcə quru formada təsvir edilməyib. Hamı hərəkətdədir, kimsə ox atır, kimsə at çapır, kimlərsə mübahisə edir, kimsə meyvə satır və sair. Heyvanların da hamısı çox dinamik şəkildə təsvir olunub, hər şey canlıdır, hətta ətrafdakı cansız predmetlər, dağlar, daşlar , ağaclar sanki dil açıb danışır.

Bu əsərlərin rəng həlli də çox rəngarəng, valehedicidir. İnsan saatlarla gözünü bu miniatürlərdən ayıra bilmir, hər obrazı, hər predmeti ayrı-ayrılıqda oxuyur, göz qarşısında sanki tarix canlanır.

Gözlərdən çəkilən işıq

Məşhur türk yazıçısı Orxan Pamuk orta əsr İstambul rəssamlarının həyatından bəhs edən «Mənim adım qırmızı» romanında qeyd edir ki, şərq rəssamları ömürlərinin sonlarına yaxın mütləq kor olurdular, gözlərindən işıq çəkilirdi və qoca rəssamın kor olması onun sənətinin yüksək keyfiyyətinin göstəricisi kimi qəbul olunurdu. Məhz bu səbəbdən əlli yaşdan sonra kor olmayan rəssamlar özləri qəsdən gözlərini kor edirdilər ki, bir sənətkar kimi hörmətləri qalxsın.

Təbii ki, Orxan Pamuk bir yazıçı olaraq mübaliğəyə yol verib, lakin həqiqətən də kiçik ölçülü əsərdə onlarla canlı obrazı yerləşdirmək üçün nə qədər göz nurunun sərf olunduğunu təsəvvür etmək çətin deyil.

Təbriz məktəbinin nümunələrində kütləvi səhnələr çox gözəl kompaisiya həlli ilə də seçilir. İlk baxışdan adama elə gəlir ki, orazlar kağız üzərinə necə gəldi səpələnib. Lakin diqqət yetirdikdə buradakı qanunauyğunluqları görməmək mümkün deyil. istənilən bir obrazı götürsək,

şəkilin sanki birdən birə boşaldığının şahidi olarıq. Məhz bu, uğurlu kompazisiya həllinin göstəricisi kimi qəbul oluna bilər. Heç bir detal artıq deyil, hər şey öz yerində, hamı öz işində, hərəkətindədir.

Bütün bunlarla bərabər Təbriz məktəbində böyük portret janrında da əsərlər yaradılırdı. Əlbəttə burada böyük sözü də nisbidir. Böyük dedikdə bir kitab səhifəsini nəzərdə tuturq. Əgər hərəkətdə olan insanı bütün xarakteri, davranışı, dinamikası 8-10 mm ölçünə çəkilirsə, bununçün rəssam əvvəlcə həmin təsviri böyük ölçülərdə məşq etməli, yalnız sənətini yüksək səviyyəyə qaldırandan sonra kütləvi səhnələrə keçməlidir.

Təbriz miniatür nümunələri müsəlman-şərq tarixini, məişətini, etnoqrafiyasını, insanların həyat tərzini, həm də düşüncələrini, fikirlərini öyrənmək üçün bir dərs vəsaitidir desək yanılmarıq. Bu baxımdan həmin əsərlərə sadəcə baxmaq yox, onları sətir-sətir, cümlə-cümlə oxumaq lazımdır. Əks halda ən dahi miniatürü də adi uşaq cızmaqarasından fərqləndirmək mümkün olmaz.

Sadiq bəyin qanunu

1587-1629-cu illərdə Səfəvi dövlətinin hökmdarı olmuş I Şah Abbasın dövründə saray kitabxanasının rəisi olmuş, azərbaycan orta əsrlər mədəniyyətinin unikal şəxslərindən olan məşhur rəssam, nəqqaş, xəttat və şair Sadiq bəy Əfşarın «Qanun-əs-süvar» (təsvir qanunu) kitabı şərq miniatür sənətiylə bağlı əsas ehkamları əks etdirən nadir tarixi mənbələrdən biridir. Kitabın əsas maraqlı cəhəti isə bu risalənin şeirlə yazılmasıdır. Sadiq bəy bu kitabda təsviri sənətin bir çox metodikalarından danışır, boyaların, kağızın, qələmin hazırlanması üsullarını göstərir. Lakin nədənsə nə bu kitabda, nə də bu xüsusda yazılmış azsaylı mənbələrdə şərq müsəlman rəssamlarının əqidə ehkamlarıyla bağlı məqamlara toxunulmur. Misalçün, nəyə görə müsəlman rəssamları əsərlərində qətiyyən kölgə çəkmirdilər, nəyə görə təbiətin yalnız bahar və yaz fəsilləri təsvir olunur, nəyə görə perspektiv qanununa riayət olunmur, şəkillər sanki iki

ölçülüdür, arxadakı və irəlidəki obyektlər eyni boydadır, nəyə görə insan sifətləri demək olar ki, biri birinə oxşayır, nəyə görə şəkillərin çoxunda rəssamın imzası yoxdur və sair və i.

Sovet dövründə uzun müddət adıçəkilən məqamları bizə şərq miniatür rəssamlarının bacarıqsızlığının nümunəsi kimi təqdim edirdilər. Şərq incəsənətiylə bağlı mənbələrdə bu xüsusda geniş məlumatlar olmadığından bir çoxlarımız bu deyilənləri mütləq həqiqət kimi qəbul edirdik.

Sadiq bəy Əfşarın «Qanun-əs-süvar» risaləsində belə bir beyt var:

Təsviri sənət ustalarından təlim gözləmə,
Çünki bildiklərini öz övladlarından da gizlədirlər.

(Fars dilindən sətri tərcümə)

Əlbəttə burada söhbət sənətin texniki tərəflərindən getmir, əgər rəssamlar texniki məqamları gizlətsəydilər, onda yeni nəsil sənətkarları yetişməzdi, sənət inkişaf etməzdi.

Zənnimizcə, Sadiq bəy gizlədilən məqamlar barədə yazanda sənətin məhz əqidəvi məsələlərindən danışırmış. Bu barədə məlumatları isə şərq ədəbiyyatından, şərq tarixinə dair mənbələrdən zərrə-zərrə, damcı-damcı yığıb ümumiləşdirmək lazım gəlir.

Ən əvvəl isə qeyd etmək lazımdır ki, müsəlman-şərq rəssamları bütün islam ölkələrində olduğu kimi, öz təhsillərini dini tədris müəsisələrində alırdılar və öz sənətlərində də islam ideologiyası, islam ehkamları, islami ədəbiyyatından gələn rəmzlər böyük yer alırdı.

Gölgənin olmamasını təxminən belə izah etmək olar – işıq şərq islam mədəniyyətində Allahın rəmzidir. Məlumdur ki, hətta Allahı işıq parçası kimi təyin edən İşraqilik adlı fəlsəfi cərəyan da olmuşdur. Belə olan halda kölgə də ıışığın əksinə olaraq şeytanın, qara qüvvələrin rəmzi kimi qəbul edilirdi. Bu baxımdan əsərdə hansısa predmetin kölgəsini çəkmək şeytanıın təzahürünü göstərmək kimi qəbul olunub.

Perspektivsizlyin də müəyyən əqidəvi səbəbləri olub. Əgər rəssam arxadakı obyektlə irəlidəki obyekti eyni ölçüdə təsvir edirsə, əslində həqiqəti olduğu kimi göstərmiş olur. Axı uzaqakı insanın kiçikliyi bizim

gözümüzün qüsurudur. Əslində rəssamın gözündən bir metr aralı olan isnanla otuz metr aralıda olan insan eyni ölçüdədir. Şərq rəssamları belə fikirləşirdilər ki, tutalım əgər biz arxadakı insanı irəlidəkindən bir neçə dəfə kiçik çəksək, onda həmin şəxsin haqqını tapdalamış oluruq. Bu isə böyük günahdır.

Təbiətin yalnız yay və yaz fəsillərinin təsvir olunması da, əbəs deyildi. Rəssamlar allahın yaratdığı gözəlliyin ən çiçəkli, ən gözəgələn dövrünü təsvir edirdilər. Allahın yaratdığı gözəlliyi təsvir etmək isə Allahın öz gözəlliyini təsvir etməyə bərabər tutulurdu. Əlbəttə ki, «hər bir xilqətə xaliqin bir zərrəsi var» fikri boş söz deyildi və şərq rəssamları bunu çox gözəl başa düşürdülər.

Konkret insan portretlərinin obyektə oxşadılmamasının da səbəbləri barədə yazımızın birinci hissəsində yazmışdıq.

Beləliklə, şərq miniatür sənətinin bir çox məqamları var ki, bunlar sırf islam dini əqidəsiylə izah edilə bilər,bu baxımdan bu sahəni araşdırmağa çalışan alim mütləq islam ehkamlarından, islam fəlsəfəsindən və şərq ədəbiyyatından da xəbərdar olmalıdır, əks halda araşdırmalar natamam olacaq.

Anri Matissin balıqları

İstər klassik şərq, istərsə də qərb mədəniyyəti hər biri ayrılıqda avtonom inkişaf etsə də, müəyyən bir dövrdən sonra biri birinə qarşılıqlı təsirlər göstərmişlər.

Müsəlman şərqi ilə xristian Avropası arasında ticarət əlaqələri durmadan inkişaf edirdi və bu prosses tədricən mədəniyyətlərin kontaktına da gətirib çıxarırdı. Adda-budda da olsa, Qərb rəssamlarının tabloları islam ölkələrinə gəlib çıxır, müsəlman müniatürləriylə zəngin olan kitablar, yaxud xalçalar tacirlər tərəfindən qərb ölkələrinə aparılırdı.

Misalçün, İntibah dövrünün qərb rəssamlarının bir çox əsərlərində interyerdə şərq xalçalaraınnı təsvirini görmək mümkündür.

Şərq ölkələrinə gəlib çıxar qərb təsviri sənət nümunələri də öz işin görürdü, şərq rəssamları bu əsərlərə baxır, ilk baxışdan onlara yad olan bu sənət nümunələri hiss olunmadan onların sənətinə də təsir göstərirdi.

Məhz bu səbəbdən 17-ci əsrin sonlarından başlayaraq istər Təbriz, istərsə də İstanbul miniatürlərində yavaş-

yavaş kölgələr peyda olmağa başladı, rəssamlar perspektiv qanunlarına riayət etməyə cəhd etməyə, arxadakı obyektləri irəlidəkilərə nisbətən kiçik çəkməyə, çəkdikləri insanları real naturaya oxşatmağa başladılar,

Qərb rəssamlığına şərq miniatür sənətinin təsiri isə bir qədər gec, özünü göstərdi. Bunun səbəbi isə bu idi ki, şərqdə ayrıca tablolar demək olar ki, çəkilmirdi, əsərlər kitab səhifələrini bəzəməkçün hazırlanırdı, beləliklə, şedevr miniatürlər kitabxanalarda yataraq geniş tamaşaçı kütləsindən kənarda qalırdı. Yalnız 19-cu əsrin sonlarında, Avropada klassik rəssamlığın tənəzzülü dövründə, sənətkarlar yeni formalar, yeni təsvir vasitələri axtarmaqçün başqa mədəniyyətlərin nümunələrindən bəhrələnməyə başladılar. Avropanın paytaxtlarında gah Afrika, gah Hindu, gah Uzaq Şərq (Yapon, Çin), gah da Müsəlman incəsənəti nümunələrindən ibarət sərgilər açılırdı. Məhz bu dövrün impressionist rəssamlarında gah Hindu, gah Afrika, gah Çin-yapon, gah da Müsəlman incəsənətinin izlərini görmək mümkündür.

Anri Matiss və onun kimi bir çox impressionist rəssamların işıq-kölgə qanunundan, perspektiv qaydalarından imtina edərək üç ölçülü məkandan iki

ölçülü məkana keçmələri isə sırf şərq-müsəlman miniatürlərinin təsiri kimi qəbul olunmalıdır. Bu baxımdan Matissin «Balıqlar» əsərini nümunə göstərmək olar. şəkildəki otaq, akvarium, oradakı balıqlar, bir sözlə bütün obyektlər sırf şərq miniatür üslubunda çəkilib.

P.S.

Şərq miniatür sənətinin bəlkə də ən böyük bədbəxtçiliyi bayaq qeyd etdiyimiz kimi, əsərlərin ayrıca yox, bir kitab içində illüstrasiya kimi çəkilməsi olub. Bu isə əsərlərin ekspozisiya imkanlarını azaldır.

Kitab kimi açıq nümayiş etdirmək düz deyil, hər tamaşaçı kitabı bir dəfə vərəqləyib içindəki miniatürlərə baxsa, 400-500 yaşı olan kitab bir günün içində cırılıb dağılar.

Əgər bir kitabın içində əlli miniatür şəkil varsa, bunu muzeydə ekspozisiyaya qoymaq üçün gərək kitab mütləq çırılsın, şəkillər ayrı-ayrılıqda nümayiş edilsin. Bu da qiymətsiz sənət əsəri olan qədim əlyazma kitabın məhvi deməkdir.

Bu baxımdan şərq miniatürlərinin orjinalı ilə tanış olmaq çox çətindir. Ümid yalnzı fotolara qalır. Lakin heç bir fotokopya orjinalın yerini verə bilməz.

Məhz bu baxımdan klassik miniatür sənətimiz uzun müddət ərzində çox az araşdırılmış, bu xüsusda yazılan dəyərli elmi əsərləri isə barmaqla göstərmək olar.

Lakin ümid edirik ki, texnikanın inkişafı bu problemi də həll edəcək və biz öz klassik rəssamlıq nümunələrimizlə daha yaxından tanış olub , onları daha dərindən dərk edə biləcəyik.

II Bölüm

XƏTTATLIQ SƏNƏTİ

«Yeddi buta» layihəsi

Şərq incəsənətindən cizgilər

Birinci yazı

Xəttatlıq

Gülüstani-səri-kuyin kitabın bab-bab, ey gül,
Xəti-reyhan ilə cədvəl çəkib gülzarə yazmışlar.

M. Füzuli

Proloq

Ən əvvəl söz yarandı. Allah-təala «Ol» dedi, kainat xəlq olundu. Allahın bircə sözündən yaranan dünyada, hakimi-mütləq yenə də söz oldu- İnsanı yoxdan yaradan Tanrının sözü, ruhaniyyatın uca zirzələrini fəth edib Tanrıya yaxınlaşan insanın sözü.

Daha sonra insanlar sözün şəklini çəkmək istədilər. Beləcə hərflər yarandı. Tanrı sözü hərflərdə zühur elədi. İnsanlar tanrı kəlamını hərflərin köməyiylə oxudular, sözlər hərflərdən düşüncələrə köçdülər.

Tanrı sözü Tövratda, İncildə, Quranda yerə nazil oldu. Peyğəmbərləri surətbəsurət görən insanlar ilahi kəlamı onların dilindən eşitdilər, bu şərafətə nail olmayanlar isə Tanrı sözünü ilahi kitablardan oxudular, hərflərdən dərk elədilər.

Tanrı kəlamı tanrının özü qədər gözəl idi. Onunçün də insanlar tanrı sözünü onlara çatdıran hərfləri də gözəlləşdirməyə başladılar, gecələrini gündüzlərinə qatıb,

gözlərinin nurunu sərf edib hərflərə yaraşıq verdilər, gözəlliyini artırdılar. Beləcə, **xəttatlıq** sənəti yarandı.

Səsin rəsmi sözün şəkli

-Neyləsəz də xeyri yoxdu. Yenə də yazacam. – ibn Müqlə sağ əli Xəlifə əl-Qadirin əmriylə kəsiləndə belə demişdi.

Həqiqətən də yazdı. Sağ əli kəsiləndən sonra sol əllə yazmağı öyrəndi, sol əli kəsiləndən sonra isə qamış qələmi kəsilmiş biləyinə bağlatdırdı, yenə yazdı. Və müsəlman xəttatlığının ana xəttini təşkil edən **Xətti-sittə**ni yaratdı. İbn Müqlənin yaratdığı altı xətt növü («sittə» ərəbcə altı deməkdir) səkkizinci əsrdən bu günümüzə qədər davam edən müsəlman xəttatlığının özülünü qoydu, islam mədəniyyətinə yeni bir sənət növü bəxş elədi. İbn Müqlə münbit torpağa toxum əkdi, kəsilmiş əllərinin qanıyla suvardı və bu toxumdan minillik tarixi olan İslam xəttatlığı göyərdi.

Təbii ki xəttalığı sırf islam şərqinin məhsulu hesab etmək hardasa düz olmaz. Qərbi Avropada Kalliqrafiya kimi tanınan bu sənət növü yüzilliklər boyu Çindən tutmuş İngiltərəyə qədər bütün məmləkətlərdə yaşayan katiblərin, mirzələrin arasında yayılmışdı. Hər bir yazı

sahibi öz xəttinin başqalarından gözəl olmasına çalışırdı. Lakin məhz Müsəlman dünyasında bu kiçik sənət, sadəcə katib əyləncəsi çərçivəsini sındırıb çıxaraq, dünyanın üçdə birini əhatə edən möhtəşəm bir sivilizasiyanın aparıcı incəsənət vasitəsinə çevrilmişdi. Bunun isə bir neçə obyektiv səbəbi var idi.

1. İslamdan qabaqkı dinlərin hər birində insanların şüurundakı Tanrı obrazı müəyyən konkret atribubtlarla asossiasiya yaradırdı. Məsəlçün, tanrı dedikdə buddistlərdə göz önünə Buddanın heykəlləri gəlir. Xaçpərəstlərdə isə tanrı konkret insanın, yəni İsa Məsihin şəxsiyyətində maddiləşib. Müsəlmanlarda isə Allah obrazının yeganə təzahürü Qurandı. Yəni Allahla insan arasında vasitə kimi başqa formalar yox, məhz kitab çıxış edir, allah kəlamının yazıldığı kitab. Müsəlman dünyasında kitaba, yazıya olan xüsusi qayğının bir səbəbi də budur.

2. İslamın yarandığı ilk yüzilliklərdə insanların içində yenidən bütpərəstlik meyllərinin yaranmasına yol verməmək üçün heykəl düzəltmək, şəkil çəkmək İslam ideoloqları tərəfindən rəsmi surətdə qadağan olunmuşdu. Məhz bu səbəbdən yaradıcı insanların içindəki estetik

duyğuların böyük hissəsi məhz xəttatlıq sənətində öz təzahürünü tapırdı. Başqa sözlə desək, islamın ilk yüziliklərində xəttalıq həm də rəssamlığı əvəz edirdi.

3. Xəttatlığın məhz islam ölkələrində geniş təşəkkül tapmasının bir səbəbi də ərəb dili, daha dəqiq desək yazışmada işlənən ərəb əlifbası idi. Məlum faktdır ki, başqa əlifbalardan fərqli olaraq, məhz ərəb əlifbası daha çox dekorativ xarakter daşıyır, hərflərin bir neçə yazılış forması var. Ərəb əlifbası özü özlüyündə naxışı, ornamenti xatırladır və buna görə də yaradıcı insanın təfəkkürü, fantaziyası üçünərəb qrafikasında geniş meydan açılır.

Məhz bu səbəblərə görə müsəlman aləmində xəttalıq ən ali incəsənət növü hesab olunur, Ən böyük hökmdarlar da ustad xəttatların qarşısında baş əyirdilər. Şahzadələrin , əmirzadələrin ibtidai tədris proqramında hüsn-xətt (gözəl xətt) ən əhəmiyyətli dərslərdən hesab olunurdu. Tarix boyu bir çox məşhur hökmdarlar özləri də xəttatlardan dərs almış, çox gözəl xəttat olmuşlar. Misalçün bir çox mənbələrdə Həzrət Əli Əleyhüssəlamın çox gözəl xəttə sahib olduğu qeyd olunurdu.

Yaxud XVIII əsr Osmanlı sultanı II Mustafanın hər gün iki saat ərzində böyük həvəslə hüsn-xətt məşqləri keçməsi tarixi mənbələrdə qeyd olunur. II Mustafa xəttatlıq dərsini dövrünün ən məşhur xəttatı Hafiz Osmandan almışdı. Sultan öz ustanının sənətinə o qədər valeh idi ki, onun dəvatı (mürəkkəbqabı) yerə qoymasını rəva görməzdi, ustadının yazdığı müddət ərzində dəvatı şəxsən öz əlində saxlardı. Bir dəfə ustadının növbəti yazısından vəcdə gələn Sultan həyəcanla demişdi:

-Hafiz Osman kimi ustad xəttatlar daha dünyaya gəlməz.

Xəttat isə hökmdarın bu sözündən təsirlənərək cavab vermişdi:

-Fikir çəkməyin, əlahəzrət. Nə qədər ki dünyada müəlliminin mürəkkəbqabısını öz əlində saxlayan hökmdarlar var, Hafiz Osmanlar da çox olacaq.

İlk hərflər, ilk xəttlər

İslamın yarandığı ilk yüzilliklərdə ərəblərdə əsasən **kufi xətt** adlanan xətt növündən istifadə olunurdu (xəttin adı Kufə şəhərindən götürülüb). Kufi xətt sonra yarancaq xətt növlərindən maili formaların çox az olması ilə fərqlənirdi. Bütün hərflər düz xətlərin birləşməsindən yaranan düzbucaqlı formaları xatırladırdı, nöqtələrdən də istifadə edilmirdi. Ümumiyyətlə kağızın icad olunmasından qabaq təkcə ərəblərin yox. bir çox xalqların əlifbası məhz bu cür düzxətli formalar əsasında qurulmuşdu. O dövrlərdə yazılar papirusu çıxmaq şərtiylə, əsasən bərk materiyalar (ağac qabıqları, daş lövhələr, qurudulmuş dərilər və s) üzərində yazılırdı. Bərk materiya üstündə isə maili xətləri çızmaq çətin olduğundan hərflər də qeyd edildiyi kimi düz xətlərin müxtəlif variasiyalarda kəsişməsindən təşkil olunurdu. Çin, yapon, qədim hind, slavyan, yunan əlifbaları buna əyani sübutdur.

İlk Quran nüsxələri də məhz kufi xəttlə yazılmışdı. Zaman keçdikcə kufi xəttin də müxtəlif versiyaları – Bəsrə xətti. Mədinə xətti, Məkkə xətti yaranmışdı, lakin bunlar mahiyyət etibariylə kufi xəttdən o qədər də fərqlənmirdilər.

Müxtəlif xətt növlərinin yaradılmasından sonra kufi xətt əl yazısından sıxışdırılıb çıxarılmışdı. Lakin bərk materiyaların üstündə yazmaq asan olduğundan, bir çox sahələrdə, misalçün memarlıqda, daş və taxta üzərində oymalarda kufi xətt növü hətta bizim dövrümüzə qədər aparıcı mövqedə olmuşdu.

IX əsrə yaxın ərəb xilafati artıq əvvəlki kimi təkcə Ərəbistan yarımadasından ibarət deyildi, İspaniyadan, Şimali Afrikadan tutmuş, Hindistana, Çinə qədər böyük ərazilər bir mərkəzdən idarə olunurdu. Belə bir böyük dövləti isə mükəmməl bürokratik apparat olmadan idarə etmək mümkün deyildi. Tədricən çoxsaylı divanlar, vəzirliklər, şuralar yaradılır, sənədləşmələr, yazışmalar aparılırdı. Məhz bu zaman kufi xəttin surətli yazı üçün əlverişli olmadığı meydana çıxdı. Yalnız düzxətli

hərflərdən ibarət olan bu xəttdə yazmaqla katiblər çoxlu vaxt itirirdilər, bir adamın görə biləcəyi işi beş adam görürdü. Daha asan yazıla bilən, katiblərin əlini yormayan yeni xətt növlərinə ehtiyac var idi. Yazımızın əvvəlində qeyd etdiyimiz Xətti-sittə – Altı xəttin yaranması məhz bu dövrə təsadüf edir.

İbn Müqlə – dahi xəttat, fitnəkar vəzir

Kütləvi kitab nəşri epoxasından əvvəl bir çox tarixi mətnlərlə, tarixçilərin kitablarıyla yalnız dar çərçivədə olan insanlar faydalana bilirdilər. Məhz bu səbəbdən Əbu Əli ibn Müqlənin adı orta əsrlərdə xəttaların, katiblərin, mirzələrin arasında əfsanə kimi dolanır, müxtəlif rəvayətlərdə o yarı real-yarı əfsanəvi şəxsiyyət kimi təqdim olunurdu. Yalnız on doqquzuncu əsrdən etibarən qədim ərəb tarixçilərinin əsərləri kütləvi nəşr olunmağa başlayandan sonra, təəssüflər olsun ki, İbn Müqlənin kimliyinə aydınlıq gətirildi.

Bəs kim idi İbn Müqlə? Tarixi mənbələrdə onun miladi tarixlə 886-cı ildə doğulduğu qeyd olunur. Mədrəsə təhsili alandan sonra Bağdadda məşhur vəzir İbn əl-Furatın dəftərxanasında mirzəliyə başlayan İbn Müqlə kiçik zaman kəsiyində böyük sürətlə mənsəb pilləkənləriylə qalxmağa nail olmuş və VIII əsrin əvvəllərində Xəlifə əl-Müqtədirin vəziri təyin olunmuşdu. Hələ adi katib işlədiyi dövrlərdə İbn Müqlə

kufi xətlə yazmağın çətinliklirini hiss etmiş, asan yazılan və eyni zamanda gözəl zahiri görünüşü olan xətt növləri yaratmaqçün böyük əziyyətlər çəkmişdi. Nəhayətdə , o, əvvəlki dağınıq xətt növlərini təkmilləşdirərək əsas altı xətt növünü – nəsx, süls, mühəqqəq, reyhani, rüqə, tövqi xətlərini yaratmışdı. Bundan savayı İbn Müqlə hərflərin simmetriyasını, dəqiq ölçülərini də müəyyənləşdirmişdi, başqa sözlə desək xəttatlıq sənətini ilk dəfə sistemləşdirən məhz o olmuşdur. Bu səbəbdən də Əbu Əli İbn Müqlə şərq xəttalığının banisi hesab olunur.

Tarixdə belə paradokslara da rast gəlinir. Böyük bir incəsənət növünün yaradıcısı hesab olunan bu dahi xəttat real həyatda heç də sevilən şəxs olmamışdı. Tarixçilərin hamısı birağızdan onu çox rəhmsiz, tamahkar, rüşvətxor, fitnəkar, cahü-cəlal sevən bir şəxs olduğunu təsdiq edir.. Abbasi xəlifələrinin sarayındı həmişə öz fitnəkarlığı ilə seçilən ibn Müqlə üç dəfə vəzirlikdən uzaqlaşdırılmış, lakin müxtəlif intriqalar nəticəsində yenə öz vəzifəsinə qayıda bilmişdi. Kobud dillə desək, onu birdəfəlik yıxmaq o qədər də asan iş deyildi. Abbasi xəlifəsi əl-Qahir 932-ci ildə taxta çıxandan sonra ibn-Müqləni vəzifəsindən kənarlaşdırmağa çalışmış, lakin ibn-Müqlə

saraydakı türk qvardiyasının başçısı əl-Mənsurla birləşərək xəlifəni devirmiş, xilafət taxtına əl-Qahirin qohumu əl-Radini çıxartmışdı. Lakin ibn-Müqlə yeni xəlifəni də öz intriqalarıyla bezdirmiş, nəhayət xəlifə ər-Radi böyük əziyyət bahasına da olsa, vəziri yıxmağa müvəffəq olmuşdu. Vəzir olarkən törətdiyi bəd əməllərə görə İbn-Müqlənin əvvəlcə əlləri kəsilmişdi, lakin o yenə də xəlifənin əleyhinə fitnə-fəsadlar törətdiyindən dilini də qopartmışdılar. Onun həmmüasiri olan ərəb tarixçilərindən biri ömrünün son günlərində ibn-Müqlənin qələmi gah kəsilmiş biləyinə sarıtdırdığını, gah da dişiylə sıxaraq yenə də xəttatlıqla məşğul olduğunu xatırlayırdı.

Beləliklə, Abbasilər xilafətinin ən fitnəkar vəzirlərindən biri kimi tanınan İbn-Müqlənin sayəsində şərq aləminin ən möhtəşəm incəsənət növü olan xəttatlığın əsası qoyuldu.

Quran səsli mürəkkəb

Xəttalıq uzunmüddətli məşq tələb edən bir sənətdir. Tələbənin bacarığından asılı olaraq tədris prossesi dörd-səkkiz il çəkir. Lakin məşq bununla bitmirdi. Hətta ustad xəttat olandan sonra da gündəlik məşqlərə fasilə verməmək, heç olmasa dörd saat yazmaq tövsiyyə olunurdu. Gündə iki səhifə yazmaq böyük ustalıq əlaməti hesab olunurdu.

Bundan başqa yazının keyfiyyəti iş avadanlığından, konkret olaraq mürəkkəbin, qamış qələmin, kağızın və s. keyfiyyətindən də asılı idi. Şərq xəttatlarının bir çox klassik Avropa rəssamları kimi mürəkkəblərini, qələmlərini kağızlarını öz əlinə, yazı üslubuna uyğun düzəldirdilər. Misalçün, çox sürətlə yazan xəttatlar tez quruyan, qatı mürəkkəbə üstünlük verirdilər. Lakin sürəti aşağı olan, hələ təzə məşq edənlərçün duru mürəkkəb düzəldilirdi, çünki qatı mürəkkəb qələmdə çox qalanda quryurdu, həm də duru murəkkəb gec quruduğundan səhv yazılanda kağızdan silmək də asan olurdu. Bundan savayı təzə məşq edənlərçün hazırlanan kağızı da bir qədər çox

cilalayırdılar ki, hamar olsun, mürəkkəbi tez özünə çəkməsin, yazıda xəta olarsa, silmək mümkün olsun.

Qeyd edək ki, şərqdə pozandan istifadə olunmurdu. Yazıdakı xətanı aradan qaldırmaqçün xəttatlar, katibələr mürəkkəbi dilləriylə silərdilər. Xəttatın ustalıq səviyyəisni yoxlamaqçün adətən dilinə baxardılar. Əgər dilində mürəkkəb qarasının izi olardısa, deməli bu xəttat səhvlərə çox yol verir, sənəti hələ təkmilləşməyib. Onu da qeyd edək ki, o vaxtlar saray sui-qəsdlərində zəhərli mürəkkəblərdən çox istifadə olunurdu.

Şərq xəttalığının maraqlı cəhətlərindən biri də gördüyü işin mahiyyətindən asılı olaraq, iş alətlərinin, avadanlığın seçilməsi idi. Misalçün, adi yazışma, sənədləşmə üçün istifadə olunan alətləri , kağızı, mürəkkəbi Quran yazılarkən istifadə etmirdilər. Bunun üçün xüsusi kağız , mürəkkəb düzəldilərdi. O vaxtlar, məsçiddlər yağ çıraqlarıyla işıqlandırılarkən çıraqların divara otuzdulumasüyçün düzəldilər oyuqlardan kiçik tüstüçəkənlər qurulurdu. Oyuqlarün üst tərəfindən başlanan ensiz borular məsçidlərin damında tikilmiş xüsusi otağa aparıb çıxarırdı. Beləliklə çırağlar yananda tüstü bu borular vasitəsiylə sovrulur, həmin otağa yığılır

və buradakı kiçik bacadan havaya çıxırdı. Təbii ki, bu otağın divarları hisdən qapqara olardı. Həftədə bir dəfə ustalar gəlib divarlarda qalın qat əmələ gətirən hisi qaşıyıb aparar və mürəkkəb düzəltməkçün istifadə edərdilər. Hesab olunurdu ki, bu mürəkkəb məsçidlərdə oxunan allah kəlamını öz içinə çəkib. Quranın üzü köçürülərkən məhz bu mürəkkəbdən istifadə edilərdi.

Qələm qəbristanlığı

Qələmlərin hazırlanmasının da xüsusi qaydaları var idi. Hər xətt növü üçün məxsusi qələmlər yonulardı. Ümumilikdə şərq xəttaları qələmə xüsusi qayğıları ilə seçilərdilər. Misalçün, çox işləndiyindən istifadəyə yararsız hala düşmüş qələmləri heç vaxt hara gəldi tullamazdılar, həyətin, bağçanın təmiz yerində torpağı azca qazıyıb qələmi orada basdırardılar. Səfəvilər dövrünün məşhur xəttatı Mirəli Gilaninin ölümündən sonra həyətəndə təmir işləri aparılarkən, ustalar torpağın hansı hissəsini bel vururdularsa, yerdən qələm qalıqları çıxırmış. Müasirlərinin biri, xətattın həyətini «qələm qəbristanlığı»na bənzətmişdi. Darısaq şəhərdə yaşayan məşhur xəttat Mirəli Təbrizi isə qələmləri bu cür «dəfn etmək» imkanından məhrum olduğundan onları evinin çardağına yığırmış. Tələbələrinin sözünə görə, onun çardağında on mindən çox qamış qələm qalığı varmış.

Ürəkdən qələmə, qələmdən kağıza

Xəttalığı adi katiblikdən fərqləndirən cəhət yazının sadəcə əl işi yox, həm də ruhla, qəlblə, təxəyyüllə və psixoloji əhval ruhiyyə ilə bağlı olması idi. Usta sənətkarlar xəttə baxan kimi qələm sahibinin yaşını, cəmiyyətdəki sosial statusunu, hansı ruhani vəziyyətdə olduğunu, sevindiyini, kədərləndiyini və bir çox başqa detalları dəqiq müəyyən edə bilirdilər. Misalçün, məşhur Herat xəttatı Seyid Rza ona şah tərəfindən hədiyyə olunan təzkirəni bir müddət vərəqləyəndən sonra demişdi ki, xəttat bu kitabı yazmağa başlayanda subay olub, otuzuncu səhifədən sonra evlənib, yetmiş dördüncü səhifədə isə övladı dünyaya gəlib. (Xatırladaq ki, bir kitabın yazılması o vaxtlar aylarla, hətta illərlə vaxt aparırdı).

İndi hamımıza çox adi görünən bir kitab o dövrlərdə onlarla sənətakarın əlindən keçirdi. Kağız bişirilirdi, kəsilib vərəq halına salınırdı, bir müddət möhrə (cilalamaq üçün istifadə olunan hamar dairəvi daş) ilə cilalanırdı, xəttat yazıları yazırdı, ləvvah səhifələrin

kənarlarını bəzəyirdi, sonra cildçi açıq vərəqləri tikib kitab halına gətirir və üstünə cild salırdı. Şərq tarixində kitab istehsalı ilə bir çox hallarda bütöv ailələr məşğul olurdu. Ailənin hər bir üzvü bu prosesdə özü üçün ayrılmış işi görürdü.

Məhz bu səbəbdən orta əsrlərdə kitab ən qiymətli, bahalı hədiyyələrdən hesab olunurdu. Elə müasir dövrümüzdə də şərq ölkələrinin çoxunda bu ənənəni saxlayan ailələr mövcuddur və bu cür əlyazma kitablar mütəxəssislər tərəfindən çox yüksək dəyərələndirilir. Misalçün, Türkiyədə təxminən bir ilə hazırlanan müasir əlyazma Quranların qiyməti 30-50 min dollar arasındadır.

Xəttlərin ruhu

İstər qədim Avropada, istəsə də dünyanın başqa ölkələrində yazı xəttlərinni bu qədər müxtəlifliyinə rast gəlmək mümkün deyil. əvvəldə qeyd etdiyimiz kimi Şərqdə şəkil çəkmək (miniatür sənəti) əsasən on beşinci əsrdən sonra formalaşmağa başladığından, ilkin orta əsrlərdə xəttin gözəlliyi həm də rəsmi əvəz edirdi. Məhz bu səbəbdən yazının mahiyyətindən asılı olaraq müxtəlif xətt növləri yaranmışdı. Misalçün, «Nəsx» yazılış və oxunuş üçün çox rahat, asan olduğundan, bu xətti tədris prossesində, adi yazışmalarda daha çox istifadə edirdilər. Quranların kütləvi mütaliəsini nəzərə alaraq bu kitab köçürülərkən də, məhz çox vaxt məhz «nəsx» xəttindən istifadə edərdilər. Çap mexanizmi icad olunandan sonra da, ərəb çap şriftlərinin əsasını «nəsx» xətti təşkil edirdi. İndinin özünəcən ərəb qarfikasından istifadə edən ölkələrdə çap məhsullarının böyük hissəsi «nəsx» xəttindədir.

Qismən maili yazılan «Təliq» xəttində hərflər daha yumşaq, daha zərif, daha sərbəstdir. Bu xətt növü daha çox şeir, qəzəl yazılarkən istifadə edilirdi. «Təliq» xəttindəki sərbəstlik, hərfləri istənilən kimi uzatmağın, yaymağın mümkünlüyü şeyirin sətirlərinin sonunu bərabərləşdirməyə imkan verir. Bir çox xəttatlar «Təliq»in biri birinə sarmaşmış, asudə şəkildə uzanmış hərflərini vüsala qovuşmuş aşiq-məşuqlara bənzədirdi. Təbii ki, bu aşiqanə mənzərə sevgi şeirlərinni, aşiqanə qəzəllərin məzmununu vizual olaraq tamamlanmasına xidmət edirdi.

Səfəvilər dövründə «Təliq» xəttinin daha bir neçə variasiyası – «Nəsətəliq», «Şikəstə nəstəliq» və yaradıldı. «Reyhani» xətt növündə hərflər yarpaqlara bənzədilir, yazı isə ümumilikdə nəbati naxışlara bənzəyir. Xəttin adı da buradan götürülüb. «Reyhani» xəttlə daha çox aşiqanə nəsr nümunələrini, təbiət təsvirlərinin bol olduğu dastanları, mənzum hekayələri yazardılar.

«Divani» xətt növü öz rəsmiliyi, ciddiliyi ilə seçilir. Burada bütün hərflər eyni ölçüdə, eyni boyda yazılır, mətn çox sıx olur. Adından göründüyü kimi «divani»

xəttindən daha çox saray divanlarında, rəsmi idarələrdə istifadə olunurdu.

«Qubari» isə ən kiçik xətt növüdür.(Qubar – toz, torpaq dənəsi deməkdir) Bu xəttdən boyundan asılan Quranların, kiçik Yasin çərəkələrin, miniatür kitabların yazılışında istifadə edilirdi. «Qubari» xətt növü ən çətin və ən az işlənən xətt növüdür. Həqiqətən də kibrit qutusu boyda olan kitabda bütöv Quranı yerləşdirmək hər xəttatın işi deyildi. Məşhur türk xəttatı Mustafa İzzət Əfəndi Quranın «Fatihə» surəsini bir tut yarpağı üstünə sığışdıra bilirmiş.

Bunlardan başqa şərq xəttatlığında onlarla başqa xətt növləri də mövcuddur. Lakin hamısının xarakteristikasını vermək, çox vaxt aparacağına görə onların üstündən adlayırıq.

Hərf içində şəkil, şəkil içində hərf

Hicrətdən yeddi-səkkiz yüz il sonra müsəlman dünyasında daha bütpərəstlik meyllərinin tam sovuşduqda, yavaş yavaş rəssamlıq – miniatür sənəti də yaranmağa başladı. Lakin bundan əvvəl xəttatlar öz daxillərindəki estetik təxəyyülə, rəsmə olan tələbata başqa cür çıxış tapmışdılar – yəni tuğralar, şəmaillər, müasir dillə desək, pannolar icad etmişdilər ki, bunun da kökü uyğur-çin nəqqaşlığına gedib çıxırdı. Rəssamlığa icazə verilmədiyi vaxtlarda xəttatlar hərflərdən , sözlərdən şəkil çəkdilər və bu şəkillərdə fırça mazoklarının qələm cizgilərinin yerini hərflər tuturdu – əgər «bismillah» sözüylə məsçid çəkilirdisə, «əlif»lər onun sütunları, «lam»lar onun günbəzləri, «hey»lər pəncərələri olurdu və beləcə hərflərdən qurulmuş ecazkar rəsmlər meydana gəlirdi. Xəttatın bir rəsmdə nə qədər çox söz yerləşdirməyi onun ustadlığının göstəricisiydi.

Bir çox hallarda isə, götürülən mətnin məzmununa uyğun şəkil çəkilirdi. Misalçün, əgər Şiri-Xuda (allahın şiri) ləqəbli həzrət Əlinin şücaətindən bəhs edən bir hədis, yaxud kəlam götürüləndə, təbii ki, hərflərdən şir şəkli çəkilirdi, yaxud Nuh peyğəmbərin gəmisi haqqında Quran ayəsi yazılırdısa, təbii ki, hərflərin vasitəsiylə gəmi təsviri yaradılırdı.

Bu cür təsvirlər həm kitab səhifələrini bəzəməkçün istifadə olunurdu, həm də böyük ölçüdə çəkilib, çərçivəyə çalınır, divarlardan asılırdı. İndinin özünə qədər müsəlman dünyasında bu cür pannoları dini tədris mərkəzlərində, mədəniyyət ocaqlarında, ən nəhayət isə dindar insanların evlərinə görmək mümkündür.

Epiloq

«Elm Çində də olsa, onu öyrənməyə gedin» - Məhəmməd peyğəmbərin bu kəlamı ümumilikdə islam aləmində tədrisə, elmə verilən yüksək qiymətin göstəricisidir. Elm, təhsil isə ilk əvvəl yazıdan başlayır, belə demək olarsa yazı elmin açarıdır.

«Alimin mürəkkəbi şəhidin qanı qədər qiymətlidir» - yenə də yazı, yenə də mürəkkəb – adi mürəkkəb yox, şəhid qanı qədər ali, uca tutulan mürəkkəb. Əgər şəhidlik adi insanı yüksək şücaət mərtəbəsinə qaldırırsa, mürəkkəbdən, kağızdan keçən elm, təhsil də mənəvi-ruhani kamilik bəxş edir.

Əlbəttə ki, kiçik bir yazıda şərq xəttatlığı kimi böyük bir inəsənət sahəsini tam əhatə etmək mümkün deyil. Lakin hal hazırda haqsız olaraq kölgədə qalmış, bu sənət haqqında oxucularda azacıq da olsa təəssürəat yaratmağa çalışdıq. Hər halda yüzilliklər boyu əcdadlarımızın, ulu babalarımızın zəhmətinin , istedadının, təxəyyülünün məhsulu olan bir gözəl sənət sənət növünü unutmaq

haqsızlıq olardı. Tarix unudanları sevməz. Necə deyərlər, unutma ki, unudulmayasan.

III Bölüm

Bakı tarixindən kollaj

Birinci kitab

Mən indi öz şəhərimi yalnız yuxularda görə bilirəm.
Bəxtimdən son vaxtlar əməlli yatmaq da olmur.
Yuxusuzluq axırıma çıxacaq.

Gecələr göydə səni çox gəzib axtardı yuxum
Zülmətin bağrını ağ eşqi ilə yardı yuxum.

Gəlməyirsən yuxuma xeyli zamandır, bəlkə
Hüsnünün hədsiz olan nuru üçün dardı yuxum?

Gah buludlu göy olur, gah dəli, tufanlı dəniz,
Gah da qəm ətri verən laləli gülzardı yuxum.

Ağlayıb yalvarıram hər gecə ki, rəhm eləyib
Səni bir anlığa bəlkə mənə qaytardı yuxum.

Gözümə xeyli zamandır ki, görünmür, utanır
Tapa bilmir səni, qarşımda günahkardı yuxum.

Sən ki, getdin, o zamandan da yuxum qeyb olmuş,
Ayrılıq sanki günəşdi, əriyən qardı yuxum.

Vardı günlər ki, görərdi yuxuda Fəhmi səni,
Necə xoşbəxt zamanlardı, hələ vardı yuxum.

Oxunması vacib olmayan müqəddimə

Ceyms Coys İtaliyada, Triyest şəhərində oturub Dublin haqqında romanını yazırdı, qələminin belinə minib İrlandiya paytaxtının köhnə kvartallarını, küçələrini gəzirdi, hər məhəllənin keçmişinə, tarixinə baş vururdu, hər tikilinin tarixçəsində eşələnirdi. Buna baxmayaraq uzaqdaydı öz şəhərindən. Bəlkə ona görə gəlib əsərini İtaliyada yazırdı ki, hər hansı bir predmet içəridən bir cür, kənardan isə tamam başqa cür görünür və Coys da öz Dublininə kənardan baxmaq istəyirdi.

Orxan Pamuk Amerikada – Nyu-Yorkun «Kolumbiya universiteti»ndə oturub «Qara kitab»ı yazırdı, yaratdığı obrazın cildinə girib İstanbulun köhnə məhəllələrini, dükan bazarını gəzirdi, qayığa minib Bosforda üzürdü, köhnə İstanbul əhlinin xarakterini açırdı.

Qəribə də olsa, mənə elə gəlir ki, həm adıçəkilən iki əsərin, həm də oxşar taleli, oxşar məzmunlu başqa əsərlərin uğur qazanmasına səbəb istedad faktoru ilə bərabər yazıçının öz şəhərinə bir qədər aralıdan baxa bilməsi olub və bu uzaqlıq yazıçıya öz doğma şəhərinin bir çox spesefik xüsusiyyətlərini açmaqda yardımçı olub. Hər halda, mən belə düşünürəm.

Mən Bakının göbəyində, yəni Respublika Sarayının arxasındakı evlərin birində rahatca oturub Bakı tarixi haqqında nəsə yazmaq istəyirəm, amma

şəhərin ortasında olsam da, özümü Bakıdan o qədər uzaqda hiss edirəm ki, bu uzaqlığın yanında Dublinlə Triyest, İstambulla Nyu-York arasındakı məsafə insan ömrü qədər qısa, balaca görünür. Çünki bu şəhərlər arasındakı məsafə yalnız kilometrlərlə ölçülürdüsə, mənim Bakımı məndən varlıq-yoxluq sərhəddi ayırır, yəni mən varam, Bakım isə artıq varlıq çərçivəsindən kənardadır.

Bəli, mən təsvir etmək istədiyim Bakıdan çox uzaqdayam, hərçənd ki, zaman etibarilə bizi cəmi bir neçə onillik ayırır. İyirmi-iyirmi beş il bundan əvvələcən sürünə-sürünə də olsa mənim Bakım hələ yaşayırdı, çox qocalsa da, haldan düşsə də, görkəmi çox dəyişsə də diqqətlə baxanda hiss olunurdu ki, bu, mənim Bakımdır, bu, həmin Bakıdır; həyətləri qır iyi verən, asfalt yollarının qıraqlarında sınıq limonad şüşələri parıldayan, dəniz sahillərində neft qalıqları yığılan, qağayılarının da rəngi neftdən qaralan, toz-torpağı adamın ağız-burnuna dolan, xəzrisi əldən çanta, başdan papaq qapan (bu siyahını sonsuzluğa qədər uzatmaq da olar) bizim Bakı.

Amma indi həmin Bakı yoxdur, nənəm demişkən, pişik apardı. Mənim Bakımı «Yevroremont mütəxəssisləri» fasilə vermədən, gecə-gündüz böyük həvəs və şövq ilə ütüləyirlər-əhəngləyirlər, ütüləyirlər-əhəngləyirlər və bir azdan Bakı tarixi ağappaq, hamar bir kəfənə çevriləcək ki, mənim kimi kiflənmiş köhnə bakılıları ağuşuna alıb aparacaq ora, bütün gərəksiz məxluqların atıldığı yerə, yəni, o dünyaya…

Hərdən mənə elə gəlir ki, şəhərlərin də öz kainatları, o dünyaları-bu dünyaları, cənnətləri-cəhənnəmləri olur; yaranırlar, inkişaf edirlər, böyüyürlər, sonra da yavaş-yavaş tənəzzülə uğrayırlar, məhv olub gedirlər. Dünya tarixində bir çox şəhərlər olub ki, onlardan indi yalnız xarabalıqlar qalıb. Bu nöqteyi-nəzərdən yanaşsaq, mənim Bakım bu saat Bərzəx aləmindədi, yəni, o dünyanın astanasındadı və sakitcə oturub cənnətə, yaxud cəhənnəmə düşəcəyi barədə dərin, monumental düşüncələrə dalıb, bu dünyada etdiyi əməlləri götür-qoy edir, günahlarına görə Allaha nə cavab verəcəyini düşünür…

Kimlərsə etiraz edib, deyə bilər ki, Bakı heç də uçulub-dağılmır, əksinə, günü-gündən böyüyür, inkişaf edir, gözəlləşir, təmizlənir və s. Yox, əzizlərim, xahiş edirəm diqqətli olun, çünki indi hamımızın gördüyü Bakı, mənim haqqında danışmaq istədiyim Bakı deyil, onun oğludur. Ümumiyyətlə, insanların ailə şəcərəsi ilə şəhərlərin taleyi arasında da oxşarlıq çoxdur və müxtəlif paralellər aparmaqçün saysız-hesabsız faktorlar var. Fərq isə məncə bircə bundan ibarətdir ki, insan ailəsində övlada adətən valideynlərin adını qoymurlar. Şəhərlərin taleyi isə başqa cürdür, övladın adı çox vaxt valideynin adıyla üst-üstə düşür, yaxud, yalnız cüzi dəyişikliyə uğrayır. Bu mənada şəhərləri rus ailələrinə bənzətmək olar, onlarda uşağa valideynin adını qoymaq praktikası çox yayılıb, məsəlçün, İvan İvanoviç, Pyotr Petroviç və s.

İndiki Bakını da, məncə, Bakı Bakıyeviç adlandırmaq düzgün olar. Oğul Bakı hamımızın indi

gördüyü şəhərdir, mən isə bu şəhərin atası, babası və ümumiyyətlə, əcdadları barədə danışmaq istəyirəm. Məni buna vadar edən isə aşağıdakı səbəblərdir. Adətən hər oğul atasından yadigar olaraq həmişə nə isə saxlayır - şəkillər, hansısa məişət predmetləri, daha nə bilim nələr. Şəxsən mənə rəhmətlik atamdan bir albom şəkil, mal sümüyündən düzəlmiş iki təsbeh, bir qutu saatsazlıq alətləri və beş dəftər fəlsəfi rübai (əlbəttə ki, bu rübailər gecə-gündüz Xəyyamı oxuyub «Staliçnı» araqdan gillədən köhnə bir bakılının sayıqlamalarından başqa bir şey deyil, yoxsa indiyəcən çoxdan onları çap eləmişdim) və bir neçə başqa şey qalıb ki, hal hazırda mənə lazım olmasalar da onları az qala göz bəbəyim kimi qoruyuram, çünki rəhmətlik atamla surətbəsurət söhbət etmək, öz dərdimi bölüşmək, məsləhət almaq, bir sözlə, öz əslimə qayıtmaq istəyəndə bu predmetlər mənə yardımçı olur, onlara toxunmaqla, əlimə götürüb diqqətlə ora-burasını nəzərdən keçirməklə elə bil, mənimlə rəhmətlik atam arasındakı keçilməz sədd əriyib itir, arada mistik bir pəncərə açılır və mən atamı, onun vasitəsiylə babamı, ümumiyyətlə, bütün əcdadlarımı açıq aydın görürəm.

Normal şəhərlər də belədir. Müasir Roma öz ata-babasından yadigar kimi müqəddəs Pyotr kilsəsini, Paris Luvr sarayını, London Biq-Beni, Milan «La-skala» operasını, Moskva «Vasili Blajennı» məbədini, Nyu-York… Yox Nyu-York heç nəyi saxlamayıb, çünki saxlamalı bir şeyi yoxdur, əgər olsaydı onu, atam demişkən: «qəzet eliyib soxardı gözümüzə», bu şəhərin atası-anası bilinmir, bir sözlə, Nyu-York bicbala

şəhərdir, Amma Bakı axı bicbala şəhər deyil, onun dağ kimi ata-babası, nəsli-nəcabəti olub. Məsələçün, indiki Bakının atası olan mənim kinolu-teatrlı, trolleybuslu-tramvaylı, Leninli-Kirovlu Bakım bu qədər vəfasız, etibarsız deyildi. Nə qədər müasirləşsə də, yeniləşsə də, təzə mikrorayonlar, yeni qəsəbələr dünyaya gətirsə də onları şəhərin kənarındakı düzənliklərdə yerləşdirirdi, ata-babasından qalma İçərişəhəri də, köhnə məhəlləleri də əzizləyirdi, bircə daşına da toxunmurdu.

Amma indiki Bakı bilmirəm kimə oxşadı, belə bifər çıxdı, nihilist oldu. Qərara gəldi ki ata-babadan ona heç nə qalmasa da olar, keçmişdən birdəfəlik əl üzüb yalnız və yalnız gələcəyə üz tutmaq lazımdır. Beləliklə, indiki müasir Bakı nihilizmi əlində bayraq edib başladı ata-babasından miras qalanları dağıtmağa, İçərişəhərin yarıdan çoxu sökülüb yerində yeni villalar tikildi, yuxarı və aşağı məhəllələrdəki qədim evlər, rahat həyətlər, köhnə olsa da, indikilərdən yüz dəfə etibarlı olan qədim mülklər dağıdılıb yerində kvadrat göydələnlər ucaldıldı, hər daşından babalarımızın iyi gələn imarətlərin yerində beton mutantlar, kvadrat heyvərələr qaldırıldı.

Bəlkə də bu arzuolunmaz prosesin günahkarı təkcə müasir Bakı deyil, bəlkə də burda düşmən barmağı var. Bizimlə mərd, igid, qeyrətli müsəlman babalarımızın arasında olan ruhani-mənəvi bağları qırıb bizi yaddaşsız manqurtlara çevirmək və bu yolla daha asan istismar etmək istəyən qüvvələrin təsiridir bəlkə bütün bunlar? Bəlkə məhz bu qüvvələr müasir Bakının beynini doldurublar ki, əgər inkişaf etmək, sivil bir şəhər olmaq istəyirsənsə, səni keçmişə bağlayan bağları

mütləq qırıb atmalısan, gələcəyini öz keçmişinin xarabalıqları üstündə qurmalısan. Yəqin ki, məsələ məhz bu cür olub, müasir Bakı da bütün bu qüvvələrin təsiri altına düşüb, başlayıb onların dediyini canü-dildən həyata keçirməyə, yəni, ata babasından qalma nə varsa hamısını uçurub dağıtmağa. Amma binəva heç cür başa düşmək istəmir ki, əgər sən gələcəyini öz keçmişinin üstündə qursan, ata-babanın bütün nişanələrini dağıdıb töksən, birdəfəlik məhv etsən, daha sənin o bicbala Nyu-Yorkdan, Vaşinqtondan nə fərqin olacaq? Və sabah onlar kimi bicbala olmadığını nəylə sübut edəcəksən?

Yazımın bu hissəsi bədii əsərdən çox müxalifət qəzetlərinin köşə yazılarına oxşasa da, başqa çıxış yolu yoxdur. İstəyirəm ki, oxucu məni Bakı tarixi barədə yazmağa vadar edən səbəbləri lap yaxşı başa düşsün.

Bəziləri deyə bilər ki, tutalım İçərişəhəri başa düşdük, bəs axı Bakının başqa yerlərindəki köhnə evlərin sökülüb yerində də təzə binaların tikilməsinin nəyi pisdir ki?

Belə düşünənlər əlbəttə ki yanılırlar. Əgər İçərişəhər bizim beş yüz-üç yüz il bundan əvvəlki tariximizin simvoludursa, şəhərin mərkəzində, yaxud yuxarı məhəllələrindəki həmin tikililər də yüz əlli il bundan əvvəlki Bakının yadigarlarıdır.

Qoy İçərişəhəri gəzən adam özünü on beşinci əsrdə hiss etdiyi kimi, yuxarı məhəllələrdə dolaşanlar da, özlərini on doqquzuncu əsrdə hiss etsin. Bunun kimə ziyanı var ki? Qoy tariximizin bütün dövrlərindən, hətta sovet dövründən də nəsə qalsın…

Amma bizə qulaq asan kimdi ki… Təzə Bakı öz işindədir. Yeganə gözü oxlanmış qəzəbli Təpəgöz kimi ətrafdakı hər şeyi sındırır, dağıdır, tapdalayır, xaraba qoyur. Bir sözlə müasir Bakı bu saat ata-babasının sümüklərini yeməklə məşğuldur. Ümumiyyətlə, indi yemək zəmanəsidir, təzələr dişlərini itiləyib düşüblər köhnələrin canına - təzə musiqi köhnə musiqini yemək istəyir, təzə ədəbiyyat köhnə ədəbiyyatı, təzə evlər də köhnə evləri və s.

Keçən həftə bizim köhnə həyətimizin yerində ucaldılmış iyirmi mərtəbəli nəhəng göydələni görəndə mənə həqiqətən də elə gəldi ki, bu bina bizim həyətimizi yeyib və bu saat yaraşıqlı qapısından içəri keçsəm onun mədəsində, yəni, hansısa anbarında, zirzəmisində nənəmin namaz otağını, dayımın göyərçin saxladığı çardağı, babamın qır tiyanını, atamın hərdənbir dınqıldatdığı tarı və nəhayət, öz qamış çərpələnglərimi, taxta avtomatlarımı, tapançalarımı tapacağam (Əlbəttə ki, çeynənmiş, didilmiş, bir sözlə, həzm-rabedən keçmiş vəziyyətdə).

Elə bu vaxt içimdə nə isə qaynadı, istədim ki, öz taxta avtomatlarımı götürüb çərpələngimin ipindən yapışım, səmaya qalxıb yuxarıdan mənim Bakımı udmuş bu nəhəng binaları atəşə tutum, dağıdım və onların mədəsindən çıxan qırıntıları bir yerə toplayıb öz Bakımı, mənim Bakımı təzədən yığım, ikinci həyat verim, dirildim.

Qeyri-ixtiyari təzə binaya tərəf addımladım, qapıda qarşıma çıxan əcaib geyimli , cibinin üstündə

«Sekyuriti» yazılmış sarışın, göygöz oğlan mənə yaxınlaşıb soruşdu:

– Du yus pik inqliş?

Başa düşdüm ki, məni içəri buraxmayacaq, onunçün də özümdən asılı olmayaraq ingiliscə bildiyim yeganə kəlmə dilimə gəldi, «Kis may əz» qışqırıb raqatkadan çıxan daş sürətiylə üzüaşağı götürüldüm. Və qaça-qaça hiss etdim ki mən öz doğma şəhərimdə yavaş-yavaş qaçqına çevrilirəm, əsl qaçqına. Hə, Bakıda yaşayan bakılı qaçqın... Ən dəhşətlisi isə bu idi ki bu qaçış mənim xoşuma gəlirdi, daha dəqiq desəm, ürəyim buna etiraz etsə də, ruhən özümü çox yüngül hiss edirdim, elə bil çiynimdən çox ağır yük götürülmüşdü. İndi başımıza gələnləri izah etməkçün bəhanə tapılmışdı sanki. Bəhanə isə bu idi - bütün günahlar onlardadır, şəhərimi udan məxluqlarda, onlar güclüdürlər, mənim daha əlimdən heç nə gəlmir, istəsəm də bir şey edə bilmərəm, bacarmaram, gücüm çatmaz…

Dincəl bir az, ey hər gün özündən qaçan oğlan,
Ahıyla içindən çölünə yol açan oğlan.

Düşsən yağışa, tez dəyəcəksən yerə, vallah,
Kağız qanad ilə göy üzündə uçan oğlan.

Yanma bu qədər boş yerə, səndən günəş olmaz.
Ey şölələnib hər tərəfə nur saçan oğlan.

Çox başqasının qanın içən görmüşəm, ancaq

Heç görmədim öz qanını səntək içən oğlan.

Vaxtın çatıb artıq, daha bir gözdə məkan tut,
Dünya kimi gözdən-gözə daim köçən oğlan.

Sən ki, ölüsən, dəfn eyləyiblər öz içində,
Yorma özün, ey qəbri üçün yer seçən oğlan.

Kim Fəhmini gördü dedi: əhsən hələ sağmış
Dünyada cəhənnəm alovundan keçən oğlan.

Təngnəfəs olub dayandım, anladım ki, müasir Bakının bu cür nihilist olmasının, öz keçmişini udmasının bir səbəbkarı da, elə mən özüməm, mənim içimdəki tamahdı. Milyonlarla dollar alıb İçərişəhərdə hansısa qədimi binanı əcnəbilərə satan məmurla, əlli min dollar alıb nənəmin namaz otağını satan mənim aramda zərrə qədər də fərq yoxdur. Fərq olsa – olsa yalnız satış obyektinin ölçüsündə və ödənişin miqdarındadır.

Bu yazdıqlarım yenə də kiməsə gülməli görünə bilər. Deyərlər ki, axı darısqal, şəraitsiz həyətlərdə, alçaq evlərdə nə var ki, onların itirilməsi sənə bu qədər təsir edib? Axı sən indi daha rahat mənzildə yaşayırsan. Hər cür kommunal şəraitin var, hamamın-ayaqyolun evin içində, işığın-qazın normal gəlir, yağış yağanda evin dammır, qonşular gəlib ağzının içinə girmir, hər şey yaxşıdır, daha nə istəyirsən?

Belə düşünənlər bəlkə də haqlıdır. Mənim indiki şəraitim, həqiqətən də əvvəlkindən qat-qat yaxşıdır və əgər nəsə itirmişəmsə də, ondan beş dəfə artığını əldə etmişəm.

Amma məni bir sual düşündürür - babalarım, nənələrim onilliklər boyu bu darısqal, alçaq evlərdə, beş-altı mənzillik xırda həyətlərdə yaşayırdılar, ayaqyolundan tutmuş süpürgə-xəkəndazacan hər şeyləri ümumiydi, bişirdikləri yeməklərdən hamıya paylayardılar, söz-söhbətlərini biri-birindən gizlətməzdilər, sirr saxlamazdılar, xırda uşaqlar qonşunun evinə girəndə heç icazə də istəməzdilər, birinin qonağı çox olanda o birinin evində yatızdırardılar, xalça-palazı, pal-paltarı birgə yuyardılar, şüşəbəndlərin pərdələrini demək olar ki, heç vaxt çəkməzdilər, çünki bilirdilər ki, qonşulardan heç biri keçəndə başını qaldırıb o birinin evinə baxmaz, lakin bütün bunlara baxmayaraq, heç kim özünü narahat hiss eləməzdi, ev-eşiyindən, şəraitsizliyindən şikayətlənməzdi, daha artığına nail olmaqçün dəridən-qabıqdan çıxmazdı, Allahın yetirdiyinə qane olardı, şükür eliyərdi. Eləcə yaşayardılar özləriyçün sevinə-sevinə, gülə-gülə; elə gülə-gülə də ölərdilər, şair demişkən.

Yaxşı, bəs birdən-birə nə oldu ki, ata-babalarımızın qane olduqları, rahat yaşadıqları şərait birdən-birə bizə dözülməz gəldi, öz evimizi sıxıntılı, darısqal hesab elədik, daha genişliyə, asudəliyə can atmağa başladıq, nəyə görə? Yoxsa onlar avam idilər, zırramaydılar, yoxsa adam kimi yaşamağın yolunu

bilmirdilər? Yox, hər şeyi bilirdilər, çox yaxşı da bilirdilər. Bəs onda dəyişən nədir? Nə baş verdi? O baş verdi ki, bizə göstərdilər; görmədiyimiz və görmədiyimizə görə də istəmədiyimiz şeyləri göstərdilər, bizim içimizdə, ruhumuzun dərinliklərində yatmış şeytanı oyatdılar, tamahımızı qıcıqlandırdılar. Bizə göstərdilər ki, ayaqyolu evin içində olarsa daha rahat olar, soyuqda, küləkdə həyətə düşməyə ehtiyac qalmaz. Bizim də içimizdəki tənbəlliyi qıdıqladılar, biz də qulaqlarımızı sallayıb sözsüz razılaşdıq. Arvad-uşağın gözünün qabağında nazikdivavrlı ayaqyoluya girib, onların qulaqlarının dibində min cür bədheybət səslər çıxartmaqla arada olan ar pərdəsini götürdük, özümüz də hiss etmədən ailədəki abır-həyanı əldən verdik.

Bizə başa saldılar ki mətbəx şüşəbənddə, camaatın gözünün qabağında olanda qonşulara iy dəydiyinə görə bişirdiyin yeməklərdən onlara da pay göndərməli olursan, amma dəmir qapılı mənzilin dərinliklərində olarsa, heç kim sənin nə bişirdiyindən xəbər tutmaz, qonum-qonşuya da pay verməyə ehtiyac qalmaz. Bu dəfə içimizdəki simiclik hissləri yuxudan oyandı, yenə də qulaqlarımızı sallayıb razılaşdıq, bu dəfə səxavətimiz, əliaçıqlığımız bada getdi.

Bizə öyrətdilər ki, həyət evində yaşayırsızsa, yanınıza gəlib-gedən adamları hamı görür, hamı bilir ki, kimin yanına kim gəlir, nə vaxt gəlir, hansı məqsədlə gəlir. Amma bina evində belə deyil, hamı öz mənzilinin dəmir qapısını bağlayıb girir içəri və sən də öz evinə kimi istəsən, nə vaxt istəsən, nə məqsədlə istəsən gətirə

bilərsən, istər oğlan olsun, istər qız və bundan da heç kim xəbər tutmayacaq, heç kim sənin daxili işlərinə burun soxmayacaq. Bu dəfə də içimizdəki şəhvət hissləri baş qaldırdı, yenə qulaqlarımızı sallayıb sevinə-sevinə razılaşdıq və heç özümüz də hiss etmədən namus-qeyrəti verdik əldən.

Daha sonra qonaqpərvərliyimiz, mehribançılığımız və başqa xüsusiyyətlərimiz də bala-bala əriyib getdi. Dönüb olduq beton evlər kimi soyuq, kvadrat məxluqlar.

Bu yerdə də etiraz edənlər ola bilər, deyərlər ki, hər şey insanın xarakterindən asılıdır simic hər yerdə simicdi, avara hər yerdə avaradır, tərbiyəsiz də ki, eynən. Yaşadığı şərait insanın xasiyyətini bir o qədər də dəyişmir.

Bununla da razı deyiləm, çünki ilk baxışdan adi görünən bir çox faktorlar var ki, onların təsiri zahirən sezilmir. Amma bu təsirləri heç vəchlə nəzərdən qaçırmaq olmaz. Mən də bu faktorların bəzilərinə açıqlıq gətirmək istəyirəm.

Ən əvvəl mistik-sakral faktora nəzər salaq. Qədim evlərimizin tikintisində məlum məsələdir ki, heç bir texniki vasitələrdən istifadə olunmayıb. Hər daşı, taxtanı əllə yonub düzəldirdilər və tikinti prossesində iştirak edən hər bir yaradıcı insanın müsbət enerjisi həmin daşların, taxtaların bətninə hopur. Beləliklə, bu evlərin hər daşın, taxtanın ətrafında müəyyən mistik aura olur ki, bu da babalarımızın daxili bioenerjisinin bizə qədər gəlib çatmasına şərait yaradıb. Əlbəttə ki, bu

cür irrassional faktoru bir çoxları qəbul etməyəcək, amma bu, heç nəyi dəyişmir.

İkinci faktor icma faktorudur. O vaxt insanlar bizim köhnə Bakı həyətlərindəki bir növ, açıq mənzillərdə yaşayırdısa, canında bəd xasiyyətlər olanlar da özlərini o birilərinə oxşatmaqdan, yazılmamış qanunlara tabe olmaqdan başqa əlacı qalmırdı, çünki bilirdi ki, əks halda bu həyətdə, bu məhəllədə rahat yaşaya bilməz. Məsəlçün, kimsə simicdisə, həyət evində yaşadığından şüşəbəndin arxasında biş-düş edirdi, yemək hazırlayırdı, və təbii ki, bunu qonşulardan gizlədə bilmirdi, məcbur olurdu ki, bişirdiyindən iki-üç qab çəkib onlara paylasın. Bir dəfə, iki dəfə, üç dəfə və insanın içindəki simiclik hissi islah olurdu, onun yerinə səxavət gəlirdi. Yaxud, öz evini avaraxanaya döndərmək istəyir əxlaqsız bir adam könüllü olmasa da, bundan vaz keçmək məcburiyyətində qalır, çünki bilir ki, evinə artıq adam gəlib-getsə, evdən artıq-əskik səslər çıxsa, yaxud başqa xoşagəlməz hallar olsa, qonşular onun başına oyun açar, rahat yaşamağa qoymaz.

Azadlıq sevər həmvətənlərim növbəti dəfə etiraz edib deyər ki, bu cür yaşayış zamanı insanın azadlığı, müstəqilliyi əlindən alınır, o ətraf mühitin iradəsinə tabe olur, icmanın əsirinə çevrilir.

Düzdü, mənim təsvir etdiyim mühitdə həqiqətən də, konkret bir fərdin hərəkət meydanı çox kiçikdir, insanı bu çərçivədən kənara çıxmağa qoymurlar və əlbəttə ki, azadlığı, müəyyən mənada, əlindən alınmış olur. Lakin gəlin problemə başqa tərəfdən yanaşaq:

məgər insan dünyaya yalnız azad olmaqçün gəlib? Başqa bir məqsəd yoxdur?

İkincisi də ki, azadlıq heç də bizim beynimizə yeridildiyi kimi hansısa əxlaqi çərçivələrin sındırılması və insanın bütün davranışının yalnız nəfsin istəklərinə tabe olması deyil. Azadlıq tamam ayrı bir şeydir.

Əslində, mütləq azadlıq yoxdur. İnsan ya iradəsini nəfsinə tabe edib bütün ömrünü daxili istəklərini yerinə yetirməyə həsr edir, yəni nəfsinin əsirinə çevrilir, ya da əksinə, insan nəfsini, istəklərini iradəsinə tabe edir, nəfsinin hakimiyyətindən azad olur.

İndi baxaq görək bunlardan hansı əsl azadlığa daha yaxındır? Cahil insanlar şəksiz ki, birincisini seçəcəklər. Çünki onların fikrincə, əsl azadlıq insan hissiyyatının tam sərbəst buraxılmasıdır.

Ağıllı adamlar isə əsl ruhi azadlığı nəfsin əqlə tabe olmasında görəcəklər.

Deyəsən, söhbəti çox uzatdım. Məqsədimiz heç də ağıl və nəfs barədə moizə oxumaq deyil, bunu ilahiyyat alimləri bizdən daha yaxşı edirlər.

Bizsə, sadəcə, onu demək istəyirik ki, köhnə Bakının açıq həyətlərində elə bir ab-hava hökm sürürdü ki, hər bir sakin öz istəklərini cilovlamağa bir növ məcbur edilirdi, bu da insanın nəfsin əsirliyindən qurtulub həmin azadlığa doğru addımlamasına yardımçı olurdu, əlbəttə bu, çox yaxşı bir hal idi.

Köhnə Bakını deyəsən çox şişirtdim, ideallaşdırdım. Tanımayanlar elə bilər ki, o vaxtkı Bakı cənnətməkan idi, adamları da huri-mələk. Bütün günü can deyib can eşidirdilər, bir-birinə əl tutardılar,

mehribanlıqla dolanardılar… Əslində o vaxtkı Bakıda da kifayət qədər oğurluq, avaraçılıq, dava-dalaş, qırğın, qiyamət, saçyoldu, dişsındırdı, bıçaqlaşdı olardı. Hətta müəyyən parametrlərinə görə, o vaxtkı Bakı indikindən qat-qat pis idi. Lakin insanların düşüncəsində müəyyən bir çərçivə var idi və heç kim bu çərçivədən kənara çıxmağı ağlına belə gətirmirdi. İndi isə, ümumiyyətlə, heç bir çərçivə yoxdur, yaxud, demək olar ki, çox az qalıb (fikrim yenə yayındı, abzası təzədən başlamalı olacam).

Köhnə Bakını, deyəsən, çox şişirtdim, ideallaşdırdım. Yalnız işıqlı cəhətlərini göstərdim, qaranlıq tərəflərindənsə vaz keçdim. Əslində, o vaxtkı Bakı çox adi bir şəhər olub, heç nə ilə başqalarından fərqlənməyib, adamları da fövqəladə olmayıblar, yaxşısı da olub, pisi də. Lakin bütün bunların mənim Bakıma dəxli yoxdur, çünki mənim Bakım sizin indi gördüyünüz Bakıdan fərqləndiyi kimi, o vaxtkı camaatın gördüyü Bakıdan da çox fərqlənir.

Mənim Bakım yalnız mənimdi, çünki yalnız mənim içimdədi, mənim ruhumdadı, mənim qanımdadı və hətta deyərdim ki, genimdədi. Ən əsası isə mənim Bakım heç vaxt uçulub dağılmayacaq, mənim Bakımın köhnə həyətlərini yerində iyirmi mərtəbə binalar ucalmayacaq, mənim Bakımın küçələrində həmişə trolleybuslar, tramvaylar dolaşacaq, dondurma satanlar altına çarx bərkidilmiş taxta qutularını qabaqlarına qatıb bütün günü «maroj», «maroj» qışqıra-qışqıra tinləri, dalanları gəzəcək, yaşlı-cavan quşbazlar şalvarlarının balaqlarını, köynəklərinin qollarını çırmalıyıb, damda

göyərçin uçurdacaq, axşamlar əllərində təsbeh fırladan, başlarından aerodromu şapkələri əskik olmayan Bakı kişiləri küçələrin o üz-bu üzündə şakkaşuruknan nərd atacaq, dirsəyəcən yağın, benzinin içində olan şoferlər qapılarında saxladıqları hökumət maşınlarının kopotunu qaldırıb motorunda eşələnəcək, ağzıdualı, başı buxara papaqlı, şəvə saqqallı ağsaqqallar tut ağaclarının altında yığışıb Seyid Əzimin, Füzulinin qəzəllərini xırdalıyacaq, arvadlar həyətlərdə paltar yuya-yuya dünən axşam televizorda göstərilən indeyski kinonu müzakirə edəcək, uşaqlar da gah çərpələnk uçurdacaq, gah da taxta avtomatlarla, tapançalarla silahlanıb «dava-dava» oynayacaq. Və başdan-başa qır iyi verən bu İdilliya əbədiyyətə qədər dəyişməyəcək, hər şey olduğu kimi qalacaq, heç kim qocalmayacaq, ölməyəcək heç yer uçurulub dağıdılmayacaq, hər şey olduğu kimi qalacaq. Mən də Əzrayılın dəvətnaməsini alana qədər qır iyi verən bu tablonu hər gün seyr edəcəm, toz basanda siləcəm, islananda qurudacam, çirk olanda yuyacam, ən nəhayət, özümlə bərabər, öz içimdə o dünyaya aparacam. Bəli, o dünyaya. Çünki bu dünyada artıq mənim özümə yer olmadığı kimi, mənim Bakımın da yeri yoxdur. Nə mənim Bakımın, nə də onun tarixinin. Mənim Bakımın tarixi isə adamın içini yeyir. Hətta nağıl olsa belə…

Nə vaxtsa qəmli olsam, nağıl danış mənimçün,
Nəfəs kimi daralsam, nağıl danış mənimçün.

Yalan şirin zəhərmiş, məni həmişə aldat,
Həqiqəti cırıb at, nağıl danış mənimçün.

Bu günləri bir anlıq silib çıxart yadından,
Unutduğum qadından nağıl danış mənimçün.

Dəniz-dəniz günahdan xilas bəhanəsiylə,
Mələklərin səsiylə nağıl danış mənimçün.

Həyat duman kimiydi, itib-batıb dağıldı,
Ölüm də bir nağıldı, nağıl danış mənimçün.

Əcəl yuxusu gəldi, bu yaşı sil gözümdən,
Yavaşca öp üzümdən, nağıl danış mənimçün.

Bəlayə düşsə Fəhmi, xilas üçün gəlib sən,
Otur yanımda hərdən nağıl danış mənimçün.

Birinci fraqment

Bakının tarixi adamın bütün içini yeyir. Yox, bəlkə də yemir; hə, belə daha səhih olar, yemir, dişləyib qopardır adamın içini, bir az çeynəyir, diliylə o yan-bu yana fırladır, ağzının suyunda isladır, büzüşdürür, boğur, sonra da, tüpürür bayıra. Adamın içi şappıltıyla yapışır dığır-dığır asfaltın üstünə, başlayır asfaltın istisində qıcqırmağa. Axırda da, yoldan ötənlərin birinin ayaqqabısının altına yapışıb gedir gəzməyə, ta ki,

həmən ayaqqabı yağışa düşüb təmizlənənə qədər sülənir özüyçün.

Bakının tarixi vampir kimi şeydir. Vampir adamın qanını sorur, Bakının tarixi adamın içini. Hərdən doymayanda çölünə keçir, aramla onu da, həzm-rabedən keçirir.

Bakının tarixi həm vampirə oxşayır, həm də, mənim babama. Əslində, babam özü elə Bakının tarixidi, ya da əksinə, Bakının tarixi elə mənim babamdı - bunun bir o qədər fərqi yoxdu. Bakının tarixi deyəndə gözümün qabağına həmişə babam gəlib: o da, heç vaxt meyvəni bütöv yeməzdi, çeynəyib suyunu udandan sonra puçalını tüpürərdi bayıra. Bəlkə, bu, sadəcə assosiasiyadır, həqiqətə dəxli yoxdu, bəlkə də var.

Babam Bakı tarixinin təzahürüdür, simvoludur; babamın dişləri yox idi, protez taxardı, hərdən protezini qarışqa da basardı. Axırda babama başa saldılar ki, dişi, daha doğrusu protez dişləri suyla dolu stəkanda saxlamaq lazımdır. Kişi bu məsləhətə əməl edəndən sonra babamın dişləri qarışqa yaylağı olmağı tərgitdi. Çünki, qarışqalar amfibiya deyil, suyla dolu stəkanın dibinə enə bilmirlər, boğulurlar.

Bakı tarixinin də dişləri tökülüb. Əgər tökülməsəydi, belə bədbəxt, miskin günə qalmazdı, ona təcavüz edənləri canavar kimi didib parçalardı, daha mənim kimi bifər müdafiəçilərin ümidinə qalmazdı.

Babamın Bakı tarixindən fərqi bircə ondaydı ki, kişinin binayi-qədimdən qırdan xoşu gəlməzdi. Bakı isə qırı hədsiz dərəcədə sevirdi. Dünyada ikinci elə bir şəhər yoxdu ki, qıra Bakı qədər məhəbbət bəsləsin.

Dünyadakı şəhərlərin çoxusu, ümumiyyətlə, qır nə olduğunu bilmir. Bilmir, heç öyrənmək də istəmir. Heyif, gərək öyrənəydilər, çünki atalar deyib: « Bilməmək ayıb deyil, bilməyib öyrənməmək ayıbdı.»

Onlar (yəni dünyanın başqa şəhərləri) örtük kimi şifer, kirəmit, allüminium təbəqələr, nə bilim, ayrı şeylər işlədir. Bakının tarixi isə bu məqsədlə ancaq qırdan istifadə eliyib. Bakının tarixi, öz içində saxladığı evlərin, dükanların, qarajların, ambarların, hətta ayaqyoluların hamısının damını qırla örtüb.

Qır Bakının mənəvi dəyərlərindən, sərvətlərindən biridir. Yox, biri deyil. Qır Bakının yeganə maddi-mənəvi sərvətidir. Niyə? Çünki qır neftayırma zavodlarında neftdən benzin, kerasin düzəldilən zaman yerdə qalan artıq-əskik zir-zibillərdən əmələ gəlir. Yəni, neftin içindən benzini çıxardırlar, kerasini çıxardırlar, mazutu çıxardırlar, bunlar neftdən ayrılandan sonra yerdə qalır saqqız kimi qatı, ağır bir məhsul ki, buna da qır deyirlər. Əgər Bakı tarixi müasir gənclər kimi gecə-gündüz saqqız çeynəmək fikrinə düşsəydi, yəqin ki, ağzından qır-saqqız əskik olmazdı.

Başqa ölkələrdə bu qır ancaq yollara çəkməkdən ötrü istifadə olunur. Qırı göndərirlər zavoda, ona bir az çınqıl, xırda daş, nə bilim, sonra nələr vurub eliyirlər asfalt, gətirib yaxırlar yollara. Düzdü, bizdə də asfalt olub. Lakin asfalt salmazdan əvvəl bakılılar həmən qırı evlərinin damına yaxmağı öyrəniblər.

Evlərin damına şifer vurmaq yaramır, çünki Bakının xəzrisinə şifer tab eləmir, yavaş-yavaş mismarlarını boşaldır, sonra da damdan alıb yerə

çırparaq sındırır. Rus «izbuşkaları» kimi taxta damlar da eləmək olmur, çünki Bakının dövrəsində o qədər meşə yoxdur ki, taxta-şalban da bol olsun. Bizdə bol olan bircə qırdı, qap-qara qır. Bakı tarixinin, bakılıların yeganə sərvəti. Yox, neft yox, qır, məhz qır. Çünki Bakı neftindən əmələ gələn kerasini də, benzini də əcnəbilər daşıyıb aparıblar öz maşınlarına yedizdirməyə. Bakıya və bakılılara qalan bircə bu qır olub, onu da götürüb yaxıblar evlərinin damlarına ki, barı yağışın, qarın qabağını alsın.

Bakının damları cəhənnəmə gedən asfalt yolu xatırladır, fəqət, bu, bütöv bir yol zolağı yox, yolun qayçılanıb doğranmış formasıdır.

Bakının tarixi qara, qır damlardan ibarət mozaikadır. Məncə bizim torpağın altından neft yox, elə qır çıxsaydı, daha yaxşı olardı, əcnəbi qurumsaqlardan canımız qurtarardı.

Maraqlıdır, görəsən neftin emalından sonra artıq qalan zir-zibili, qara-qura saqqızı evlərin damına yaxmaq kimin ağlına gəlib? Başqa sözlə desək, Bakının ilk qırçısı kim olub? Və görəsən bu adam bilibmiş ki, dünyanın ən böyük kəşflərindən birini eliyib? Yəqin ki, bilib. Bakılılar nə elədiyini bilən adamlardı.

Bakı tarixi qır iyi verir, ...ya da əksinə, qırdan Bakı tarixinin iyi gəlir. Ələlxüsus yayda, günortalar gün qırı qızdırıb yumşaq saqqıza döndərəndə.

Yayda, günün günorta çağı, Bakı damlarına çıxmaq olmaz, çünki ayaqqabıların altı da neftdən əmələ gələn rezindən düzəlir və iki əmioğlu bir-biriylə elə qucaqlaşır ki, yayda, günün günorta çağı bizim damlara

çıxan adam öz ayaqqabıları ilə vidalaşmalı olur. Ayaqqabıların qara altlığı yapışır qıra, heç cür qopmur.

Qır da Bakı tarixinin simvoludur. Bakı isə çox kinlidir, qəzəblidir, öz tarixinin simvolunu tapdayanları sevməz, cəzalandırar.

Gecələr Bakı damlarına çıxmaq olar, çünki qaranlıqda damın qırı ayaqqabı altlığına çevrilmiş rezin əmioğlusunu tanımır, ona görə də bağrına basıb qucaqlamır. Bakıda kimsə, nə səbəbdənsə yay aylarında dama çıxmaq istəsə, bunun üçün mütləq gecəni gözləməli olurdu.

Bakı qırının üzü üzlər görüb. Ən çox gördüyü isə xəzrinin üzüdür. Külli kainat dörd ünsürdən ibarətdir; ab, atəş, xak, bad. Yəni, su, od, torpaq, hava. Torpaq Bakıya öz içindən çıxartdığı qırı bəxş eliyib, hava isə xəzrini. Xəzri ilə qır eyni vaxtda yaranıblar - biri torpağın içində, biri də üstündə. Qırı torpaqdan çıxarıb atıblar havaya, amma havanı torpağın içinə soxan olmayıb. Ona görə qır xəzridən aşağıda məskunlaşmasına baxmayaraq ondan bir mərtəbə üstündür.

Bakının tarixi qara-boz naxışlı xalçadır. Qara naxışlar qırlı damlardır, boz naxışlarsa xəzrinin səpələdiyi toz-torpaq. Toz-torpaqla damların qırı üzvi vəhdətdədir. Qır Bakı tozundan özünə yorğan düzəltməyi yaman sevir. Əfsuslar olsun ki, bu yorğan o qədər də, davamlı deyil, yağış yağan kimi parça-parça olur.

Yox, Bakı tarixini təkcə qara-qura xalçaya bənzətmək düz olmaz. Çünki arada şüşəbənd məsələsi var. Başqa sözlə desək, Bakı tarixi qara-boz xalça, şüşəbəndlər isə onun şahmat taxtasını xatırladan güzgüsüdür. Sadəcə, bu taxtada bütün xanalar eyni rəngdədi - şüşə rəngində, yəni şəffaf. Bu şüşənin o biri tərəfində bakılıların təsbehləri görünür.

Şüşəbəndlərin də qırdan xoşu gəlmir. Damları qırlayanda mütləq isti qırın bir hissəsi damın qırağından axıb şüşələrin üstünə tökülür, onları ləkələyir, bu da ki, şüşəbəndə qıra qarşı çox mənfi münasibətın yaranmasına gətirib çıxarıb.

Bakı damlarındakı qır da, bu damları süpürən xəzri də, canlı məxluqlardı. Hər ikisinin ruhu var və bu ruhlar, qəribə də olsa, maddiləşib. Əlbəttə ki, göyərçinləri deyirəm. Göyərçinlər qır damların ruhudur, bəlkə elə xəzrinin də ruhudur...

Yox, düz olmadı. Göyərçin ruh-filan deyil. Tüklü, lələkli, quyruqlu ruh olmur. Göyərçin damların övladıdı. Bu, daha düzgündür.

Bakı damlarını kişiyə bənzətsək, deməli, quşxanalar da, onların məşuqələri hesab olunmalıdır. Göyərçinlər isə bu iki sevən məxluqun əziz xələf övladları. Əlbəttə ki, qanunsuz övladları. Çünki quşxanalar Bakı damlarının qanuni arvadı ola bilməz. Qırlı damların altındakı evlərdən fərqli olaraq, üstündə tikilən quşxanaların heç bir möhürlü, imzalı sənədi-kupçası, texniki pasportu olmur. Ona görə də göyərçinləri bicbala hesab eləmək lazımdır.

Kişilərin hamısına məşuqə saxlamaq xoşbəxtliyi nəsib olmadığı kimi, Bakı damlarının da heç də hamısı quşxanalı deyil. Yalnız beşindən-onundan birinin üstündə quşxana düzəldilib.

Damların qırı göyərçinlərin atasıdısa, onda xəzri də, onların əmisi hesab olunur. Xəzri göyərçinləri çox istəyir, amma göyərçinlər bu zəhmli əmilərdən qorxurlar. O gələn kimi tez qaçıb girirlər analarının qarnına. Quşxanalar kenquru kimi bir şeydilər. Nigarançılıq olan kimi balalarını yığırlar öz içinə.

Xəzri evdə olmayanda göyərçinlər o saat göyə qalxırlar, yəni əmisigilə gedirlər. Qalxırlar yuxarı, fırlanırlar, uçuşurlar, oynaşırlar, hərdən elə olur ki, aşağıdan nöqtə boyda görünürlər. Aşağı enəndə də azırlar, gedib düşürlər başqa quşxanaya.

Göyərçin boynu yumşaqdı, sığalla, amma sındırma,
Göyərçin qəlbi dustaqdı, burax uçsun, yubandırma.

Göyərçin ömrü matəmli, göyərçin gözləri nəmli,
Qoy axsın inci göz yaşı, əlin vurma, bulandırma.

Göyərçin sevgisi gizlin, soruşma, söyləməz sirin,
Göyərçin ruhu ismətli, danışdırma, utandırma.

Göyərçin tellərində şeh, aman vermə dağıtsın meh,
Göyərçin köynəyi dümağ, tozun içrə uzandırma.

Göyərçin dimdiyi həssas, gecə ulduz yığar dəndən,
Göyərçin fikri göylərdə, yolun kəsmə, dayandırma.

Göyərçin könlü kövrəkdi, nolur, çox xətrinə dəymə,
Göyərçin bağrı çox incə, cızıb qana boyandırma.

Göyərçin ki, günahsızdı, sıxıb gizlətmə qoynunda,
Özün Fəhmi yanırsansa, onu, rəhm eylə, yandırma.

Bütün əxlaqlı kişilər öz qardaşlarının məşuqələrinə nifrət etdikləri kimi, xəzri də Bakı damlarının məşuqələrinə, yəni quşxanalara nifrət edir, onları görən gözü yoxdur. İmkanı düşən kimi bu taxta daxmacıqlara hücum edir, onları yumruqlayır, təpikləyir, damdan aşağı atmağa cəhd edir. Yazıq quşxanalar da təpik altına düşən fahişələr kimi cırıldayır, müqavimət göstərirlər. Xəzrinin bu xasiyyətinə hamı bələd olduğu üçün quşxanaları,

adətən, damların külək tutmayan künc-bucaqlarında yerləşdirirlər. Bu da təbii ki, xəzrinin xoşuna gəlmir, hirsini yenə qır damlarının üstünə tökür, yerdən qaldırdığı toz-torpağı səpələyir onların başına. Xəzri də belə xəzridi - hikkəli, hirsli, əlindən bir iş gəlməsə də özündən başqa heç kəsi bəyənməyən, hamıya yuxarıdan aşağı baxan, - eynən bizim yazarların çoxu kimi.

Xəzri hamıya yuxarıdan aşağı baxmaq xüsusiyyətilə bizim «sənətçi»lərə bənzəsə də, hər halda bu avaralardan daha üstündür, çünki onlardan fərqli olaraq Xəzrinin heç olmasa camaata bir xeyri dəyir, yəni Bakının havasını təmizləyir. Xəzri Bakı zonası üzrə ekoloji müfəttişdir. Yox, müfəttiş yox, bilavasitə ekoloji süpürgədir, zir-zibil iyi verən havanı süpürüb aparır, yerinə təzəsini gətirir. Amma elə vaxt da olur ki, təzəsi köhnəsindən betər olur. Bu isə o deməkdir ki, bizim ekoloji müfəttişimiz rüşvətxordur, ya da həlləm-qəlləmdi. Kefi istəyəndə havanı təmizləyir, istəməyəndə zəhərləyir.

Belə bir ehtimal var ki, «xəzri» sözü Xəzər dənizinin adından əmələ gəlib. Ola bilər. Hər halda bu dünyada hər şey nədənsə əmələ gəlib, hər varlığın yaradılış mənbəyi var, bircə Allahdan başqa.

Allahla deyə bilmərəm, ancaq Xəzər dəniziylə xəzrinin münasibətləri çox maraqlıdı. Xəzri Xəzərin papağına oxşayır, ya da, papağa yox, örpəyə. Xəzri Xəzərin toz-torpaqlı örpəyi, yaxud kələğayısıdır, çünki Xəzər abır-həyalı dənizdir.

Xəzər dünyadakı iki abır həyalı, bakirə dənizdən biridir; qapalıdır, bağlıdır, açılmayıb və çox güman ki,

heç vaxt açılmayacaq. Əgər Xəzərlə Qara dəniz arasındakı məmləkətləri batıracaq bir zəlzələ olmasa. Nə vaxtsa, belə bir zəlzələ olsa, onda dünya okeanı Xəzər dənizinə də yol açacaq və Xəzər bakirəliyini itirib olacaq o birilər kimi «açıq dəniz».

Allah eləməsin. Elə olarsa, bəs bizim ağ balığımız necə olacaq? Onsuz da bizim vəhşi münasibətimizdən bezib. Sadəcə, getməyə yeri yoxdu, əgər Xəzər «açılsa», ilk olaraq aradan çıxan elə ağ balıq olacaq.

Xəzri Xəzərə bol-bol toz-torpaq hədiyyə edir, Xəzər də bu toz-torpağı udar, yığar dibinə və beləcə, Xəzərin səviyyəsi ildən-ilə qalxar.

Xəzri Xəzərə təkcə toz-torpaq hədiyyə eləməzdi, aradabir beşdən-üçdən balıqçı da bağışlayardı. Lakin Xəzər abır-həyalı olduğu üçün çox vaxt bu bəxşişləri götürməzdi, balıqçıların meyitlərini atardı sahilə.

Bəlkə də, Xəzər bezmişdi eyni şeydən. Nə qədər eyni hədiyyələri qəbul eləmək olar. Elə həmişə toz-torpaq və günün altında rəngi qaralmış balıqçılar. Onun yerinə hər kim olsaydı, qaytarardı bu hədiyyələri.

Xəzər eyni zamanda bakılıların çörək ağacıydı. Çünki Bakının, Abşeronun torpağı bir o qədər də münbit deyil, yaxşı məhsulu olmur, yarımsəhralıqdı. Ona görə də bakılılar gözlərini torpaqdan çəkib dənizə dikiblər. Bakılıların çörək ağacı dənizdə əkilib; dənizin ta ortasında. Bu çörək ağacı çox bərəkətlidi, heç vaxt heç kimi əliboş qaytarmır, bircə xəzri olmasaydı... Bayaq dediyimiz kimi xəzri tez-tez özündən çıxıb dənizdə bitmiş bu çörək ağacını möhkəmcə silkələyərdi, ağaca dırmaşmış fəqir balıqçılar da dəymiş tut kim ağacdan

qopardılar və tökülərdilər aşağıda dayanıb ətəyini açmış əcəlin qucağına.

Xəzriylə Xəzər həm də əcəlin köməkçiləridirlər. Bizim balıqçıların çoxu qırx-qırx beş ildən çox yaşamazdı. Bakıda qoca balıqçılara çox nadir halda rast gəlmək olar.

Başqa ölkələrdə də balıqçılar tez-tez batır, lakin Bakıdakı qədər yox, çünki o tərəflərdə xəzri kimi vələdüzna yoxdur...

Xəzərin balıqçılardan xoşu gəlmir. Səbəb isə məlumdur, bəlkə də naməlumdur...

Xəzridən çox danışsaq da, gilavarın adını çəkmədik. Bəlkə də eşitsə bu haqsızlıqdan inciyəcək, küsəcək, qaşqabağını sallayacaq. Lakin bir az düşünsə, bizi başa düşər. Atalarımız deyib: «igid atını təriflər, müxənnətsə arvadını». Yəqin ki, Gilavardan ətraflı danışsaydıq, Xəzrinin xoşuna gəlməzdi, qəzəblənərdi. Çünki müxənnət deyil, namus-qeyrət məsələsinə bütün bakılılar kimi yaman həssasdı.

Nədəndir sakit olmaz, hər gün aramsız əsər xəzri,
Yəqin ki, axtarır hər yerdə ol güldən əsər xəzri.

Rəva görməz özündən başqa bir kəs o gülə baxsın
Onunçün gözlərimə gündə toz-torpaq ələr xəzri

Necə gör bir sınıbdır qol-budağım, öylə bil ki, mən
Açıqlıqda bitən tənha çinarəm, qəm-kədər xəzri.

Səbanın istirahət vaxtı çatmışsa, zərər yoxdur,
Saçın ətrin bu gündən ver gətirsin hər səhər xəzri

Ayağın dəydiyi hər zərrə torpağı öpərdim mən,
Götürüb qaçmasaydı məndən əvvəlcə əgər xəzri.

Bir an da istəmir ki, səndən ayrılsın, onunçün də,
Bu yerlərdən kənara etməz heç bir vaxt səfər xəzri.

Bu yanda Fəhmi tək aşiqlərin qalmış sənə həsrət
O yanda çəkmiş ağuşa səni o bəxtəvər xəzri.

Xəzridən həmişə Xəzərin iyi, Xəzərdən isə xəzridən başqa hər şeyin iyi gəlir. Ən çox da nöyütün.

Nöyütün əsl adı, yəni elmi adı neftdir, bəlkə də tərsinə, neftin əsl adı nöyütdür. Allah bilir, hər halda bakılıların leksikonunda neft sözü olmayıb, ona görə də ikinci variant həqiqətə daha yaxın görünür. Nöyütü bir zamanlar Abşeron torpağındakı çuxurlardan vedrə ilə yığıb satardılar qərib tacirlərə. Camaat nöyütlə lampa

yandırardı, məşəl düzəldərdi, arabaların çarxlarını yağlayardı.

100-120 il bundan əvvəl Rudolf Dizel adlı bir nemes alimi təzə növ mühərrik kəşf elədi ki, bu mühərrikin kerosinlə qidalanması nöyütə olan tələbatı artırdı. Kerasin nöyütün bir balaca təmizlənmiş formasıdır. Qozun qabığını təmizləyib ləpəsini ayrıca satdıqları kimi, nöyütü də təmizləyib ondan alınan kerosini, benzini yedizdirirlər mühərriklərə. Müxtəsəri, o vaxtdan bəri bu mühərrik sahibləri düşdülər dünyanın canına, başladılar nöyüt axtarmağa, axtara-axtara gəlib çıxdılar Bakıya. Gördülər ki, paho, bura cənnətdi ki. Adamlar hətta tərliyəndə də, bədənlərindən neft damcılayır. Bu minvalla, buruq qoyub başladılar nöyütümüzü bala-bala kaçatdamağa.

Buruqlar şprisə oxşayır. Elə bil, yekə bir dəmir şprisi soxurlar ana torpağın yumşaq yerinə, qara qanını sorurlar bayıra.

Adam öz içindəki qara-qura xüsusiyyətləri çölə çıxardanda dost-tanış ondan üz döndərdiyi kimi, Bakı torpağı da içindəki qara nöyütü üzə çıxaran kimi bitkilər, heyvanlar ondan yavaş-yavaş üz döndərməyə başladılar. Əvvəl taxıl zəmiləri əkilib aradan çıxdı; xırman yerlərində buruqlar peyda oldu. Sonra quşlar yox oldular; Bakının, Abşeronun mərkəzindən qaçıb Xəzərin sahillərinə sığındılar. Ən axırda da Abşeronun ləpədöyənlərində şappıldaşan balıqlar sahillərdən qeyb oldular, çəkildilər dənizin dərinliklərinə. Səbəb də buydu ki, neftin emalı vaxtı yerdə qalan qara qura zibili utanıb qızarmadan axıdırdılar dənizə və sahil zolağının

üzü qaralırdı, sanki suyun üzünə qara boya çəkirdilər. Dəniz dönüb olurdu fağır bir zənci balası.

Dənizin üzü qaraldıqca bakılıların da üzü ağarırdı, balıqların da. Başlarının üstündə adətən günəşi, ayı görməyə adət etmiş balıqlar bir də onda xəbər tutdular ki, neftçilər onların da damını qırrıyıblar, beləliklə, balıqlar da dönüb oldu zənci balaları. Elə o səbəbdən də, utandığlarından baş götürüb getdilər dənizin ortalarına, aylı, günəşli və nöyütsüz yerlərə. Amma bədbəxtlər bilmirdilər ki neftçilər dənizin ortasında da onlardan əl çəkməyəcəklər. Bakıdakı nöyütü içib qurtarandan sonra, üz verəcəklər Xəzərin içərilərinə, orda da buruq qoyub başlayacaqlar suyun altında gizlənmiş nöyütü də içməyə və yavaş-yavaş oralarda dolaşan balıqların da damını qırlayacaqlar. Bəli, balıqlar bunu bilmirdilər, bilsəydilər, ya o vaxtdan özlərini nöyüt içməyə öyrəşdirərdilər, ya da uçmağı məşq eliyərdilər.

Bakı ətrafı meşələrə söz ola bilməz. Bir hissəsi əncirliklərdi, bir hissəsi üzümlüklər, bir hissəsi də buruqluqlar. Qəribə də olsa, Bakı əncirindən, üzümündən nöyüt iyi gəlmir. Heyif, gərək gələydi, əncirin içindən də nöyüt çıxsaydı işimiz lap fısqırıq olardı. Onu da yığıb küt satardıq əcnəbilərə.

Nöyütü əvvəllər arabayla daşıyırdılar, eynən əncir-üzüm kimi, sonralar kiminsə ağlına gəldi ki, dəmir borulardan istifadə eləmək daha sərfəli olar. Elə də elədilər. Mədənlərdən, zavodlara, zavodlardan limanlara borular çəkildi. Bakı tarixinin səthi qoca kişilərin əlləri kimi damar-damar oldu.

Bundan sonra nöyüt aşağıdakı marşrutla hərəkət etməyə başladı: yerin içindən sürünürdü yuxarı, yəni, mədənlərin rezervuarına, ordan da qaça-qaça gedirdi neftayırma zavoduna, limana, nəhayət gəmilərə dolub üz tuturdu uzaq-uzaq məmləkətlərə.

Bu uzun marşrutun son nöqtəsi xaricdəki müxtəlif maşınların, gəmilərin mühərrikləri olurdu ki, onlar da nöyütümüzü həzm-rabedən keçirərək bir topa tüstüyə döndərib buraxırdılar havaya.

O vaxtlar nöyütün marşrutu bizim bir çox cavanlara da maraqlı göründüyündən maddi vəziyyəti imkan verənlərin çoxusu onun yoluyla getdilər. Yəni, burdan qaça-qaça getdilər əcnəbi məmləkətlərə ki, qərbin sivilizasiya mühərriki onların ruhundakı müsəlmançılığı həzm-rabedən keçirtsin və bir burum tüstüyə döndərib üfürsün havaya.

Bu səbəbdən də, o məmləkətlərdə təhsil alıb geri dönən cavanlarımız daha nə müsəlman olurdu, nə bakılı, nə də ümumiyyətlə türk. Ordan gələn cavanlar din-imanı, əxlaqı, itirib, ancaq savad kəsb edirdilər. Yəni, «intelegent» adlı yeni bir millətin, dinin nümayəndəsinə çevrilirdilər. İntelegentlər bizimkilərə yuxarıdan aşağı, oralardakılara isə aşağıdan yuxarı baxırdı. O səbəbdən də bizimkilərin başının təpəsini görürdülər, ordakıların ayaqlarının arasını.

Sonra isə Sovet hökuməti quruldu, «intelegent» millətini «kommunist» tayfası əvəz elədi və ümumiyyətlə, Bakıda çox şey dəyişdi. Yerdə qara qızıl, göydə qızıl bayraq; bir sözlə doşab almışdıq, bal çıxmışdı - aşağı qızıl, yuxarı qızıl...

Bakı tarixində uzundrazlığına görə nöyüt buruqlarıyla bəhsə girən bir məxluq da var ki, onun adına tut ağacı deyərlər. Bizim tut ağacları o qədər uzun olur ki, az qalır başı dəysin Bakı tarixinin damına. (Tavanına yox, məhz damına, Bakı tarixinin tavanı yoxdu). Əslində biz tut ağacı deyəndə ağ tutu nəzərdə tuturuq, çünki qara tut bir o qədər də iri olmur. (Bəziləri deyə bilər ki, çinar ağaclarımız ağ tutdan da uzundur. Bəli, uzun olmağına uzundur, amma Bakı tarixində çinar olmayıb, onları sonradan kommunistlər gətirib). Ağ tut ağacları nöyüt buruqları boyda olsalar da, onlardan bir fərqi var. Buruq sadəcə uzundur, daha doğrusu uzundrazdır, ağ tut ağacları isə həm uzundu, həm də möhtəşəmdi, əzəmətlidi, vüqarlıdı. Nöyüt buruqları Bakının gələcəyidi, tut ağacları isə keçmişi. İlk buruqları əcnəbilər icad eləyib, əcnəbilər qurub, ona görə də buruqlar elə əcnəbilərə oxşayır, yəni içi boş olurlar. Tut ağacları isə bizim köhnə kişilərə bənzərlər.

Məndən olsa deyərdim ki, tut ağacı Bakı tarixinin simvoludur, lakin bir az əvvəl həm öz babamı, həm də bizim damlardakı qırı Bakının simvolu elan elədiyimçün tut ağacına yer qalmır. Yaxşı bəs onda tut ağacı Bakının nəyi olsun?

Əşi, atalar üçdən deyib, gəlin dediyim üç şeyin hamısını Bakı tarixinin simvolu hesab edək, yəni Bakı tarixinin simvolu qırlı damda bitmiş tut ağacına dırmaşan babamın şəkli olsun.

Qoy babam Bakının qədimi kişilərinin, qır yeraltı sərvətlərinin, tut ağacı isə təbiətinin rəmzi kimi çıxış etsin.

Tut ağacının da xəzriylə münasibətləri gərgindir, çünki xəzri bu ağacın budaqlarını sındırır, bəhərini çırpıb yerə səpir, başına toz-torpaq ələyir.

Bakı damlarının aralarından boylanan tut ağacları asfaltı deşib çıxan otlara bənzəsə də, onlar kimi yararsız deyillər. Tut ağacları Bakı tarixinin mədəni, elmi, tərbiyəvi mərkəzləri olub. Tut ağacı xırda uşaqlara idman meydançasını əvəz edib – dırmaşıblar, tullanıblar, sallanıblar; tut ağacının kölgəsində şeir-qəzəl, meyxana məclisləri qurulub, arvadlar yığışıb laqqırtı vurub, tut ağacının altında gecələr sevgililər görüşüblər, tut ağacına çoxlu mıx çalıb asılqan düzəldiblər və s...

Bakı kəndlərində tut ağaclarının dövrəsində, adətən, çoxlu əncir əkərdilər ki, tut darıxmasın, darıxsa bəhəri olmaz. Əncir ağaclarının kölgəsində yatmağa uşaqları qoymurlar. Guya kim onun altında yatsa, cin-şeytanın hücumuna məruz qalar, yaxud əncir ağacı adamı yuxudaykən boğub öldürər. Əncir yarpaqları insan əlinə bənzəyər, elə bil beş dənə barmağı var. Çox güman ki, bayaq dediyim fikrin yaranmağı da, əncir yarpağının məhz bu formada olmasıyla bağlıdır. Allah bilir, bəlkə də hansısa köhnə bakılı yüz qram vurandan sonra gəlib yatıb əncir ağacının altında, külək də onun başı üstündəki, yarpaqları tərpədib, bu bədbəxt də yarımyuxulu halda gözlərini açanda elə bilib ki, hansısa naməlum bir məxluq yaşıl əllərini uzadıb onu boğmaq istəyir və elə bilib ki, əcinnələr ona hücum edir. Bundan sonra da, hər yana səs salıb ki, bəs, əncir ağacının

altında kim yatsa, cin-şeytan onu boğacaq, mən özüm canımı güclə qurtardım.

Əncir ağacını əhatə eləyən bu mistik aura ona gətirib çıxarıb ki, tut ağacından fərqli olaraq, onun gövdəsini heç kəs asılqana döndərməyib. Bəlkə də məsələ əncir ağacının pota olmasındadı. Əgər o da tut ağacları kimi hündür olsaydı, camaat heç mövhumata-filana fikir verməzdi, bir ovuc yüzlük mıxı çalardılar birbaşa onun mistik aurasına və həyətdəki artıq şeyləri asardılar bu iri mıxlardan.

Hə, beləliklə, gəlib yetişdik Bakı tarixinin ən qəribə və əcaib bir nöqtəsinə, yəni mıx məsələsinə. Bakı kişilərinin, ələlxüsus yaşlı nəslə mənsub bakılıların çox əndrabadi bir adəti var; həyətin dər-divarında taxtadan düzəlmiş nə varsa, hamısının üstünə mıx vurub oradan nəsə asmaq. Və Bakı həyətlərinin demək olar ki, hamısında tut əkildiyinə görə, mıxlardan çoxusu, məhz bu ağacların payına düşür.

Canlı asılqana dönmüş tut ağacları bədəninə oxlar sancılmış xristian apastollarına oxşayır (mən bu övliyaların şəkillərini Avropa İntibah dövrü rəssamlarının albomlarında görmüşəm və uşaq vaxtından belə tablolara baxaraq fikirləşirdim ki, görəsən, bu oxları, nizələri yazıqların bədəninə elə belə sancıblar, yoxsa çəkiclə vurublar). Şükürlər olsun ki, o vaxt şəhid apastolların bədəninə sancılmış oxlardan nəsə asmaq heç kimin ağlına gəlməyib, ya da asmağa bir şeyləri olmayıb.

Amma onu deyim ki, əgər həmin müqəddəs apastolları iyirmi-otuz il bundan əvvəl Bakının köhnə

həyətlərindən birində çarmıxa çəkib oxlasaydılar, bakılılar heç vəchlə bu fürsəti əldən verməzdilər; müqəddəsliyə-filana əhəmiyyət vermədən biri gəlib oxdan dəmir vanna asardı, biri maşın pakrışkası, bir ayrısı da mis aftafa. Sonra da səhər tezdən hansı birisə qarnını sıxıb rahatxanaya qaçanda görərdi ki, asılqanın yeri boşdur, müqəddəs apastol də, mis aftafa qarışıq qeybə çəkilib.

Hər nədisə xristianların bəxti gətirib...

Harasa mıx vurmaq bakılıların nəzərində çox ali bir fəaliyyət növüdür. İnsan hansısa bir obyektə mıx vurub oranı asılqana döndərməklə, sanki təbiətə və hökumətə meydan oxuyur. Məsəlçün, tut ağacına mıx vuranda fikirləşir ki, təbiət bunu ağac kimi xəlq eləsə də, mən onu asılqana döndərirəm, deməli, təbiətə qalib gəlirəm, əjdahayam, məndən yoxdu.

Köhnə Bakı həyətlərindəki bütün tut ağaclarının və başqa taxta predmetlərin asılqana dönməsinin bir səbəbi də darısqalçılıqdır. Kiçik həyətlərdə artıq şeyləri yığmaqçün ayrıca anbar tikmək imkanı olmadığından, adamlar məcbur olur əli çatan yerlərə mıx çalıb nəyi varsa ordan assın.

Bakının tipik köhnə həyətlərindən birini təsvir edək: qalın taxta qapını açıb dörd-beş ailənin yaşadığı 40-45 kv.m-lik həyətə daxil oluruq. Həyət qapısının arxasına vurulmuş mıxlardan bir burum rezin şlanq (xalça –palaz yumağçün), uşaqların düzəltdiyi «samokat» və bir neçə ədəd naməlum dəmir-dümürlər asılıb. Keçirik bir az qabağa. Həyətin sağ küncündəki taxta rahatxananın divarına vurulmuş mıxlardan aftafa

, süpürgə, xəkəndaz və iki ədəd plasmas vanna sallanıb. Hə, Həyətin ortasında isə iri bir tut ağacı. Tut ağacının asılqana dönmüş gövdəsindən velosiped təkəri, balta, mişar, şvabra, və s . məişət predmeləri yellənir. Bütün mənzillərin qapılarının enli çərçivələrindəki mıxlara da kartof-soğan dolu kapron setkalar keçirilib.

Kənardan baxanda Bakı tarixi özü elə möhtəşəm bir asılqandır. Daha kimlər asılmayıb bu asılqandan… Sisyanovdan tutmuş Rastrapoviçəcən. Bakı tarixindəki mıxlardan o qədər şey asıblar ki, qorxuram onların ağırlığına tab gətirməyə, parça-parça olub tökülə yerə. Onda vay biz bakılıların halına. Hər şey əlimizdən alınandan sonra, daha özümüzü asmağa da, yerimiz olmayacaq. Məcbur olub öz ah-fəryadımızdan sallanacağıq. Ona da ki, heç etibar yoxdur.

Asılmağa qalanda Bakı tarixindən ən möhkəm asılan şey Qız qalasıdır. İndiyəcən müəmmalı qalır ki, Bakı tarixi bu boyda zırıltını necə saxlaya bilib və necə olub ki, indiyəcən bir dəfə də qırılıb düşməyib. Amma nə yaxşı ki, qırılıb düşməyib, yoxsa bütün bakılılar Qız qalasının altında qalası olardılar, yəni əzilib xingala dönərdilər.

Bakılılarçün Qız qalası adlı bir zad, ümumiyyətlə, mövcud deyil. Kubinka var, Çəmbərəkənd var, İçərişəhər var, Axund hamamı var, amma Qız qalası yoxdur. Qəribədi, Bakı tarixinə ekskursiyaya çıxanlar ilk növbədə Qız qalasının seyrinə dalır, içinə girir, daş-divarına əl sürtür, təpəsinə çıxır. Bakılılarsa, hətta qalanın yanından keçəndə də, bircə dəfə də olsun başlarını qaldırıb yuxarı baxmırlar. Bakılılar binayi-

qədimdən yerəbaxan adam olublar, göyə çox baxmağı xoşlamayıblar, çünki adam yuxarı çox baxanda papağı düşəcək yerə, qalacaq ayaq altında.

Qız qalası bakılılarçün ona görə yoxdur ki, bu qalanın nə funksiyası, nə tikilmə tarixi, nə də əcaib görkəmindən bu vaxtacan baş açа bilməyiblər. Rasional adamlar olduqlarına görə, mahiyyətini dərk edə bilmədikləri bir şeyi təbii ki, mövcudatın bir zərrəsi kimi qəbul etmirlər.

Heç kim bilmir ki, bu zırıltının adını nəyə görə Qız qalası qoyublar. Biri deyir ki nə vaxtsa bir qız özünü yuxarıdan tullayıb aşağı, bir ayrısı belə bir fərziyyə irəli sürür ki, zərdüştlər meyitləri bunun təpəsinə düzürmüşlər, bir sözlə, hamı ağzına gələni danışır. Şəxsən mənim ağzıma gələn budur ki, bu qalanı əhatə edən pərdeyi-əsrar (yəni sirr pərdəsi) hələ də cırılmamış qaldığına görə, elə adını da Qız qalası qoyublar, başqa sözlə desək, qala qız qalıb, sirri açılmayıb, qalanın sirri öz bakirəliyini saxlayıb. Əgər bu sirri, nə vaxtsa, kimsə açа bilsə, yəni onu əhatə edən sirr pərdəsi parçalanıb dağılsa, onda biz də bu qalanın adını dəyişib qoyarıq «Arvad qalası».

Qız qalası Xəzərlə yaxın rəfiqə olublar, söhbətləri tutub, çünki hər ikisi bakirədir və hər ikisi də qız qarıyırlar.

Bir vaxtlar bu iki rəfiqə lap yaxın idilər, aralarından yel də keçmirdi. Hər gün qucaqlaşıb birgə yatardılar. Lakin sonralar camaat bu iki qız uşağının belə isti münasibətlərində lesbiyanlıq əlamətləri

olduğundan şübhələndiyinə görə, onları bir-birindən ayırmaq qərarına gəldilər və Qız qalasıyla Xəzərin arasında əntiqə bir bulvar tikdilər.

Bulvar Bakının dodağıdır, ya da dodaqlarıdır. Yox, yenə düz olmadı, axı bulvar bir dənədir, onda belə deyək, bakının cəmi bir dodağı var, o da bulvardır. Bakı birdodaqlı şəhərdir, həm də yaman enlidodaqdır. Təyyarədən baxanda adama elə gəlir ki, şəhər başını sahilə qoyub acgözlüklə dənizin şor suyunu içir (yəqin şor su ilə şollar suyunu səhv salıb). Məncə, əcnəbilər də məhz elə bundan istifadə ediblər; Bakı başını sahilə qoyub su içən zaman tullanıb miniblər boynuna. Həm də, elə möhkəm miniblər ki, indiyəcən düşürdə bilmirik, bəlkə də heç düşürtmək istəmirik. Bəlkə də düşürtmək istəyirik, amma böyüklər qoymur, çünki əcnəbiləri boynumuzdan endirməyi tələb edən qara camaatdan fərqli olaraq böyüklərimiz ağıllıdırlar, bilirlər ki bu qurumsaqlar (yəni əcnəbilər) mindikləri yerdən hələm-hələm düşən deyillər, əgər məcburi surətdə düşürtməyə cəhd eləsək, yapışdıqları yeri iti dırnaqlarıyla cırıb-dağıdacaqlar. Əsl gənə kimi. O səbəbdən də, gərək səbr edək, gözləyək ki, nə vaxt istədikləri qədər qan sovurub doysunlar, onda bəlkə öz xoşlarıyla belimizdən düşdülər. Lakin şəxsən mən başqa şeydən qorxuram. Qorxuram ki, belimizdən düşən əcnəbilər gedəndə öz yerlərini başqalarına tapşırsınlar. Yəni biri belimizdən düşən kimi, yubanmadan bir ayrısı minsin.

Amma bu artıq ikinci fraqmentin mövzusudur. Hələliksə, Bakıya yağış yağır, yuxarı məhəllələrin bütün

toz-torpağını yuyub aparır dənizə. Sudan gələn suya gedər; yağışdan gələn dənizə…

İnsan deyiləm, indi bunu anlamışam mən,
Eşq adlı buluddan süzülən bir yağışam mən,
şıltaq yağışam mən.

Yağdırsa da çirkabə məni qarə buludlar,
Qəlbimdəki şəffaflığımı saxlamışam mən,
çünki yağışam mən.

Hər gün döyürəm pəncərəsin sevgili yarın,
Yox ayrı yolum ki, ona dərdim danışam mən,
dilsiz yağışam mən.

İsbat eliyə bilməyirəm eşqimi heç cür,
Mümkün ki deyil eşqin oduna alışam mən,
çünki yığışam mən.

Yarın evinin dövrünü dəryayə çevirdim,
Çox şükr, rəqibin yolunu bağlamışam mən,
qısqanc yağışam mən.

Yağsam da yerə, göylərə qaytar məni, ya rəbb,
Torpaqlara biryolluğa qoyma qarışam mən,
çünki yağışam mən.

Fəhmi, mənim eşqim ola bilməz ki, tükənsin,
Eşq aldı buluddan süzülən bir yağışam mən,

bitməz yağışam mən.

İkinci fraqment

Birinci fraqmentimiz əcnəbilərlə başa çatmışdı, daha doğrusu başa çatmamışdı, yarımçıq qalmışdı, çünki başımız qarışdı bəzi-bəzi vacib işlərə, yazı qaldı başlı-başına, yəni yiyəsiz, detdom uşaqları kimi. Elə ona görə də, bu yazımızın başı keçəl kimi görünür,

Nə isə, keçək əcnəbilərə. Əlbəttə ki, əcnəbilər Bakı tarixinə yaxın gəlməzdilər, əgər nöyüt olmasaydı. Düzdü, «qibleyi-aləm nöyüt»ün zühurundan qabaq da Bakı tarixinə əcnəbilər gəlib-gediblər. Bəli, məhz gəlib-gediblər. Neftin zühurundan sonra isə birdəfəlik gəldilər, daha heç yerə getmədilər, tuği-lənət olub keçdilər boğazımıza, həmişəlik qaldılar burda.

O vaxtlar, yəni zühurdan qabaq Bakıya gəlib-gedən əcnəbilərin qoyduğu ən gözəl yadigar təbii ki, Atəşgahdı. Allah, o vaxt Bakıya yolu düşən Hindistan tacirlərinin canını sağ eləsin ki, öz ibadətləri xətrinə olsa da, bu Atəş məbədini tikdirdilər. Barı, indi xarici turistlərə göstərməyə bir şeyimiz var.

Bakı tarixini ilk dəfə seyrə çıxan əcnəbilərin təəccübünü, heyrətini təsəvvür etmək çətin deyil. O binəvalar uzaq-uzaq, soyuq-soyuq məmləkətlərdəki evlərini qızdırmaqçün itin zülmünü çəkirlər, meşədən ağac qırırlar, doğrayırlar, sürüyüb evə gətirirlər, sonra da yandırırlar ki, həm soyuq canlarını tərk etsin, həm də

külfətçün, ayıb olmasın, xörək bişirsinlər. Bakı tarixinə yaxın gələndə isə, gördülər ki, pay atonnan, burda bir az bərk asqıranda da, yerdən qaz, nöyüt çıxır və başlayır yanmağa. Hünərin varsa Bakı ətrafını gəzməyə çıxanda əlində məşəl saxla. Yox, saxlamağına saxlaya bilərsən, hər halda, məşəl namus-qeyrət qədər ağır bir şey deyil, ancaq bir də görəcəksən ki, yerin üstündəki çatlardan çıxan qaz məşəldən od götürüb yanır, kefinə düşsə, məşəl gəzdirən qurumsağın özünü də ağzına salıb başlayır çeynəməyə, yəni binəvanı tamam yandırır. Şübhəsiz ki, Bakı tarixinə gələn nabələd qonaqların hamısın yanıq olmasının səbəbi də məhz budur; bir qismi yanıq gəlir, bir qismi də, bura varid olandan sonra yanıqlaşır. Bəli, hər şeyin səbəbkarı elə həmin qazdı.

Bir sözlə, Bakı, o vaxtlar qazlı şəhər idi, hələ əcnəbilər qazını sovurub aparmamışdılar. Şəhərimiz o vaxtlar çox yuxarıdan gedirdi. Əcnəbilər aşağıdan baxanda Bakını xəzrinin səpələdiyi toz-torpaq dənələri boyda görürdülər. Bakı əhli də, yalnız elə o vaxtlar adam kimi yaşayıb; öz əli olub, öz başı. Nöyüt gölməçələrinin içində günəş vannaları qəbul edə-edə yeyiblər ənciri-üzümü, içiblər təmiz Şollar suyunu… Yox, yalan dedim deyəsən, mən danışdığım vaxtlarda Bakı tarixinə hələ Şollar suyu dürtülməmişdi. Bəli, mən Bakıya Şollar suyunun çəkilməsindən çox-çox əvvəllərdən danışıram. Hə, onda camaat hələ quyu suyu içirdi. Bu zəhrimara qalmış quyular da, bakılıları dolayırdu barmağına. Kefi istəyəndə su verirdi, keyfi istəyəndə nöyüt. Çox vaxt, əlbəttə ki, nöyüt verirdi. Onda susuzluqdan dodaqları çatlamış bakılılar bu qara-

qura horranı (yəni nöyütü) torpağın içinə dolduranın əkib-doğanını söyə-söyə əziyyətlə qazıdıqları quyunu təzədən doldurardılar torpaqla, daşla, nə bilim, nəylə.

Yazıq Bakı torpağı başıqapazlı detdom uşaqları kimi, həmişə ara yerdə söyülüb. Əvvəl nöyüt verirdi - söyülürdü ki, su yerinə gör nə çıxır. Sonralar başladı su verməyə - yenə söyüldü ki, biz nöyüt istəyirik, ancaq yerdən su çıxır, buruğa, qazmaya qoyduğumuz filan qədər pul batır. Fəqir Bakı torpağı da qalırdı heyrət və təəccüb içində, bilmirdi bu adamlara nə versin – su, yoxsa, nöyüt?

Ümumiyyətlə, Bakı torpağında nə tilsim varsa, bura gələn gələn adamların hamısı birdən-birə dəyişirlər, qudururlar, naşükür olurlar.

O vaxtlar Bakı elə bircə İçərişəhərdən ibarət olub. Qala divarlarından bayırda ev-zad tikməzdilər, ehtiyat edərdilər. Həftə səkkiz – mən doqquz şimal qonşularımız taxta lötkələrinə minib Maxaçın qalasından (Yəni Maxaçqaladan) üzüaşağı üzərdilər, Abşeron sahillərinə tökülüşüb Bakıətrafı yerləri çapıb talıyardılar, əncirli-üzümü oğurlayıb aparardılar soyuq şimal məmləkətlərinə, sonra da Don çöllərinin ortasında oturub çastuşka deyə-deyə əncir, üzüm yeyərdilər, ya da tərsinə, əncir-üzüm yeyə-yeyə çastuşka deyərdilər, oynayardılar, bir sözlə, əməlli başlı kefə baxardılar. Kişilər əncir-üzümdən yedikcə, milli-mədəni kalorit daşıyıcısı olan bu meyvələrin orqanizmə göstərdiyi təsir nəticəsində, torba şalvarlı şimal qonşularımızın dediyi çastuşkalar da, hiss olunmadan Bakı meyxanalarına bənzəməyə başlardı, sonra da, kişilər təzədən

qayıqlarına minib gələrdilər üzüaşağı, bizim meyxanaçılarla deyişməyə, söz güləşdirməyə.

Axmaq olublar o vaxt. Ağılları olsaydı əncirin-üzümün yerinə nöyütü oğurlayardılar, aparıb tökərdilər öz quyularına, göz bəbəyi kimi qoruyub saxlayardılar, indi də satardılar əcnəbilərə. Heyif ki, aparmayıblar, aparsaydılar indi bizim də qulağımız dinc olardı.

Yəqin indi başlarına döyüb təəssüflənirlər, amma «sonrakı peşmançılıq fayda verməz» deyiblər.

Şimal qonşularımızın quldurluğu, o vaxtlar, ümumiyyətlə, Bakı ətrafı yerlərə çox ziyan vurublar, hətta deyilənə görə Pirallahı adasının üzbəüzündə, indiki mayakın yerində, Abşeron adlı liman şəhəri də olubmuş (həqiqətən də oranın quruluşu limançün çox əlverişlidir, Pirallahı adasının yarımadaya söykənən yerində buxtaya oxşar yer əmələ gəlib ki, oraları külək tutmur). Amma əfsuslar olsun ki, quldurlar həmin liman şəhərini bütünlüklə dağıdıb, camaatını qırıblar, sağ qalan beş-on nəfər də qaçıb gizlənib Zirə kəndində. Heyif ki, bu limanın əhalisi öz doğma şəhərlərini qala divarları ilə əhatə etməyə tənbəllik ediblər, beləliklə, dəniz quldurlarının basqınları qarşısında aciz qalıblar.

Bakıya hücum çəkən dəniz quldurlarının içində hamının tanıdığı bir şəxs də olub. Bir vaxt kazak atamanı Stepan Razin də lötkəylə Bakı tarixinə qonaq gəlmişdi və uzun müddət bizə deyirdilər ki, Razinin gəlməyi bizimçün fəxrdi, şərəfdi. Kişi gəlib bizi xöşbəxt eliyib. Düzdü, bu xöşbəxtliyin nədən ibarət olduğunu açıq izah edən yox idi. Yoxsa fikirləşərdik ki, aya, bu Razin deyilən vələddüzna əgər gəlib Bakı ətrafını çapıb,

talıyıb, camaatımızı qırıbsa, bunun harası xöşbəxt eləməkdi ki, hələ üstəlik onun adına qəsəbə də tikək, qəsəbənin yanındakı dağı da onun ismi-şərifiylə adlandıraq…

Bakının yalnız İçərişəhərdən ibarət olduğu vaxtlarda yerli əhali də, iki yerə bölünürdü. Yox, varlı və kasıblar bölgüsünü demirəm. Bakı əhli o vaxt iki yerə bölünürdü -arıqlar və gombullar. Arıqlar adətən Bakının, yəni İçərişəhərin içində, gombullar isə qala divarlarından kənarda yaşayırdılar.

Əhalinin bu cür bölgüsü yalnız ilk baxışdan qeyri-adi görünə bilər. Dərinə gedəndə, burda qəribə heç nə yoxdur. Bu cür bölgü istər qurudan, istərsə də dənizdən Bakıya çoxlu basqınların olmasıyla əlaqədardır…

Deyəsən fikirlərimizin ucunu itirdik, hər şeyi qatıb qarışdırdıq biri-birinə. Onda əvvəldən başlamağa çalışaq. Bakını, yəni İçərişəhəri salanda evləri biri-birinə çox yaxın tikiblər ki, qəfildən qalaya basqın olanda hücum edənlər içəri girib çaşsınlar, özlərini itirsinlər. Küçələrin darlığı düşmənə öz ordusunun hamısını eyni vaxta döyüşə daxil etmək imkanı verməsin və qabaqdakılar vuruşarkən daldakılar əllərini cibinə qoyub öndəkilərin ölməyini gözləməli olsunlar. Sonralar elə də olurdu, Bakının azsaylı müdafiəçiləri bu səbəbdən böyük-böyük basqınların qarşısını ala bilirdilər.

Amma küçələri bu cür dar tikəndə əsas bir məsələ bakılıların yadından çıxmışdı: Yəni namus, qeyrət məsələsi. Fikirləşməmişdilər ki, bu dar küçələrdə

naməhrəm olan arvadla kişi üzbəüz gələ bilər və keçəndə biixtiyar bədənləri biri-birinə sürtülər. Ələlxüsus, hər ikisi gombul olarsa. Yalnız şəhər tikilib qurtarandan sonra Bakı əhli öz səhvini başa düşdü və daş atıb başını tutdu. Amma gec idi, şəhər artıq tikilib qurtarmış, ətrafına hündür bir hasar da çəkilmişdi. Bu qədər zırıltını söküb təzədən tikməkçün isə çoxlu pul lazım idi ki, bakılılarda da o qədər pul yox idi, kredit də heç kim vermirdi, çünki o xöşbəxt vaxtlarda hələ nöyütdən istifadə üsulları tapılmamışdı və pullu əcnəbilərin gözündə nöyüt qara-qura horradan başqa bir şey deyildi.

Beləliklə, bakılıların böyükləri, daha dəqiq desək, böyük bakılılar oturub bu işə əncam çəkməkçün çox fikirləşdilər, düşünüb daşındılar, yaxın yerə yük daşıdılar, nəhayət, qərara gəldilər ki, kökəlmiş arvadları evdən bayıra buraxmasınlar. Yoxsa, dar küçələrdə yad kişilərlə üzbəüz gələndə, onların yanından sürtülüb keçəndə hər ikisinin şəhvani hissləri qıcıqlanar və ola bilər ki çar-naçar günah əməllərə yol verələr. Bu hal müsəlmançılıqla heç düz gəlmirdi, bakılılar da ki, imanlı müsəlmanlar olduğuna görə, belə şeylərə yol verə bilməzdilər. Beləliklə, gombul arvadlara küçəyə çıxmaq qadağan olundu.

Bir müddət beləcə davam etdi, ilk baxışdan elə görünürdü ki, işlər qaydasına düşüb. Lakin bir azdan daha bir qəmbərqulu çıxdı ortaya (İçərişəhərin döşəməsinə düzülmüş qəmbərləri demirəm). Məlum oldu ki gombul arvadların qıçlarını sındırıb evdə otuzdurmaqla iş bitmir. Dar küçələrdə hətta gombul

kişilər də, üzbəüz gələndə, bədənləri biri-birinə sürtülüb keçəndə, bu təmasdan şəhvani hisslər yarana bilər. Ümumiyyətlə, cinsindən asılı olmayaraq iki bəni-adəm biri birinə çox sürtülürsə, prosesin axırı heç yaxşı qurtarmır. Bunu öz üzərində sınaqdan keçirən və nəticədən narazı qalan böyük bakılılar yenə də papaqlarını qabaqlarına qoyub fikrə getdilər, axırı qərara gəldilər ki, bütün gombul adamları müvəqqəti olaraq qaladan (yəni İçərişəhərdən) kənarda yerləşdirsinlər. Bakının dar küçələrini hesabladılar, ölçüb biçdilər və belə bir nəticəyə gəldilər ki, çəkisi təxminən altı pudacan olan adamlar bu dar küçələrdə üzbəüz gələndə biri-birinə sürtülmədən keçə bilərlər (təbii ki, ürəklərindən qəsdən sürtülmək keçməsə; əgər daxildə belə bir istək olarsa, daha heç bir qanunla bunun qabağını almaq olmayacaq. Küçədə qoymayacaqlarsa, gedib xudmani bir karvansara bucağı tapıb rahatca biri-birinə sürtüləcəklər, hələ bəlkə bir az o yana da keçəcəklər. Adam da tapmasalar, gedib girişəcəklər qoyun-quzuya, bəd ayaqda da keçiyə… Allah uzaq eləsin).

Beləcə, böyük bakılılar qanun qəbul elədilər ki, çəkisi altı puddan artıq olanlar qalanın içərisinə buraxılmasınlar. Əlbəttə, fövqəladə halları çıxmaq şərtiylə, çünki mühəribə, basqın, tufan, nə bilim, ayrı fəlakətlər zamanı onsuz da aləm bir-birinə elə qarışır ki, kiminsə kiməsə sürtülməsi o qədər də böyük əhəmiyyət kəsb eləmir. Bir sözlə, şəhər həsənsoxdu dəyirmanına dönür.

Dediyimiz qərar qəbul ediləndən sonra Bakının gələcək inkişafına təkan verildi, yəni İçərişəhərə buraxılmayan gombullar ətraf ərazilərdə məskunlaşmağa məcbur oldular, bu minvalla, şəhər böyüməyə başladı.

Bakı tarixinin göbəyi İçərişəhər olduğu kimi İçərişəhərin də göbəyi… yox, Qız qalası deyil, Qız qalası Bakı tarixinin başqa şeyidir, ondan danışmaq ayıbdı, Bakı tarixinin göbəyi Xan sarayıdır. Yəni Şirvanşahlar sarayı.

Hərçənd ki, mən hərdən bu imarətin məhz Şirvanşahlar sarayı olmağına şübhə edirəm. Niyə? Ona görə ki, tarix kitablarında Şirvanın o vaxtlar dövlətli bir ölkə olduğunu yazırlar. Guya xaricilərə ildə filan qədər Şirvan ipəyi, filan qədər Şamaxı xalçaları və nə bilim, nələr, nələr satılırmış, şimaldan cənuba aparan ticarət yolları burdan keçdiyinə görə əcnəbi tacirlərdən filan qədər vergi yığılırmış. Təbii ki, bu maddi gəlirin çoxusu Şirvan şahlarının cibinə, yaxud pul kisəsinə, daha dəqiq desək, xəzinəsinə axırdı. Hə, belə daha düz olur. Beləliklə, bu nəticəyə gəlirik ki, Şirvanşahlar heç də kasıb olmayıblar. Amma tikdirdikləri saraya (adamın heç saray deməyə də dili gəlmir) baxanda şəxsən mən başqa şey düşünürəm. Bir ovuc yerdə tikilən, beş-altı otaqdan, xırda bir həyətdən, metrə yarımlıq divanxanadan, bir-iki dənə də sərdabadan ibarət olan bu saraya baxanda, mənə elə gəlir ki, ya tarix kitablarında Şirvanşahların varlı olmasına dair məlumatlar yalandır, ya da Şirvan şahları həddən

ziyadə simic olublar. İndi elə İçərişəhərin özünün JEK müdirlərinin hərəsinin Şirvanşahlar sarayından üç-dörd dəfə böyük villası var. Hamısı da «Yevroremont». Mən hələ icra hakimlərini, polis rəislərinin, nə bilim nazirləri və s. adamları demirəm. Bu adamların yanında o vaxtkı Şirvan şahları müxalifət qəzetlərinin redaktorları qədər kasıb görünürlər.

Lakin bir məsələ də var, ola bilər ki, o vaxtkı Şirvan şahları nə kasıb olublar, nə də simic. Sadəcə, əsl müsəlman kimi dünya malında gözləri olmayıb, cahü-cəlal sevməyiblər, yəni, gözü tox olublar. Yox, əgər indikilər kimi olsaydılar, bütün İçərişəhər camaatını, arıq-köklüyünə baxmadan qaladan qırağa köçürdüb, içərini eyləyərdilər şahın şəxsi malikanəsi, daha doğrusu, iqamətgahı, qala divarlarından Şirvanşahların yekə-yekə şəkillərini asıb altında yazardılar: Xalq «ŞŞ» deyir. (ŞŞ, yəni Şirvan Şah). Camaatı da, məcbur edərdilər ki, bürclərə yaxın gələndə mütləq Salavat çevirsinlər (bu yerdə lap çox gopa basdım, deyəsən, o vaxtlar müsəlman aləmində adam şəkili çəkməyə icazə vermirdilər).

Bəli, Şirvanşahlar bunu edə bilsələr də, etmədilər, çünki bayaq dediyimiz kimi əsl müsəlman olublar.

Bəzi alimlər belə rəy irəli sürür ki, bizə saray kimi təqdim olunan bina əslində Seyid Yəhya Bakuvi adlı bir sufinin xanəgahı olub, Şirvanşahlar sarayı isə hardasa dənizin içindəymiş. Dənizin içində deyəndə, camaat düz başa düşməz, elə bilər ki, saray suyun altında yerləşibmiş, padşahlar da amfibiya imişlər. Yox qətiyyən, saray indiki buxtanın içində olub, sadəcə, o

vaxtlar su xeyli daldaydı, indi suyun altında qalan saray o vaxt dəniz sahilindəydi.

O vaxtlar Bakı ətrafında meşəliklər, dağlar da vardı (meşə deyəndə Fatmayı, Novxanı üzümlüklərini, dağ deyəndə isə Patamdart, Şubanı yüksəkliklərini nəzərdə tuturam). Deyilənə görə, Abşeronun ucqarları - Pirallahı, Zirə, Gürgan, Şahdili tərəflər sıx cəngəllik olubmuş. O ki qaldı Şahdilinə (indi həmən yerə «Şaxovı kosa» deyirlər) buranın adı da çox maraqlıdı. Vertolyotdan baxanda Abşeron yarımadası, doğurdan da, hansısa naməlum məxluqun (bəlkə də elə Şirvanşahın) başına, Zirə kəndi tərəfdən dənizin içərisinə uzanan nazik torpaq zolağı isə dilinə oxşayır.

Kimsə soruşa bilər ki, eləysə Pirallahı adası da bu məxluqun (bəlkə də Şirvanşahın) buynuzuna oxşayır, bəs nəyə görə oranın adını Şahbuynuzu qoymayıblar? İlk baxışdan məntiqi sualdır, həqiqətən də Pirallahı adasına Şahbuynuzu adını qoysaydılar daha düzgün olardı. Lakin bir məsələ var. Əgər belə olsaydı, camaata elə gələrdi ki Şirvanşahın arvadı ona xəyanət edir, kişi buynuz çıxardıb. Bu da ki, həqiqətə uyğun deyil. O vaxtın arvadları namusu, abırı hələ göy əsgiyə büküb dənizə atmamışdılar. Beləliklə, Şirvanşaha şər atmamaqçün Şahbuynuzu sözünü kənara qoyublar.

O ki qaldı, ümumiyyətlə, buynuz məsələsinə, Bakı tarixinə buynuz atanlar həmişə çox olubdu. Ən birinci buynuz atanların cərgəsində İmadəddin Nəsimi də var idi. Şübhəsiz ki, söhbətin hürufilərdən getdiyini anladınız. On dördüncü əsrdə Bakı şəhəri hürufilərin mənzil-qərargahına dönmüşdü. Bizim şəhər o vaxtlar

İslam aləminin bir növ ucqar bir guşəsi sayıldığından cənub padşahlarına zidd gedən bir çox adamlar (yəni o vaxtın müxalifəti) qaçıb Bakıda gizlənirdilər.

Teymurləngin əlindən qaçan hürufi dərvişləri də, o vədələrdə, Bakıda o qədər çoxalmışdılar ki, az qala bütün şəhər əhlini və kənardan gələn qonaqları yoldan çıxartmağa nail olmuşdular. Deyilənə görə, «Allahü-əkbər» pıçıldayaraq qala qapısından içəri girən adamlar, bir-iki gündən sonra qaval çala-çala, «Fəzl həqq», «Ənəl-həqq» qışqıra-qışqıra bayıra çıxırdılar, bığ-saqqal qırxdırmağı da tərgidib olurdular hürufi. Bədii dillə desək içəri «adam» girən, «allah» olub çıxırdı. Bakı dönmüşdü Allah istehsal edən «konveyer»ə, Fəzlüllah Nəimi ilə İmadəddin Nəsimi Bakıda «avtoritetlər»ə, yaxud «karanovonnı vor zakonlar»a çevrilmişdilər. Qanuni hökümət qalmışdı bir qırağa, hamı onların sözüylə oturub-dururdu. Şəhər hakimi də, qazısı da bu iki «avtoritet»ə toxunmurdular, qorxurdular. Fikirləşirdilər, xətirlərinə dəyərik, sonra hirslənib çoxsaylı allahlarını buraxarlar canımıza, onlar da taxta qılınclarını itiliyib soxarlar … nə isə...

Bir müddət vəziyyət dəyişmir. Lakin günlərin bir günü hürufilərin Bakıda (o vaxtlar Badkubə deyirdilər) «bezpredellik» eləməsi xəbəri gedib çatır, Nəsiminin diliylə desək, «Divi-əzəm»in, yəni ən böyük divin, yəni Teymurləngin qulağına.

Teymurləng də öz «territoriyasında» «çujoy avtoritetlərin» peyda olub «zakon talkavat» eləməyindən çox narahat olur, qəzəblənir, obşyakı yığıb hər şeyi onlara danışır, bir yerdə tədbir töküb qərara

gəlirlər ki, bu kafər yuvasını qəfildən «nakrıvat» eləmək lazımdır.

Düzünə qalsa, Əmir Teymuru narahat edən heç də hürufilərin Bakı əhlini Allah yolundan, din yolundan azdırması deyildi. Çox elə lazım idi Teymurləngə bakılıların haqq yoldan çıxmağı, öləndən sonra cənnətə, ya cəhənnəmə düşməyi. Yox, məsələ ayrıydı. Teymurləng qorxuya düşmüşdü ki, aya, bunlar ki, Bakıda gündə otuz iki dənə Allah istehsal edirlər, birdən sabah Fəzlullahın eşqi dombaldı, konveyerinə dəyişikliklər edib başladı teymurlənglər istehsal etməyə. Elə olsa, bəs onda mənim axırım nə təhər olacaq? Aləmi-islamı basmış o qədər teymurləngin içində mən necə sübut edəcəm ki, həqiqi Əmir Teymur mənəm.

Bu cür narahat fikirlərin içində haça-paça qalan Əmir son qərarını verir; nə qədər ki, Fəzlullah istehsal etdiyi allahların bir ayağlarını sındırıb onlardan topal teymurlar düzəltmək fikrinə düşməyib, yubanmadan bu şəhəri hürufilərdən təmizləmək gərəkdi.

Elə də olur, Əmir Teymur Şirvanşah İbrahimdən Fəzlullahı tələb edir, alıb Naxçıvanda şaqqalayır, sonra da hürufiləri Bakıdan dağıdır. Bəlkə də belə olmağı yaxşıdır, yoxsa Bakı dönərdi allahların məskəni olan Olimp dağına, Xan Sarayı da olacaqdı hürufi Zevsinin, yəni Fəzlullahın məkanı.

Hə, yaxşı ki, Əmiri Teymurun sayəsində bakılıların canı hürufilərdən qurtardı, Bakı da allahlar şəhəri olmaq funksiyasını başa vurub oldu normal adamlar şəhəri.

Amma Bakı tarixinin divarları çox da asudə qala bilmədi. Hürufilərdən təqribən yüz il sonra Bakı tarixinin divarlarına Şah İsmayıl da buynuz atdı. Yox, düz demədim, nizə atdı, ox atdı, hətta güllə də atdı, amma buynuz atmadı, çünki Şah İsmayıl qərb padşahlarından fərqli olaraq buynuz çıxardan kişilərdən deyildi.

Şah İsmayılın Bakı tarixinə yürüş eləməyinin səbəbi isə çox qədimdir. İş necə gətiribsə, rəhmətliyin ata-babasının bu dünyadan köç eləməyinə səbəb Şirvanşahlar olublar. Daha doğrusu, səbəb ayrı olub, Şirvanşahlar isə, o rəhmətliklərin bu dünyadan o dünyaya tullanmasına yüngülvari təkan veriblər, onlar da uçub gediblər cənnətə.

Bəlkə də bu işlərdə yalnız Şirvanşahları günahlandırmaq düzgün olmazdı. Məsəlçün, binəva Şirvanşah Xəlilullah öz sarayında oturduğu yerdə, bir də xəbər gəlib-çatıb ki, Şeyx Cüneydin başçılıq etdiyi sufilər gəlib Şirvanı tutmaq istəyir. Xəlilullah da, fikirləşib ki, bu sufilər də elə hürufilərin, bir növ, əmisi uşaqlarıdır. Birdən gəlib Şirvanı tutarlar, sonra başlayarlar allahlar istehsal etməyə, Şirvan təzədən dönər kafirxanaya. Onunçün də, qoşun toplayıb Şeyx Cüneydin sufilərini dağıdır, özünü də qətlə yetirir, daha doğrusu, bayaq dediyimiz kimi, o dünyaya tullanmasına yüngülvari bir təkan verir.

Təxminən on-on beş il sonra Şeyx Cüneydin oğlu Şeyx Heydər də eyni sevdaya düşür, başına müridlərini yığıb Arazı keçir, üz tutur üzüyuxarı – Şirvana tərəf. Növbəti Şirvanşah Fərrux Yasar da, atası kimi qoşunu

yığıb çıxır sufi ləşkərinin qabağına, hamısını qırıb-tökür, Şeyx Heydəri öldürüb rahat nəfəs alır, əllərinin tozunu çırpır, qanını yuyub qayıdır öz sarayına.

Ay-hay. Hara sevinirsən, ay Fərrux Yasar, məgər bilmirsən ki, bu nəsil hələ kəsilməyib? Hələ Şirvana hücum eləyən sufilər çox olacaq, sənin də… nə isə, hər şeyi qabaqcadan Fərrux Yasara demək düzgün olmaz, çünki birdən qabaqcadan tədarük görər, tarixin gedişatını dəyişər, bu da ki, icazə verilən iş deyil, Allah belə şeyləri xoşlamır.

Hə, o yerdə qaldıq ki, Şirvanşah Fərrux Yasar rahat nəfəs alıb qayıdır sarayına. Bir müddət kefə baxır özüyçün və təxminən on il sonra yenə qəfildən xəbər çatır ki, bəs Şeyx Heydərin xırda oğlu İsmayıl da atası-babası kimi başına beş-on min sufi yığıb Şirvana üz tutur. Şirvanşah Fərrux Yasar əvvəl qulaqlarına inanmır, fikirləşir ki, ola bilməz. Axı bunun babası da, atası da Şirvanda canını tapşırıb, bunu da, deyəsən, əcəl girləyir, dartıb gətirir bura.

Amma hər nəydisə, Şirvanşah qoşun toplayıb sufilərin qabağına çıxır və bu səfər necə olursa tale Şirvanşahın yox, Səfəvilərin üzünə gülür – Şirvan qoşunu məğlub olur.

Şah İsmayıl Şirvanşah Fərrux Yasarın başını kəsib qızıl pul yığmaqçün süvenir daxıl düzəldir və iri qızılbaş çalmasını qabağına qoyub on iki dəfə fikirləşəndən sonra, qərara gəlir ki, Şirvanın ikinci böyük şəhəri olan Bakını da alsın.

İndiki Bakının o vaxtkı əcdadının adı Badkübə idi və Şah İsmayıl da əvvəl-əvvəl Badkübəyə yavığ

getməyə ürək eləmir, çünki ona demişdilər ki, bu şəhərin ətrafı bir növ, cəhənnəm kimi bir yerdi, hər tərəf alışıb yanır, hətta torpaqdan da od çıxır. Şah da fikirləşir ki, bizim hamımızın çalmalarımız da qırmızıdı, Badkubə ətrafında torpaqdan çıxan alov da qırmızıdı. Birdən bu iki qırmızılar biri-birinə qovuşmaq istəyər, bizim də başımız od tutub yanar, bu cəhənnəmin içində əbədi qalarıq. Bəs onda o boyda Səfəvilər dövlətini kim quracaq, filan qədər qəzəli kim yazacaq, Mərvdə Şeybani xanı kim udacaq, Çaldıranda Sultan Səlimə kim uduzacaq?

Bu fikirlərdən qorxuya düşən Şah İsmayıl Badkübə şəhərini almaqdan ötrü ora özü getmir, əmirlərdən ikisini - Xadim bəy Xüləfa ilə Xan Məhəmməd Ustaclunu bir xeyli qızılbaşla bahəm Badkübəyə yollayır, özü isə Şamaxıda oturub başlayır dincini almağa.

Xadim bəy Xüləfa ilə Xan Məhəmməd Ustaclu da Badkübəyə yaxınlaşanda tamam qorxuya düşürlər, əvvəl elə bilirlər ki, həqiqətən də cəhənnəmin kandarındadılar. Beş-altı dəfə salavat çövürürlər, qorxu duası oxuyurlar.

Necə də qorxmasınlar. Ömrü boyu çəmənlik, meşəlik, çay, bulaq görmüş qızılbaşlar qupquru çölün ortasında yerdən çıxan alovları, palçıq vulkanlarını və ən əsas, əllə qazılmış quyulardan vedrə ilə nöyüt çıxardan əcinnəyə, cinə oxşayan qapqara adamları (bəlkə də onlara artıq neftçi demək olardı) görəndən sonra nə düşünməliydilər ki? Onların yerinə mən də olsaydım elə bilərdim ki, məni tovluyub cəhənnəmdə

bişirməyə gətiriblər; əcinnə var, qır qazanı, nöyüt var, alov var. Cəhənnəm daha necə olur ki?

Əvvəlcə qızılbaşların hamısı qaçıb bu vahiməli yerdən uzaqlaşmaq istəyiblər. Amma Şah İsmayılın qəzəbindən qorxub böyük iradə bahasına özlərini saxlayıblar, birtəhər qalaya yaxınlaşıblar.

Görüblər ki, yox əşi, Bakı dövrəsində sülənmək o qədər də qorxulu deyil, sadəcə gərək ayağını bir yerə basanda diqqətli olasan ki, torpaqdan alov-zad çıxmasın.

Müxtəsəri, qızılbaşlar qala divarlarına yaxınlaşan kimi bakılılar qapıları bağlayıb arxayınca içəridə oturaraq, başlayıblar müdafiəyə tədarük görməyə. Arxayınçılıqlarının səbəbi də, Bakının liman şəhəri olmağıydı; qurudan nə qədər mühasirədə qalsalar da, aclıqdan, susuzluqdan qorxuları yox idi, Xəzər dənizi onları yedizdirib içizdirirdi, gəmilər vasitəsiylə şəhərə nə lazımdısa gətizdirirlər. Səfəvilərin də ki, tam mühasirə üçün hələ donanması yox idi.

Qızılbaşlar Bakıya bir neçə dəfə güclü hücumlar eləsələr də, divarları aşmağa müvəffəq olmurdular. Bu vəziyyətdə yenə də nöyüt bakılıların köməyinə gəlirdi. Dənizdən tutduqları suitilərin dərisini soyan bakılılar, bu dərilərdən tuluğlar düzəldib, içini neftlə doldururdular və başına bağladıqları fitili yandırıb yuxarıdan atırdılar qızılbaşların qızıl başlarına.

Qızılbaşlar ilk dəfə bunu görəndə çaş-baş qalmışdılar, hələ bəlkə möhkəm qorxuya da düşmüşdülər (artıq neçənci dəfəydi ki qorxuya düşürdülər binəvalar). Əvvəl-əvvəl onlara elə gəlmişdi

ki, hətta dəniz məxluqatı da bakılılara köməyə gəlib. Düşünmüşdülər ki, dənizdən çıxan suitilər gəlib qala divarına dırmaşıb oradan özlərini atırlar hücuma keçənlərin təpəsinə. Sonra təəccübləri bir az da artmışdı, görmüşdülər ki, yerə dəyən suitilər partlayıb yanırlar və ətrafdakı qızılbaşları da yandırırlar.

FÇox baş sındırsalar da bunun səbəbini başa düşməmişdilər və bu kamikadze suitilərin partlayıb yanması onlara tilsim kimi görünmüşdü, düşünmüşdülər ki, yəqin bu tilsim də kafir Fəzlullahın xələflərinin işidir. Nəhayət, Şah İsmayılçün xəbər göndərib bildirmişdilər ki, bəs, şah sağ olsun, bakılılar cəhənnəmdən çıxan odlu suitilərini buraxıblar ləşkərin canına, hamı od tutub yanır, hərgah tez bir zamanda özünü bura yetirib məsələyə əncam çəkməsən, bu suitilər bizim qızıl başlarımızı tamam əridəcək, qızıl külçələr düzəldib satacaqlar Məskov tacirlərinə.

Şah İsmayıl da bu naməni oxuyandan sonra, daha bir müddət fikrə gedir, düşünür, daşınır, axırda qərara gəlir ki, başqa yol yoxdur, özüm Bakuyə tərəf üz tutmalıyam. Elə də eləyir.

Şəhərə yaxınlaşıb məşvərət qurur, ən əvvəl yanan suitilər barədə danışır, qorxuya düşmüş qoşunu sakitləşdirməyə çalışır. Təqribən belə bir nitq söyləyir ki, biz cəfəri-məzhəb şiəyik, Bakuyə əhli isə hənəfi-məzhəb sünnüdülər, şəksiz ki, onların heyvanatı da sünnü məzhəbdi. Qala divarlarından tullanan suitilərin yanması da Allahın işidir, Allah bizə demək istəyir ki, ey qızılbaşlar, kafirlərdən qorxub eləməyin, onların sizə

atdıqları hər zad sizə yetişən kimi od tutub yanacaq, heç bir xətər yetirməyəcək.

Əmirlərdən biri qorxa-qorxa şaha deyir ki, bəs axı bu suitilər yananda bizim adamlardan da bəzisini yandırır.

Şah da cavab verir ki, o da Allahın hikmətidi, suitilərin yandırdığı adamlar şiəliyi zahirdə qəbul edib daxildə sünniliklərini saxlayanlardı. Kim sidq ürəklə bizim əqidəmizi qəbul eləməsə, sünni suitiləri məhz onları yandıracaq, cəhənnəmə vasil edəcək.

Hamı şahın bu sözlərinə səmimi qəlbdən inanır, amma bayaqkı əmirin dili yenə dinc durmur, dillənir ki, bəs, Allah bakılıların bizimkilərə atdıqları oxları, nizələri da yandırsaydı, heç pis olmazdı.

Şah bu sualı da cavabsız qoymur, deyir ki, həmin oxların düzəldiyi dəmir şiə məmləkətlərindən gətirildiyinə görə onların yanmasını Allah məsləhət bilməyib.

Hə, elə bu müşavirə zamanı da qərara gəlirlər ki, şəhərə elçi göndərib təslim olmağı təklif eləsinlər.

Həmin dövrlərdə Bakuyənin hakimi Şirvanşah Fərrux Yasarın oğlu Qazı bəy idi, amma o Şamaxıda qoşun yığmaqla məşğul olduğu üçün şəhərə hələlik onun arvadı başçılıq edirmiş və bu arvad da deyilənə görə, çox zəhmli bir adam olubmuş. Hətta Qazı bəy özü də ondan bir balaca qorxurmuş. Bu qadının bir qəribə xasiyyəti də varmış ki, xoşuna gəlməyən kişiləri qala divarından aşağı atmağı əmr edərmiş.

Şah İsmayılın göndərdiyi elçi də, nə səbəbdənsə, bu müdhiş qadının qəzəbinə tuş gəlir və əmr edir ki, onu qala divarından tullasınlar aşağı.

Şəhərin qazısı Əbülfəth bəy şahzadə zövcəsinin bu əmrinə etiraz edib deyir ki, elçi ilə bu cür davranmaq kişilikdən deyil, həm də göndərdiyi adamın öldürülməsi Şah İsmayılın xoşuna gəlməz (bayaqdan elə Şah İsmayıl deyirik, amma yadımızdan çıxıb ki, o vaxtlar İsmayıl hələ şah deyildi, inaqurasiya keçirməmişdi, eləcə İsmayıl ibn Heydər idi).

Qazının bu cür qorxacaqlığı Qazı bəyin zövcəsini lap cin atına mindirir, onu təslimçilik, separatçılıq toxumu səpməkdə günahlandırır, deyir ki, on üç yaşlı uşaqdan qorxan kişidən bu boyda şəhərə qazı olmaz və əmr edir ki, qazını da, elçiylə birlikdə tullasınlar divardan aşağı. Əmr yerinə yetirilir.

Qızılbaşlar əvvəl elə düşünürlər ki, qala divarlarından yenə onların başına suitilər tullanır. Lakin görürlər ki, bunlar partlayıb eləmədilər, yanmadılar, eləcə guppultuynan yerə dəyib qaldılar. Ürəklənib yaxın gəlirlər və məlum olur ki, bakılılar şahın elçisiylə bərabər bir qoca kişini də atıblar divardan aşağı.

Bu xəbər on üç yaşlı İsmayıla çatanda, o, lap qəzəblənir, qoşunlarını qala üzərinə hücuma göndərir və xeyli əziyyətdən sonra qızılbaşlar lağım atıb divarın bir hissəsini partladaraq uçurmağa müvəffəq olurlar və qalaya doluşurlar. Beləcə, Bakı təslim olur.

Bu hadisədə mənimçün ən maraqlı olan detal Qazı bəyin adı naməlum qalan arvadının Bakı qazısını qala divarından aşağı atması əmri olub. Həmişə

düşünmüşəm ki, görəsən, şəhərin möhtərəm qazisi, hörmətli ağsaqqalı əl-qolu bağlı vəziyyətdə qala divarının üstündə dayanıb fərraşların ona arxadan təpik vurub aşağı tullamasını gözlədiyi dəqiqələrdə nə fikirləşib?

Düzü, onun həmin vəziyyətdə nə fikirləşdiyini xəyalımda canlandırmaq cəhdim əvvəl uğursuzluğa düçar oldu. Nə qədər çalışsam da, ağlıma bir şey gəlmədi. Qərara aldım ki, mərhum qazinin qala divarından atıldığı yeri təqribən müəyyən edim və ora dırmaşım. Elə də etdim. Qala divarlarının böyrüylə bir xeyli sülənəndən sonra hansısa sövq-təbii ilə hiss elədim ki, adamların divar üstündən aşağı atılması üçün ən münasib yer İçərişəhərin indiki Vahid bağına söykənən hissəsindədir.

Bakı Soveti metrosunun arxasındakı qapıdan qalaya girib divar boyu aşağı getdim və Ağa Mikayıl hamamının qabağındakı yoxuşla divarın üstünə çıxdım. Həm ətrafa, həm də qaladan bayıra baxanda gördüm ki, deyəsən zənnimdə yanılmamışdım. On-on beş metrlikdə hamamın olması da mənim nöqteyi-nəzərimi təsdiq edirdi. Yəqin ki, o vaxt ölümə məhkum edilmiş binəvaları Ağa Mikayıl hamamına gətirib, yuyub təmizlətdirirdilər, pak edirdilər, üz-gözünü qırxırdılar, tövbə mərasimini yerinə yetirirdilər, yəni insanı, bir növ, o dünyaya səyahətə hazırlayırdılar, yalnız bundan sonra həm ruhən, həm də cismən təmizlənmiş Allah bəndəsini hamamdan çıxardıb üzbəüzdəki qala divarının üstünə dırmaşdırırdılar və nəhayət, elə yaş-yaş atırdılar divardan aşağı.

Nə isə, divarın üstünə çıxıb xeyli o yan-bu yana boylanandan sonra gözlərimi yumdum, xəyalən beş yüz il, daha dəqiq desək, beş yüz dörd il əvvələ gedib özümü binəva qazinin yerində təsəvvür eləməyə çalışdım. Amma… heyif ki, gözlərimiz kimi qulaqlarımızı da, qapamaq üsulu hələ müəyyən edilməyib və mən xəyalımın arabasına minib beş yüz dörd il əvvələ doğru çapmaq istərkən, gah maşınların siqnalı, gah yaxınlıqdakı evlərin qapılarının zəngləri, gah da küçə boyu addımlayan adamların mobil telefonlarının «simfoniya»ları açıq qulağımdan keçib şüuruma daxil olur və təzəcə razqon götürən «xəyal arabamın» təkərlərinə dolaşırdılar, onu hərəkətdən saxlayırdılar. Təxminən beş dəqiqədən sonra gördüm ki, xəyalımın arabasının təkərlərində artıq təkərlik qalmayıb, sınıb tökülüblər. Qəzəblə yerə tullandım və arabanın sınıb dağılmış təkərlərinə iki-üç təpik vurub gözlərimi açdım. Bir müddət çaşqınlıq içində donub qaldım, elə bu vaxt qəfildən gözüm Vahid Poeziya evinə sataşdı. Diqqətimi cəmləşdirib gördüm ki, içəridə nəsə yığıncaqdı və gombul, qarayanız bir arvad əlində tutduğu kağıza baxıb nəsə oxuyur, ətrafda oturan adamlar da (bunların da 80 faizi arvad idi) huş-guşla ona qulaq asır. Başa düşdüm ki, şeir məclisidir.

Yenə də qəfildən, şüurumdakı duman elə bil təmizləndi. Mən özümü min beş yüzüncü ildə hiss etdim və o saat da möhtərəm Bakı qazısının bu divarın üstündə dayanıb öz ölümünü gözlədiyi dəqiqələrdə nə düşündüyünü mənim beynimin monitorunda peyda oldu - «Feminizasiya»

Bəli, bir arvad əmriylə (nə olsun ki, bu arvad Şirvanşahın gəlini idi, hər nəydisə arvad idi) əgər bu boyda şəhərin hörmətli, izzətli elm sahibi, ağsaqqal qazısı ölü it cəmdəyi kimi qala divarından aşağı atılırsa, deməli, həqiqətən də bu şəhərin sonu çatıb. Ən pisi isə, bu idi ki, heç kəs şəhər qazısını bu qəzəbli qadının əlindən xilas etməyə səy göstərmədi, bax elə həmin andan bakılılar öz Bakılarını itirməyə başladılar. Bakının indiki kökə düşməyinin binası məhz onda qoyuldu; məhz onda Bakı adlı möhtəşəm imarətin özülünə ilk dəfə külüng çalındı. Bu imarət hissə-hissə, mərtəbə-mərtəbə ovuldu, uçuldu, ən nəhayət, bizim gözümüzün qabağında, ümumiyyətlə, yer üzündən silindi.

Düzdü, bu müddət ərzində bir çox kişilər qollarını çırmalayıb bu imarəti təzədən bərpa etməyə cəhd göstərdilər, uçulmuş daşlardan bəzilərini təzədən qaldırıb yerinə qoydular, fəqət onların bu səyi Sizif əməyindən başqa bir şey deyildi. Çünki içinə virus düşmüş kompüterim tam təmizləməkçün onu yalnız formatlamaq lazımdır. Heç bir «antivirus« proqramı bu virusların kökünü birdəfəlik kəsə bilmir. Formatlama zamanı isə, hamıya məlumdur ki, yaddaş tamamilə silinir.

Bəli, «Bakı tarixi» adlı kompüterin prosessorunda bu saat «formatlama» əməliyyatı həyata keçirilir və bu proses bitəndən sonra yaddaşı təmizlənən kompüteri bizə verib deyəcəklər ki, buyurun, təhvil alın şəhərinizi. Biz də, hansısa qeyri-şüuri bir ümidlə onun yaddaşına girib nəsə tapmağa çalışsaq da, bu boyda şəhərin

yaddaşında qırx-əlli alqoritmdən başqa heç nə görməyəcəyik…

Üçüncü fraqment.

Çatıbdı vaxtı, gedir son baharı gəncliyimin,
Yubanmağa daha yox ixtiyarı gəncliyimin.

Nə vaxtsa gözləmə ki bir daha yaşıllaşacaq,
Susuz qalıb, quruyubdur çinarı gəncliyimin.

Yanımda sən yox idin, ondan ötrü böylə dolub
Kağız çiçəklər ilə laləzarı gəncliyimin.

Əgər kədərli, həzin nəgmə tək düşürsə yada,
Sənin xəyalın idi bəstəkarı gəncliyimin.

Sənə yetişmək üçün ki özün fəda elədi,
Gərək qapında qazılsın məzarı gəncliyimin.

Xəzəl kimi səpələnmişsə yerdə duyğularım,
Demək küləkli keçib ruzigarı gəncliyimin.

Neçin bu Fəhmini tək qoydun intizar içrə,
Sənə yetişmədimi ahü-zarı gəncliyimin.

Mən Bakının köhnə məhəllələrinin birində, daha dəqiq desəm Qırxpilləkən deyilən bir yerin sol tərəfində (aşağıdan baxanda) dünyaya göz açmışam. Elə fikir yaranmasın ki, mən başqa yerlərdə də dünyaya gəlmişəm, qətiyyən yox, mən elə bircə dəfə dünyaya gəlmişəm (sağ gəlməyəydim, bakılılar demişkən) və əgər ikinci dəfə belə bir hadisə olsaydı mən yenə də burda doğulmaq istərdim; burda, yəni, qır iyi verən qara-qura Bakı həyətlərində, amma deyəsən, həmişəki kimi fikrim dolaşdı, aləmi qatdım biri-birinə. Lap təmiz danışsaq, mən dediyim yerdə doğulmamışam. Rayon yerlərindən fərqli olaraq Bakıda evdə doğuş qəbul eləmək adəti yoxdur, mən də sovet qanunlarına uyğun olaraq Bayıldakı Krupski adına roddomda doğulmuşam, sonra kəmalü-ədəblə gəlmişəm Qırxpilləkənin böyründəki həyətimizə. Ancaq sözün həqiqi mənasında dünyaya gəlməyim, dünyanı dərk etməyim məhz dediyim məkanda yerləşən həyətdə olub. Yazımın sonrakı hissəsində də mən dünyaya gəlməyim deyəndə, əslində dünyanı dərk etməyə başlamağımı nəzərdə tutacağam (oxucunun başı gicəlləndi deyəsən)

Qısası, mən dünyaya gələndə kiçik əmim artıq üç-dörd il idi ki həbsxanada yatırdı, bibimlə nənəm isə bütün günü yalnız qara çörəklə pendir verirdilər.

Hərçənd ki, dieta saxlamağın heç bir bəni-adəmin orqanizminə ziyanı yoxdur (əlbəttə ki, qastriti olanları çıxmaq şərtiylə), bununla belə nənəmlə bibimin bütün gün ərzində yalnız pendir-çörək yeməyinin səbəbi heç də arıqlamaq, artıq çəkidən azad olmaq cəhdi deyildi (o

vaxtlar bizim zənən tayfası hələ «supermodel» xəstəliyinə tutulmamışdı və qadınların fikrincə gözəlliyin ilkin şərti konslager məhbusları kimi ikilik taxtaya oxşamaq yox, namuslu , ismətli, həyalı olmaq idi. Onunçün də o zamanlar bizim arvadlar indikilərdən bir qədər gombul və bir xeyli abır-həyalıydılar).

Nənəmlə bibimin özlərini dünyanın min cürə nazü-nemətlərindən məhrum eləmələrinin səbəbi isə, qəribə də olsa, kiçik əmimin həbsxanada yatmağı idi.

Ətağa cəddi, istəsəm də yeyə bilmirəm, neyniyim, dadlı bir tikə ağzıma dəyən kimi, türmədə palçıq kimi qapqara çörək yiyən qaqaşım gəlir diyanır gözümün qabağında, bütün iştaham küsür, boğazım qupquru olur.

Feminizm xəstəliyinə yoluxmuş indiki xanımlar belə bir hərəkəti yəqin ki, lağa qoyarlar, öz hüquqlarından bixəbər, avam bir qadının xəstə düşüncələrinin məhsulu hesab edərlər. Lakin bu adət binayi-qədimdən Bakıda mövcud olub, yaxşı-pisliyi barədə isə sonra danışarıq.

Etiraf edim ki, nənəmlə bibimin bu qəribə hərəkətlərinin səbəbini uşaq vaxtı mən də başa düşmürdüm. Hətta ürəyimdə onlara gülürdüm də.

Onu da deyim ki, təkcə mən yox, atamla babam də bu əcaib pəhrizin lazımsızlığını onlara başa salmağa çalışırdılar – babam özünəməxsus Bakı yumoruyla, atam isə kommunist partbiletinə məxsus qıpqırmızı həyasızlıqla.

– Yaxşı eliyirsən, ay Həsənağanın qızı, – babam zəfəranlı plov yeyəndən sonra yağa batmış bığlarını

tumarlayaraq mızıldanardı, - əslinə qalsa, heç mənim də boğazımdan tikə geçmir - bunu deyən zaman bayaq dibinəcən siyirdiyi iri plov nimçəsinə oğrun-oğrun baxardı. - Tifil orda qara çörəynən dolanır. Yazıq uşaq. Ancaq bir şey də var ki, mən yeməsəm, taqətdən düşərəm, gücüm qalmaz ki, sizünçün pul qazanım. Onda hamımız möhtac olarıq o kamunistin əlinə (Babam kommunist deyəndə atamı nəzərdə tuturdu). Onun da ki, özün bilirsən, ipinin üstünə odun yığmaq olmaz.

Babam nəfəsini dərib, nəyisə xatırlamış kimi fikirli-fikirli başını yellədərdi, sonra da davam edərdi.

- Arvad, o tifil türmədə qara çörək yeyir, sən də burda qızınla bir yerdə qara çörəynən pendirdən başqa dilivizə heç nə vurmursuz. Əcəb eliyirsüz, işim yoxdu. Amma bir məsələ də var, əgər əziz-xələfivizin yoluyla gedirsizsə, onda hər işdə onun kimi eliyin də.

- Qanmadım, neyniyim, gedim mən də türmədə yatım?- nənəm soruşardı.

- Yox, onu dimirəm. Sözüm odu ki, məhəllə uşaqları hər həftə türməyə sənin əziz-xələfinçün üç-dörd karopka nəyşə ötürüllər. O da dilxorçuluqdan bala-bala tüstülədir özüyçün. Diyirəm, indi ki, onun yediyinnən yeyirsiz, elə onun çəkdiyinnən də çəkin də. Alım bir-iki başdıq nəyşə, qızınla bir yerdə ana-bala tüstülədin axşamacan. Ancaq elə eliyin ki, mən paddım düşməyim.

Nənəm də gülümsünüb deyərdi ki, ay Kəblə Qulamın oğlu, mən razıyam, qara çörəyi mən yeyim, o zəhrimarısa sən özün çək.

Hər ikisi gülərdi, sonra isə nənəm kiçik əmimi yadına salıb yenə dilxor olardı. Amma gözləri dolmazdı. Nənəm, ümumiyyətlə, ağlayan adam deyildi. Bizim nəsildə binayi-qədimdən ağlayan adam olmamışdı, bircə məndən başqa. Mən də yəqin ki, böyüyəndən sonra ağlamağın daşını atacağam bir qırağa. Hətta, kiçik əmim on il iş alıb türməyə gedəndə də, nənəmin büzüşüb balacalaşmış gözləri quru qalmışdı. Babam ona deyəndə ki, ay Həsənağanın qızı (babamla nənəm heç vaxt biri-birini adlarıyla çağırmazdılar), heç olmasa ağla, ürəyin boşalsın, nənəm içini çəkib cavab vermişdi ki, birdən kimsə məni ağlıyan yerdə görər, gedib o tifilə (yəni, əmimə) xəbər çatar, uşaq orda dilxor olar ki, evdəkilər mənə görə xiffət çəkillər. Qoy ürəyi narahat olmasın.

Sonra da kələğayısını boynuna dolayıb pıçıldayardı ki, goru çatlasın o vələdüzna ərməninin, gül kimi balam düşdü onun ucbatından daş-divar arasına. Kopoyoğlu (yəni köpəyoğlu), özü rahat, isti qəbirdə rahat yatır özüyçün, mənim balamsa soyuq türmələrdə çürüyəcək.

Sinəm dar bir qəfəsdir, orda sevdalı ürək dustaq,
Qalıb biçarə bu zülmətdə müddətdir ki, tək dustaq.

Gözüm yaşın töküb ah eylərəm hicran otağında,

Nədir bu? Dörd divar içrə yağış məhbus, külək dustaq.

İlahi, hər duanın dövrəsin min-min günah tutmuş,
Ya qanundur tikan içrə ola hər bir çiçək dustaq.

Dayanma cismdə, sındır, dağıt bu məhbəsi, könlüm,
Azad olmaq ümidin gəsməsin heç vaxt gərək dustaq.

Mən iblisin əcəl zindanıyam ki, tanrıdan gizlin
İçimdə ahü-fəryad içrə minlərlə mələk dustaq.

Fələk zülmü kəsilməzsə bezib ruhlar qiyam eylər,
Bu aciz ruhlara bir gün olar çərxi-fələk dustaq.

Göyə baş vurmaq istərsən, buna, Fəhmi, gücün çatmaz,
Yerin tərkində əvvəl olmasan fəvvarə tək dustaq.

Nənəmin təbirincə, isti qəbirdə rahat yatdığına görə söyülən həmənki erməni o adamıydı ki, mən dünyaya gələndə əmim onun ucbatından üç il idi ki türmədə yatırdı, hələ yeddi il də yatacaqdı. Yəni, əmim o ermənini bıçaqlayıb öldürmüşdü, bundan sonra o kişi

getmişdi qəbrə, əsgərlikdən təzəcə gəlmiş iyirmi bir yaşlı əmim də on il iş alıb tullanmışdı şestoy kalona.

O vaxtlar Bakıda bir xeyli erməni vardı, heç kim də, onlara güldən ağır bir söz demirdi, yerli camaata qaynayıb qarışmışdılar, arada heç bir milli münaqişə-filan yoxdu. Ancaq hərdən elə hadisələr olurdu ki, bizim aramızdakı düşüncə fərqi özünü büruzə verirdi və belə hadisələrdən biri də təzə çıxan «01» modelli «Jiquli»lərin Bakıya gələn vaxtında mənim əmimin başına gəlmişdi.

Hadisə belə olmuşdu. Axşamtərəfi məhəllədəki cayıl-cuyul tində yığışıb söhbət eləyirmiş və birdən yanlarından qıp-qırmızı təzə bir Jiquli keçib gedib. Qonşuluğumuzda yaşayan həmin erməni gədəsi də batmaqda olan günün işığı altında par-par yanan bu maşının dalıyca baxıb ağzının suyunu axıdaraq demişdi ki, ara, adam belə maşına görə arvadını da satar, ana-bacısını da.

Bu kəlmə yazığın dilindən bayıra tullanan kimi, qəfildən hiss eləmişdi ki, elə bil kimsə onun qarnını yüngülcə qıdıqladı. Hətta azca gülümsəmişdi də. Sonra fikir verib görmüşdü ki, qıdıqlamaq olsaydı, dərd yarıydı, bu mənim kiçik əmimin həmişə üstündə gəzdirdiyi bıçaqdı, onun qarnından girib az qala belindən çıxıb və bıçağın ebonit dəstəyində yonulmuş ilan da, bu biqeyrət erməninin üzünə baxıb məğrur-məğrur hırıldamaqdadı.

Bəlkə də hadisə heç belə olmamışdı. Lakin mən məhz bu cür təsəvvür edirdim. Əmim özü atama demişdi ki, o söz oğraşın (yəni ermənin) ağzından

çıxan kimi heç özüm də bilmədim necə oldu, bir də gördüm ki, uje yortmuşam onu.

Bəlkə də əmimin qəzəbini ona görə qəfildən belə coşub ki, həmin erməninin bacısı babamın yaxın dostlarından birinin gəliniydi, bəlkə də başqa səbəb vardı, hər nədisə, fakt öz faktlığında qalırdı, - o vaxtdan bəri neçə il idi ki, həmin erməni, nənəm demişkən, isti qəbirdə rahatlıqla yatırdı, əmim isə soyuq türmədə, çirkli döşəyin üstündə narahatlıqla qurcuxurdu.

Əmim tutulandan sonra babam hər ay o ermənin arvadına iki yüz rubl pul (indiki pula təxminən 200-300 dollar) göndərirdi ki, iki yetim uşağını saxlamaqda çətinlik çəkməsin. Özünün dediyinə görə bu iki yüz manatlar bizim ailə büdcəmizi xeyli kasadlaşdırsa da babam heç vaxt buna heyfslənmirdi, heç bircə dəfə də olmamışdı ki, o iki yüz manatı könülsüz göndərsin. Bu məbləğə ödənilməsi vacib sayılan dövlət vergisi kimi baxırdı və bu fikri onun beyninə salan nənəmə bircə dəfə də, şikayət eləməmişdi.

Eləcə səsini çıxartmadan qara çörəklə pendiri yeyə-yeyə oğlunun yolunu gözləyirdi.

Yollarda qalıbdır ala gözlər, səni gözlər,
Yaş töksə də hər gün yenə gözlər səni, gözlər

Ey qəmli könül yelkəni, durma daha üz get,
Həsrətli ürəklərdə dənizlər səni gözlər.

Gül çöhrəni seyr etmək üçün növbə çəkirlər,

Ay gecə, günəş isə günüzlər səni gözlər.

Sanma ki, çəməndə bu qədər lalədi, şahım,
Al, qırmızı örpəyli kənizlər səni gözlər

Görcək səni diz çökməmək olmur mələyim, gəl,
Qatlanmağa hazırdır bu dizlər, səni gözlər

Ey ruhuma həmdəm qələmim, bəsdi dayandın
Qəlbdən süzülən qüssəli sözlər səni gözlər

Sən gəldiyin o yolları bu Fəhmi həvəslə
Göz yaşı ilə gündə təmizlər, səni gözlər.

Bu adət də bizim bakılıların qəribəliklərindəndi, vaxt çatanda bunun da üstündə dayanacağıq.

Bizim nəslimizdə bu cür hadisə artıq neçənci dəfəydi ki, baş verirdi. Misalçün, ailədə eşitdiyim söhbətlərdən bilirdim ki, nənəmin atasını babamın əmisi öldürmüşdü.

– ...Biz onda dəstə qız idik, on iki-on üç yaşımız ancaq olardı. Bacılarımla həyətdə palaz yuyurduq, - nənəm bu söhbəti mənimçün tez-tez edərdi, - birdən gördüm ki, qonşumuz Nisəxanım arvad özünü təngnəfəs içəri salıb anamın otağına cumdu, elə o saat da evdən vay-şüvən, şaxsey-vaxsey səsi gəldi. Bizə əvvəl heç nə demədilər. Axşama yaxın bildik ki, Çəmbərəkənd qəbristanlığının altında mənim atam Həsənağayla sənin babavın böyük əmisi Ağaverdinin

sözləri çəp gəlib, Ağaverdi bıçağını çıxarıb soxub atamın ürəyinə. Atam da elə yerindəcə canını tapşırıb. Elə həmin axşam babovun rəhmətlik atası Kəblə Qulam Bakının o vaxtkı hörmətli ağsaqqallarıyla yığışıb gəldilər bizim böyüklərin yanına, üzrxahlıq elədilər, qan bahası verdilər, axırı Qurana barmaq basdılar ki, daha bundan sonra düşmənçilik eləməsinlər.

Babavın əmisi Ağaverdini elə həmin gün hökümət tutub basdı Sibirə, sonra heç ölüsü-dirisi də gəlmədi, itdi-batdı yazıq (atasını öldürən adama nənəmin «yazıq» deməsi, ona ürəyi yanması mənə lap qəribə gəldi). Atam Həsənağanı dəfn-kəfən eliyəndən sonra babovun atası Kəblə Qulam bizim külfətin bütün yükünü götürdü boynuna. Özününkülərin boğazından kəsib bizimçün göndərirdi düyüsündən, yağından, unundan, imkan düşəndə ətindən, toyuğundan – heç acdıq vaxtlarında da biz çox kasaddığ çəkməmişdik. Anam hər cümə axşamı həm atamçün, həm də Kəblə Qulamın ölənləriyçün yasin oxuyardı. Biz böyüyəndə də, Kəbleyi imkan vermədi ki, özgə qapılara düşək. Yetim atasız qızlar idik, nə bilirsən, kimin evinə düşəcəkdik, necə baxacaqdılar bizə. Kəblə Qulam böyük bacımı bir dostunun oğluna aldı, məni də öz oğluna, yəni sənin babana.

– Nənə, sən deyirsən ki, anan həm atançün, həm də babamın ölənləriyçün yasin oxuyurdu, – mən soruşurdum, - bəs o Yasinin bir hissəsi də gedib atanı öldürən adama, yəni babamın qardaşına çatmırdı?

– Anam yasini öz qudasının ölənləriyçün oxuyurdu, babovun qardaşıyçün rəhmət göndərəndə də

fikirləşmirdi ki, bu, ərimi öldürən adamdı, fikirləşirdi ki, qudamın, həm də çörək verənimizin qardaşıdı. – Nənəm uzun nimçədə arıdığı düyü dənələrini barmaqlarının arasında oynadıb cavab verərdi. - Ta ölənəcən hər dəfə süfrədən duranda, əllərini göyə açıb deyirdi ki, Allah Kəblə Qulamın ömrünü uzun eləsin, külfətini qada-bəladan saxlasın.

– Nənə, olmazdı ki, babamın əmisi Ağaverdi heç sənin atanı öldürməzdi, sizi də elə öz atanız böyüdərdi, -mənim yenə dilim dinc durmazdı.

– Yox olmazdı - nənəm elə qətiyyətlə cavab verərdi ki elə bil özü haçansa kişi olub və Dağlı məhəlləsinin, ya da İçərişəhərin qaranlıq küçələrində beş-altı dəfə adam bıçaqlayıb - olmazdı. Ölüm haqdı, allahın əmridi. Əgər həmin gecə mənim atamın əcəli çatmışdısa, Çəmbərəkənd qəbristanlığı olmasın, Həmişəri palan olsun, Ağaverdi olmasın, ayrı bir adam olsun, fərqi yoxdu, atam ölməliydi. Allahın yazısına pozu yoxdu.

– Nənə, bir söz də soruşum də, deyəsən, bezdirirdim arvadı uşaq-uşaq suallarımla. Neyləyim ki, onda bu suallar mənə çox ciddi gəlirdi, çünki nənəm də onlara çox ciddi şəkildə cavab verərdi. – Nənə, dünən atamın padvalda qoyduğu tələyə siçan düşəndə, mən o saat fikirləşdim ki, yazıq siçanın balaları yetim qaldı, görəsən, onları kim yedizdirəcək bundan sonra? Yaxşı, bəs babamın əmisi sənin atanı bıçaqlayanda fikirləşmirdi ki, bunun balaları yetim qalacaq? Ya elə atanın özü Ağaverdiylə ağız-bağız verəndə sizi gözünün qabağına gətirmirdi?

– Yox, gətirmirdi, nənəmin səsindəki qətiyyət bir az da artır. – Kişi ki, dar ayaqda külfətini, balalarını gözünün qabağına gətirdi, onları fikirləşdi, bil ki, ürəyinə qorxu yol tapar, istər-istəməz nəyisə güzəştə gedər, kiminsə qabağından yeyər, müxtəsəri kişilikdən çıxar, hörmətdən düşər. Həm də kişilik ayrı şeydi. Sən hələ uşaqsan, belə şeyləri başa düşməzsən. Böyüyərsən, məktəbi qurtarandan sonra belüvə bıçaq qoyub məhəlləyə çıxarsan, onda hər şeyi özün başa düşərsən. O ki, qaldı dolanışıq məsələsinə, o vaxtlar Bakı camaatı bir ayrıydı. Kişi sinəsini güllə qabağına, qarnını bıçaq üstünə verəndə fikirləşmirdi ki, o ölüb-eləsə külfəti ac qalacaq, çətinlik çəkəcək. Çünki arxayın idi, bilirdi ki, ailəsinin yükünü ya onu öldürən adamın yaxınları götürəcək boynuna, ya da bu adamın heç kimi yoxdusa, elə qohum-qonşu onun külfətinə kömək olacaq. Doğurdan da elə olurdu. O vaxtlar kişisi ölən, türməyə düşən ailələr o birilərdən yaxşı dolanırdılar. Qohum-qonşu nə bişirirdisə, onlarçün də göndərirdi, nə alırdısa, bir dənə də onlara alırdı, çalışırdılar ki, tifillər yetim, yiyəsiz olduqlarını hiss eləməsinlər, adam arasında xəcalət çəkməsinlər, başıaşağı olmasınlar.

– Nənə, bəs atan öləndən sonra sənin anan onunçün darıxmırdı? – Axmaq sualdı, əslində mən soruşmaq istəyirdim ki, anan atanı sevmirdi? Amma bunu dilimə gətirməyə utanırdım.

– Darıxmırdı. Abır-həyalı arvad kişiyçün darıxmaz. Nə özünküyçün, nə də başqasıyçün. Ayıbdı belə şeylər. Ağıllı arvad gərək hər dəfə ərini, oğlunu, qardaşını harasa yola salanda gərək fikirləşsin ki, bəlkə

elə axırıncı dəfədi onu görürəm. Bəlkə kimiynənsə sözü çəp gəldi, vurub öldürdülər onu, ya özü kimisə yortub düşdü türməyə, ya maşın altında qaldı. Arvad gərək belə şeylərə hazır olsun. – Nənəm bir anlıq fikrə gedir, elə bil nəsə yadına düşür. Barmaqlarının arasındakı düyü dənələri də sanki onun nə deyəcəyini gözləyirmiş kimi hərəkətsiz dayanırlar. – Rəhmətlik anam həmişə deyərdi ki, bilirdim, kişi öz əcəli ilə ölməyəcək. Yaman dikbaş idi rəhmətlik, heç kimin qabağından yemirdi, söz götürmürdü, bir şey də olan kimi o saat özündən çıxırdı. – Nənəm ah çəkib başını qaldırardı. – Eh, ümumən, bir tayfanın, şəhərin, kəndin kişilərinin ki, yarısından çoxu əllidən artıq yaşadı, bil ki, kişiliklərini itiriblər, biqeyrət olublar.

– Mənim atamı kimsə öldürsəydi mən onu bağışlamazdım, Bakıda olmur, harda olur-olsun, tapıb öldürərdim, ya da... - daha ağlıma bir şey gəlmir.

– Əcəb eliyərdin, nənəm gülümsünür, axı sən də kişi qırığısan. İnşaallah böyüyəndə,..- birdən nənəm tutulur, narazılıqla başını yellədir, – ...amma Bakı korlanır yavaş-yavaş, sən böyüyənəcən şəhərdə bəlkə heç kişilikdən, namus- qeyrətdən əsər-əlamət qalmadı, sən də dönüb oldun bu matişkələrin tayı. – Sonra qulaqlarımı çəkərdi. Səndən uzaq, bala, səndən uzaq. Özü özünü inandırırmış kimi davam eliyərdi. - ...yox əşi, bizim nəsildən hələ matişkə çıxmıyıb, sən də olmazsan allahın köməyiylə…

Nənəmlə belə söhbətlərim çox olardı. Hər dəfə də mən sual verməkdən bezib yorulandan sonra, nənəm taxçadan çörək qabını götürüb bir-iki fal qara çörək

çıxarardı, üstünə pendir qoyub yavaş-yavaş yeyərdi və mənim gözlərimlə verdiyim sonuncu, həm də səssiz olan suala cavab verərdi ki, əmin bu saat türmədə, allah bilir, nə yeyir, bəlkə də heç nə yemir. Siz də deyirsiz ki, nöş xörək yemirsən. Bəs tifil balam türmədə ac oturandan sonra mənim boğazımdan tikə keçər? Babanla atan gülür mənə, bəlkə, elə sən də ürəyində gülürsən. Ancaq mən bu quru çörəyi yeyəndə, elə bilirəm ki, türmədəki tifil balamın yanındayım, onunla bir yerdəyəm, onun yediyindən yeyirəm, onun içdiyindən içirəm. Bu qara çörəkdən, elə bil, türmədəki balamın iyi gəlir burnuma. Nəzir demişəm, tifil sağ-salamat çıxsın qazamatdan, bir dənə qoyun kəsdirib yetim-yesirə paylıtdırım. Hə, ondan sonra cücə plov da yemək olar, küftə bozbaş da.

– Nənə, bəs əzizi türməyə düşən arvadların hamısı sənin kimi eliyir? – Bu mənimçün doğrudan da maraqlı idi, yaşımın azlığına görə ora-bura çox çıxmırdım, onunçün də Bakının adət-ənənələri mənimçün naməlum idi, gördüyüm ancaq öz həyətimiz, bir də qonum-qonşu ailələri idi.

– Çoxu belə eliyir, - nənəm cavab verərdi, – düzdü, elənçiyləri var ki, elə-belə, adət-ənənə xətrinə bu işi tutur, qonşuların, tanışların yanında özünü gözə soxur ki, mən neçə ildi heç nə yemirəm, çünki ərim, ya oğlum türmədədi. Yəni göstərmək istəyir ki, mən öz əzizimi necə çox istəyirəm. Evdə tək olanda isə, eşşəkcə basıb yeyirlər.

– Birdən sən də gizlində yeyərsən a, ay nənə? - Babam kimi mən də zarafata keçirəm,

– Kopoyoğlu, sən də mənə sataşırsan? – Nənəm deyəsən azca hirslənir, – dur sürüş burdan, cüvəllağı, elə bircə sən qalmışdın….

Lakin mən durmazdım, gic gülmək tutardı məni, sonra nənəm də başlayardı gülməyə və gülə-gülə də ayağa qalxıb işığı yandırardı, çünki söhbətə elə aludə olardıq ki, axşamın nə vaxt düşdüyünü də bilməzdik. Nənəm qaralmaqda olan havaya baxıb başlayardı köynəyinin qollarını çırmalamağa, dodağaltı nəsə mızıldanmağa, mən də anlayardım ki, artıq şam namazının vaxtı çatıb, nənəm dəstəmaz almağa gedir. Sakitcə otaqdan çıxıb damımıza qalxardım, əmimin uşaq vaxtı düzəltdiyi köhnə quşxananın yanında oturub Bakıya baxardım.

Elə dünyaya düşdük ki, qaralar ağ yeyir – doymur,

Bacarsa öldürür, öldürməsə sağ-sağ yeyir-doymur.

Düşübsə iblisin zindanına ruhun, əl üz ondan,
Elə zindandı bu hər gündə yüz dustaq yeyir-doymur.

Kiminə bir içim su, bir udumluq duz-çörək bəsdi.

Kim isə gündə bir dərya içir, bir dağ yeyir-doymur.

Nə qədri məzlumun ahın udur göylər, udur-bezmir,
Nə qədri canfəda mərdlər yeyir torpaq, yeyir-doymur.

Bu yandan bir vəfasız yar, o yandan rəhmsiz dövran;
Bu qansızlardı, Fəhmi, ömrümü ortaq yeyir–doymur.

Əmim türməyə düşəndən sonra babam onun bütün göyərçinlərini məhəllə quşbazlarından birinə bağışlasa da, mən hər dəfə nənəmlə söhbətdən sonra gəlib bu boşalmış quşxananın dibində oturaraq, şəhərə baxanda qulağıma üç dörd il bundan əvvəl burada yaşamış köyərçinlərin civiltisi gələrdi. Keçmişdən gələn bu əcayib quş civiltisi və Sovetski deyilən yerdəki həyətimizin damından görünən Bakı axşamları məni tamam ayrı bir aləmə aparardı, nənəmin danışdıqları bir də gözümün qabağından keçərdi, onun üzünü görmədiyim atasını təsəvvür edərdim, babamın əmisinin qanlı bıçağına baxardım, türmədə kiçik əmimlə bir yerdə tasovkalıyardım. Beləcə, saatlarla oturardım bu boş quşxananın dibində. Elə bil ki, hansısa sövq- təbii ilə hiss edirdim ki, bir azdan - beş ildən, on ildən, iyirmi ildən sonra indi gördüyüm Bakıdan əsər qalmayacaq.

Ona görə də, daha çox şeyi yadda saxlamağa çalışırdım. Buna nə qədər nail olmuşam - allah bilir. Deyim ki, ailəmiz barədə söhbətim hələ qurtarmayıb, çünki mən ailəmizdən danışanda əslində Bakı tarixindən danışıram, Bakı tarixini yadıma salanda isə istər istəməz ailəmizin keçmişini xatırlayıram. Keçmişdə isə maraqlı şeylər çox olub….

Öz ailəmizin keçmişini gözümün qabağına gətirəndə, məndə belə bir təəssürat yaranır ki, 50-60 il əvvəlin köhnə Bakı ailələri eyni ağacdan dərilmiş əncirlər kimi biri birinə oxşayıb - nənə ağır təbiətli, dindar; baba bir az müdrik, bir az əhlikef; oğlanlardan biri oxumuş, komsomol, biri avara, cüvəllağı ; qız da sakit, başıaşağı ev qızı.

Bu xüsusda düşünəndə, indi haqqında çox söz-söhbət gedən ədəbi cərəyanlar gəlir gözümün önünə və öz ailə üzvlərimizi bu ədəbi qruplaşmalar arasında bölüşdürməyə çalışıram. Qabaqcadan onu da deyim ki, nəticə çox gözəl alınır – əli təsbehli, saçı xınalı nənəm mühafizəkar klassik; buxara papaqlı, qızıldişli babam mütərəqqi romantik; qalstuklu, kostyumlu, partbiletli atam modernist; hörükləri az qala topuğunacan uzanan, əlindən Əlibala Hacızadənin kitabları düşməyən bibim neorealist; avara cüvəllağı kiçik əmimsə postmodernist.

O ki qaldı anama, o, bu ailədə, müəyyən mənada, yad qızı olduğuyçün qeyri-rəsmi şəkildə əbədi bitərəfliyini bəyan etdirsə də, onun bu bitərəfliyində qayınanasının və baldızının mövqeyinə yüngülvari bir meyl hiss olunurdu.

Bu cür köhnə Bakı ailələri keçmişlə gələcəyin, mühafizəkarlıqla novatorluğun, yüksək əxlaqla avaraçılığın və nəhayət, imanla imansızlığın bir ocaqda çox normal, ideal şəkildə mövcud olmasının mümkünlüyünün bir sübutu kimi görünür. Kimlərsə məni yenə də bakılıları ideallaşdırmaqda günahlandıra bilər. Lakin burda mən «ideal ailə», « ideal icma» məfhumlarının mahiyyəti barədə bir-iki kəlmə danışmaq istərdim. Nədənsə insanların ideal birgəyaşayışı bizim gözümüzdə həmişə belə təsəvvür edilib – hamı biri-birini dəhşətli dərəcədə sevir, can deyib can eşidir, arada heç bir konflikt-filan yoxdur, bütün maddi nemətlər bərabər bölünür, heç kim başqasının xətrinə dəymir, hamı eyni cür düşünür, eyni cür danışır və s. və i. Bir sözlə, ilahiyyatçılar demişkən: aləmi-mələkut (mələklər Aləmi). Və belə bir ideyanı bizə soxuşdurmaq istəyən ideoloqlar, filosoflar həmişə insanları inandırmağa çalışıblar ki, bizim ardımızca gəlsəniz, gələcəkdə sizinçün məhz belə bir cəmiyyət, icma quracağıq. Şəxsən mən belə düşünürəm ki, təsvir edilən yaşayış tərzi «ideal cəmiyyət» yox, sarsaqlıqdı. Buna inanan adamlar da, öz sarsaqlıqlarını əyani sübut etmiş olurlar. «İdeal icma», «ideal birgəyaşayış forması» əslində insanların daxili xüsusiyyətləri ilə çox üzvi surətdə uzlaşmalıdır. Əgər insanların hansısa mənəvi-ruhani keyfiyyətləri bu formadan kənarda qalırsa, deməli, bu çərçivə də o birilər kimi məhvə məhkumdur. Heyif ki, çoxları bunu başa düşmür, səbəb də budur ki, hamı özünü ağıllı, tərbiyəli, istedadlı, bir sözlə, ideal hesab edir və düşünür ki, bəşəriyyətin bu cür bədbəxt

günə düşməsinin səbəbi başqa insanların düz yolundan azması, əxlaqi cəhətdən korlanmasıdır. Bir sözlə, «hamı günahkardır, bircə məndən başqa» prinsipi belə ideoloqlarda elə fikir formalaşdırıb ki, başqaları da bizim kimi olsalar, bizim dediyimizi eləsələr dünya düzələcək. Neyliyəsən ki, başqalarının başına ağıl qoyan bu cırtqozların heç biri özünə kənardan baxa bilməyib. Əgər baxa bilsəydilər, görərdilər ki, adamların içində ən zayı, ən zibili elə özləridir və ilk növbədə elə onların özlərinin düzəlməyə, təmizlənməyə, bir sözlə, adam olmağa ehtiyacı var. Bu səbəbdən də, «ideal cəmiyyət» qurmağa yönələn bütün cəhdlər iflasa uğrayırdı, çünki əvvəlcə hər şeyə inanan camaat baxıb görürdü ki, onları təmizliyə, düzlüyə, saflığa çağıran adamların özləri bu xislətlərdən tamam əks qütblərdə qərar tutublar və beləcə, adamların gözü açılmağa başlayırdı – «ideal cəmiyyət» ideyalarına tüpürüb girişirdilər ciblərini və qarınlarını doldurmağa….. Deyəsən, yenə fikrimin ucunu itirdim, Bakı ailələrindən danışdığım yerdə getdim çıxdım Allah bilir hara. Zərər yoxdu. Fikrin ucunun itməyində elə də böyük qəbahət deyil, təki itən elə fikrin ucu olsun, namus-qeyrət, abır-həya olmasın. Çünki fikrin ucu itəndə, onu çətinliklə də olsa, axtarıb tapmaq olur, ancaq namus-qeyrət itəndə, birdəfəlik itir, daha özünü cırsan da onları təzədən tapıb çıxartmaq, öz köhnə yerinə qoymaq mümkün olmur…

Qayıdaq öz ailəmizin keçmişinə. Zəmanənin təsiri altında müxtəlif düşüncə tərzlərinin cazibəsinə

düşən insanların bir dam altında «ideal birgəyaşayışı» deyəndə, mən heç də onu nəzərdə tutmurdum ki, bizim ailədə heç bir konflikt olmurdu, heç bir fikir ayrılığı yoxuydu, parlaq bir İdilliya hökm sürürdü. Yox, əlbəttə ki, belə deyil. Əgər mən desəydim ki, o vaxtın Bakı ailələrində heç bir mənfi xüsusiyyət yox idi, adamlar da mələk kimi bir məxluqlar idi, yəqin ki, ilk olaraq, elə bakılıların özləri mənə gülər. Hamının gözünün qabağında olan bir şey barədə nəsə uydurmaq mümkün deyil, o saat adamın yalanı çıxır.

Bizim ailədə də kifayət qədər söz-söhbət, yüngülvari konfliktlər olsa da, bunlar heç vaxt müəyyən çərçivədən kənara çıxmırdı, çünki ailə üzvlərimizin heç biri özünü ideal hesab eləmirdi və hamı anlayırdı ki, insan naqis məxluqdu, hər kəsin yaxşı və pis xüsusiyyətləri var. Buna baxmayaraq hamı biri-birini olduğu kimi qəbul etdiyindən, bu xüsusiyyətlər biri-birinə məhəbbət bəsləməyə mane olmurdu. Səbəb də bayaq dediyim kimi, o idi ki, heç kim özünü ideal hesab etmirdi və heç kim elə düşünmürdü ki, mən yaxşıyam, qalanları isə pisdir.

Ailəmiz o dövrün əksər Bakı ailələrinə oxşadığından, ailədəki konfliktlər də demək olar ki, eyni mövzular ətrafında olurdu. Keçmişlə gələcək, idealizmlə materializm, optimizmlə pessimizmin kontaktı hər yerdə olduğu kimi, bizim ailəmizdə də, müəyyən qığılcımlar yaradırdı. Mənim yadıma gələn ən çox söz-söhbət, yenə də, nənəmlə bibimin özlərini dünyanın naz-nemətlərindən məhrum eləmələrinin üstündə olurdu.

- Elə bil ki, ana-bala on beşinci əsrdən qaçıblar. – Kommunist atam həmişə deyinərdi, – bir gözüvüzü açın, baxın görün harda yaşayırsız, hərdən o zəhrimara qalmış radionu, televizoru yandırın. Camaat kosmosa uçur, ayın üstündə imarət tikdirir, sizsə gözüvüzü yumub babavızdan qalma adətləri gətirib soxuşdurursuz bizə...

Atam qızışıb özündən çıxdıqca nənəm ona baxıb azca gülümsünərdi, yüngülcə başını yellədərdi, bu da təbii ki, atamı daha da əsəbiləşdirərdi.

-Düz demirəm bəgəm? Sənin burda ac oturmağının türmədə o avaraya nə isti-soyuğu olacaq ki? Qarnı doyacaq? Yoxsa cibi pulnan dolacaq? Yox e, o avara bu saat türmədə bizdən yaxşı dolanır, ayda yüz manat mən aparıram ona, bir o qədər də məhəllə uşaqları göndərirlər, həm də oğlun stremlyayuşidi, türmədə özünə görə hörməti də var, daha nə istəyirsiz.

– Sənin bizimlə nə işin var, nə yeyirik, nə yemirik, – nənəm ah çəkərdi.

– Necə yəni nə dəxli var? Sabah qızınla bir yerdə mədə bağırsaq-xəstəliyinə tutulsaz, kim sizi müalicə edəcək? Yoxsa türmədəki əziz xələfin gəlib sənin çün həkim tapacaq?..

Əlbəttə ki, heç bir nəticəsi olmazdı bu söhbətlərin; nənəmlə bibim yenə də qara çörək yeyərdi, atam da əsl kommunist kimi onların bu hərəkətiylə yorulmadan mübarizə aparardı. Həm də bircə bu adətlə yox. Məhərrəmlik, orucluq, nəzir-niyaz, fitrə-zəkat – belə şeyləri təbii ki, atamın görməyə gözü yox idi,

– Biz min cür əziyyətlə işləyirik ki, bunların qarnı ac qalmasın, heç nəyə ehtiyacları olmasın, bunlar… – atam nənəmi, bibimi, hərdən də anamı babama göstərib deyinərdi – …o pulları bizdən gizlin aparıb paylıyıllar pirlərə, məscidlərə, nəzir-niyaza. Gah yasin oxutdururlar, gah Quran tapşırtdırırlar, – sonra narazılıqla babama baxardı, hirsini onun üstünə yönəldərdi, – sənin də heç vecinə deyil, elə ara yerdə danışıb özünü hörmətdən salan mən oluram,

– Arvaddara çox baş qoşma, onsuz da bildiklərini eliyəcəylər, – babam mızıldanardı və yüngülvari qızarardı, atam əlbəttə ki, buna fikir verməzdi, çünki babamın yanağına çökmüş bu yüngül qızartının səbəbini bilmirdi. Mənsə bilirdim. Bilirdim ki, babam hər ay Nərdaran pirinə, Buzovnadakı Əli ayağına nəzir-niyaz göndərir, ölənləriyçün Quran oxutdurur, ancaq bütün bunları elə eliyir ki, kommunist oğlu xəbər tutmasın, yoxsa ateist çıxışlarıyla onun da baş-beynini aparar.

Atam deyindikcə nənəm balaca təsbehini çevirərdi, bibimsə onun böyrünə qısılıb büzüşərdi, səsini çıxartmazdı.

– Sən o qırmızı xaltanı (pioner qalstukunu deyirdi) boynuna salanda mən bildim ki, axırın yaxşı olmayacaq – atam ürəyini boşaldıb otaqdan çıxandan sonra nənəm onun ardıyca baxıb təəssüflə deyərdi. - Kiçik qardaşın səndən fərasətli çıxdı.

Nənəmin belə deməsi, yəni savadsız, cüvəllağı əmimi kommunist atamdan üstün tutması mənə əvvəllər çox təəccüblü gəlsə də, sonradan fikirləşib

görürdüm ki, arvad hardasa haqlıdır. Atam orta məktəbi pis oxumamışdı, ancaq bitirəndən sonra instituta girməyə gücü çatmamışdı, neft mədənlərində işə düzəlmişdi, o vaxtdan da orada işləyirdi. Bununla bərabər, mədəndəki partiya özəyinin ən fəal üzvlərindən idi, iclaslarda həmişə odlu-alovlu çıxışlar edərdi, nümayişlərdə bayraqların ən yekəsini götürərdi, dövlət rəhbərlərinin televizordakı bütün məruzələrinə diqqətlə qulaq asardı, ən əsas da, feodalizm qalığı saydığı köhnə adət-ənənələrlə amansız mübarizə aparardı. Bir sözlə, əsl kommunist həyatı yaşayardı.

Əmim isə on iki-on üç yaşından məktəbə getməyi tərgitmişdi, (hərçənd ki, məktəbin direktoru babamın köhnə dostu olduğundan, əmimin adını hər il sinifdən sinifə keçirdirdilər), məhəllənin başındakı avtoprafilaktoriyadakı uşaqlara qoşulmuşdu, həmişə onların yanında sülənərdi, bu sülənməyin nəticəsi isə o olmuşdu ki, əmim on altı yaşında avtomobilin mühərrikini beş barmağı kimi əzbər bilirdi, gözüyumulu söküb yığırdı və atam hələ məktəbin komsomol iclaslarında acqarına odlu-alovlu çıxış edən zamanda əmim artıq ayda filan qədər pul qazanırdı, bir hissəsini də təbii ki, nənəmə verərdi.

Arvadın dediklərini düşünəndə, görürdüm ki, atamın on il məktəbə ayaq döyməyi, bəlkə də, artıq şey imiş. Onsuz da təhsilini davam etdirməyə gücü çatmadı, heç əvvəldən də buna həvəsi yox idi. Belə olan halda o da elə əmim kimi on iki-on üç yaşında əməlli bir işin qulpundan yapışsaydı daha yaxşı olardı. Hərçənd ki, Şərqin geridə qalmış adətlərindən sayılan erkən nikaha,

uşaq əməyinə indi pis baxırlar, amma məsələnin kökünə diqqət etsək, başqa nəticəyə gələrik. Məlum məsələdir ki, məktəbi qurtaran uşaqların yalnız otuz-qırx faizi normal savada malik olur, ali təhsil almağa gücü çatır, yerdə qalan «ortabablar», «zəiflər» gedir başqa sənətlərin dalıyca. Beləysə, həmin uşaqları boş-boşuna məktəbə gəlməyə niyə məcbur eləməliyik? Nənəm demişkən, qoy on-on iki yaşında gedib özünə istədiyi bir sənət öyrənsin, pul qazansın, on beş yaşında evlənsin ki, gözü açılan vaxtda da, gözü onun-bunun qızının dalıyca qalmasın, arvadbazdıq eləməsin, bilsin ki, evdə halal zövcəsi var.

Yenə ailəmizə qayıdıb, qeyd edim ki, atam nə qədər deyinsə də nənəmlə aradakı pərdəni heç vaxt götürmürdü. Aşura günləri evdə maqnitafon yandırmazdı, televizora baxmazdı, orucluqda evə sərxoş gəlməzdi, nənəm namaz qılanda məni otaqdan qovardı ki, səcdəyə gedəndə, arvadı qıdıqlamayım.

Nənəm, ümumiyyətlə çox şeylərdə mənim üçün nümunə olsa da bu, o demək deyildi ki, arvadın heç bir qüsuru, çatışmayan cəhəti yox idi. Qüsursuz bircə Allahdı, bir də məsumlar. Əlbəttə, nənəmin də çatışmayan cəhətləri çox idi və onun xasiyyətindəki xoşagəlməz məqamların çoxu həyətimizə ilk rayonlu kirayənişin gələn zaman meydana çıxdı…

Hə, deməli belə, mənim dünyaya gəlməyimdən təxminən on il əvvəl bizim həyətimizə rayondan gəlmiş ilk kirayənişin köçdü. Təzə gələndə cansız kölgəyə bənzəyirdi.

Məgər heyran olubdur hüsnünə, ey məhliqa kölgə
Ki ardınca sürünməkdən yorulmur binəva kölgə.

Bir aşiqdir ki, cismində təmamən dağsız yer yox,
Görənlər zənn edər düşmüş dalınca bir qara kölgə.

Həsəddən lalətək qan oldu bağrım görcəyin, ey şux,
Tutub daim ayağından öpür hey bihayə kölgə.

Nə qədri var idi dost-aşina, qeyb oldu dar gündə
Yanımda qaldı yalnız bir həqiqi aşina – kölgə.

Nə qədri dərdü-qəm vardırsa cismimdə çıxar ol dəm,
Bir anlıq başıma salsa əgər ol dilrüba kölgə.

Nədən rəngin dəyişmir, çıxmayır matəm libasından,
Yəqin ki, bir şəhidi-eşq üçün saxlar əza kölgə.

O qədri incəlibdir dərdü-qəmdən Fəhminin cismi,

Görənlər bilməyir ki, canlı məxluqdur bu, ya kölgə

Dördüncü fraqment

Hə, gəlib çatdıq Bakı tarixinin ən qıcıqlandırıcı, ruslar demişkən, «şipitilnı» məqamına, yəni bakılı və qeyri-bakılı kontaktlarına və bu kontaktlardan doğan qığılcımlara.

Bu yerdə bir çox ağıllı adamlar deyə bilərlər ki, bakılı, yaxud, ümumiyyətlə «filan yerli» terminini işlətmək məntiqi baxımdan düzgün deyil. Heç bir tayfa, icma, qövm yarandığı gündən ta indiyəcən eyni coğrafi məkanda yaşamayıb, burdan ora köçüblər, ordan bura qaçıblar, biri-birinə qarışıblar, sonra yenə ayrılıblar, zaqsa gedib evlənıblər, məhkəməyə gedib boşanıblar, yəni yer kürəsi etnik baxımdan «həsənsoxdu dəyirmanı» olub.

Tamamilə razıyam və onu da əminliklə bəyan edirəm ki, bu mənada bakılılar da istisna təşkil etmir, «bakılı» terminə də, əlbəttə ki, nisbi yanaşmaq lazımdır. Məhz bu səbəbdən də «bakılı və qeyri-bakılı münasibətləri»nə keçməmişdən əvvəl, bakılıların mənşəyinə ötəri də olsa nəzər salmaq pis olmazdı.

Mənşə deyəndə, məlumdur ki, ilkin yaradılışı nəzərdə tuturam və bu xüsusda ilk olaraq onu deyə bilərəm ki, bakılılar meymundan əmələ gəlməyib, yüz

faiz. Əgər kimsə buna inanmırsa, onunçün Allaha da and içərəm, kişi kimi «sən öl» də vuraram.

Hərçənd ki, nə Allaha, nə kişiliyə, nə də «sən öl»ə inanan müasir qərblilər özlərinin və bütün bəşəriyyətin meymundan əmələ gəldiyini bəyan edirlər, bu fikri sübut etməkçün çoxsaylı dəlil-sübutlar da gətirirlər. Fəqət, biz müsəlmanlar Allah adamı olduğumuzçün belə fikirləri əlbəttə ki, qəbul edə bilmərik, çünki ilahiyyat elminin rəsmi versiyasına görə, insan elə insandan əmələ gəlib, yəni Allah əvvəl Adəmi yaradıb, sonra onu cənnətdən götürüb vızıldadıb bu dünyaya, beləliklə, bəşəriyyətin yaradılışına start verilib. Və yenə də Allah adamı oduğumuzçün heç vaxt artıq suallar vermirik, soruşmuruq ki, əgər bütün bəşəriyyət bircə adamdan peyda olubsa bəs onda bu üç irq hardan peyda olub, yaxud, yekə-yekə okeanlarda itib-batmış xırda adalara adamlar hardan gedib çıxıb, irqlər necə yaranıb və s və i. Bəli, soruşmuruq və soruşmaq da istəmirik. Sual vermək elə vələddüzna xislətdi ki, adamı bu dünyada türməyə, o biri dünyada da qır qazanına aparıb çıxarar. Beləliklə, biz Adəmdən əmələ gəlmişik, qərblilər demişkən, meymundan yox.

Burda, bir məsələ də meydana çıxır; hər bir tayfa özü öz əcdadını başqalarından yaxşı tanıyır və əgər müasir qərblilər meymundan əmələ gəldiklərində israrlıdırlarsa, deməli, onların sözündə az da olsa həqiqət zərrəsi mövcud olmamış deyil. Kim bilir, bəlkə elə doğrudan da meymundan əmələ gəliblər? Hər halda, son yüzillikdə müasir qərb sivilizasiyasını bütün dünyaya təlqin elədiyi «sürətli hərəkət», «sürətli

inkişaf», «sürətli həyat tərzi» bayaq dediklərimi dolayı yolla da olsa təsdiq edir. Məlum məsələdir ki, insanla müqayisədə meymun daha sürətli, daha cəld, bakılılar demişkən, daha becid məxluqdu və qərblilər nəfəs dərmədən sürətlərini artılmaqla bəlkə də, elə öz əcdadlarına çatmaq istəyirlər, yəni bizim şairlərin diliylə desək, «özlərinə qayıdırlar».

Maraqlısı odur ki, son illərdə bizdə də qərb sivilizasiyasına inteqrasiya etmək, onun bir parçasına çevrilmək barədə qızğın mübahisələr, söhbətlər gedir, bu istiqamətdə çoxsaylı cəhdlər edilir. Biz də onlar kimi sürətlə inkişaf etmək, surətlə irəli getmək, bir sözlə, sürətlə yaşamaq və nəhayətdə, sürətlə ölməyə çalışırıq.

Məncə, bu cəhdlərin hamısı əvvəlcədən uğursuzluğa məhkumdur. Ona görə ki, nə qədər çalışsa da Adəm övladı meymun övladından surətli ola bilməz və biz özümüzü cırsaq da, teleekranlara çıxıb meymun kimi ağız-burnumuzu əysək də, toylarda meymun kimi atılıb düşsək də, bütün həyatımızı meymun kimi yalnız nəfsimizin şəhvani istəklərini ödəməyə həsr etsək də xeyri olmayacaq, yəni heç vaxt əsl qərbli ola biləyəcəyik, çünki təkrar edirəm, meymundan əmələ gəlməmişik.

İndi isə qayıdaq yazımızın əsas süjet xəttinə. Bəli, təkrar edirəm ki, bakılılar meymundan əmələ gəlməyib.

Yaxşı, bəs onda hardan peyda olub bakılılar? Göydənmi düşüblər? Yerdənmi bitiblər? Dənizdənim çıxıblar? Yox, dənizdən çıxmaq heç yerinə düşmür. Əgər belə olsaydı gərək bakılılar balığa oxşayardı, bu isə həqiqətə qətiyyən uyğun deyil. Bakılılar balıq yeməyi

çox sevsələr də, balığa bənzəməzlər, yəni sürüşkən olmazlar.

Bakılılar Allahın yaratdığı adamdan əmələ gəliblər, hərçənd ki, öz yaradılışlarına görə müəyyən mənada dənizə borcludurlar, konkret olaraq isə, Xəzər dənizinə.

Bir çoxları belə hesab edir ki, Bakının ən qədim adı Badi-kubə olub. Savadlı adamlarsa bilir ki, «Badi-kubə» (küləklər şəhəri) termini bizim ərazidə islam formalaşandan sonra yaranıb. Bəs ərəblərdən qabaq buralarda məgər şəhər-filan olmayıb? Olub, niyə olmayıb, qoz kimi şəhərimiz vardı islamdan qabaq. Elə qabığı da qoz kimi möhkəm olub – qala divarlarını deyirəm. Eh, o qədər padşahlar, sərkərdələr bu qozu sındırmaq istəyəndə dişlərindən məhrum olublar ki. Heç sayı-hesabı yoxdu. Axırda on səkkizinci əsrdə rus imperatriçəsi Yekaterinanın göndərdiyi kəmilərin topları bu qozun qabığından bir az qopartsalar da, yenə tam sındıra bilmədilər. Qozun içi kifləndi, çürüdü, dağıldı, amma qabığının böyük bir hissəsi bizim dövrümüzə qədər gəlib çatdı. Buna da şükür. Heç olmasa indi bu qala divarlarına baxanda bakılılar qürur duyurlar, fikirləşirlər ki, nə vaxtsa bizim də möhkəm qabıqlı qozumuz olub. Nə isə, söhbəti uzatmayım.

Bakılıların mənşəyi barədə söhbət açmaq istəyəndə istər-istəməz adamın qarşısına belə bir maraqlı sual çıxır: birinci Bakı yaranıb, yoxsa bakılılar? Amma bu sual, «birinci toyuq yaranıb, yoxsa yumurta?» sualı kimi cavabsız göründüyünə görə onun üstündən tullanmalı olacağıq. Belə hesab edək ki, birinci bakılılar

yaranıb və qeyd etdiyimiz kimi bu yaranışlarına görə müəyyən mənada dənizə borcludurlar. Dənizə və əlbəttə ki, nöyütə.

Tfu, zəhrimar, bu zəhləmgetmiş nöyütün əlindən heç yaxa qaçırtmaq olmur. Bakı tarixinin hansı deşiyinə baş soxursansa burnuna nöyüt iyi gəlir, hansı otağına ayaq qoyursansa ayaqqabının altına nöyüt yapışır. Əməlli-başlı dəhşətdir, qap-qara, qır-saqqız kimi dəhşət. Cəhənnəm bundan yaxşıdır. Ümumiyyətlə, mən belə hesab edirəm ki, Bakı ərazisi cəhənnəmin yer səthinə daha çox yaxın olduğu yerdir.

Hə, deməli, baklılar öz yaranışlarına görə dənizə və nöyütə borcludurlar. Necə? İndi necəsini də danışaram.

Bakının ərazisi nə əkin-tikin, nə də maldarlıq üçün yararlı olmadığından burda insanların məskunlaşması bir qədər gec başlayıb. Yəni, gəmiçilik və atəşpərəstlik yaranandan sonra.

Ömründə heç olmasa bircə dəfə də olsa xəritəyə baxanlar bilir ki, Bakının yerləşdiyi Abşeron yarımadası Xəzər dənizinin, türkün məsəli, ortasındadı və İrandan Rusiyaya, Rusiyadan da İrana üzən tacir gəmiləri yolun ortasında dincəlmək fikrinə düşəndə, yaxud tufan qopanda daldalanacaq bir liman yeri axtararkən, nəzərlərini bizim buxta cəlb edib, bura yan alıblar, dincəliblər, istirahət ediblər, sonra da yollarını davam ediblər. Bir müddət sonra isə, o vaxtlar da dünyada kifayət qədər olan işbaz adamlar fikirləşiblər ki, coğrafi cəhətdən çox uğurlu yerdə məskən salmış bu buxtadan yaxşı pul qazanmaq olar və beləliklə, buxtanın yerində

liman peyda olmağa başlayıb. Ağıllı adamlar bu limanda tacir gəmilərini təmir etməkçün doklar, matrosların dincəlməyiyçün karvansaralar tikdirib, lap sonra isə ağıllarına gəlib ki, İrandan Rusiyaya və geri üzməyə heç lüzum yoxdur, uğurlu yerdə məskən salmış bu limanı maldəyişmə məntəqəsinə döndərsələr lap sərfəli olar.

Bu minvalla limandakı karvansaraların, bazarların, anbarların sayı artır və bu balaca qəsəbə dönür eyni zamanda yarmarka tipli bir yerə. Cənubdan və Şimaldan üzüb gələn tacirlər elə buradaca mallarını dəyiş-düyüş edib qayıdırdılar ev-eşiklərinə, beləliklə əziyyətləri xeyli azalmış olurdu. O vaxtkı Bakı indiki Dubay kimi bir ticarət mərkəzi idi.

Bəli, Bakının və bakılıların yaranmasında dənizin rolu barədə danışdıq, indi keçirik nöyütün roluna. Qeyd etmişdik ki, o vaxtkı Bakı ərazisi bir növ cəhənnəmi xatırladırdı, torpağın hər addımında nöyüt fəvvarə vururdu, qaz fışqırırdı, sonra da ordan-burdan düşən qığılcımlar vasitəsiylə öz-özünə alışırdı, yanırdı. Bibiheybətdən tutmuş Suraxanıyacan bütün ərazilərin İcra hakimi cənab OD-ALOV idi və cənubdan – İrandan, Hindistandan üzüb gələn atəşpərəst tacirlər torpaqdan çıxan bu qədər od-alovu görüb heyrət içində qalırdılar, elə fikirləşirdilər ki, taleyin rəhm-mərhəməti sayəsində xeyir tanrısı Hörmüzün «səri-kuyi»nə yetişiblər.

Bunu başa düşən kimi, sevincdən açarlarını itirirdilər. Hətta ən mömin atəşpərəstlərin ilahi eşqi elə dombalırdı ki, yubanmadan vəhdəti-vücuda yetişmək, yəni öz müqəddəs hesab etdikləri odun vasitəsiylə

Hörmüzə qovuşmaq fikrinə düşürdülər və Radj Kapurun mahnılarını oxuya-oxuya kəllə vururdular bakıətrafı od-alovun içinə, yanıb külə dönən vücudları da uçurdu cənnətə. (Əlbəttə ki, bizim müsəlman cənnətinə yox, öz cənnətlərinə, çünki özünü könüllü sürətdə öldürüb günahi-kəbirəyə batan adama bizim cənnətdə yer yoxdur, Allah belançiyini cəhənnəmə göndərir. Ancaq o da var ki, bizim odlu-alovlu cəhənnəmimiz mömin bir atəşpərəstçün elə əslində, cənnət kimi bir yerdi; nə qədər istəsə qır qazanı, gecə-gündüz sönməyən tonqallar - alovu müqəddəs bilən adama daha nə lazımdı ki. Qoy ürəyi istəyən qədər yanıb doyunca «kayfavat» eləsin.

Beləliklə, Bakı ətrafındakı bu sonsuz od-alovun səsi-sorağı tacirlərin vasitəsiylə bütün atəşpərəst məmləkətlərinə yayıldı (nöyüt dünyanın bir çox yerlərində olsa da, ən üzdə olan yeri bizim Bakı torpağı idi və əminliklə deyə bilərik ki, o vaxtlar heç bir yerdə bizim ərazidəki qədər təbii od-alov yox idi) və dünyanın hər yerindən , ən çox da cənub-şərqi Asiyadan mömin atəşpərəstlər Hörmüzün məskəni hesab edilən Bakıya axışmağa başladılar. Gələnlərin bir hissəsi ziyarətini başa vurub geri dönürdü, bir hissəsi isə elə həmişəlik qalırdı burda, atəşgahlar, ziyarətgahlar tikirdilər, müqəddəs alovun qulluğunda dayanırdılar, ətrafını silib süpürürdülər, səliqəyə salırdılar, məqamı yetişəndə də tullanırdılar içinə, çırtaçırtnan yanırdılar. Ən əsas da, bakılıların sayını artırmış olurdular.

Bakı o vaxtlar Dubay kimi bir ticarət mərkəzi olmaqla bərabər, yavaş-yavaş atəşpərəstlərin Məkkəsinə də çevrilirdi. Bir şəhərdə həm Dubay, həm də Məkkə birləşirdi. Burdan da çox maraqlı bir nəticə çıxır: Bakı o vaxtlar Yaxın Şərqin həm maddi, həm də mənəvi-ruhani mərkəzinə çevrilmişdi və bakılıların mənşəyində maddi maraqlarla mənəvi meyllərin üzvi surətdə birləşməsini müşahidə etmək çətin deyil.

Bəli, Bakının yaranmasına yüngülvari bir ekskurs eləsək də, yaddan çıxartmayaq ki, Bakı o vaxtlar hələ Bakı deyildi, yəni şəhər artıq salınsa da, adı hələ yox idi. Yox, əstəğfürullah, adı var idi (adsız dəyirmanda xoruz oler, Moşu demişkən) sadəcə indiki kimi deyildi, bir az ayrı tövr idi, həm də bir yox, bir neçə adı var idi.

Bakının lap birinci adı «Baqavan» olub. Qədimi əlyazmalarda bu tərəflərdən keçən bir çox səyyahların dilindən «Ətşi-Baqavan», yaxud «Baquan» sözü daha çox verilir. Şəksiz ki, atəşpərəstləri buralara cəlb edən haman atəş də, nöyütün və qazın təsirindən yaranırdı və əminliklə deyə bilərik ki, nöyüt bizim şəhərin məişətinə yeriməmişdən əvvəl ilk olaraq onun adına yeriyib, adını işğal edib. Baqavan sözünün də tarixi maraqlıdır. İlk olaraq qeyd edək ki, Baqavanın barabana heç bir dəxli yoxdur, çünki «baraban» kəlməsin rusların leksikonunun nümunəsidir. Bakı və bakılılar yarananda isə ruslar hələ yox idi, daha dəqiq desək var idilər, amma hələ indiki şəklə düşməmişdilər, eləcə meşəliklərə səpələnmiş qarışıq slavyan tayfaları halındaydılar, şəhərləri filanı da yox idi. Qısası, bakılılar

yarananda ruslar hələ öz sarı saqqallarını bədənlərinin başqa hissəsindəki tüklərdən ayırd edə bilmirdilər.

«Baqavan» toponisi iki hissədən ibarətdir: Baq, yaxud Baqa kökündən və Van şəkilçisindən. «Baq» sözü qədim pəhləvi dilində tanrı anlamı verir, (bilməmiş deyilik ki, elə adını çəkdiyimiz slavyanlar da tanrıya «boq» deyir) , qədim hind sanskritlərində isə «bhaqa» günəş, yaxud, ümumiyyətlə od mənasında işlənir (Son vaxtlar Bakıda yayılan «Bhaqa-vat-Gita» kitabını xatırlamaq kifayətdir. «Bhaqavat» sözündəki son hərfin yerinə «n» hərfini qoysaq qədim Bakının adı alınır, beləliklə, bakılıların «Zita və Gita» adlı məşhur hind filminə hədsiz rəğbət bəsləmələrinin də tarixi-genetik səbəbi aşkara çıxmış olur).

Van şəkilçisi də məkan anlamı verir, yəni Tanrının, yaxud müqəddəs alovun məskunlaşdığı yer. Adıçəkilən şəkilçi bizə çox tanışdır, çünki məmləkətimizin bir çox yer adlarında ona rast gəlmək olar. Məsəlçün, Şirvan, Naxçıvan, İrəvan, Mincivan, Divan və s. Divan sözünə də yəqin bu aspektdən yaxınlaşmaq lazımdır. Di-van, yəni «di»-nin məskunlaşdığı yer. Bəllidir ki, divanda adətən insan bədəninin arxa oturacaq hissəsi məskunlaşır, onda belə nəticə çıxır ki, qədim dillərdə insan bədəninin bu hissəsi elə «di» adlanırmış.

Nəzərə alsaq ki, Bakının ilk sakinlərinin bir hissəsi Asiyanın müxtəlif bölgələrindən, ən əsas da Hindistandan gələn atəşpərəstlər idi və onların nəzərində bu odlu-alovlu yer tanrılarının məkanıydı,

onda bu yeri də tanrı adıyla «Baqavan» adlandırılmasında qeyri-adi bir şey nəzərə çarpmaz.

Lakin bu, heç də o demək deyil ki, bakılılar bütünlüklə hindlilərdən əmələ gəlib və Hindistanın yoqları da bizim babalarımız olub. Əgər belə olsaydı biz də, yoqlar kimi suyun üstündə gəzərdik, torpağın altında beş-altı gün nəfəs almadan uzanardıq və ən əsas da uçmağı bacarardıq. Yox, bakılılar bütün bunları bacarmır, əlbəttə ki, uçmağı çıxmaq şərtiylə. Uçmağın həvəskarı olmuşuq, bunu kişi kimi boynumuza almalıyıq. Bu qədər odun, alovun, nöyüt iyinin içində başqa neyləməliydik ki? Meşə, çəmən, yaylaq da yox ki, gedib havanı dəyişəsən, ova çıxıb bir-iki ceyran-cüyür vurasan, elə meşədəcə ətini şişə çəkib kabablıyasan və bu yolla ciyərlərini bu nöyüt iyindən təmizləyəsən. Bakı ətrafında ova çıxsaydın da bir-iki qotur tülküdən başqa qabağına bir şey çıxmayacaqdı, onlar da nöyütün təsirindən elə rəngə düşmüşdülər ki, tülküdən çox, köhnə kommunist arvadlarının paltolarının sürtülmüş, solmuş varatniklərinə oxşayırdılar. Onunçün də biz bakılılar azca da olsa təmizlənməyin, ətrafımızdakı bu qara-qura rəngləri şüurumuzdan çıxartmağın yeganə yolunu uçmaqda görürdük. Elə mən cavan olanda da, bizdə uçmaq hələ dəbdən düşməmişdi. Gecələr yuxarı məhəllələrin qaranlıq tin-dalanında uçmaq xiridarı olan dost-tanışla yığışırdıq, kazbekin tütününü boşaldıb adını çəkmək istəmədiyim şeylə içini doldururduq, yandırardıq, kruqa buraxıb bala-bala dartırdıq, sonra da gözlərimizi yumub yellənə yellənə uçardıq, ağ

dumana dönüb sevdiyimiz qızların yuxularına girərdik, ulduza dönüb onların başı üstə parlayardıq…

Ağ duman tək yuxuna kaş ki, gələydim gecələr,
Qəmli ruhun haralar gəzdi, biləydim gecələr.

Hər səhər sübh nəsimiylə doğulmaqçün kaş,
Baş qoyub sinənə sakitcə öləydim gecələr.

Bölünüb min yerə, hər zərrəmi bir ulduz edib,
Başın üstündə səmaya düzüləydim gecələr.

Ağlayıb gündüzü biçarə buludtək sənsiz,
Baxaraq göz yaşıma sənlə, güləydim gecələr.

Sən qaranlıqda ayı seyr elədikcə, mən də,
Ruhuna ay işığıyla süzüləydim gecələr.

Baş daşım üstə dodaq izlərini öpmək üçün,
Allahımdan da xəbərsiz diriləydim gecələr.

Fəhminin qəlbidə son arzu qalmış yalnız,
Ağ duman tək yuxuna kaş ki, gələydim gecələr.

Bu minvalla Bakının nöyüt iyini, his-pası, tüstü-dumanı heç olmasa beş-altı saatlıq həm şüurumuzdan, həm də bədənimizdən çıxmasına nail olurduq.. Şəxsən mən belə uçan dəmlərimdə babalarımın damarında

azacıq da olsa yoqa qanı axdığını çox açıq şəkildə hiss edirdim. Bu qan həmin saatlarda özünü daha bariz şəkildə büruzə verirdi, məni bir az da göylərə qaldırırdı, səmalarda uçurdum, qanad çalırdım, Hindistandan vurub Çindən çıxırdım, Çindən vurub Ərəbistandan çıxırdım, amma İstanbuldan o tərəfə uçmazdım, qorxardım ki, qərblilər öz müasir raketləriylə məni vurub salarlar yerə, xəlqimiz mənim kimi dahi «uçan»dan məhrum olar.

Ən çox da Xəzər dənizinin üstündə uçmağı sevirdim, dəniz quşlarına xüsusi meylim vardı, möhkəm dostlaşmışdım bu balıq iyi verən qanadlı məxluqlarla, xüsusən, qağayılarla söhbətim tuturdu. Hətta «Qağayı» rədifli qəzəl də yazmışdım uçan vaxtlarımda. Əfsus ki, bu uzun dimdikli dostlarımla heç vaxt doyunca söhbətləşə bilmirdim. Elə söhbətin təzəcə qızışdığı vaxtda bir də görürdüm ki, dənizin o biri başından - uzaq üfüqlərin üstündə parıldayan ulduzlardan iki dənəsi yavaş-yavaş böyüməyə başlayır, parıltısı artır, mənə yaxınlaşır və bu iki parlaq ulduzun mənə nə səbəbdən yaxınlaşmasının səbəbini dərk edənə qədər uşaqlar qışqırırdı ki, «uçaskovı gəlir, dağılışın».

Mən də naməlum tərəfdən gələn təhlükədən elə naməlum istiqamətə də qaça-qaça anlamağa başlıyırdım ki, bayaqkı ulduzlar bizim sahə müvəkkili, milis mayoru Miriyevin öz çiyinlərində fəxrlə daşıdığı poqonlarda məskunlaşmış beşguşəli sovet ulduzları imiş. Burdan belə məlum olur ki, qonşularımızın arasında da sahə müvəkkilinin «suka»ları var imiş, yoxsa məhz sakit bir yer tapıb yığışdığımız dəmdə,

mayor nöyüt iyi almış ingilis kimi gəlib başımızın üstünü kəsdirməzdi. Bu hadisə eyni ssenari üzrə fasilə vermədən təkrar olunduqca məndə bütün beşgüşəli ulduzlara qarşı dərin bir nifrət, kin yaranmağa başladı. Harada məskunlaşmasından asılı olmayaraq: istər ölkəmizin bayrağı olsun, istər gerbimiz olsun, istərsə də cibimizdə gəzdirdiyimiz pul – harda bu ulduzlardan görürdümsə elə bil atamı söyürdülər, əbədi dostlarım olan qağayılarla ünsiyyətimə imkan tapmamağımın günahını onlarda görürdüm və bu nifrətin, kinin nəticəsi o oldu ki, meydanlara çıxıb dostlarım olan qağayılarla birgə xeyli qışqır-bağır salandan sonra, axırı, sovet hökumətini yıxıb öz hökumətimizi qurmağa nail olduq. Beləliklə, bəşguşəli ulduzlardan canımız qurtardı, lakin təəssüf ki, elə qağayılar da o beşguşəli ulduzlarla birgə getdilər öz işinin dalıyca, yəni mən müəyyən səbəblər ucbatından uyumağı və uçmağı tərgitməli oldum.

Qayıdaq bakımızın adına və bakılıların mənşəyinə. Deməli, məlum oldu ki, bakının lap birinci adı Baqavan olub. O ki qaldı ilk bakılılara, onları da aşağıdakı formada qruplaşdırmaq olar: otuz faiz Şirvanın yerli camaatı, otuz faiz cənubdan gəmilərlə üzüb gələn atəşpərəstlər, otuz faiz də şimaldan, Dəmirqapı Dərbənddən keçib buralara üz tutan və oturaq həyata keçən köçərilər. Yerdə qalır on faiz. Bu on faizi də mənim sevimli qağayılarım təşkil edirdi. Bəlkə də qağayıları ən birinci bakılılar hesab etmək daha düzgün olardı, çünki onlar bu ərazilərdə adamlardan da qabaq peyda olublar və əslində buralar, elə qağayıların

məmləkəti olub. Dənizdən burunlarını çıxaran balıqlardan yeyiblər, sahildə özlərini günə veriblər, nöyütün içində ayaqlarını şappıldadaraq oynaşıblar, bir sözlə, şelləniblər özləriyçün, keyfə baxıblar.

Sonra adamlar gəlib buralara doluşub, bakılı adını qağayılardan alıb özlərinə götürüblər. Ən nəhayətdə isə, Amerikada ağlar hinduları qırıb çatdığı kimi, bakılılar da qağayıların atasını yandırıblar ki, heç kim onların bakılılığına şübhə eləməsin. Bakının insanlardan əvvəlki «qağayı sivilizasiyası» məhv edilib, iflasa uğrayıb. İndi beş-on dənə əyri-üyrü qağayı qalıb ki, onlar da bulvarda xırda uşaqları əyləndirməkçün sahilin kanalizasiya iyi verən suyunda mazaqlaşmaqdan başqa bir şey bacarmırlar.

Ərəb xilafəti güclənəndən və Yaxın Şərqi müsəlmanlaşdırmağa başlayandan sonra bakılıların etnik tərkibi və Bakının adı da xeyli dərəcədə dəyişikliklərə uğradı. Ən əvvəl şəhərə müəyyən miqdarda ərəb dilli əhali köçürülüb və ərəb canişinliyinin dəftərxanasındakı mirzələr Bakının o vaxtkı adını, yəni Baqavan sözünü öz dillərinə uyğun bir hala saldılar.

İlk ərəb tarixçilərindən olan əl-Məsudi, əl-İstəxri, ət-Təbəri və sairlərinin kitablarında Bakının adı bir neçə şəkildə qeyd edilir - Bakuh, Bakuy, Bakuyə, Badkuh, Badkubə və s.

İlk variantlar ərəb mənşəli olsalar da, son variant daha çox fars dilli mənbələrdə işlənir. Ən maraqlısı isə odur ki, şəhərimizin adının erkən forması olan Baqavan ifadəsi ərəb-fars dillərində səsləndiriləndə də şəhərin

mahiyyətini açan məna verməyə başladı. Yəni, əgər Baqavan odun-alovun yerləşdiyi müqəddəs məkan anlamı verirdisə, Badkubə də küləklərin döydüyü, vurduğu yer mənasında işlənib. «Bad» sözü fars dilində külək mənasındadı, «kub» isə «Kubidən» (döymək, vurmaq, əzmək) felinin köküdür.

Adın hər iki variantı Bakının spesifik xüsusiyyətlərini açmağa kömək edir.

Bəli, Bakını əzəmətli, köklü-köməcli, qol-budaqlı ağaca bənzətsək, onun çoxsaylı adlarını da, yəqin ki, ağacın yarpaqlarıyla müqayisə etmək olar. Bəli, fəsillər dəyişdikcə bu adlar da yarpaq kimi saralır, zamanın küləyi onları yerə səpələyir, sonra yeniləri çıxır, onlar da saralır və bu proses qiyamətə qədər davam edir; adlar dəyişir, təzələnir, Bakı isə qalır.

Təki saralıb solan elə yarpaqlar olsun, ağaca bir şey olmasın.

Budaqlardan yerə gəlmiş qonaqlar – sarı yarpaqlar,
Qonaq? Yox, yox yetim qalmış uşaqlar – sarı yarpaqlar.

Küləklə dost olub çox gəzdilər birlikdə dünyanı,
Yəqin məntək o cananı soraqlar sarı yarpaqlar.

Ayağın dəydiyi hər bir yerə üz sürtmək istərlər,
Odur şövq ilə torpağı qucaqlar sarı yarpaqlar.

Yenə sənsiz göz ağlar, cism üryan, çöhrə sapsarı,
Payızdır: gur yağış, çılpaq budaqlar, sarı yarpaqlar.

Deyirlər hər ağac bir aşiqin qəm dəftəri olmuş,
Bu dəftərdən qopan solğun varaqlar – sarı yarpaqlar

Elə bil tapdalanmış haqqıdır məzlumların yerdə,
Bu az ömründə çox görmüş ayaqlar, sarı yarpaqlar.

Eşitsən bağçada yüngül xışıltı, anla ki, Fəhmi
Bilib talelərin sakitcə ağlar sarı yarpaqlar

Bakının adının və əhalisinin Hindistanla bağlılığı üç faktorda təzahür edir. Birinci faktor, qeyd etdiyimiz kimi islamdan əvvəlki dövrdə Hindistandan bura gələn və bizim nöyütü Allah bilib ona, daha doğrusu, ondan yaranan Alova sitayiş atəşpərəstləri (belə məlum olur ki, nöyütü «allah» bilməkdə qədim hind atəşpərəstləri indiki ingilisləri, amerikalıları çox-çox qabaqlamışdılar), ikinci faktor artıq bu yaxınlarda, yəni iki yüz il əvvəl Bakıya gəlib Suraxanıda məskunlaşan Hindistanın krişnaidləri, üçüncü faktor isə mənim nənəmin Buddaya oxşamasıdır.

Birinci faktor barədə söhbət etmişik, ikinci faktora isə Bakı memarlığından danışanda toxunacağıq. Hə, qalır üçüncü faktor, yəni mənim nənəmin Buddaya oxşamağı.

Bir neçə il bundan əvvəl təsadüfən əlimə düşən bir kitabda Həzrəti- Buddanın şəklini görmüşdüm. Çox əntiqə şəkil idi: özü ortada hərəkətsiz oturaraq ilahi və əbədi bir istirahətlə məşğuldur, bütün kainat – ulduzlar, ay, günəş, insanlar, dağlar, daşlar, bir sözlə, hər şey onun ətrafına fırlanır.

O saat nənəm yadıma düşdü və təsəvvürümdə əntiqə bir multfilm (indiki dillə desək, cizgi filmi) canlandı – nənəm köhnə həyətimizin ortasındakı balaca otağında bardaş qurub Quran oxuyur, bütün ailə üzvlərimiz isə həyət qarışıq asta-asta onun başına fırlanır. Həm də nənəmdən başqa hamı ikiqat hərəkətdədirlər, yəni babam buxara papağını təmizləyir, atam kommunizmin məziyyətlərindən danışır, əmim kazbeki damağına sıxıb damda quş uçurdur, anam corab toxuyur, bibimsə uzun saçlarını hörür.

Bu multfilmin ən maraqlı detalı isə bu idi ki, hamı öz işini görməklə bərabər gözucu, hiss olunmadan nənəmə baxırdı, elə bil onun qəzəbli baxışlarıyla toqquşmaqdan qorxurdular, ehtiyat edirdilər.

Yox, heç kim nənəmdən qorxub eləmirdi, əstəğfürullah, Əzrayıl deyildi ki qorxaydılar ondan. Ümumiyyətlə, dünyavü-üqbadə nənəmdən qorxan yeganə məxluq bizim həyətdəki pişiyimiz idi ki, binayi-qədimdən nənəmin ondan zəhləsi gedirdi.

– Biqiryət kopoyoğlu, (pişiyi deyirdi) siçan-siçovul görəndə qorxudan az qalır girsin yerə, bizə çatanda sinəsini qabağa verib elə gəzir ki, elə bil Rüstəm-Zalın pələngidi.

Hərçənd, Rüstəm Zalın pələng saxlayıb-saxlamaması barədə tarixi mənbələrdə heç bir məlumat yoxdur, lakin bizim pişik həyətdə siçan, ələlxüsus da siçovul görəndə, doğrudan da tamam dəyişirdi, prezident müşavirəsində əyləşən indiki nazirlərin sifətini alırdı, bu da əlbəttə ki, nənəmin xoşuna gəlmirdi. Büzüşmüş pişiyə baxıb deyinirdi ki, anası siçovulları cüt-cüt boğurdu, onun qorxusundan həyətə siçovlu yox e, heç milisaner də gəlmirdi. Qorxurdular ki, naqafil çıxıb atdanar sifətdərinə. Heyif, maşın altında qalıb öldü yazıq. Bu bifər bilmirəm kimə oxşadı.

Nənəmin sözündə müəyyən qədər həqiqət olsa da, şəxsən mən pişiyimizi çox gözəl başa düşürdüm. Bakının mistik aurasının təsiri altında bizim yerli siçovullar böyüyüb elə qorxunc görkəm almışdılar ki, elə mən özüm də, on-on iki yaşınacan onlardan it kimi qorxurdum, o ki qaldı fəqir, arıq bir pişik ola.

Hə, sözüm ondadı ki, əslində ailə üzvlərimizdən heç biri nənəmdən qorxub eləmirdi. Sadəcə, bizimkilərçün nənəm müəyyən mənada prizma rolunu oynayırdı, bütün hərəkətlərinin, əməllərinin mahiyyəti bu prizmadan keçən zaman açılırdı, içi görünürdü, heç nəyi gizli saxlamaq olmurdu.

Çox vaxt onun dediklərini qulaq ardına vursalar da, fikir verməsələr də (ən çox da kommunist atam) hamı ürəyinin dərinliyində bilirdi ki, arvad müəyyən

dərəcədə haqlıdır. Lakin onun həqiqətləri, bir növ, dünyadan bixəbər olan, qaranlıq bir mağaradan çıxmış övliyaların moizələri kimi qəbul edilirdi, yəni bəlkə də sən düz deyirsən, lakin bu dünyada elə yaşamaq olmaz, bu zamanın öz hökmü var, gərək məhz biz olan kimi olasan, yoxsa aqibətin heç də yaxşı olmaz.

Beləcə, ailəmizdəki bu cür qısaqapanmalar məndə ilk dəfə dünyavi həqiqətlərin nisbiliyi barədə fikir yaratmış oldu. Atam bir söz deyirdi, fikirləşib görürdüm ki, haqlıdı, düz deyir. Sonra nənəmin yanına gəlirdim, o öz növbəsində atamın dediyinin əksini israr edirdi, fikirləşib baxırdım ki, arvad da düz deyir. Babam bu iki qütbün arasında barışdırıcı mövqe tutubdu, baş sındırıb baxırdım ki, ən ağıllısı kişinin fikridir.

Lap axırda da avara, cüvəlləğı əmim gəlib özünü çatdırırdı və mübahisə gedən mövzuda elə bir naqolay fikir deyirdi ki, hamımız çaş-baş qalırdıq, məlum olurdu ki, əvvəl deyilənlərin hamısı içiboş fındıq imiş, ən ağıllı adam elə əmimdi ki, ondan ötrü dünyada ən böyük həqiqət kazbekin içini doldurmaqçün şey tapmaqdan və sökdüyü maşın mühərrikini necə lazımdı yığıb, tez pulunu almaqdan ibarətdir.

Əslində bir fəlsəfi kateqoriya olaraq, «həqiqət»ə nifrətim də elə həmin vaxtlardan başlamışdı və bu «həqiqət» deyilən məfhum mənim təsəvvürümdə hər bir potensial «klientin» şəhvani istəklərinə uyğunlaşmağa qadir olan fahişə arvadlar görkəmində canlanmışdı. Sadəcə, araşdırdığımız situasiyada, kişi bədəninin yerini insan şüuru tuturdu.

«Həqiqət» məfhumu bu qədər amorf olduğundan, dünyada tarix boyu bir belə filosoflar, fəlsəfi cərəyanlar, qollar, əllər, ayaqlar, burunlar, qulaqlar yaranıb və hər biri də bu «milyon üzlü həqiqəti» özlərinin ən yaxın silahdaşı elan ediblər.

Dünyada insanların şüuruna uyğunlaşmayan yeganə həqiqət var ki, o da «mütləq ilahi həqiqət»dir. Onun da belə əlçatmaz olmasının səbəbi öz sifətinin yalnız bir tərəfini göstərməsi, ona yalnız bir rakursdan baxmağın mümkün olmasıdır. Yəni o biri, dünyavi həqiqətlərdən fərqli olaraq «ilahi həqiqət»i əlimizə götürüb ora-burasını əlləşdirmək, hər dəlmə-deşiyinə burun soxmaq imkanımız olmadığına görə, başqa rakursdan baxanda, onun həqiqət olmadığını sübut eləmək də mümkün deyil.

Məhz bu «ilahi həqiqət»ə münasibət baxımından da dünyanın ağıllı adamlarını iki qismə bölmək olar. Bir qism insanlar iddia edir ki, bu ilahi həqiqət də o birilərin tayıdır, nisbidir və əgər əlçatmaz olmasaydı, başqa rakurslardan baxmaq mümkün olsaydı, onun da min dənə eybi tapılardı, heç də «mütləq», «ilahi» olmadığı aşkara çıxardı, çünki dünyada, ümumiyyətlə, mütləq həqiqət yoxdur, heç ola da bilməz. Hər şey nisbidir.

Bu düşüncə tərzi daha çox müasir qərblilərə məxsusdur.

İkinci qism ağıllı adamlar isə iddia edir ki, yox, elə deyil. Dünyavi həqiqətlər ilahi həqiqətin zərrələridir və ona görə də nisbidirlər. İlahi həqiqət isə bu zərrələrin vəhdəti olduğuna görə mütləqdir. Mütləq olduğuna görə də, hətta ələ keçirmək, hərtərəfli gözdən keçirmək

mümkün olsa belə onun hər üzündə eyni həqiqəti görmüş olarıq. Bu düşüncə tərzi isə daha çox şərq millətlərinə xasdır.

Mən yeniyetmə olanda diskotekalarda üzərinə çoxsaylı xırda güzgü qırıntıları yapışdırılmış plastmas kürələr olardı və tavandan asılmış bu güzgülü kürələr asta-asta fırlandıqca öz üzərinə düşən işığı çoxlu kiçik zərrələrə parçalayıb ətrafa səpələyərdi, biz də bu romantik işıq zərrələrinin içində üzərək qızlarla rəqs eliyərdik, sir-sifətimizdə oynayan işıqlardan ləzzət alardıq.

Obrazlı dillə desək, «Mütləq ilahi həqiqət» həmin o güzgülü kürəyə, onun ətrafa səpələdiyi işıq zərrələri isə dünyavi, nisbi həqiqətlərə bənzəyir.

Biz insanların bədbəxtliyi də ondadır ki, hər birimiz öz nisbi həqiqətimizi mütləq kimi qəbul etmişik və bu səbəbdən də düşünmüşük ki, başqalarının həqiqət kimi təqdim etdikləri, əslində saxta imitasiyadan başqa bir şey deyil. Heç cür anlamaq istəməmişik ki, heç birimizdə mütləqlik yoxdur, hamımızın həqiqəti əslində həmin mütləqin zərrələri olan nisbi həqiqətlərdir.

«Hamı günahkardır dünyada, amma

Dünyada heç kimin günahı yoxdur.» – tezisi də, məncə, dediklərimi bir daha təsdiq edir.

Bizim ailə üzvlərinin də, hərəsinin öz həqiqəti var idi, amma fərq ondaydı ki, bütün ailə üzvlərimiz hərdənbir də olsa dərk edirdilər ki, məhz nənəmin həqiqəti həmən mütləq həqiqətə daha yaxındır. Eyni fikri bakılı-qeyri bakılı konfliktlərinə də şamil etmək

olar. Hər iki tərəf özünü haqlı, əks tərəfi isə haqsız saysa da, əslində hər ikisi haqlı, eyni zamanda da, hər ikisi haqsız idilər.

Son otuz-qırx ildə təzahür tapan bu konfliktləri düzgün araşdırmaqçün, məncə, bakılıların məhz iyirminci əsrdəki etnik tərkibinə nəzər salmaq lazımdır.

Bir çox ucqar məkanlardan fərqli olaraq Bakı kimi mərkəzi şəhərlərin əhalisi əsrlər boyu tərkib etibariylə fasilə vermədən dəyişikliklərə məruz qalıb, müxtəlif istiqamətlərdən şəhərə insanlar axışıb, kimisi çörək pulu qazanmaqçün, kimisi təhsil almaqçün, kimisi də nöyütə yaxın olmaqçün. Və bu gələnlər də vaxt keçdikcə yerli camaata qaynayıb qarışıblar, Bakının spesifik aurasına düşüb bakılılaşıblar. Keçmişdə yerli və gəlmələr arasında hansısa münaqişələrin olmasına dair dəqiq tarixi faktlar yoxdur, amma yəqin ki, yüngülvari narazılıqlar olub. Bu da təbii haldır. Məsələçün, İçərişəhərdə yaşayan elitanın nümayəndələri Qala divarlarından kənarda, yəni Bayırşəhərdə məskunlaşmağa başlayan gəlmələrə, rişxəndlə «ayaqyalın bayırşəhərli» deyərdilər.

Ölkəmizdə sovet hakimiyyəti bərqərar olduqdan sonra şəhərə axınların qarşısı demək olar ki, alındı. Kəndlilər müəyyən mənada torpağa təhkim olunduqlarından azad yerdəyişmə hüququndan məhrum edildilər, məcburi surətdə kolxozlara bağlandılar və ümumiyyətlə, sovet vətəndaşlarının böyük hissəsinin əlindən bu hüquq alındı, evlər dövlətin sərəncamına keçdi. İnsanların çoxunun yaşadığı evi satıb harasa başqa yerə köçmək imkanı qalmadı. Əgər

kimsə bir şəhərdən başqa şəhərə, bir kənddən başqa kəndə köçmək niyyətinə düşürdüsə, bunun üçün o qədər dövlət instansiyalarını gəzməli, o qədər məmurlardan icazələr almalıydı ki, bu müddət ərzində yerdəyişmə istəyi də ölürdü.

Beləcə, ötən əsrin iyirminci illərindən başlayaraq növbəti qırx il ərzində Bakı əhalisi demək olar ki, heç bir dəyişikliyə məruz qalmamışdı. O illərin Bakı əhalisini milli-etnik baxımdan bu cür qruplaşdırmaq olar. Birinci: Bakının ən qədim əhalisi hesab olunan və İçərişəhərdə yaşayan «Ağşalvarlılar» (bu, demək olar ki, itib-getmiş nəslin qəribə adının mahiyyətinə gələcəkdə baş vurmağa səy göstərəcəyik). İkincisi, əslən Abşeron kəndlərindən olan ailələr. Üçüncüsü, Bakıda neft «bum»u zamanı ölkənin müxtəlif əyalətlərindən və cənubi Azərbaycandan bir tikə çörək pulu qazanmaq üçün Bakıya gələrək mədənlərdə işləyənlər. Dördüncüsü isə, Bakıda məskunlaşan qeyri-millətlərin nümayəndələri, yəni ruslar, yəhudilər, ermənilər və s.

Qeyd etdiyimiz kimi, sovet hakimiyyətinin ilk qırx ili zamanı Bakıya daha kütləvi insan axınları olmamışdı və inqilabdan əvvəl şəhərdə məskunlaşan bu qrup insanlar da əvvəlki gəlmələr kimi bakılılaşmışdılar (bircə son qrupdan başqa. Burda yaşayan qeyri-millətlərin nümayəndələri nə qədər özlərini bakılı elan etsələr də, bizimkilər onları tam özünkü kimi qəbul etmirdilər).

Amma insafən heç kim öz əsli nəsəbini xatirindən çıxartmırdı, hamı kişi kimi boynuna alırdı ki, bizim babamız, tutalım, Maştağadan Bakıya köçüb, ya

Ərdəbildən qaçıb gəlib və yaxud Həştərxandan bura sürgün olunub və etiraf edirdilər ki, əsl, təmiz bakılı onlar yox, məhz İçərişəhərdəki Ağşalvarlılardır, bu da təbii ki, əriyib getməkdə olan bu nəslin hörmətini şəhər camaatı içində artırırdı (gərək o vaxt qırmızı kitaba salardıq Ağşalvarlıları, onda bəlkə indiyəcən bu nəslin daha çox nümayəndəsi qalardı).

Bu baxımdan demək olar ki, yarım əsr müddətində Bakı əhli kompaktlaşmışdı, kənardan kütləvi axınla üzləşməmişdi və insanlar bu durğunluğa adət etmişdilər. Elə bilirdilər ki, həmişə belə olacaq. Eyni məhəllədə, eyni həyətdə, eyni qonşularla ta qiyamətəcən yaşayacaq, xasiyyətinə öyrəşdiyi insanlarla həmişə bir yerdə olacaq və bu qapalı mühit heç vaxt dağılmayacaq.

Təxminən əlli il əvvəl Bakı tarixinin ortasından burğu ilə yekə bir deşik açdılar, «çuşka» sözünü bürməliyib soxdular ora, fitilin ucunu yandırdılar, Bakı tarixi də elə partladı ki, binayi-qədimdən bizimkilər belə partlayış görməmişdi.

Lakin düz demədim, bu ilk partlayış elə də güclü deyildi, çünki bu elə tipli dinamit idi ki, hissə-hissə partlayırdı, hərdən bir az. Onunçün də ilk partlayış o qədər dağıdıcı təsirə malik deyildi, yəni Bakı tarixini tamamilə dağıda bilmədi, lakin təsirsiz də ötüşmədi. Üstünə xırda daş dəyən Jiquli padpresi kimi çat-çat olsa da, bütövlüyünü hələlik saxlaya bildi. Və bu «hələliy»in nə qədər – beş il, on il, iyirmi il çəkəcəyini o vaxt Allahdan başqa heç kim bilmirdi; nə bakılılar, nə də qeyri-bakılılar.

Bir vaxtlar, beş-altı yaşım olanda bu dinamitin mənşəyini çox axtarmışdım. Ən çox da babamın zəhləsini tökürdüm, baş-qulağını aparırdım ki, ay baba, bu «çuşka» sözü hardan pırtdıyıb çıxıb, mənası nədi, bu sözün «çaşka» sözünə bir aidiyyatı varmı? və s və i. Məhz babama qəmiş olmağımın səbəbi isə o idi ki, kommunist atamın yanında bu sözü dilimə gətirən kimi qulağımın dibindən bir şillə qoyub deyirdi ki, başından böyük qələt eləmə, camaat arasında ayrı-seçkinlik salmaq əsl pionerə yaraşmaz. Nənəmdən soruşanda, arvad heç bir dəqiq cavab verə bilmirdi, söhbəti o yan-bu yana fırladırdı, o ki qaldı cüvəllağı kiçik əmimə, onun işi lap fısqırıq idi, bir dəfə peşman olub ondan soruşdum ki, əmi, «çuşka» nə deməkdi? Əmim də damağındakı kazbeki çıxarıb onların dalıyca o qədər söydü ki, axırı mən qulaqlarımı tutub aradan çıxdım, çünki məktəbdə bizə öyrətmişditlər ki, kimsə yanınızda söyüş söysə, oranı mütləq tərk eləmək lazımdır.

Bəli, qeyd elədiyim səbəblərə görə də, mən öz sualımı həmişə babama verirdim, elə bil sövq-təbii ilə hiss edirdim ki, cavabını o hamıdan yaxşı bilir, amma oturub mənə izah eləməyə hövsələsi çatmır.

Axırı əl çəkmədiyimi görən kişi bir gün keyfi yaxşı olanda (deyəsən, həmin gün uzun axtarışdan sonra özünə əntiqə buxara papaq almışdı) həyət qapımızın sağ tərəfindəki balaca skamyada oturub sual verdiyim xüsusda bildiklərini mənə danışdı. Dedi ki, bala, ən əvvəl yadunda saxla ki, bu «çuşka» sözünü təmiz bakılılar icad eləməyib, çünki bu urus sözüdü, o da məlumdu ki, bizim köhnə Bakı camaatının çoxusu

heç indiyəcən urus dilini fərri qanmır, budey , xırda əmin, urus dilində bildiyi ancaq « yob tvayu mat» sözüdü, ayrı şey bilmir. Urusdar donuz balasına çoşqa deyərlər. Əlli-altmış il əvvəl, mən də sənin kimi xırda uşaq olanda bizim nöyüt mədənnərində işdiyib çörək pulu qazanmaqçün Urusyətdən də çoxlu sarışkə gəlmişdi bura. Olar da ki, ölür donuz ətiyçün, hansının balaca həyət-bacası olurdusa iki-üç dənə donuz saxlıyırdı. Razin tərəfdə lap çox idilər. Hə, biz də baxıb görürdük ki, onların «çoşqa» didiyi bu donuz balaları bütün günü palçığın içində ağnayıllar, zir-zibilin içində eşələnillər. Bu sözü birinci dəfə o vaxtlar eşitdi Bakı camaatı. Hə, sonra, nə diyim, onu diyirdim axı, bu urusdar möhkəm vuran olullar. Adam vurmağı dimirəm, elə şeylərdə fərasətdəri yoxdu, araq vurmağı diyirəm. Mədənnərdən çıxan kimi elə qara-qura, nöyütdü pal-paltarda doluşardılar meyxanalara, o vaxtkı stalovılara, gecə yarıyacan araqdan-çaxırdan içərdilər eşşek kimi, sonra da bir-birinnən sallana-sallana çıxardılar küçələrə, urus mahnıları oxuya-oxuya gedərdilər qaldıqları evlərə tərəf. Az içmiş olanları birtəhər gedib çıxa bilirdi evlərinə, amma hansıları ki, lül-qəmbər idilər, heç evlərinin yolunu da tapa bilməzdilər, yıxılıb qalardılar Bakı küçələrindəki nohurların, palçığın, zir-zibilin içində. Bizim camaat da onnara baxıb deyərdi ki, bu sarılar içəndə elə öz «çoşka»larına oxşıyırlar, ölürlər palçığın içində eşələnməkçün.

Beləliklə, babamın mənə verdiyi informasiyadan belə məlum olurdu ki, bizdə «çuşka» epiteti ilk dəfə 19-

cu əsrin sonlarında bura köçüb gəlmiş ruslara şamil edilib. Yaxşı, bunu öyrəndik. İndi keçirik, bu dinamit xislətli sözün sonrakı taleyinə.

Qeyd etmişdik ki, əllinci illərin sonlarında sovet hökumətinin qərarına əsasən əyalətdə yaşayan əhaliyə sərbəst şəkildə ali təhsil almaq, yaxud, ümumiyyətlə yaxşı iş tapmaqçün kənddən çıxmaq hüququ verildi və elə həmin ərəfədə də Bakıya böyük bir axın başladı. Kimisi oxumağa gəlirdi paytaxta, kimisi işləməyə, kimisi də elə-belə gəzməyə.

Bəs onda necə oldu ki, əvvəllər eşşək kimi içib palçıq içində eşələnən alkaşlara şamil edilən bir epitet birdən-birə bizim əyalətdən gələn camaatımıza aid edilməyə başladı? Kim onlara ilk dəfə «çuşka» dedi? Bakılılar? Yox, bayaq dedik ki, təmiz bakılıların rus diliylə çox araları yox idi. Bəs kim? Əlbəttə ki, psevdobakılılar - yəni Bakıda yaşayan rusdilli əhali (Əvvəl qeyd etmişdik ki, bunların içinə SSRİ-də yaşayan başqa millətlərin nümayəndələri və Rusiyada təhsil almış azsaylı rusdilli azərilər daxil idi).

Bu zümrəyə məxsus şəxslər özlərini daha çox Avropalı hiss etdiklərinə görə, bizim əyalət adamlarına yuxarıdan aşağı baxırdılar, onları geridə qalmış hesab edirdilər ki, bu da məlum məsələdir ki, çoxlarının xoşuna gəlmirdi. O ki, qaldı binəva bakılılara (əsl bakılıları nəzərdə tuturam), adı çəkilən «inkişaf etmiş» zümrəyə məxsus ali şəxslərin gözündə biz bakılılar o rayonlardan gəlmiş camaatdan da beşbetər çuşkaydıq, sadəcə bizim gəmidə oturduqlarına görə bu sözü bir çox hallarda üzümüzə deyə bilmirdilər, deyəndə də

bizimkilər cavab verirdilər ki, xoşunuza gəlmirsə rədd olun çıxın gedin hardan gəlmisiz ora, Urusyetə, nə bilim, hara. Öz şəhərimizdi, özümüz bilərik neynirik.

Amma əyalətdən gələn, özünü bir növ, qəriblikdə hiss edən adamlar bu cür cavab verə bilmirdilər və ona görə də, adıçəkilən epitet nə qədər xoşlarına gəlməsə də, onu udmalı olurdular.

Bəlkə də camaatımızın arasına bu cür ayr-seçkiliyin düşməsi də «parçala və hökm sür» siyasəti yeridib əsarət altında saxladığı xalqları daha rahat istismar edən imperiyanın bir siyasətiydi. Yəqin ki. Əgər belə olmasaydı bakılı-qeyri bakılı konfliktləri rus imperiyasından əvvəllər də olardı, amma olmamışdı.

Şəxsən mənim özümün də yadıma gəlir ki, ta səksəninci illərə qədər bizim yuxarı məhəllənin uşaqları başlarında şapgə, əllərində təsbey şəhər içinə düşəndə «yuxarı» zümrəyə mənsub cavanlar, ən çox da qızlar, bizimkilərə baxıb gülürdülər, «fu, çuşka» deyə lağa qoyurdular.

Əcəbdi, gəlib məmləkətimizdə yaşamaqları bəs deyildi, hələ bir öz heyvanlarının, daha dəqiq desək, özlərinə oxşayan heyvanın adını bizə qoydular. Bizim bəzi başıboş həmvətənlərimiz də, bir balaca qabağa gedən kimi düşdülər onların küyünə, başladılar özününkülərə yuxarıdan aşağı baxmağa, öz dilimizdə danışmağı özlərinə sığışdırmadılar, onlara baxıb başladılar kənddən-bucaqdan gələn qohum-əqrabalarına «çuşka» deməyə.

Bütün bu deyilənlər hamıya məlumdur, bu barədə çox yazılıb , çox söhbətlər gedib, uzatmağa

lüzum yoxdur. Şəxsən məni əsəbləşdirən bu idi ki, bizim rayon camaatı bütün bu işlərin səbəbini biz bakılılarda görürdü və böyük bir qisminin ürəyində bakılılara qarşı elə bir nifrət yaranmışdı ki, indiyəcən bunun əlamətləri özünü büruzə verir. Lakin bu o demək deyil ki, bizim əsl bakılılarla əyalətdən gələnlər arasında heç bir konflikt olmurdu. Olurdu və mənim əsl məqsədim, məhz bu konfliktlərin kökünə getmək, onların səbəblərini axtarmaqdır. Bunun üçünsə yenə də öz ailəmizin tarixinə baş vurmalı olacam.

Beşinci fraqment

Bizim ailənin əyalət camaatıyla ilk köklü kontaktı təxminən altmışıncı illərin əvvəllərində baş vermişdi. Şəxsən mən özüm o vaxtlar hələ dünyada olmasam da, hər şey çox yaxşı yadımdadır. Deməli, soyuq bir fevral axşamıydı və bütün ailəmiz nənəmin yanında yığışıb həyətdəki boş otaqlardan birini kirayə verib-verməmək barədə məşvərət keçirdirdilər.

Həyətə kirayənişin buraxmaq ideyası atama məxsus idi. Ümumiyyətlə, bizim həyətdə iki boş otaq var idi, birində əvvəllər babamın atası yaşayırdı, o rəhmətə gedəndən sonra boş qalmışdı və kiçik əmim buranı özüyçün anbara döndərmişdi, çilingərlik alətlərini, maşınlarçün az tapılan ehtiyat hissələrini ora yığırdı. Qarşısında uzun şüşəbəndi olan o biri boş otaq isə əvvəllər babamın əmisi Ağaverdinin idi, amma

öncəki yazılarımda danışmışdım ki, hökumət onu Sibirə sürgün etmişdi və bundan sonra nənəm bu otağa beş-on dənə toyuq buraxmışdı ki, əlimiz aşağı olanda yumurtasından, ətindən yeyək.

Atam da məhz bu otağı kirayə vermək fikrinə düşmüşdü. Neft daşlarında işlədiyi müddətdə Mirsəftər adlı bir oğlanla dostlaşmışdı. Bu Mirsəftər hansısa rayondan gəlib burda AZİ-ni bitirmişdi, neçə il idi ki, atamla bir buruqda qazmaçı işləyirdi, amma hələ hökumət ona mənzil verməmişdi, yataqxanada qalırdı. Evli adam idi, ailəvi yataqxanada min cür əziyyət çəkirdi və atam qərara gəlmişdi ki, nənəmin toyuq saxladığı həmin otağı boşaldıb mənzil alanacan onlara verək. Ümumi həyətdə nə qədər narahatçılıq olsa da, yataqxana qədər olmaz, burda balaca da olsa öz mətbəxləri, öz soyuducuları, qaz plitələri olacaqdı. Bircə ayaqyolu ilə hamam ümumi qalacaqdı.

Mirsəftərin özü atamın təklifinə çox sevinmişdi, amma atam onu da demişdi ki, sənin bizim həyətə köçməyinçün əvvəlcə gərək atamla anamın razılığını alım. Atam bir söz deyən deyil, amma anamın xasiyyəti bir az ağırdı, yola gətirmək asan olmayacaq.

Atam düz deyirdi. Bizim ailədə heç kim həyətə kənar adamın köçməyinə etiraz etmirdi, üzdə lap açıq hiss elətdirməsələr də, daxilən hamısı razıydı. Atam öz yaxın dostunun mənzil şəraitini azca yaxınlaşdırmaqçün çalışırdı, onun kommunist vicdanı heç cür qəbul eləmirdi ki, dostu yataqxanada əziyyət çəkdiyi halda həyətdəki gül kimi otaqda toyuqlar məskunlaşsın (əlbəttə, əgər toyuqlar da Mirsəftər kimi kommunist

olsaydılar, atam onların öz məskənlərindən dərbədər düşməyinə razı olmazdı, amma heyvanları kommunist partiyasına qəbul eləmirdilər və məlum məsələdir ki, əsl sovet vətəndaşı kimi, atamın nəzərində bakılı olmayan kommunist bakılı toyuqlardan daha üstün idi). Babam da Mirsəftərin həyətimizə köçməyinə etiraz eləmirdi, bu yaxınlarda təqaüdə çıxmağa hazırlaşırdı, bilirdi ki, bütün günü evdə bekar oturacaq, onunçün də xam adam axtarırdı ki, darıxanda çənəsinin altına salıb aramla, tələsmədən qədim xatiratından, nə bilim, Bakının keçmişindən, köhnə kişilərdən və s. belə şeylərdən danışıb vaxtını öldürsün. O da məlum məsələdir ki, qərib adam məskunlaşdığı yerin tarixinə, adət-ənənəsinə həmişə maraq göstərir, nəyisə öyrənməyə çalışır, ən azı ona görə ki, yerli camaata asan qaynayıb qarışsın, başqalarından çox da seçilməsin. Babam da bunları bilirdi və Mirsəftərə, bir növ, baş-qulaq aparmaqçün potensial namizəd kimi baxırdı. Bir az qabağa qaçıb onu da demək istiyirəm ki, bu mənada Mirsəftər babamın ümidlərini həqiqətən də doğrultdu, yerli camaatın artıq əzbərdən bildiyi və qulaq asmaq istəmədiyi söhbətləri Mirsəftər çox həvəslə dinləyirdi, heç vaxt babamın sözünü kəsmirdi və hərdən haqqında söhbət gedən hansısa adətin, ənənənin öz rayonlarında hansı şəkildə olması barədə informasiyalar da əlavə edirdi ki, bu da onların söhbətini xeyli maraqlı edirdi. Mən özüm də, uşaq olanda çox oturardım onların yanında.

O ki qaldı kiçik əmimə, o da öz razılığını atama bildirmişdi, çünki ona da uyanda, keyfi kök olanda

prikola tutub məzələnməkçün xam adam lazım idi, bilirdi ki, onların həyətində məskunlaşdığına görə kirayənişin onun hər cür prikoluna, zarafatına dözməli olacaq (düzdü, bu zarafatlar heç vaxt ədəb-ərkan həddini keçməzdi, mənim özüm də uşaq olanda həmişə kirayənişinimizə sataşardım, adını dəyişib Mirdəftər əmi deyərdim). Bu baxımdan, kiçik əmimlə babamın maraqları müəyyən mənada üst-üstə düşürdü.

Bibimlə anam isə belə söhbətlərə heç vaxt qoşulmazdılar, abır-həyalı ev qadınları kimi böyüklərin dediyinə Allahın əmri tək baxardılar, hansı məsələ barəsindəsə öz fikirlərində israr etmək adətləri yox idi. Anam bütün günü ev işləriylə məşgul olardi, bibim də bir küncə çəkilib sakitcə kitab oxuyardi.

Gecə ruhumda yanan şam ki sönər sakitcə,
Isti göz yaşı donub daşə dönər sakitcə.

Tək buraxmam səni ölsəm də əgər, kölgən olub
Daim ardinca xəyalım sürünər sakitcə.

Sərsəri duygularım diqqəti cəlb etmək üçün
Yenə şer adlı libasın geyinər sakitcə.

Gecə göylərdə soyuqdurmu ki mən yandıqca
Atəşim üstə mələklər isinər sakitcə.

Bu qədər qəm yükünü çəksə də biçarə ürək
Səsi çıxmaz, gecə-gündüz döyünər sakitcə.

Nakam aşiqlərinin ruhudu, qar şəklin alıb
Saçına qonmaq üçün göydən enər sakitcə.

Kimsəsizlik soyugundan büzüşəndə Fəhmi
Yenə eşq oduna, yarım, bürünər sakitcə.

Hə, qalırdı bircə nənəmin razılığı və burda məsələ xeyli qəlizləşirdi. Ümumiyyətlə, kirayənişin məsələsi ortaya çıxan kimi nənəmin davranışında, xasiyyətində əmələ gələn metomorfozalar ailə üzvlərimizin hamısı üçün gözlənilməz olmuşdu. Neçə illərdən bəri hamının tanıdığı mülayim, nurani, ağıllı arvad birdən-birə dönüb olmuşdu tərs və aqressiv bir məxluq. Elə bil içindəki hansısa knopkanı basmışdılar və üzü çönmüşdü arvadın. Əlbəttə ki, istər dünyada, istərsə də insan psixologiyasında səbəbsiz heç bir hadisə baş vermir və nənəmin belə dəyişməsinin səbəblərini də mən çox-çox sonralar araşdırıb öz-özlüyümdə dərk edə bildim.

Şəxsən mən bu dəyişikliyi bu cür başa düşürdüm. Arvad cəmi bircə dəfə , on-on iki yaşında olarkən Abşerondan kənara çıxmışdı, atası onu hansısa rayona, bir dostugilə aparmışdı, qalan bütün ömrünü Bakıda yaşamışdı, buranın camaatına, adət-ənənəsinə öyrəşmişdi və hətta öyrəşmək desəm az olar, məncə bütün qapalı mühitlərdə yaşayan insanlar kimi, onda da belə bir təəssürat formalaşmışdı ki, bütün dünya, nəinki dünya , bütün kainat elə Bakıdan və Bakı ətrafı

kəndlərdən ibarətdir. Ünsiyyətdə olduğu adamlar da, elə öz qonşularımız, qohumlarımız, bir də toyda, yasda gördüyü yerli camaat idi.

Əslində cəmiyyətdəki dəyişikliklər Bakıda rus hökmranlığı qurulandan bəri artıq tam sürətlə gedirdi, lakin onu da demək lazımdır ki, nə çar hökuməti, nə də Sovet quruluşu Bakı kəndlərinə və şəhərin yerli əhali yaşayan köhnə məhəllələrinə çox da nüfuz edə bilməmişdi, yəni bu zonalar ta altmışıncı illərə qədər öz qayda-qanunlarına, adət-ənənələrinə uyğun yaşayırdılar, şəhərin başqa hissələrindəki dəyişikliklər müəyyən mənada bu məhəllələrdən, burda yaşayan camaatdan, ələlxüsus da yaşlı sakinlərdən yan keçirdi. Nənəm də bu cür həyat yaşayan köhnə bakılılardan idi və birdən-birə bu qapalı mühitə tamam kənar bir şəxsin daxil olması və nəinki daxil olması, lap onun qabırğasında, qaldığı otağın divarının o biri üzündə məskunlaşması fikri ona qorxulu bir şey kimi görünürdü. Bu qorxu isə onunla bağlıydı ki, dediyim kimi, cəmi bircə dəfə Bakıdan kənara çıxan arvadın rayon yeri, rayon camaatı barədə təəssüratı bir o qədər də xoşagələn olmamışdı (bu barədə də onun öz dilindən eşidəcəyik) və onunçün heç bir dəxli yox idi ki, bunlar o vaxt uşaq olan , hər şeyi öz uşaq təfəkküründün prizmasından keçirən bir qızın təəssüratlarıydı. Nənəmin beynində rayon deyilən şey, məhz həmin yeganə səfəriylə, orda gördüyü adamlarla, mühitlə qeyri-ixtiyari assosasiya yaradırdı və ona elə gəlirdi ki, bütün əyalət camaatı eyni cür tipdədirlər, ayrı cür ola da bilməzlər. Bütün deyilənlərə onu da əlavə edək ki, artıq

həmin ərəfələrlə Bakıya əyalətdən böyük axın başlamışdı və orda-burda az-çox rastına çıxan, hələ Bakının davranış qaydalarına alışmağa macal tapmamış əyalət adamlarının bir çox hərəkətləri təpədən dırnağacan konservator olan nənəmin heç xoşuna gəlməmişdi. Beləcə, əslində arvadın psixoloji vəziyyətində əmələ gələn dəyişikliyi anlamaq bir o qədər də çətin deyil.

Onun qəfil aqressivliyinin bir səbəbi də, məncə qorxu faktoruyla bağlıydı. Çünki, onun fikrindən keçənlər o zamanlar nəinki bizim o biri ailə üzvlərimizin, hətta deyərdim ki, bütün Bakı camaatının fikrindən keçmişdi, amma nənəmdən fərqli olaraq bir çoxları başa düşürdü ki, qarşılaşdıqları proseslər, yəni bir məkandan başqa bir məkana kütləvi axın, kimlərinsə gəlməsi, kimlərinsə getməsi, hansısa mədəni auranın dağılması , onun yerinə başqa bir auranın yaranması– bütün bunlar hamısı təbii prosesdir, heç nə dünya durduqca öz ilkin formasını olduğu kimi saxlamır, dəyişiklik labüddür. Nənəmsə artıq yaşı keçdiyindənmi, ya həddən ziyadə qapalı mühitdə böyüyüb ömür sürdüyündənmi, ya nədənmi, bütün bunları anlamaq istəmirdi və bu səbəbdən də içində belə bir şüuraltı qorxu yaranmışdı ki, bu gəlmələr bizim bütün həyat tərzimizi korlayacaqlar, adət-ənənəmiz, abır-həyamız ayaq altında qalıb məhv olacaq, əvvəlki cənnət Bakıdan heç nə qalmayacaq. Buna görə iradəsindən asılı olmayaraq arvadda özünümüdafiə instinkti yaranmışdı və həyətimizdə əyalət adamının məskunlaşmasına bacardıqca mane olmağa çalışırdı.

– Burnuvuzdan gəlsin o yumurtalar. – Nənəm azca qəzəblənsə də, bu kəlməni demək tərzindən anlayırıq ki, məqsədi heç də bizim bütün ailə üzvlərimizin burnundan toyuq yumurtalarının gəlməyini, yaxud çıxmağını seyr etmək deyil, sadəcə arvad onun toyuqlarının məskəninə qəsd elədiklərinə görə ürəyini boşaldır.

– Əşi, guya yumurta qəhətdi başımıza, - atam dillənir, – dükanlar doludu yumurtaynan, nə qədər istəsən al bişir də.

Nənəmin elə bil atasını söyürlər. Ya da yox, elə bil onun hansısa qiymətli bir qızıl əşyasını dəmir-dümürlə müqayisə edirlər.

– Çox sağ ol. – Əcayib bir tərzdə deyir. – Sən o içi ağappaq inqubator yumurtalarını mənim gül kimi toyuqlarımın qoyduğu sapsarı yumurtalarnan bir tutursan? Elə o peçattdı yumurtalardan yemisən ki, indi üzümə ağ olursan da.

Nənəm düz deyirdi o vaxtkı camaatın çoxunun yadına gələr ki, hökumət fermalarının yumurtalarına keyfiyyət nişanı adlanan balaca bir möhür vururdular. Amma hamıya məlumdur ki, biçarə sovet hökümələinin xalqın xeyrinə nəzərdə tutduğu bütün qərarlar əks effekt verirdi. Məsələçün, camaat yumurtanın üstündə həmin bu keyfiyyət nişanı deyilən göy rəngli möhürü görən kimi anlayırdı ki, inkubator yumurtasıdı, içindəki sarısı da heç ağından fərqlənmir, özü də kapron kalqotka dadı verir.

-Sən də, ay Həsənağanın qızı, çox da zilə qaldırma bu yumurta söhbətini, – babam öz mülayim

səsiylə aranı soyutmağa çalışır. – Guya sənin o cüllütə oxşuyan toyuqların olmaseydi acınnan öləceydik. Maşallah, hələ mən də işdiyirəm, uşaqların da əli çöreyə çatıb. Ala-babat dolanırıq də. Boşalt o otağı , qoy o rayonnu tifil hökumətdən ev alaneycən gəlib bir-iki il qalsın burda. Sakit oğlandu, beş-altı dəfə bura da gəlib, özün görmüsən. Həm də gədənin dostudu da. Fərri adam olmasa uşaq məsləhət bilməz ki.

– Bu ya? – Nənəm təəccüb və bir az da kinayəylə atamı göstərir. – Sən diyirsən mən indi bunun sözünə etibar eliyim? Adə, bu sabah murdar urusun birini də götürüb salar boğazımıza ki, bunu yidizdirib içizdirün, qəmsəmoldu, nə bilim, piyanardu. Bunun ipinin üstünə odun yığmağ olar?

– Yox da, sən də bizim camaatı urus ərməniynən nöş tay eliyirsən? Noolsun ki bakili döyül. – Babam uzun müddət dəmiryolunda bələdçi işləmişdi, bütün rayonlarımızı gəzmişdi, onun üçün də bilirdi ki, mahiyyət etibariylə bizim camaat elə bizim camaatdı, istər rayonda yaşasın, istər şəhərdə. Fərq olsa olsa bir-iki adətdə, ənənədə olacaq.

– İstəmirəm, - nənəm müqavimət göstərir, – lazım döyül mənə onnarın ayda verdiyi otuz manat. İstəmirəm gətirdiyləri pay-puçu. Mən öz toyuqlarıma öyrəşmişəm. Həm də, nə əziz-xələf olub süzünçün bu rayonnı balası. Ciyərparavuzdu bəyəm?

-Dostumdu da, – atam səsini bir az yumşaldır, – ay məmə, hesab elə ki, bu saat sənin köhnə padruqan, - atam bu sözü deyəndə azca gülümsünür, – Molla Məsməxanımın evi yandı, ya ayrı şey oldu, düşdü

küçələrə. Sən indi ona o boş otağı qıymıyaceysən ki, nə var-nə var toyuq saxlıyırsan orda? Mən də elə də. Dostumdu, can-ciyərimdi, görürəm obşejitdə əziyyət çəkir, istəyirəm bir az kömək eliyim də.

– Adə, mənə bax, - nənəmin qaşları yığılır. – Sən Molla Məsməxanımı o qurumsağa tay eliyirsən? O ağzıdualı, orucdu, namazdı arvaddı, əlinnən Quran düşmür. Molla Məsməxanım evsiz qalsa, toyuqların evinə köçürdmərəm, Onu öz otağıma salıb özüm köçərəm toyuqların yanına. – Sonra da dodağaltı deyinir: – qurumsağın danışığına bax. Gör kimi kimnən bir tutur. – yenə nəyisə xatırlayıb ürəyi açılır. – Adə, Molla Məsməxanımın duaları olmasa, Allah bilir, hansı dərədə, harda olarduz hamuvuz. Hər ay süzün salamatdığıvuzçün filan qədər nəzir-niyaz verirəm ona, Quran oxutdururam. Çoxsağoluvuzdu mənə?

Atamın yaralı yerinə dəydilər elə bil.

– Hə də. Zülümnən qazandığımız köpük-quruşu bizdən gizdin apar tök Molla Məsməxanımın qabağına, o da yedizdirsün o avara gədəsinə.

Nənəm ah çəkir, bir az kövrəlir və övlad sarıdan bəxti gətirməyən «padruqasını» fikirləşir.

– Hə , o yazıq da bir cür çəkir. Bir dənə oğlun ola, o da belə bifər, nəşəxor. Nə bilim əşşi, Allah bilən məsləhətdi.

– Öz işidi, özü bilər. Vaxtında arvad məclislərində veyillənib qırt toyuqlar kimi boş-boş mərsiyə oxumaqdansa oğlunu tərbiyə eliyərdi. - atam mövzunu yenə əvvəlki axara qaytarır: –boşaldırsan otağı, ya yox?

– Yox, mən həyətə yad adamın köçməsinə razı döyüləm, özü də kim-kim – rayonnu.

– Ay arvad, nədən qorxursan e – bayaqdan bəri otağın küncündə dinməz oturub təzə düzəltdiyi sümük təsbeyi cilalıyan kiçik əmim də söhbətə qoşulur, – qoy gəlsin də. Yaxşı oğlan olar, qalar, həyətdə iş-güc olanda adamın əlinnən tutar. Yox, əgər zay çıxar, tutub çırparam eşşeycə, dalınnan da bir təpiy vuraram, atdanar öz rayonnarına.

Araya yüngülvari bir sükut çökür. Yalnız əmimin öz təsbehinə sürtdüyü şkurkanın yüngül xışıltısı eşidilir.

Nənəm bu dəfə söhbəti ayrı səmtə yönəldir.

– Mən namaz qılan, oruc tutan adamam. Həyət-bacada paklığa , təmizdiyə fikir verirəm. Onnar nə bilirsən necə olacey, təmizkar çıxacey, ya natəmiz olacey.

– Sən beyəm namazıvı həyətin ortasında qılırsan? – Atam təəccüblənir. – Lap istəsən öz otağuva ayrıca su çəkərik, dastamazuvu da ayrıca orda alarsan. Üç metrə trubadı da. Buruğdan götüzdirərəm.

Axırı nənəm dözmür, görür ki, yox, bunlar əl çəkən deyil və bayaqdan bəri demək istəmədiyi sözü dilinə gətirməli olur.

– Əşi, nə yapışmısuz yaxamnan e. Nöş məcbur eliyirsüz ki, hər şeyi diyim. İyrənirəm olardan, bildüz? Murdaldular hamısı. Ayaqyoluya gedmillər.

Hə, bu açıqlama, deyəsən, otaqdakıların hamısı üçün gözlənilməz olur. Təəccüblə baxışırlar. Nə danışır bu arvad, necə yəni ayaqyoluna getmirlər? Adam deyillər bəyəm?

Birinci babam etiraz edir:

– Sən də söz danışdın, ay Həsənağanın qızı, pravadnik işdiyəndə neçə il rayonnara gedib gəlmişəm, – bir anlıq susur, bəlkə də nəyisə xatırlamağa çalışır – heç sən deyəni görməmişəm.

– Olmuyan şeyin neyini görəceysən. Onnarın həyətində ayaqyolu olmur. Özüm şahidiyəm, - nənəm uşaq vaxtı əyalətə etdiyi yeganə səfərindən epizod səsləndirir, – hələ təzə çatmışdıq ora ki, rəhmətdik atam Həsənağanın qulağına utana-utana pıçıldadım ki, bəs, yoldan gəlmişik, bayıra çıxmaq istiyirəm. Atam da qonaq getdiyimiz evin sahibindən yavaşca soruşdu ki, uşaq ayaqyoluya getmək istiyir, hansı tərəfdədi? Ev sahibi də, əlinin yellədib ucu-bucağı görünməyən həyəti göstərdi, dedi ki, rəhmətdiyin oğlu, versin özünü həyətin o başına , ağacdardan birinin altında otursun da. Atam dedi ki, yox, elə şeyə öyrəşmiyiblər. Kişi dedi, zərər yoxdu, öyrəşər, çünki bizdə sən deyən ayaqyolu tikmək adəti yoxdu. Müxtəsəri, qaldım kəsilə-kəsilə. Başıma oyun gəldi o üç gündə.

Bəs özdəri neynirdilər? – Dayım başını qaldırmadan soruşur, deyəsən söhbət ona da maraqlı gəlir.

–Elə özdəri də harda gəldi otururdular. Bir də görürdün yekə arvad özünü ağacdardan birinin altına verib uzun tumanının ətəylərini açıb oturub, heç dünya aləm vecinə də döyül.

– Eh, rəhmətdiyin qızı, - əmim zarafata salır, - day ətəylərini uzadıb oturubsa deməli heç yeri görsənmir də. Nədən utansın ki.

– Gic-gic danışma, - nənəm onun ağzınnan vurur, – bəs qanacaq-qabliyyət? Arvad yüz dənə adamın qabağında döşünü çıxardıb uşağın ağzına tutursa day, nə gözdiyim elənçiyinnən. Yox, mən həyitə qırağ adam buraxmağ istəmirəm.

– Eh, ay arvad, – atam bezmiş halda ayağa qalxır. – Sən də əlli il bundan qabaq bir dəfə rayon görmüsən, beynüvə yeriyib ki, elə hamısı elədi.

– Elə döyül beyəm? – Nənəm qəribə bir hikkəylə mızıldanır.

– Əlbəttə, elə döyül. O vaxtlar hələ kəndistan yerləri Nikalayın vaxtındakı kimiydi, indi Sovet hökuməti hər cür şərait yaradıb, təmizdik, səliqə-səhman.

– Təmizdik adamın gərək canında olsun, – nənəm israr edir.

Yenə də ortaya ağır sükut çökür. Atam bu dəfə nənəmin şüuruna hansı istiqamətdən hücum eyləməyi düşünür, əmim təsbehi daha yaxşı ağartmaq barədə fikirləşir, babam isə, ümumiyyətlə, heç nə fikirləşmir, eləcə yerdə bardaş qurub bığlarını tumarlıyır. O da məlumdur ki, bizim köhnə kişilər ki, bığ-saqqal tumarlamağa başladı, daha heç nə düşünə bilməzlər, yəni beyinlərində yüngülvari tormozlanma gedər, çün bığ-saqqal onların fikrincə insan bədəninin elə mistik bir hissələridir ki, onlarla təmasda oldunsa, gərəkdi bütün dünyanı beynindən siləsən, bir sən qalasan, bir də sifətindəki tüklər (onlara xüsusi qulluq etməklərinin səbəbi də bu olub. Şəxsən mənim yadıma gəlir ki, məsəlçün, babam hər dəfə hamamdan çıxanda ağzının

üstündən nazik bir dəsmal bağlıyıb bığlarını tarım sıxardı ki, quruyandan sonra yaxşı görünsünlər). Bəlkə də əcdadlarımızın müəyyən sahələrdə qərbliləri irəli buraxmalarının səbəbi də olub ki, bütün günü heç nə eləmiyiblər, elə oturub bığ-saqqallarıyla mistik təmasa girməklə məşğul olublar….

Birdən-birə əmim əlindəki təsbehi bir kənara qoyub düz nənəmin gözünün içinə baxır və hamı hiss edir ki, arvadı yola gətirməkçün nəsə fikirləşib və sonradan atam təəccüb edəcəkdi ki, necə olub, belə bir fikir onun yox, məhz bu cüvəllağının ağlına gəlib.

– Ay arvad, özün dimirdin ki, Quranda belə yazılıb, əgər hər müsəlman heç olmasa, bir kafiri din yoluna gətirsə, böyük-böyük savablar qazanar? Hə, sən də hesab elə ki, bu kirayənişin də, arvadı da, dinnən bixəbər avam adamlardı, arvadını çəkərsən öz yanuva, öyrədərsən ona paklığı, təmizdiyi, orucu, namazı, kəlmeyi-şəhadəti – əmim çaşsa da özünü o yerə qoymur, - nə bilim, imamların addarını. O da gedib kişisinə başa salar, dönüb sən istiyən adam olarlar, sən də savab qazanarsan. Görmürsən oğlanın adı da Mirsəftərdü, seyid-peyğəmbər övladıdu. Yox, əgər öyrədmey istəmirsənsə, onda deməli allahın buyruğunnan çıxırsan, elə özün kafir kimi bir şeysən.

Hə, bu artıq, türkün sözü, qurşaqdan aşağı zərbəydi və nənəmin dodağaltı «əstağfurullah» deməyindən və barmaqlarının arasındakı təsbehin şaqqıltısının qəfildən surətlənməsindən hiss olunur ki, bu cüvəllağı oğlunun dedikləri arvadı əməlli-başlı

çaşdırıb, indi də götür-qoy eliyir, həm də, deyəsən etiraz etməyə bir bəhanə tapa bilmir.

Bir xeyli fikirləşir və doğurdan da kiçik əmimin sözünün qabağında bir şey deyə bilmir. Mızıldanır.

– Bəs toyuqları neyniyəceysüz?

– Çölə atmıyıceysən ki? Kəsib yiyərik də – əmim gülümsünür, - ya da beş- on dənə Molla Məsməxanım kimi arvad yığıb ölənnərivün ruhuna bir yasin oxutdurarsan, ehsan vərərsən.

Həmin axşam nənəm dəqiq fikrə gələ bilmir, yalnız səhər durub bütün ailə üzvlərimizə öz son və dəyişməz qərarını elan edir.

– İçəri otağı kirayə verirəm dostuvuza, amma şüşəbənddə yenə də toyuq saxlıyacam…

Nənəmin bu kəlməni deyim tərzindən, duruş pozasından, toqquşan qaşlarından çıxan qığılcımlardan bütün ailə üzvlərimiz anlayır ki, bu saat nənəmin ən yaxın «padruqası» Molla Məsməxanım yox, lap onun Allahı də Göydən enib nənəmə yüz dəfə «sən öl» vursa da, arvad fikrini dəyişən deyil, –Toyuqlar toxunulmazdı, vəssalam. Arvad böyük bir minnətlə elan elədi ki, eybi yox, on beş kvadrat metrlik otağı da iyirmi kvadratmetrlik şüşəbəndin yarısını, hətta yarısından çoxunu da sizə güzəştə gedirəm, amma şüşəbəndin başında bir çəpərfason şey çəkin, orda toyuqlarım qalacaq. Cəhənnəmə ki, bir az heyvanların yerləri darısqal olar. Dözərlər.

Nənəmin son qərarı öz absurdluğu ilə ən əvvəl atamı heyrətləndirir.

– Necə yəni evi verirəm, amma şüşəbənddə toyuq saxlıyacam? Bəs bu bedbaxtdar quş peyininin iyində yatıb dursunnar?

– Dünya dağılmaz, onsuz da rayonda çoxusu elə tövlədə, mal-qareynan bir yerdə yatıllar. Odey, Molla Məsməxanımı inişil meclisə aparmışdılar rayona, özü öz göziynən görmüşdü ki, damın bu başında ineyləri saxlıyıllar, bu birsi başında özdəri yatıllar. İndi diyirsən mənim toyuqlarım o ineylərdən beşbətər olacey?

– Əşşi , Molla Məsməxanımın da… – Atam birtəhər əsəbini cilovluyub sözünün dalını saxlayır, cibindən bir «Kosmos» siqareti çıxardıb yandırmaq istəyir, amma birdən görür ki, damağında artıq bir siqaret var və baş verən hadisələrə tamamilə biganə bir şəkildə bala-bala tüstüləməyindədi. Qutudan təzə çıxan siqaret böyük sürətlə pəncərədən aşağı uçur və atam ağzını açıb nəsə demək istədiyi zaman şapgəsini gözünün üstünə basmış kiçik əmim ona yaxınlaşıb qulağına nəsə pıçıldayır. Atamın üzü gülür, dodaqları qaçır, amma sevincini büruzə verməməkçün tez özünü yığışdırsa da, nənəm, deyəsən, nəsə anlayır, başa düşür ki, bu kiçik gədə işə qarışdısa nəsə sarsaq, əndrabadi bir şey fikirləşəcək, onun bütün fikirlərini qatıb qarışdıracaq. Oğlanlarının xosunlaşmasından ehtiyatlanan arvad əvvəl nəsə soruşmaq istəyir, lakin anlayır ki, ona heç nə demiyəcəklər onunçün də susur, sadəcə özü özlüyündə daha diqqətli olmağı qərarlaşdırır.

–Yaxşı. - atamın səsindəki narazılıq tonlarının qəfildən itməsi nənəmin narahatlığını bir az da artırır. –

Onda bu subbota uşaqları səsdiyərəm, bir yerdə kömeyləşib o şüşəbəndin başına setka çekərig, toyuqlarıvı salarsan ora, sonra içəri otaqları yuyub təmizdiyərik, o yazıq da köçüb oturar.

Nənəmin qaşlarının arasından yenə də qığılcımlar tökülür.

– Süz nöşün yuyursuz? Qoy özü gəlsün, canı çıxıb təmizdəsin içərini. Atasının hambalısuz begəm?

Atam yenə bir az əsəbləşsə də, əmim bu dəfə də onun qudağına nəsə pıçıldıyır və bu dəfə mən onun sözlərini çətinliklə də olsa eşidə bilirəm.

– Baş qoşma. Subbota əminəvəsi Eynulla rəhmətdik atasıyçün il verir, arvad meclisdə olacey. Qoy getsün, sonra rahat işimizi görərik də.

Atam yenə sakitləşir və nənəmin qaşqabaq sallatmağından hiss olunur ki, o biri uşaqlarından üstün tutduğu kiçik oğlunun məhz bu dar məqamda ona, müəyyən mənada, xəyanət edib əks cəbhəyə meyl göstərməsi heç ürəyinə yatmır. Amma narazılığını açıq şəkildə büruzə verməyi də şəstinə sığışdırmır. Eləcə uzun donunun ətəklərini yığıb « Ya Allah!» deyərək ayağa durur, taxçadan canamazını, möhürünü götürüb namaz qılmaq niyyətində olduğunu hiss elətdirərək söhbəti xətm eliyir.

Şənbə günü nənəm təğyiri-libas olub kəndə, yas məclisinə gedir, atamla əmim və bir neçə məhəllə uşağı isə köməkləşib şüşəbəndin başında altı kvadrat metrlik sahəyə nazik məftildən setka çəkib balaca tövləfason yer düzəldirlər, bu vaxta qədər yekə otaqda keyfə baxıb partapartnan yumurtlayan toyuqları orda yerləşdirirlər.

Əmim deyir ki, bu «azadlıqdan məhrumetmə» toyuqların məhsuldarlığına müəyyən ziyan vermiş olacaq, beləliklə, deyinməkçün arvadın əlinə bəhanə düşəcək. Amma, eybi yox, bəd ayaqda dükannan beş-on dənə yumurta alıb peçatını silərik, gizdincə basarıq bunnarın altına.

Ertəsi gün atam yataqxanada yaşayan dostu Mirsəftərə baş çəkir, vəziyyəti ona danışır, razılaşırlar ki, elə günü bu gün bir o qədər də çox olmayan avadanlığını bizim həyətə daşısın, köçüb otursun.

Səhəri nənəm kənddən gələndə Mirsəftər artıq şələ-küləsini nənəmin sevimli toyuqlarının keçmiş məkanına daşımaqdaydı.

Arvad örpəyini ağzının üstünə çəkib həyətə daxil olanda, onu görən Mirsəftər hörmətlə salam verir, arvad isə salamına dodağucu, bəlkə də can dərdi cavab verməklə, onların gəlişiylə bir o qədər də razı olmadığını elə ilk görüşdən hiss elətdirmək istəsə də, buna nail ola bilmir, bakılılara xas olan ədəb-ərkan nənəmdən asılı olmayaraq özünü büruzə verir, arvad elə bil qeyri– ixtiyari əlavə edir:

-Xoş gəlmisiz, ay bala. Allah mehriban eləsin.

Bunu deyəndən sonra, dilini saxlaya bilmədiyinə görə özünü dodağaltı məzəmmətləyir: – hə, də, indi elə biləceylər ki, gözüm atırdı olarçun.

Bunu əlbəttə ki, heç kəs eşitmir və arvad öz otağının qapısını açıb içəri girir, lakin girməmişdən qabaq bayaqkı səhvini düzəltməkçün qaşqabaqla, bir az da qəzəblə geri çönüb Mirsəftərə baxsa da, onun güc

nümayiş etdirmək cəhdi uğursuzluqla nəticələnir, çünki həmin an təzə və ilk kirayənişin üzünü çevirib özləriylə gətirdiyi və yolda zədələdiyi yeganə stullarının boşalmış ayağını bərkitməklə məşğul idi. Nənəm bu qəzəbli baxışın boşa getdiyindən bir az da əsəbiləşir və gücü yalnız qapını arxasıyca bərk çırpmağa çatır.

Eh, arvad ki, arvad. Çox elə başa düşəcəklər sənin bu qapı çırpmağını. Uzaqbaşı elə biləcəklər ki, külək çırpıb. Sözün varsa çağır üzünə de. De ki, ay qurumsağ, nöş yoldan çıxartmısan uşağımı? İstəmirəm də siz bura gələsiz. Rədd olun çıxın gedin hardan gəlmisiz ora.

Amma yox, nənəm heç vaxt belə şey eləməz. Birincisi ona görə ki, ədəb-ərkanı imkan verməz, ikincisi də ki, əgər bu cür bir hərəkətə yol versə, qıraqdan gələnlər elə bilər ki, bu ailədə kişilərin sözünü sayan yoxdu, arvadlar hökm eləyir. İndiki arvadlardan fərqli olaraq, belə rəyin yaranmasını nənəm istəməz, heç istəməz.

Təzə kirayənişin öz avadanlığını daşıyıb otağa doldurandan sonra nənəm paltarını dəyişib həyətə çıxır, anbardakı kisələrdən əlindəki balaca qaba xeyli buğda doldurub qapısında durub siqaret çəkən Mirsəftərin yanından etinasızlıqla keçərək şüşəbəndə girir və toyuqlarına dən səpməyə başlayır. Bu hərəkətiylə sanki demək istəyir ki, bu evin sənə kirayə verilməsinə baxmayaraq, mən istədiyim vaxt bura gələcəm, touqlarıma baş çəkəcəm.

Nə Mirsəftər, nə də onun yanında dayanıb dərindən köksünü ötürən atam arvadın bu hərəkətinə heç bir reaksiya vermirlər, yəni buyur, bu sən, bu da

toyuqların, nə vaxt istəsən gəl, heyvanları yedizdir, içizdir, hətta istəsən gecə də onların yanında qal.

Həmişə belə şeylərə görə mübahisə edən atamın mütiliyi nənəmdə artıq belə bir fikir yaradır ki, deyəsən, bu dikbaş da ağıllanıb adam olub, böyüklərlə çənə boğaza çıxmağın daşını atıb. Hətta ürəyində azca sevinir də arvad.

Toyuqların yanından çıxanda nənəm yenə elə bil nəyisə xatırlayır, Mirsəftərə tərəf çönür, qəribə, sınayıcı bir baxışla onu süzür, sonra da onun qapısından iki addım sağdakı iri tut ağacına baxır və həyətin başını göstərir.

-Ayaqyolu bax ordadı ya.

-Hə, - atama işarə verir, – göstərib mənə; ayaqyolunu da, hamamı da.

Nənəm üç addım aralansa da, daxili narahatçılıq onu vadar edir ki, bir də geri çönüb dediyini təkrar eləsin.

- Bax orda, piləkənin yanındadı ayaqyolu.

Nə fikirləşirdi arvad bunu deyəndə? Yəqin elə zənn edirdi ki, təzə qonşu axşam on metrlik yolu getməyə tənbəllik edər, elə bu tut ağacının dibini döndərər ayaqyoluya. Hələ bəlkə qorxurdu ki, atam da onun təsiri altına düşər və dostlar iki tərəfdən işə başlayıb bu yetmiş yaşlı biçarə tut ağacının axırına çıxarlar, çürüdərlər onu.

Hə, Mirsəftər öz arvadını və iki xırda uşağını da, gətirib həyətimizdə yerləşdirəndən sonra, nənəm ən çox o tut ağacının fikrini çəkirdi. Hər dəfə onun yanından keçəndə, elə bil, artıq ölümə məhkum olunmuş bir

məxluq görürdü, biixtiyar yazığı gəlirdi ağaca , hətta qaçılmaz saydığı bu qətlin qarşısını ala bilmədiyinə görə vicdan əzabı içində qovrulurdu.

Ancaq öz sevimli toyuqlarının hamısının birdən kəsilib yeyilməsiylə barışmadığı kimi, bu həyətə gəlin gələndən bəri gözünün qabağında olan bu əzəmətli tut ağacının dibinin ayaqyoluya dönməsiylə də barışa bilməzdi və onu qorumaqçün gördüyü ilk tədbir kiçik əmimi ağacın kötüyünün dövrəsinə adam boyunca setka çəkdirməyə məcbur etməyi olur. Əmim əvvəlcə bunun səbəbini anlamasa da, nənəm öz dediyindən əl çəkmir.

-Onnara etibar yoxdu. Bir də gördün gecə biz yatannan sonra murdalladılar ağacın dibini.

-O boyda ayaqyolu olan yerdə neynillər ağacın dibini? –Əmim təəccüblənir.

-Sən bilmirsən, buların ayaqyolunnan zəhlələri gedir. Ağac dibini xoşduyullar. – Nənəm elə ağıllı bir tərzdə cavab verir ki, əmim biixtiyar inanır, hətta tut ağacına yazığı gəlməyə başlayır və nənəmin dediyinə əməl edir.

Tut ağacının ətrafına setka çəkilməsindən sonra da nənəm arxayınlaşmır. Gecə ərzində beş-altı dəfə yuxudan hövlnak ayılıb paltarını əyninə geyir, həyətdə yanan yeganə lampanın işığında gəlib diqqətlə tut ağacının dibini yoxlayır, yaş olub-olmadığını müəyyənləşdirməyə cəhd göstərir, hətta əyilib ağcın kötüyünü iyləməyə də tənbəllik etmir. Bir sözlə, narahatçılıq içində qovrulur…

Çox təəssüf ki, nənəm bütün diqqətini tut ağacının müdafiəsinə yönəltdiyi bir dövrdə zərbə ona tamam ayrı bir istiqamətdən dəyir. Mirsəftər bizim həyətə köçəndən bir həftə sonra həyətdə vay-şüvən qopur ki, gecəykən nənəmin toyuqlarından biri ölüb.

Elə bu vaxt çox qəribə bir hadisə baş verir. Bütün haqqında danışdığım hadisələrin cərəyan etdiyi müddətdə dinməz oturub öz sevimli «İtkin gəlin» kitabından ayrılmayan və heç bir səslə, sözlə, hətta deyərdim nəfəslə də öz mövcudluğunu hiss elətdirməyən bibim yuyulmamış çömçə kimi özünü soxur ortalığa, gecəykən ayaqlarını çox əcaib şəkildə uzadıb dünyadan köçmüş toyuğun cəsədi üstündə heç kəsin gözləmədiyi bir həyasızlıq nümayiş etdirir.

– Vaxsey, bu nə zibildi düşdüy, arvad gəlib görsə özünü öldürəcey, bu çil-çil toyuğu atasınnan çox istiyirdi.

Bibim öz qardaşlarının fırıldağından, yəni əmimin cibindəki sarı rəngli mənhus həblərdən bixəbər olduğundan çil toyuğun rəhmətə getməyinin səbəbini təbii ki, Mirsəftərdə görür və bu gecə kənddə xeyir işində olan nənəmin bir azdan evə dönəndə bu hadisəyə necə reaksiya verəcəyini, bəlkə də əməlli-başlı dava-qırğın salacağını gözünün qabağına gətirdikcə əsim-əsim əsir.

– Öldürəcey hamımızı, – elə bil nənəm barədə yox, onun həmişə üstündə bıçaq gəzdirən atası Həsənağa haqqında danışır, – doğram doğram eliyicey, ən birinci də bax bunu, təbii ki, mağmın-mağmın dayanıb başını aşağı dikən Mirsəftəri göstərir. Nə qədər

gec döyül, qoy köçüb getsünnər, elə bu saat, nə qədər ki, arvad gəlmiyib.

Bu gözlənilməz müdaxilədən həm atam, həm də əmim bir anlıq özlərini itirirlər, təəccüblə biri-birinə baxırlar, bir müddət susandan sonra, nəhayət, kiçik əmim bibimə çönüb əsəbiliklə əlini yellədir:

– Əşi, səni kim vəkil eliyib arvadın adınnan danışasan e. Ged otur «İtkin gəlin»ivi oxu da.

Bibim özünə xas olmayan inadkarlığı ilə qardışlarını bir az da çaşdırır.

-Kitab vaxtıdı? Sən di görüm bu toyuğa nə olub belə? Diyandığı yerdə nöş ölməlidi ki? Nə bilirsən, bəlkə elə bir-iki günə hamısı qırıldı? Allah bilir bular, –yenə də Mirsəftəri göstərir, – nə töküblər heyvannarçün, zəhərriyiblər yazıqları.

Bibimin sonu görünməyən monoloqunun bu yerində Mirsəftər altdan- altdan günahkarcasına əmimə baxır və elə bil demək istəyir ki, axı mən səni xəbərdar eləmişdim üstü açılacaq, gərək atmazdın o zəhrimar tabletkaları heyvannarçün.

Bibim isə susmaq bilmir və onun ağlamsınaraq dediyi son sözləri əmimi lap özündən çıxardır.

– ..hə də , bu gün toyuqların başını yiyəcəylər, sabah da bizim hamımızın axırına çıxaceylər. Gəlib oturaceylər yurd-yuvamızda.

– Mənə bax, sən lap ağını çıxartdun a. Davay, sürüş yuxarı evə, səsivi çıxartson qulaqlarıvı mıxlıyacam divara.

Əmimin səsində əmələ gəlmiş zəhm notları bibimi özünü yığışdırmağa məcbur edir və yerdə

uzanmış toyuq cəsədinə bir də baxıb köksünü ötürür, yəqin bu rəhmətliyin deyib-gülüb, oynayan vaxtlarını yadına salır, ya da qardaşlarının belə hərəkətini görüb dünyanın vəfasızlığını fikirləşir, bir sözlə, nə düşünürsə, qəzəblə «Allah cəzavızı vericey, baxarsuz» deyərək pilləkənə doğru gedir və qəfil oyanmış hikkəsindən taxta pillələri iki-iki çıxaraq yuxarı mərtəbədəki otağına girir.

Atamla əmim isə daha bir neçə dəqiqə təəccüblə gah biri-birinə, gah da yerdəki çil toyuğun cəsədinə baxırlar. Bəlkə doğurdan da səhv eliyiblər, bəlkə bu fırıldağın axırı doğrudan da pis qurtaracaq. Əgər hamının quzu balası kimi sakit bildiyi on səkkiz yaşlı bibim toyuqlardan birinin ölməyinə bu cür sərt reaksiya verirsə, onda arvad gələndə heç qabağında dayanmaq olmayacaq ki?

Bu qəribə baxışların səbəbini təxmini də olsa hiss eləyən Mirsəftər həyəcandan qurumuş boğazını azca yaşlamaqçün bir-iki dəfə udqunmağa çalışır, yalnız üçüncü cəhddən sonra buna nail olub yavaşca pıçıldayır:

– Bəlkə bacı düz deyirdi? Uşaqları da götürüb qayıdım yataqxanaya.

– Uje gejdi, – atam başını yellədir.

Elə bu vaxt Mirsəftərin səkkiz yaşlı oğlu və beş yaşlı qızıyla birgə bazardan qayıdan arvadı Güləbətin (kiçik əmim elə ilk gündən onun adını «Kəlbətin bacı» qoymuşdu, amma sözü elə tələffüz edirdi ki, Mirsəftərgil bu ibarəni əmimin yox, Bakı ləhcəsinin ayağına yazmağa məcbur olurdular) həyətə daxil olur,

tut ağacının yanında dayanıb qaşqabaqlarını sallatmış kişiləri görür, sonra da yerdəki toyuq leşinə nəzər salır və deyəsən, məsələnin nə yerdə olduğunu anlayır. Başını yellədib əlindəki dolu zənbilləri qapısının ağzına qoyub köksünü ötürür.

– Mən sizə dedim ki, belə düşüy iş tutmayın. Ağbirçək arvaddı, tayınızdı belə zarafat edirsiniz? İndi nə deyəcəksiz ona? Deyəcəksiz ki, özbaşına öldü toyuq? Allah bilir, beyninə nə qara-qura fikirlər gələcək.

– Hə də, ağıllının birini yola saldıq, o biri başladı. Əcəb girinc qalmışıq bu arvad tayfasının əlində. – Əmim dodağaltı mızıldanıb üzünə süni bir təbəssüm yapışdıraraq Mirsəftərin arvadına deyir. – Sənniy bir şey yoxdu, ay Kəlbətin bacı, sən keç içəri, yorğunnuğuvu al, sonra da o rayonuvuzdakı kimi əntiqə bidənə çay dəmlə bizimçün. Ordan gətirdiyün otdardan da atginən içinə. Qoy iyi çıxsun. Arvad gələndə nə diməy lazımdısa, onu biz fikirləşib taparıq.

Güləbətin təzədən zənbilləri götürüb içəri daxil olur və otaqdan onun bir o qədər də güclü olmayan səsi eşidilir.

-Heç yaxşı iş tutmamısınız. İndi arvad elə biləcək ki, biz nəsə yedizdirmişik toyuğa, onunçün ölüb. Üç gündür gəlmişik, indidən düşmən olacaq bizimlə.

– «Onsuz da zəndeyi-zəhləsi gedir sizdən. Bunnan o yanası yoxdu ki?» –Bunu əmim demir, eləcə ürəyindən keçirir və nəsə bəhanə fikirləşib tapmağa cəhd edir, həm də bu bəhanə elə əsaslı bir şey olmalıdır ki, arvad ona inansın, toyuğun öz əcəli ilə dünyadan köçməyinə zərrə qədər də şəkk-şübhəsi qalmasın…

– Ay köpək uşaqları, oynamağa yer qəhətdi? Süzə min dəfə dimişəm ki, ayaqqabıynan dama çıxmıyın, qırı çartdadırsız.

Dalanın başından babamın səsi gəlir, deyəsən, yenə də qonşu uşaqları bizim evin damına dırmaşıblar. Babamın da ən zəhləsi getdiyi şey idi bu. İki-üç dənə cüvəllağının ucbatından hər qış damırdı evlər, itin zülmünü çəkirdik.

– ...atovuzu dalıvıza sərəciyəm, dayanun…

Həyətimizdəkilərin hamısı diksinir. Deməli, babamla nənəm qonaq getdikləri yerdən artıq qayıdırlar. Hesabla axşam gəlməliydilər, amma hər nədisə bu saat həyətə girəcəkdilər, arvad sevimli çil toyuğunun, öz diliylə desək, yıxılan evin dirəyi olan, gündə yumruq boyda bir cüt yumurta qoyan əziz-xələfinin cəsədini görəcəkdi və …

Bundan sonra nə olacağını həyətdəkilər yalnız öz təxəyyüllərinin gücünə uyğun təsəvvür etməyə çalışırlar.

Bir işi tutanda məlum məsələdir ki, adam onun axır nəticəsini çox dumanlı şəkildə görür. Atam də bir-bir toyuqların axırına çıxmağı qərarlaşdıranda arvada nə cavab verəcəklərini fikirləşməmişdi və yalnız indi, son anda hiss edir ki, ağlına heç bir şey gəlmir, onunçün də canını yüngülvari bir narahatçılıq bürüyür, arvadın toqquşan qaşlarının arasından çıxacaq qığılcımlar elə bil zaman pərdəsini yararaq indidən atamın bədəninə səpələnib bədənini yandırır və atamdan çıxıb ətrafa yayılan bu narahatçılıq dalğaları həyətdəkilərin hamısına sirayət edir.

Mirsəftəri həyəcandan qaşınma tutur, hətta üzündə yüngül nəmişlik də hiss edir, elə fikirləşir ki, arvad toyuğun cəsədini görən kimi onun, bəli, öz oğlanlarının yox, məhz onun üzünə bir parça tüpürəcək, hələ bəlkə ağır söz də deyəcək.

Babamın səsini eşidən bibim yuxarıdakı otağının pəncərəsindən başını çıxarıb nigarançılıqla həyətə boylanır, çil toyuğun hələ də ortalıqda qaldığını görüb xov içində dodaqlarını sıxır, qorxudan pəncərəni bağlayıb pərdəni çəkir, amma sonra maraq ona güc gəlir, pərdəni azca aralayıb bir gözüylə həyət qapısına zillənir, elə bil bu saat oradan əjdaha gələcəyini gözləyir.

Mirsəftərin evdə əsəbiliklə vurnuxan arvadı isə bazardan təzə alıb gətirdiyi almalardan birini tələsik yuyub ağlayan qızının ağzına basır ki, çığırtısı kəsilsin, yoxsa uşağın cır səsi arvadı lap əsəbləşdirər, özündən çıxarar.

Hətta həyətin ortasındakı tut ağacı da narahatlıqdan az qala büzüşür, yarpaqlarının yüngülvari xışıltısında gərginlik notları hiss olunur.

Bircə kiçik əmimin dünya-aləm vecinə deyil. Eləcə damağındakı «Kazbek»in kötüyünü çeynəyərək başmağın burnundan çıxan barmaqlarıyla toyuğun lələklərinin arasını eşəliyir, elə bil qızıl axtarır orda. Bəlkə də nəyəsə arxayındır, lakin bu arxayınçılığın səbəbini, deyəsən, heç özü də yaxşı anlamır.

Bütün həyət tufanqabağı sakitliyin son saniyələrini yaşayır. Addım səsləri ağır-ağır yaxınlaşır, tuk, tuk, tuk… Danq... budur həyət qapısından iki addım solda olan kanalizasiya lyukunun altı azca

boşalmış qapağı danqıldayaraq gələnlərin lap yaxında olduğunu xəbər verir. Üç, iki, bir, mator!..

Təbii ki əvvəlcə qabaqda gələn babam həyətə daxil olur. Hava istidir, babam buxara papağını çıxarıb dəsmalla başının tərini silir, əlində tutduğu toxunma setkadakı iki ədəd iri Zirə qarpızını yerə qoyur, kənddəki qohumların pay verdiyi bu ağır yükdən qurtulub, divara söykənərək nəfəsini dərir, yalnız bundan sonra həyətə nəzər salır, ailə üzvlərimizin ona zillənən narahat baxışlarından çaşır, hətta yuxarı otağın pəncərəsini azca aralıyıb, ona baxan qızının pərdə dalında görünən yeganə gözündəki nigarançılıq nişanələri də kişinin nəzərindən qaçmır.

Bircə anlıq babamın canını qorxu bürüyür, elə zənn edir ki, nəsə çox ciddi bir şey olub; ya kiçik gədə kimisə bıçaqlıyıb, ya Allah eləməsin, qız nəsə artıq-əskik hərəkət eləyib, ya da ….birdən Mirsəftərin qapısının ağzında çox əndrabadi şəkildə uzanıb özünü günə verən çil toyuğun cəsədini görür və o saat hər şeyi anlayır. Dünyagörmüş adam olduğundan həyətdəkilərin üzündəki narahatlığın səbəbini də o dəqiqə başa düşür…

Kanalizasiyanın lyuku bir də danqıldayır və iki saniyədən sonra başını aşağı dikən nənəm də yorğun addımlarla həyətə girir, adət etdiyi kimi ağ örpəyini başından götürüb səliqəylə qatlayır, xına çəkməkdən qəhvəyi rəng almış uzun saçları görünür.

Bu an Mirsəftərin şüşəbəndinin küncündə məskunlaşmış toyuqlar, elə bil nənəmin gəlişini hiss edib bərkdən qaqqıldaşmağa başlayırlar, sanki bu üsulla

öz havadarlarına nəsə vacib bir sirr açmaq istəyirlər, bəlkə də imdad gözləyirlər…

Toyuqlar hay-küy qaldıran kimi qapısında quruyub qalmış Mirsəftər bir az da büzüşür, bir az da balacalaşır, üzündəki xəyali tüpürcək sanki kislotaya dönüb dərisini daha çox yandırmağa başlayır…

Və nəhayət, nənəm də heyvanların səs-küyünə başını qaldırır, təbii ki, nəzəri həyətin ortasında uzanıb qalmış çil toyuğa sataşır və …

Beş saniyəlik sükut.. nənəmin yorğun şüuru gördüyünü dərk eləməyə çalışır, bəlkə də onu qara basdığını düşünür…

…Yenə də babam, yenə də bu dünyagörmüş kişi öz qədim təfəkküründün müasir gənclərin şüurundan daha sürətlə işlədiyini nümayiş etdirir.

- Buna bax a, – kişi əllərini yellədərək təəssüflə dillənir, – neçə vaxt idi o kopoyoğlu siçovulların kökünü kəsmişdik, indi diyəsən, yenə həyətə dadanıblar.

Bunu deyib nəzərlərini yerdəki çil toyuğa dikir:

– Heyif, gül kimi toyuq idi, Allah bilir hansı siçovul boğub onu…

Hə, siçovul, əlbəttə ki…

Atamla əmim asudəliklə nəfəs dərirlər və bir az da təəccüblənirlər ki, necə olub, belə bir inandırıcı bəhanə bu vaxta qədər onların ağlına gəlməyib. Axı bir il əvvəl, doğrudan da siçovullar nənəmin bir neçə cücəsini boğub öldürmüşdülər və məsələyə heç dəxli yoxdur ki, bu çil toyuq həmin cücələrdən üç dəfə böyük idi və yazıq heyvanın boynunda heç bir diş yarası görünmür; həm də ki, necə olur, bir il qabaq

həyətimizdən ayağı kəsilmiş bu murdar heyvanlar məhz indi, Mirsəftər bizim həyətə köçəndən sonra peyda olublar. Əlbəttə, bütün bunlar əhəmiyyətsiz şeylərdir, əsas odur ki, həm bu ölmüş toyuğun , həm də artıq atamla əmim tərəfindən ölümə məhkum olunmuş o biri toyuqların qətlinə haqq qazandırmaqçün tutarlı bir bəhanə tapılıb. Bəli, siçovlular yenə də siçovullar.

Arvad buna inanacaq, mütləq inanacaq.

Bunu sınamaq üçün həm atamın, həm də Mirsəftərin ümid dolu baxışları nənəmin yüngülcə qırışmış üzünə dikilir və onun gözlərinin ifadəsindən növbəti hərəkətini əvvəlcədən tapmağa çalışırlar.

– Yəqin çıxacağımız var imiş -Arvad baxışlarını toyuq cəsədindən ayırıb çox biganəliklə cavab verir – Təki ölən elə toyuq-cücə olsun, adam olmasun.

Bunu deyib otağına tərəf addımlayır, lakin qapısını açıb içəri keçməmişdən əvvəl bir kəlmə də deyir:

– Onsuz da, Molla Məsməxanıma demişəm iyirmi-otuz dənə də cücə tapsun mənimçün. – Və qapını ardıyca örtür.

Bu sözlər bayaqdan bəri sevincək olmuş atamın üzünə yenə də narahatlıq qığılcımları səpir. Arvad demək istəyir ki, bunların axırına çıxsaz da təzələrini alacam, o şüşəbənddə həmişə, ta qiyamət gününəcən toyuq-cücə saxlıyacam, istəyirsiz dalınızla divara çıxın, xeyri yoxdu.

Həyətdəkilərin hamısı bu dəfə nədənsə kiçik əmimə baxır, gözlərindən bu sual oxunur ki, əgər arvad təzədən cücə çıxardıb toyuq saxlayacaqdısa, onda

indiki bədbəxt toyuqları zəhərliyib öldürməyin nə mənası var?

Əmim hər şeyi başa düşsə də, yenə təmkinini itirmir, başını yellədib gülümsəməklə həyətdəkiləri arxayın edir ki, fikir eləmiyin, arvad elə-belə, ürəyini boşaltmaqçün o sözü dedi, təzədən cücə saxlamaq niyyəti yoxdur.

Bu məqamda mən kadrı saxlayıb diqqəti yenə də, kiçik əmimə yönəltmək istəyirəm. Bütün bu toyuq əhvalatı zamanı əmimin soyuqqanlı, hətta arxayın olmasının səbəbi, o zaman həyətdəkilərin çoxuyçün qaranlıq qalsa da bircə mən dəqiq bilirdim ki, hər halda kiçik oğul öz doğma anasını o biri övladlarından daha yaxşı tanıdığını açıq şəkildə nümayiş etdirmişdi. Dəqiq əmin olmasa da sövqi-təbii ilə hiss eləmişdi ki, əvvəl inadkarlıq göstərməsinə baxmayaraq, arvad beş-on toyuğa görə həyətdə qanı qaraçılıq salıb, həm özünü, həm də külfətini camaat içində hörmətdən salan deyil. Elə buna görə də o biri ailə üzvlərimiz həyəcan keçirdiyi zaman əmim müəyyən mənada soyuqqanlıdı idi, yəni həmişəki kimi dünya-aləm vecinə deyildi.

Lakin görünür ki, ilk baxışdan sakit görünən nənəm ürəyini hələ tam boşaltmayıbmış, çünki əmim rəhmətlik çil toyuğun ayaqlarından yapışıb zibil qabına tullamaqçün küçəyə aparanda nənəm bir də başını öz qapısından çıxarıb qəribə bir əda ilə deyir:

– Həyifdi, tullamıyın onu. Filan qədər ət var üstündə. Ver bunun arvadına, – təbii ki Mirsəftəri

göstərir, – axşama çığırtma bişirsün süzə, Üç qərdeş bala-bala arağdan vurub yiyərsüz.

Nənəm son kəlməsini dilinə gətirən kimi Mirsəftər növbəti dəfə yüngülcə diksinir (yazıq bu bir saatın içində o qədər diksinmişdi ki, sonra arvadı onun canındakı qorxunu götürmək üçün güclə dartıb çıldağa aparmalı olmuşdu), heç cür anlaya bilmir ki, bu «üç qərdeş» ifadəsini nənəm kinayəylə deyir, yoxsa həqiqətən də onu öz oğlanlarıyla bir tutur.

Əmimin isə bu ideya əvvəlcə, deyəsən bir o qədər də xoşuna gəlmir, nənəmə etiraz edir:

-Əşi tullıyıram getsin də. Ölü toyuğun neyini bişirib yeyəcəyik e.

-Nöşün ki? - Nənəmin sifətində büzüşmüş bir təbəssüm peyda olur. – Bütün günü dükannan baş-ayağı üstündə qalan ölü hökumət toyuqlarını alıb yimirsüz? Qəmsəmol qərdeşün ölür onların ətiyçün ki. Mənim çil toyuqum əskiydu olardan?

«Qəmsəmol» sözü atamı yenə də qıcıqlandırır, ən əsas da ona görə ki, artıq on ildən çox idi ki, komsomoldan komunistliyə tullanmışdı, amma nənəm bu sözü tələffüz etməyə çətinlik çəkdiyindən, ya da qəsdən, elə həmişə atama «qəmsəmol» deyirdi.

– Doğurdan a. – Əmim başına alma düşən Nyuton kimi qaşlarını qaldırır. – Bəlkə bişirib yeyək bunu. Öləndə nə olar ki?

Bu yerdə yaşı az olan oxucularçün bir arayış vermək istəyirəm: İndikilərdən fərqli olaraq Sovet dövründə dövlət mağazalarına çıxarılan toyuqların çox hissəsi həqiqətən də baş-ayağı üstündə satılırdı. Camaat

arasında söz gəzirdi ki, rəngi adətən göm-göy olan və konslager əsirlərinə oxşayan bu arıq toyuqları elektrik cərəyanıyla öldürürlər, qaynar suya basıb tüklərini yoluşdururlar, sonra da elə baş-ayağı üstündə göndərirlər mağazalara. Yəqin ki, bunun səbəbi tullanmalı olan toyuq başının və ayaqlarının pulunu da camaatın cibindən çıxartmaq idi, amma hər nə idisə qiyməti ucuz olduğundan bazardan əl toyuğu almağa pulu çatmayan zəhmətkeş kütlələr bu göyərmiş toyuq meyitləriylə qane olurdu. Şəxsən mən özüm də, uşaq olanda çox yemişəm, insafən deyim ki, bişəndən sonra onların başqa toyuqların ətindən heç bir fərqi olmurdu. Lakin nənəm kimi namaz qılan, oruc tutan adamlar bu toyuqları yemirdilər, murdar sayırdılar, çünki bildiyimiz kimi, heyvanın ətinin halal olmağı üçün o gərək müsəlman qaydasına uyğun kəsilib təmizlənsin, daha baş-ayağı da üstündə dükana göndərilməsin. Sözümün məğzi odur ki, nənəm ölü hökumət toyuğu deyəndə məhz bunları nəzərdə tuturdu).

– Hə də, – nənəm təkrar edir, – bişirün, yiyün, həm də istiyirsüzsə, bir-iki dənə o ölü toyuqlardan alıb qatun buna ki, tavada tək darıxmasın.

Əmim sual dolu baxışlarını atama və Mirsəftərə dikir, onların üzündə razılıq nişanələri görən kimi, o da, sevinir. Artıq onlar bu çil toyuğu və eyni zamanda, hələ diri olan o biri toyuqları da, tavada qızarmış vəziyyətdə təsəvvür edirlər, ağızları da yüngülvari sulanır.

Əmim geri qayıdır, əlindəki heyvanı Mirsəftərə uzadanda nənəm yalançı bir təəssüflə həyətdəkilərin

ürəyində elə özünün yaratdığı gözəl xəyalları kökündən baltalayır.

– Aa, yox e. Bişirib yeməy olmaz bunu. Axı o andıra qalmış siçovulun dişi deyib buna. Allah eləməsün, min cür xəstəlik keçər sizə.

Əmim çaşır, bilmir toyuğu Mirsəftərə versin, yoxsa zibil qabına tullasın. Bir müddət yerində quruyub qalandan sonra başa düşür ki, arvad onları iki tərəfdən sıxıb. Toyuğu tullamağa əmimin, həqiqətən də heyfi gəlirdi, amma əgər onu bişirib yesəydilər, onda özləri etiraf etmiş olardılar ki, toyuqa siçovul dişi dəyməyib.

Əmim başa düşür ki, arvad bu sözü ilə nəinki bunun, hətta artıq ölümə məhkum olunmuş o biri toyuqların da çığırtmaya dönmək planının üstündən xətt çəkmiş olur. Bunu arvadın özü də çox gözəl anlayır, elə bil öz toyuğunun qisasını alır və oğlanlarıyla onların dostunun çaşqınlığını ləzzətlə seyr edib özündən razı halda otağına daxil olur...

Beləliklə, bu toyuq əhvalatı gözlənilməz olsa da, çox sakit bir sonluqla başa çatır. Ancaq yox, səhv dedim, hələ başa çatmır, sonrakı bir ay ərzində kiçik əmimin səyləri nəticəsində Mirsəftərin qaldığı evin şüşəbəndindəki o biri toyuqlar da bir-bir dünyasını dəyişirlər, günahkar isə, təbii ki, yenə də siçovullar elan edilir.

Əmimin fikri düz çıxır, həqiqətən də nənəm təzədən cücə alıb böyütmək fikrindən vaz keçir, şüşəbəndin başında qurulmuş «mini» tövlə ləğv edilir və bütün ev Mirsəftərin ixtiyarına verilir.

Bu yerdə bəzi oxucular (əlbəttə, əgər bu yazını oxuyan varsa) deyə bilər ki, bəs, sən bakılı-qeyri bakılı konfliklərindən danışırdın, ancaq sizin həyətdə ki, elə bir maraqlı şey olmadı, bircə nənən az-maz narazılıq bildirdi, o da öz oğlanlarının təzyiqini görüb güzəştə getməli oldu. Bəs konflikt hanı? Heç konfliktsiz də əsər olar?

Düzdü, konfliktsiz əsər olmur. Lakin neyləyim ki, məhz bizim ailədə bakılı-qeyri bakılı kontaktları bir o qədər də güclü partlayışlar yaratmadı, çünki həyətimizə gələn kirayənişin yad adam deyildi, əvvəl qeyd elədiyim kimi atamın iş yoldaşıydı, qabaqlar da bizə çox gəlib-getmişdi, bizimkilər də ona elə qohum kimi baxırdılar.

Lakin çox əfsuslar olsun ki, mənim danışdığıma oxşar hadisələr çox nadir hallarda baş verirdi. Əksərən isə o vaxtlar, bakılı və qeyri-bakılılar arasında çox böyük narazılıqlar olurdu, bunun da səbəbini şəxsən mən çox adi bir şeydə görürdüm, yəni şəhər və kəndin coğrafi şərait fərqində. Kənddən gələn həmvətənlərimizin çoxu heç cür dərk etmək istəmirdilər ki, şəhərdə kənddəki kimi yaşamaq olmaz, burada hər şey başqa cürdür, bizimkilər isə heç cür anlamaq istəmirdilər ki, kənddən gələn adamların davranışında şəhər camaatının bəyənmədiyi hansısa cəhətlər heç də onların qanmazlığının nişanəsi deyil, sadəcə kənd mühitinə öyrəşdiklərindəndi, şəhərə adaptasiya olmaqları üçünsə bir azca vaxt lazımdı.

Bəli, nə bakılılar, nə də qeyri-bakılılar təəssüf ki, bütün bunların fərqinə varmırdılar, beləliklə, hər iki

qövmün ürəyində əks tərəfə qarşı bəzən açıq, bəzən də gizli nifrət, qəzəb hissləri yaranırdı.

O biri tərəfdən baxanda, bəlkə bu da təbii bir hadisədir, burda qeyri-adi heç nə yoxdur. Çünki allahın bəşər zatında yerləşdirdiyi hisslərin içində ən böyük təsir gücünə malik olanları da elə qəzəb ilə nifrətdir və məncə, hər bir etnosun passionarlığının əsas qida mənbəyi məhz bu iki hissdir. İnsanın kiməsə nifrət etməsi, kiməsə qəzəblənməsi adi haldır, qandakı biokimyavi enerji (başqa dillə desək, adrenalin) nə yollasa zahirə çıxmalıdır. Qəzəb və nifrət obyektinin seçimi isə tarixi-ictimai şəraitdən asılıdır, yəni nisbidir. Tutaq ki, Bakıya yüz, iki yüz il ərzində kənardan heç bir axın olmayıb. Məgər onda bakılılar heç kimə nifrət etməyəcəkdilər? Yaxud heç kimə qəzəb bəsləməyəcəkdilər? Hansısa bir icma qapalı şəraitdə yaşayırsa, onda bu hisslər özününkülərə qarşı yönəlir, elə necə ki, yönəlirdi də. Bunu Bakı kəndlərinin timsalında bariz şəkildə görmək olar. Bakının özünə binayi-qədimdən müxtəlif insan axınları olsa da, Abşeron kəndləri, ta müstəqillik dövrünə qədər bu axınlardan müəyyən mənada, kənarda qalırdılar və demək olar ki, qapalı mühitdə yaşayırdılar. Onunçün də qeyd etdiyim qəzəb və nifrət hissləri özününkülərə qarşı yönəlmiş olurdu. - Məsəlçün, Maştağalılar Nardaranlılarla yola getmirdi, Zirəlilər Türkanlılarla didişirdi və s. Hətta kəndlərin öz içində müxtəlif nəsillər biri-birinə düşmən kəsilirdi.

Eyni proseslər elə əyalətlərdə də mövcud idi və Bakıya axın başlananda bu nifrət, qəzəb hissləri sadəcə

istiqamətini dəyişdilər. Bakılılar rayondan gələnlərdə bəyənmədiyi hansısa keyfiyyətləri tapıb qabartmağa, rayon əhli isə bakılıların zay xasiyyətlərini şişirtməyə başladılar və bu üsulla öz nifrətlərinə, qəzəblərinə haqq qazandırmış oldular.

Belə kontaklar zamanı ya gələnlər düşdüyü yerin mühitində əriyirlər, ya da düşdükləri mühiti öz içərilərində əridirlər. Bu zaman son nəticə hansı qrupun daha çox passionarlığa malik olmasından asılıdır, yəni «Cəngəllik qanunu»na uyğun olaraq təbii seçim gedir; qaliblər yaşamaq hüququ əldə edir, məğlublar isə hər şeydən məhrum olur. Müəyyən mənada, buna ölüm-dirim mübarizəsi kimi də baxmaq olar. Fərq ondadır ki, bu mübarizə zamanı məhv olan insanlar yox, onların öz içində daşıdığı hansısa stereotiplər, komplekslər, normalar olur.

Konkret olaraq bakılı və qeyri-bakılı kontaklarına da məhz bu müstəvidən yanaşıb aradakı konfliktləri təbii qəbul etmək lazımdır və etiraf edim ki, bakılılar bu mübarizədə əvvəlcədən məğlubiyyətə məhkum idilər. Çünki son yüz il ərzində Bakı şəhəri inkişaf etdikcə bakılıların passionarlıq dərəcəsi kəskin surətdə aşağı düşmüşdü və camaatımızın şüurunda durğunluğun əlamətləri açıq şəkildə özünü büruzə verirdi. Paytaxt şəhəri üçün dövlət tərəfindən yaradılan hər cür şərait - evlərdəki kommunal rahatlıq, orta, ali təhsil müəssisələrinin lap yaxında olmağı, külli miqdarda iş yerləri, möhtəşəm mədəniyyət, istirahət ocaqları, bir sözlə, həyatda nəyəsə nail olmaq və rahat yaşamaqçün bir o qədər də böyük zəhmətə, əziyyətə ehtiyacın

qalmaması - bütün bu faktorlar bakılılarda həyat uğrunda mübarizə əzmini öldürüb tənbəlləşdirdiyindən onların daha aktiv, daha enerjili qruplar tərəfindən həzm olunmaları labüd idi.

İndi isə əyalət adamlarının psixoloji durumuna nəzər salaq. Ən əvvəl onu qeyd edim ki, burada da təbii seçimsiz ötüşmədi, yəni rayondan Bakıya passiv, tənbəl adamlar yox (passiv olanlar paytaxta gəlib hər şeyi sıfırdan başlamaqdansa, rayonda qalıb mövcud şəraitlə qane olurdular), məhz yüksək passionarlığa, mübarizə əzminə, tükənməz daxili enerjiyə malik adamlar gəldi. Həyatda özünü təsdiq etməyə olan hədsiz həvəs, inadkarlıq, zəhmətkeşlik, dözüm, səbr – bu xüsusiyyətlər ötən əsrin altmışıncı illərində paytaxta gələn əyalət adamlarının böyük hissəsində müşahidə olunan xüsusiyyətlər idi və əgər belə olmasaydı yamaqlı şalvarda Bakıya gəlib ölüm-zülümlə ali məktəbə daxil olan, yeri gələndə günlərlə ac qalan, şəhərdə evi-eşiyi olmayan, müxtəlif çətinliklərlə üzləşən bu adamlar beş-on ildən sonra cəmiyyətdə özlərinə yer edib mənsəb, hörmət sahibi olmazdılar.

Yazımın bu yerində adıçəkilən qruplar arasındakı konfliktlərin bir səbəbini də açıqlamaq istərdim. Məlumdur ki, insan başqasının ondan nədəsə üstün olduğunu çox çətinliklə qəbul edir, qıcıqlanır, əsəbləşir, həsəd aparır, paxıllıq edir, qeyri-ixtiyari içində həmin adama nifrət yaranır. Bakılılarla qeyri-bakılılar arasında da eyni münasibətlər müşahidə olunurdu - əyalət adamları bakılıların paytaxtdakı şəraitinə, rahat, əziyyətsiz həyatına, müasir düşüncəsinə gizli şəkildə

həsəd aparır, qibtə edir, bakılılar isə zahirən hiss etdirməsələr də rayondan gələnlərin elmə, təhsilə olan həvəsinə, zəhmətkeşliyinə, inadkarlığına paxıllıq edirdilər. Təbii ki, belə olan halda hər iki tərəf öz xəyali üstünlüyünü gözə çarpdırmaqla ruhani rahatlıq tapmağa çalışırdı və bu da dediyim kimi, arzuolunmaz konfliklərlə nəticələnirdi.

Amma bir şey də var ki, bütün bu danışdıqlarım yalnız insan ağlına təsir edə bilər, hissiyyat isə tamam başqa qanunlarla yaşayır. Əslində, mənim izahatlarım heç nəyi dəyişməyəcək, həm bakılıların, həm də qeyri-bakılıların qarşılıqlı münasibətləri elə əvvəlki kimi qalacaq, nifrət edən yenə də nifrət edəcək, kin saxlayan yenə də kin saxlayacaq, çünki Allah insanı belə yaradıb və qiyamətəcən də belə qalacağıq. Beləliklə, mənim allahlıq iddiasına düşən bəzi başdanxarab dahilərimiz kimi bir-iki cızma qara ilə nə dünyanı, nə də insanları dəyişmək niyyətim də yoxdur, oxuculara ağıl öyrətmək fikrindən də uzağam (əmim demişkən, mənim elə özümə ağıl öyrədən lazımdır). Əsas məqsədim isə həm bizim camaatın, həm də əyalətdən gələnlərin qarşılıqlı narazılıqlarının zahiri, bəli, məhz zahiri səbəblərinin bəziləri barədə danışmaqdır, çünki bütün mövcudatın daxili bircə Allahın hökmündədi, bizsə yalnız zahiri əlamətləri araşdıra bilərik. Bunun üçünsə yenə konkret hadisələrə, konfliktlərə keçməliyik ki, kimin hansı halda daha çox haqlı olduğuna araşdıraq. Konkret hadisə deyəndə mən əlbəttə ki, öz ailəmizlə bağlı olan hadisələri nəzərdə tuturam və uzun, darıxdırıcı

moizədən sonra yenə də həyətimizə ilk kirayənişinin gəlməyi ilə başladığım söhbəti davam edirəm.

Mirsəftər nənəmin toyuqlarıyla bir evdə yaşamaq əzabından qurtulandan sonra bizimkilərin çoxuna elə gəldi ki, artıq bütün işlər yoluna qoyulub, bundan sonra həyətdə daha heç bir narazıçılıq olmayacaq, əvvəlki kimi İdilliya hökm sürəcək. Əsas məsələ nənəmi sakitləşdirmək, onun narazılığını aradan qaldırmaq idi ki, buna da nail olunmuşdu.

Əfsus ki, belə olmadı, arvadın ilkin aqressivliyi naməlum səbəblərdən bibimə keçdi və o vaxtacan tıxsız balıq kimi tanınan bu on səkkiz yaşlı qızın tamam üzü döndü. Onun davranışındakı bu dəyişiklik məncə onunla bağlıydı ki, o vaxtkı Bakının tipik ev qızlarından olan bibim həmişə böyüklərin iradəsinə tabe olmağa öyrəşsə də, məhz bu halda, ailədəki kişilərin nənəmin rəyilə hesablaşmadan, həyətə rayonlu kirayənişin buraxmaqları və nənəmin bununla barışmağa məcbur olmağı ona yaman pis təsir eləmişdi, içində belə bir hiss yaranmışdı ki, qardaşları onu və analarını bu rayonlu dostlarına dəyişiblər, müəyyən mənada, xəyanət ediblər onlara, satqın çıxıblar.

Bu səbəbdən də bibim təxminən belə düşünürdü ki, bu ekspansiyaya müqavimət göstərmək istəyirsə yalnız və yalnız öz gücünə etibar etməlidir. Nə xain qardaşlardan, nə ağsaqqal atadan, nə də artıq ümidini itirmiş qoca anadan ona kömək olmayacaq, neyləsə yalnız özü edəcək.

Beləliklə, qız bütün işini-gücünü atıb başladı Mirsəftəri, onun arvadını, uşaqlarını güdməyə, hər

hərəkətlərinə qulp qoymağa, qaşınmayan yerdən qan çıxartmağa, bir sözlə, bakılılar demişkən baldızlıq eləməyə. Atamla əmim onu sakitləşdirməyə çox cəhd eləsələr də, bu qəfil aqressivliyin qarşısını ala bilmirdilər. Həm də Mirsəftərgilin davranışında həqiqətən də şəhər tərzi-həyatına uyğun gəlməyən detallar çox idi ki, bibim də bunları əsas gətirib öz hirsini, qəzəbini atamın, əmimin üstünə tökürdü, bütün günahları yalnız onlarda görürdü.

-Qışqıra-qışqıra danışıllar evdə. Elə bil çöllü-biyabandadılar, səsdəri evin içindədi. – Bibim dediklərini sübut etməkçün atamı yuxarı otağa dartır, çöl qapını bağlayır. Doğrudan da aşağıdakı kirayənişinlərin səsindən burada oturmaq olmur, kiçik bir otağın içində olsalar da elə biri-biriylə danışırlar ki, elə bil aralarında əlli metr məsafə var və səslərinin tonunu alsalar heç nə eşitməyəcəklər. – Görürsən? – Bibim Ərəbzəngi kimi əllərini belinə qoyur. - Baş qulağım gedir səsdərinnən. Düş, bir kəlmə de ki, evdə adam kimi danışsınnar, xoruz kimi bannamasınnar. Heyvan döyüllər.

Atam əvvəlcə bacısını sakitləşdirməyə çalışır:

– Fikir vermə, kənd yerinnən gəliblər, elə öyrəşiblər. Orda evlər, həyətdər yekədi, məcburdular bərkdən danışmağa.

– Mən neyniyim olarçün? Bəlkə pambıq soxmalıyam qulaqlarıma? Bura gəliblər, cannarı çıxsın öyrənsinnər bizim qayda qanunnarı. – Atamın tərəddüd keçirdiyni görən bibim bir az da qızışır. – Mənə bax,

əgər düşüb diməsən, özüm düşəcəm, bir-iki kəlmə elə söz diyəcəm ki, birdəfəlik dərs olsun.

Atam azca sərt səslə onun bu niyyətinin qarşısını alır:

– Yaxşı, yekə-yekə danışma, özüm Mirsəftəri çağırıb başa salaram, elə diyərəm ki, xətrinə deyməsin. Onsuz da qərib adamdular burda, sıxılıllar, özdərini yad kimi hiss eliyillər, istəmirəm təzədən sıxım oları.

– Nöşün e. – Bibim qardaşının yumşaqlığını qorxaqlıq kimi başa düşür - nədi, qorxursan o düdükdən? Odey, qonşumuz Xanımcan arvad da iki dənə tələbə buraxıb həyətinə. İt kimi qorxullar onnan. Heç səsdəri də çıxmır. Bir şey olan kimi də arvad ağzınnan çıxanı diyir olara.

Atam qaşqabağını salladır:

– Sən məni Xanımcana tay tutursan?

– Tay tutmuram, amma mən sakittiy istiyirəm həyətdə. Bular gələnnən nə mənim, nə də arvadın rahattığı yoxdu. O yazıq day səsini çıxartmır, xəcalət çəkir, abır-həyasına sıxılıb oturub. Siz bütün günü işdə olursuz, hər şeyi görmürsüz, bular gah radionu qışqırdıllar, gah özdəri qışqırıllar, uşaqları da ki, vəhşi kimi şeydilər, o gün də arvadın qapısındakı gül dibçeylərindən birini vurub sındırıblar. Həm də ayaqyoludan çıxanda dallarıyca su tökmüllər. İndi diyirsən danışmıyım ki, nə var-nə var kişinin oğlu qəribdi, xətrinə deyər, inciyər?

– Eybi yox, öyrəşəllər. - Atam bacısını sakitləşdirməkçün ayrı söz tapmır.

– Qozbeli qəbir düzəldər. Nahaq buraxdın həyətə onnarı. Adam qonum qonşu yanında da xəcalət çəkir. Odey, dostuvun arvadı yenə paltar səriyir orda.- Bunu deyib həyətdəki zivənin qabağında dayanan Güləbətini göstərir. – Abırsızın qızı abırsız, indi yenə də bütün alt paltarllarını asacey həyətin ortasında, gəlib gedənin gözünün qabağında. Day dimir ki, əlli dənə kişi xaylağı girir həyətə.

-Dedim ki, çağırıb başa salaram.- Atam bacısına söz verir. Qız bir az sakitləşir, amma bir gün, iki gün keçir. Həyətdə heç nə dəyişmir, kirayənişinlər yenə evdə qışqıra-qışqıra danışır, uşaqları yenə həyətdə vəhşilik edir, belə məlum olur ki, atam hələ öz dostuna heç nə deməyib. Yəqin ki, utanır nəsə irad tutmağa, xəcalət çəkir.

Nəhayətdə, bibim kiçik əmimdən xahiş edir, əmim də şapkəsinin qaldırıb başını qaşıyır, sonra razılaşır, söz verir ki, axşam həyətdə nərd oynayanda yarızarafat, yarıgerçək hər şeyi Mirsəftərə başa salsın…

– Hə, bu da sabir (yəni sə-bir), – əmim axşam ikinci tasın əvvəlində əsas söhbəti açmağı qərara alır. – Hə, Şaqqulu… (əmim Mirsəftərin arvadı Güləbətini «Kəlbətin bacı» çağırdığı kimi, onun özünə də həmişə Şaqqulu deyirdi. Daha bilmirəm, prikola tuturdu, yoxsa xətrini istədikdən belə eliyirdi. Əsas söhbətdən yayınsam da qeyd eləmək istəyirəm ki, ümumiyyətlə, əmimin nəzərində Bakının kişi cinsinə məxsus əhalisi bir neçə kateqoriyaya ayrılırdı: – Şaqqulular, Maqqulular, bir də Matişkələr. Birinci kateqoriyaya xətrini istədiyi, ikinciyə istəmədiyi adamlar daxil idi. O

ki qaldı mənhus üçünci kateqoriyaya, bura da əmimin, ümumiyyətlə, adam hesab eləmədiyi, bunun üçün də nə sevgiyə, nə də nifrətə layiq bilmədiyi Bakı sakinləri aid edilirdi. Düzdü, bu üç qismdən daha üstün olan dördüncü təbəqə də mövcud idi ki, bunlar da Cayıllar idi və bunların sadəcə adları hamı tərəfindən sevgiyə və hörmətə məhkum olduqlarının nişanəsiydi. Zahirən hiss elətdirməsə də əmim özünü məhz bu dördüncü və ali sayılan kateqoriyaya aid olanların sırasında görürdü)…

– Pəncek (yəni pənc yek) – əmim nəhayət ki, mətləbə keçir: – onu diyirdim axı, Şaqqulu, evdə nöşün qışqıra-qışqıra danışırsuz? Qırxayaq girib qulaqlaruvuza?

– Kim qışqırır? Biz ? Ağlımız çaşmayıb ki, evin içində qışqıraq. – Mirsəftərin təəccübü o qədər səmimi və təbiidir ki, əmim bir anlıq çaşıb qalır, özünü itirir, içində şübhələr baş qaldırır. Şəxsən özü evdə çox nadir hallarda göründüyündən vəziyyətdən bixəbərdir və düşünür ki, bəlkə bacısı ona səhv məlumat verib, əslində bu yazıqlar evdə nəinki qışqırmırlar, hətta laldilli danışırlar.

Amma elə bu vaxt sükut pozulur, Mirsəftərin qaldığı evdən onun arvadı Güləbətinin çığırtıdan bir o qədər də fərqlənməyən səsi eşidilir.

– Ay qız, Bəsti, ordan bıçağı mənə ver.

Əmim yüngülcə diksinir. Səsin tonu bizim sakitliyə öyrəşmiş həyətimizçün həqiqətən də çox yüksəkdir və əmim qaşlarını çatıb Mirsəftərə baxır.

– Uşağın qulağı yaxşı eşidmir beyəm?

– Niyə ki? Lap yaxşı eşidir. – Mirsəftər sualın səbəbini, təbii ki, hələ anlamır.

– Bəs onda bapbalaca otağın içində nöş qışqırır o? Adam kimi çağırsun da.

Arxası evinə tərəf əyləşən Mirsəftərin başı qeyri-ixtiyari yüz səksən dərəcə geri çönür, açıq qapıdan içəri boylanır, sonra təəccüblə çiyinlərini çəkir.

– Kim qışqırdı ki?

– Nənəm. - Əmim azacıq əsəbləşir. - Arvaduvu diyirəm də. Burda başqa kimin səsi çıxdı bəyəm?

– Arvadım qışqırdı ki?

Hiss olunur ki, biri-birini başa düşmürlər. Əmim fikirləşir ki, bu düdük ya məni doluyur, ya da özünü gicdiyə qoyub. Misəftər də təxminən eyni şeyləri düşünür.

– Alə Şaqqulu, day qışqırmağ necə olur? Diksindim səsindən e. Süz evdə həmişə belə danışırsuz?

– Bəs necə danışaq? Pıçıldamayacağıq ki? - Mirsəftər özünə haqq qazandırır.

– Malades. Mən səni panyatkalı oğlan bilirdim. Belə getsə səni Şaqqululuqdan çıxardıb ataceyəm Maqqululların cərgəsinə.

Mirsəftər əmimin insan kateqoriyalarından xəbərsiz olduğuna görə Şaqqululuqla Maqqululuğun fərqini də anlamır və tərəddüdlə soruşur.

– Doğrudan yəni bərkdən danışırıq?

– Əgər sən də evin içində belə danışırsansa, onda hesab elə ki, danışdığlaruvun hamısı bizimkilərin qulağındadı. Sən rayondakı evlərivizə baxma, burda xırda həyətdi, evlər də biri-birinin içində. Bir az bərkdən danışdunsa, hamı eşidəcey. Radionu da çox

bərkdən qışqırtma. Arvad sakitdiy xoşduyur. Namaz qılan, Quran oxuyan adamdı.

Mirsəftər bir neçə saniyə fikrə gedir və əmimə söz verir ki, arvad-uşağına da tapşırsın, evdə çox bərkdən danışmasınlar.

Beləliklə, ilk irad kirayənişinimizin qulağına çatdırılır, amma vərdiş elə şeydi ki, hələm-hələm tərgitmək olmur, Mirsəftərgil də hələ bir xeyli müddət öz kənd adətlərini tərgidə bilmirlər, bir az sakit danışandan sonra, bir də görürsən əmimin iradı yadlarından çıxır və yenə də başlayırlar evin içində qışqırmağa. Bu da təbii ki, bibimi bir az da qıcıqlandırır, deyinmək üçün əlinə bəhanə verir.

– Saymır da sizi. Üzüvüzü yumşaq görüb, – gah atama, gah da əmimə acıqlanır. – Düdüyün biriynən də bacara bilmirsüz. Özünü elə aparır ki, elə bil atasının xarabasındadı. Həm də həyəti döndərib karvansaraya. Balam, adamın nə qədər qohumu, tanışı olar? Rayonnan kim gəlirsə, elə avtavağzaldan düşən kimi cumur bizə. Özü də ayıya oxşuyullar, adam hürkür vid-fasonnarınnan. Xəcalət çəkirəm həyətdə oturmağa; biri gəlir, biri gedir. Ayaqyoluya da yaxın düşmək olmur, həmişə oçered (yəni növbə) var qabağında, hamısı da buların qonaq-qarası. Gərək gecə yarını gözdiyəsən ki, boşalsun..

Həqiqətən də, Mirsəftərgilə gəlib gedən çoxdur, belə görünür ki, kəndlərindən Bakıda yaşayan bircə odur, hər hansı işdən ötrü şəhərə gələnlər də təbii ki, onlara təşrif buyurur, bir də görürsən bir otaqlı balaca

evdə on-on iki adam gecələyir. Ora necə sığışırlar, bunu təkcə Allah bilir.

– …hamısı da, elə bil dağdan düşüblər, ağız-bağız verillər, səsdərinnən divarlar sirkələnir. Arvaddarı da ki, kişilərinnən beşbətər.

Atam bacısının növbəti təzyiqinə də müxtəlif bəhanələrlə tab gətirməli olur.

– Diyim ona ki, evinə qonaq qoyma? Yaxşı çıxmır axı. Diyər ki, bir dənə dılğır otaq veriblər mənə, salıblar gözümçıxdına.

Bibim, əlbəttə ki, təslim olmur.

-Onda tapşır ki, karvansaraya döndərməsin evi. Gəlib gedənnəri azaltsın.

-Elə şey olar? – Atam rayonlu dostunun tərəfini vermir, – qohum əqrabasına necə desin ki, gəlmiyin bizə? Yəqin bunnan başqa şəhərdə adamları yoxdu da.

– Getsinnər qastinsada qalsınnar. – Birdən bibimin ağlına nəsə əcaib bir fikir gəlir - Nə bilirsən , bəlkə o evinə gələnnər heç qohumu-filanı döyül bunun. Pul alıb gecə yatmaqçün buraxır evə.

Atamı biixtiyar gülmək tutur.

– Yaxşı görəy, gic-gic danışma. Yad adamı öz arvad uşağıynan bir evə buraxmıyacaq ki. Gələnnərin hamısı yəqin ki, öz qohum-əqrabasıdı.

– Bulardan nə disən çıxar. Eh, mənnən olsa buların ipini bilirsən necə yığaram. Bir aya adam eliyərəm hamısını.

Hə, bibim də belə bibiydi, əvvəl gündən bakılılardan başqa heç kimi adam hesab eləmirdi və axıracan da fikrini dəyişmədi. Bir qədər irəli qaçıb onu

da demək isəyirəm ki, iki-üç il sonra bibimi Kubinka tərəfdə yaşayan uzaq qohumlarımızdan birinin oğluna ərə verdilər və iş elə gətirdi ki, ərinin də həyətində olan iki artıq xırda otaq kirayə verilirdi. Fərq isə ondaydı ki, ata evində onun aqressivliyinin qarşısını müəyyən qədər alan qardaşlar burda artıq yox idilər və bibimin taksi sürücüsü olan əri də eynən özü kimi əyalət adamlarına yuxarıdan aşağı baxırdı. Beləliklə, ər-arvad birləşib kirayənişinlərin başına oyun açırdılar, qan uddururdular yazıqlara. Bibim elə bil ata evində yığılıb içində qalan qəzəbini də ər evindəki kirayənişinlərin üstünə tökürdü, elə onunçün də, heç kim onların həyətində iki-üç aydan artıq dözə bilmirdi, ayrı ev tapıb canlarını qurtarırdılar. Hətta bizə gələndə bütün dediklərimi qardaşlarının yanında fəxrlə danışmaqla bibim ərinin onlardan üstün olduğunu da hiss elətdirirdi.

– Kazım süzün tayıvız deyil e. Yumruğunu oların başınnan əskik eləmir. Axşam qapının ağzında maşının səsi gələn kimi hamısı qorxudan evə girib qapılarını bağlıyıllar, işıqları da söndürüllər.

Bibimin ərinin bir əcaib xasiyyəti də vardı ki, taksiyə rayon adamı əyləşəndə həmişə sayğacın göstərdiyindən əlli qəpik artıq alar, müştərisi yerli camaatdan olanda isə əksinə əlli qəpik əskik istəyərdi və vaxt keçdikcə bibimgilin maddi vəziyyətinin yaxşılaşmasını Bakıda yerli camaatın azalmasının, əyalət adamlarınınsa çoxalmasının göstəricisi kimi də qəbul etmək olardı…

Amma hələ ki, bibim hələ ərə getməyib onun hirsinin, hikkəsinin qarşısına qardaşları sipər çəkməli olur, hərdənbir də nənəmin yanına qısılıb ürəyini boşaldır.

– Heç olmasa sən deginən, mənə qulaq asmıllar. Çağır, başa sal ki, o düdüyün başına ağıl qoysunnar, özdərini həyətdə adam kimi aparsunnar, bura olarçün dağın başı döyül..

Nənəm başını yellədərək heç nə demir, ümumiyyətlə həyətə kirayənişin buraxmaq məsələsində sözü yerə düşdüyündən inciyən nənəm yaxasını kənara çəkərək həyətdəki hadisələri sadəcə müşahidəçi qismində seyr etməklə kifayətlənir, heç bir müdaxilə eləmir. Amma yox, yenə çaşdım, bir dəfə, cəmi bircə dəfə nənəm müdaxilə eləməyə məcbur oldu və bu da onun elektrik cərəyanıyla çox isti bir kontakta girməsiylə nəticələndi…

Hə, deyəsən Mirsəftərin evində qalıb ali məktəbə imtahan verən bacısı qızı həmin gün əla qiymətlə Tibb institutuna daxil olması xəbərini alır və həmin gün necə olursa bizim kişilərdən heç biri evdə olmur…

Həm Mirsəftərin özü, həm arvadı, həm onlarda qalan bacısı və bacısı qızı, bir sözlə evdəkilərin hamısı , bizimkilər demişkən, açarlarını itirmiş kimi görünürlər, elə sevinirlər ki, sanki latareyada adama bir dənə maşın udublar.

Məlum məsələdir ki, adam belə şad xəbər eşidəndə sevinci yerə göyə sığmır, o ki qaldı on səkkiz kvadratmetrlik bir otaq ola və bir azdan onların sevincinin otağa sığmadığı daha açıq şəkildə hiss olunur

– sevincin bihuşedici ətri tavanın, divarların, qapıların arasından sızıb bütün həyətə yayılır, hətta yuxarı mərtəbəyə də dırmaşır və təbii ki, ilk olaraq bibimi, sonra da nənəmi qıcıqlandırmağa başlayır.

Mirsəftərgil sevinclərini çox hay küylü şəkildə büruzə verirlər, qışqıra-qışqıra biri-birini qucaqlıyıb öpürlər, hərə bir şey təklif edir, biri deyir elə bu saat şəhərlərarası danışıq məntəqəsindən rayona zəng vurub bu şad xəbəri ora da çatdırmaq lazımdır, biri təklif edir ki, axşama qonaqlıq tədarük edib şəhərdəki dost-tanışların, qohumların hamısını dəvət etmək gərəkdir, xöşbəxt abituriyent də özünü saxlaya bilməyib bu soxasoxda imtahan zamanı hansı hissləri keçirtdiyini danışır, bir yandan da radionun səsini veriblər, musiqi səsi həyəti başına götürüb, uşaqların qışqır-bağırı isə bu hay-küyə xüsusi bir kalorit verir, xülasə evdə elə vur-çartdasın var ki, gəl görəsən, dillə təsvir etmək mümkün deyil, amma buna heç ehtiyac da yoxdur. Oxucular ya özlərinin, ya da hansısa ailə üzvlərinin ali məktəbə daxil olmasını xatırlasa kifayət edər.

Yuxarı otaqda oturub yorğanların yununu çırpan nənəmlə bibim bu qəfil hay-küydən əvvəlcə özlərini itirirlər, çaşıb qalırlar, elə bilirlər ki, kimsə rəhmətə gedib, amma sonra fikir verib görürlər ki, yox, kirayənişinlərin hay-küyü sevinc, şadlıq təzahürünə oxşayır. Bibim dözə bilməyib başını pəncərədən çıxarıb aşağı boylanır, elə bu vaxt həyətə çıxan Mirsəftər bibimi görür və yerdə beş qəpiklik tapan uşaq sevinciylə elan edir.

-Bacım qızı instituta girib e. Tibb institutuna. Həkim olacaq.

Sözünü deyən kimi də sevincdən sanki qeyri-ixtiyari həyətin ortasında qol qaldırıb oynamağa başlayır, bunu görən evdəkilər radionun səsini bir qədər də artırırlar və gələcək tələbənin anası qapıya çıxıb qardaşına qoşulur, radiodan səslənən «Süleymani» havasında rəqsə başlayır, o birilər də qışqır-bağırla əl çalırlar.

Bu eyforiya nənəmi də, başını çıxarıb aşağı boylanmağa vadar edir və gördüyündən diksinən arvadın dilinə gələn ilk sözlər bunlar olur: «Əstağfurullah, bulara noolub belə? Başdarına hava gəlib?»

– Bacısı qızı instituta girib, - qaşlarını çatan bibim cavab verir.

– Nə olsun ki.? Böyük iş olub, - nənəm mızıldanır, - yekə eşşey boyda kişi şingilə kimi düşüb ortaya ki, nə var-nə var bacım qızı instruta girib.

Öz yerinə qayıdıb təzədən yun çubuğunu əlinə götürən nənəm bibimi də içəri çağırır.

– Ört pəncərəni, keç içəri. Tiyatır döyül sənincün.

Əlbəttə, nənəm də əyalət adamı olsaydı Mirsəftərgilin sevincini təbii qəbul edərdi, amma arvad tamam ayrı cür fikirləşirdi. Adam bu cür sevinər türmədə yatan oğlu buraxılanda, nə bilim, övladı birinci maaşını evə gətirəndə, toy-nişan eliyəndə, ən uzağı maşın alanda. Yoxsa ki, belə?

O vaxtlar Bakı camaatı içində ali təhsil almaq elə də böyük fəxr hesab olunmurdu. Cavanların meyli də

yox idi buna. Bakılınınkı şoferlik idi, neftçilik idi, ən uzağı da qırçılıq. Elə buna görə də indi axtarsaq, alimlərin, siyasi xadimlərin, dövlət qulluqçularının içində bakılıları barmaqla saymaq olar.

Elə buna görə də, kirayənişinlərin eyforiyası nənəmə də, bibimə də çox qəribə gəlir, əsəblərinə toxunur, nə qədər cəhd eləsələr də, fikirlərini bu səs-küydən ayıra bilmirlər. Durub onlara irad tutmağı da özlərinə sığışdırmırlar, ayıb bilirlər. Tərslikdən evdə kişi xeylağılarından da heç kim yoxdur ki, düşüb kirayənişinləri başa salsın, sevinclərini bir az sakit şəkildə bəyan eləsinlər.

Axşama yaxın Mirsəftərgilin şəhərdə qalan başqa qohumları onlara təbrikə gəlir, bapbalaca otağa filan qədər adam yığılır, səs-küy bir az da güclənib, elə həddə çatır ki, artıq yuxarı otaqlarda oturmaq mümkün olmur, qışqır-bağırdan evlərin şüşələri silkələnir. Bibim öz radiomuzun səsini artırmaqla həyətdəki gurultunun səsini batırmağa cəhd göstərsə də bunun bir xeyri olmur.

Neftçi atam dənizdə, dəmiryolçu babamsa növbəti reysdə olduğundan nənəmlə bibim səbrlərini basıb kiçik əmimin evə dönməsini gözləyirlər ki, bu mərəkənin qarşısını alsın. Ancaq bir müddət sonra başa düşürlər ki, əmim də belə tezliklə gələn deyil, Allah bilir məhəllədə hansı avaraya ilişib, hansı tində kazbek tüstülədir, ya da küçənin başındakı pivəxanda kruşkanı-kruşkaya calıyır.

Nəhayət, bibim dözmür, tərəddüdlə də olsa ayağa qalxır, pəncərədən aşağı boylanıb nənəmə tərəf dönür:

– Mən day dözə bilmirəm, düşüb aşağı bir-iki kəlmə deyəcəm onlara.

– Lazım döyül.

– Nöşün e? Beyəm qorxuram olardan? Atamın həyətində oturub məni divara dırmaşdıraceylər? Bəsdi də. Səhərdən bayram eliyillər, çalıb-oynuyullar, day gecədi, yıxılıb yatsunnar da.

Nənəm ona acıqlanır.

– Qız uşağısan. Otur yerində, ayıbdı. Filan qədər kişi xeylağı var evlərində. Gədə gələr, düşüb abırlarını verər.

Bibim bu dəfə küçəyə tərəf boylanaraq, xilas gözləyən əsirlər kimi ümid dolu baxışlarını tinin başına zilləsə də, küçədə pişiklərdən başqa canlı məxluq gözə dəymir. Saat artıq on birə yaxınlaşır.

– Birdən qaqaşım heç gecə evə gəlmədi? Bəs biz səhərəcən yatmıyaq? Oturub bu qara-mərəkəyə qulaq asaq? – Bibim təəssüflə içini çəkir. - Bəlkə sən özün düşəsən aşağı?

Nənəm sərt hərəkətlə başını qaldırıb bibimə baxır, onun çatılmış qaşlarını görən bibim özünü yığışdırır, təklifinin nə qədər namünasib olduğunu anlayır. Utanıb başını aşağı salır və mızıldanır.

– Yaxşı, onda oturub qaqaşımı gözdüyək.

Hər ikisi bir müddət susub otururlar, danışmırlar. Nənəm bibimin üzünə baxmağa sanki xəcalət çəkir, bəlkə də övladının bu narahatçılığında

özünü günahkar sayır, amma birdən üzü gülür, nəsə fikirləşib tapmış adamlar kimi cəld ayağa durur, otaqda vurnuxmağa başlayır.

– Nə axtarırsan? – bibim qeyri-ixtiyari maraqlanır.

Otağı ələk-vələk edən nənəm əsəbiliklə əllərini yellədir:

– Hanı o?

– Nə?

– Əşşi, o yekə paltar qayçısını diyirəm də. Səhər əlimdeydi e.

Bibimin gözlərində heyrət nişanələri görünür.

– Qayçını neynirsən?

– Lazımdı.

– Odey, taxçaya qoymuşam.

Nənəm yekə paltar qayçısını götürəndə təəccübdən, həm də qorxudan bibimin boğazı quruyur, düşünür ki, nənəm kirayənişinləri «qayçılamaq» istəyir.

– Hə də, ata-babası gündə birini bıçaqlıyırdı, bu da qayçılamaq fikrinə düşüb. Allah axırını xeyir eləsin. – Bibim bunları beynindən keçirib vahimə içində yerindən sıçrayır, arvadın qarşısını kəsmək istəyir.

– Sən babovun qəbri, eləmə, ay məmə, bizi qana salma.

– Əşşi, çəkil görüm. - Nənəmin səsindəki hökm bibimi geri çəkilməyə vadar edir və arvadın qapıya yox, pəncərəyə tərəf getməsi isə onu lap çaşdırır. Bir şey soruşmağa da macal tapmır, nənəm pəncərəni açıb iri dəmir qayçı tutmuş əlini sol tərəfə uzadır və yalnız bu

zaman bibim başa düşür ki, arvad Mirsəftərgilin evinə gedən elektrik xəttini kəsmək istəyir.

Əlbəttə ki, nənəmdən fərqli olaraq bibimin elektrik cərəyanı barədə məlumatı daha çox idi, lakin bu məqamda gücü yalnız: -«eləmə, tok vurar»- qışqıraraq özünü arvada tərəf atmağa çatır.

Başı pəncərədən çöldə olan arvad qızının sözünü eşitmir və nazik məftili var gücüylə dəmir qayçının arasına sıxıb kəsir...

Bayırda möhkəm qığılcım qopur və nənəmin «Vaxsey» bağırmasıyla həyətin qaranlığa qərq olması bir olur…

Sakitlik çökür. Bibim özünü itirir, biixtiyar nənəmi çağırır, arvadın yüngül iniltisindən hiss edir ki, pəncərənin ağzında yıxılıb qalıb. Elə bu vaxt arvadın qışqırığını eşidən Mirsəftər də cəld yuxarı qalxır, cibindən kibrit çıxarıb yandıraraq evə girir.

– Arvada nə oldu ki?

Nənəmin pəncərənin ağzında yıxıldığını görüb onun üstünə atılır, ayağa qaldırmağa çalışır, bibim tez şam gətirir, yandırırlar, yalnız bundan sonra inildəyən arvadın göyərmiş sifətini görən Mirsəftər onu elektrik cərəyanı vurduğunu anlayır. Amma özünə gələn nənəm heç bir köməyə ehtiyacı olmadığını bildirərək kirayənişini təzədən aşağı göndərir, özü isə qızının köməyiylə ayağa qalxıb divana uzanır. Görkəmindən bilinir ki, özündən razıdır, hər nədisə həyətdə sakitliyi bərpa etməyə nail olub.

Buna baxmayaraq ürəyində özü özünə söz verir ki, bundan sonra bir də o zəhrimar toka yaxın da

getməyəcək. Düzdü, əvvəllər də «tok vurmaq» ifadəsini çox eşitmişdi, amma elektrikin mahiyyətindən xəbəri olmadığından onu məftilin içiylə axan nəsə bərk qızmış qatı bir maye kimi təsəvvür edirdi və naqili kəsmək istəyəndə də fikirləşirdi ki, ən uzağı bir az əlimi yandıracaq, ondan artıq nə olacaq ki? Lakin oldu. O oldu ki, bu hadisədən sonra nənəmin sağ əli hissiyyatını tamamilə itirdi, yalnız uzun müalicədən sonra sağaldı.

Onu da qeyd edim ki, o vaxtlar elektrik xətlərində gərginlik indiki kimi 220 volt yox, onun yarısı qədər, yəni 127 volt idi, ona görə də nənəm belə yüngül uxəsarətlə canını qurtara bilmişdi, əgər gərginlik indiki qədər olsaydı, şübhəsiz ki, arvadın axırı çatacaqdı.

Təbii ki, bu hadisə ailədəki kişilərə bir az ayrı cür çatdırıldı, nənəm dedi ki, zivədən paltar asanda təsadüfən əlim məftilə dəyib, tok vurub məni…

Mirsəftər bizim həyətimizdə düz doqquz il qaldı və bu doqquz ildə nənəm bircə dəfə də nə ona, nə də arvadına bir irad tutmadı. Özünə sığışdırmadı, abır-həyasını saxladı. Düzü, buna heç o qədər lüzum da yox idi, çünki beş-altı aydan sonra onlar da bizim həyətin abü-havasını götürdülər, müəyyən mənada ailənin bir üzvü oldular.

Həmin ərəfələrdə babam da təqaüdə çıxdı. Həmişə işdə-gücdə olan kişi təzə-təzə heç öyrəşə bilmirdi bekarçılığa. Məhəllədə yaşıdlarından demək olar ki, heç kim qalmamışdı və kişi boş vaxtını bilmirdi necə keçirtsin. Gah atamı dirəyirdi ki, mənimçün beş-altı kilo günəbaxan tumu al, dalanın başında oturub tum satacam, gah əmimin yaxasından yapışdı ki, mənə

köhnə bir maşın yığdır, şəhər içində xaltura edəcəm və s. Təbii ki, bu təkliflərin heç biri reallaşmadı, oğlanları babamın nə tum satmasını, nə də maşınla xaltura eləməyini rəva bilmədilər. Çox çəkmədi ki, babam, necə deyərlər, haqqın yolunu tapdı. Bekar olanda Mirsəftəri çənəsinin altına salıb Bakının keçmişindən, köhnə kişilərindən, nə bilim, əvvəllər baş verən hadisələrdən danışmaqla gününü axşam eləməyə başladı. Yazımın əvvəlində qeyd etdiyim kimi, elə mənim özüm də həmişə bu söhbətlərə həvəslə qulaq asırdım və kişi danışdıqca Bakının keçmişi, adət-ənənələri, insanları mənimçün şəffaflaşırdı, görünməyən tərəfləri görünməyə başlayırdı, mahiyyəti üzə çıxırdı.

Yox, indi yox, babamın Mirsəftərlə söhbətləri barədə başqa vaxt yazacam. İndi isə…əlbəttə ki, bir az istirahət eləmək lazımdır. Çox yox, bir az…

Altıncı fraqment

Bu həmin vaxtlar idi ki, bakılıların xalça-palazlarının arxa tərəfi həmişə azacıq qaralmış olardı, çünki yayın cırhacırında boğanaq otaqlarda yatmağın mümkünsüzlüyünü görən bakılılar gecəyə yaxın evdəki xalça-palazı çıxardardılar qırlı damlara, dənizdən əsən yüngül yay küləyinin sığalı altında birtəhər özlərini yuxuya verərdilər. Yayın axırında, döşənəcəklər yuyulanda isə məlum olardı ki, damların qırı xalça-palazın arxa üzündə dəniz səthinə yığılan neft təbəqəsi

kimi nazik bir qat əmələ gətirib və nə qədər əlləşsələr də saqqıza dönmüş bu qara təbəqəni yuyub təmizləyə bilmirdilər. Onunçün də arif adamlar baxan kimi bakılıların işlətdiyi xalça palazı dalındakı qarasından tanıyardılar. Bəli, bakılıların xalça-palazı daldan tanınan olsa da, özləri belə deyillər...

Bu həmin vaxtlar idi ki, Bakıya «Qaz-21»-lər təzəcə doluşmağa başlamışdı və birdən-birə məlum olmuşdu ki, sən demə, dünyada həqiqətən anadangəlmə şofer yalnız elə bakılılar imiş, çünki bu toppuş maşınlara yaxın gələn kimi, bir az da dəqiq desək, toppuş xanımlara oxşayan bu maşınlara minən kimi, bakılıların altşüurundakı hansısa gizli intim hisslər elə oyanmışdı ki, bir çoxları bütün iş güclərini atıb bundan sonrakı həyatlarını yalnız və yalnız bu maşınların qulluğunda keçirtməyə canla-başla razılaşmışdılar; (əlbəttə ki kişiləri nəzərdə tuturam). Beləliklə, həmin ərəfələrdə bakılıların ətriyyat rasionundakı qır iyinə həmişəlik olaraq benzin iyi də əlavə olunmuşdu. O vaxtdan bəri bakılı bir kişiyə ərə getməyə hazırlaşan qadında əgər qır və benzin iyinə qarşı hansısa allergik reaksiya olardısa, gərək əvvəldən nikahının fatihəsini verəydi. Bakılıya ərə gedən qadının evindən qır iyi, kişisindənsə benzin iyi gələcəkdi. Maşın xəstəsi olmayan bakılı bir kişi tapmaq isə arağa nifrət eliyən rus tapmaq qədər çətin idi….

Və nəhayət, bu həmin vaxtlar idi ki, yayın ortalarına yaxın bakılıların ayaqqabılarını, başmaqlarını bir qazan qaynar suya atsaydın, əntiqə tut kampotu alınardı. Çünki bütün Bakı həyətlərinin, dalanlarının, məhlələrinin ayrılmaz bir hissəsinə çevrilmiş tut

ağaclarının səxavətlə yerə səpələdiyi şirəli tutlar ayaq altında qalıb əzildikcə, ayaqqabılara, başmaqlara yapışıb onların altlığına elə hopurdu ki, heç Koroğlunun Misri qılıncıyla da qaşıyıb təmizləmək olmurdu. Yayın ortalarında bakılıların beldə gəzdirməyə adət etdikləri bıçaqların hansı birinə əl vursaydın, ayaqqabıların altındakı tutları qaşımaqdan şirə bağlamış dəmiri əlinə yapışacaqdı. Bıçağı yumağın da xeyri olmurdu, bu həyasız tutun şirəsi dəmirə də hopurdu və türmələrdə, zonlarda düzələn gül kimi bıçaqlar adam yortmaq funksiyasını itirirdilər, olurdular kampotluq bıçaqlar. Bakının yuxarı məhəllələrində yay aylarında bıçaqlaşma hadisələrinin faizi xeyli aşağı düşürdü. Şirə bağladığından hara gəldi yapışan bıçağı beldən çıxarana qədər adamın nəinki kimisə yortmaq həvəsi, heç qarışqa tapdalamaq şövqü də qalmırdı; ya yortmaq istədiyin adam o vaxtacan qaçıb aradan çıxırdı, ya da sən bıçağı çıxarana qədər yumruğu qoyurdu ağzının üstünə, sən də tir-tap uzanırdın od kimi qaynar asfaltın qırağına, bıçaqın da batırdı öz dalıva.

Məhz həmin vaxtlarda, yay aylarının ortalarında, atamın Neft daşlarından qayıdıb evimizin damında dincəldiyi, kiçik əmimin isə Qırxpiləkanın altındakı pivəxanada dağlılarla söz güləşdirdiyi axşamların birində, artıq təqaüdə çıxmış və bekarçılıqdan Bakı damlarının qırı kimi ona-buna qırsaqqız olub yapışan babam həyətimizdə yeganə kirayənişin olan Mirsəftərə qəmiş olmuşdu ki, onunla beş-altı tas nərd atsın. İnsafla desək, Mirsəftərə qırsaqqız olub yapışmağa bir o qədər də, ehtiyac yox idi, çünki Bakıda bir qədər də tanış-bilişi

olmayan, xasiyyətcə hay-küylü məhəllə cayıllarına uyuşmayan bu sakit rayon uşağı onsuz da, işdən gələndən sonra bütün günü evdə darıxırdı və babamın belə təkliflərini bizə gəlib-gedən qohum-qonşudan fərqli olaraq, böyük məmnuniyyətlə qəbul edirdi. Elə həmin axşam da həmişəki kimi Mirsəftər özünün düzəltdiyi qəhvəyi rəngli balaca kətili gətirib həyətdəki tut ağacının altında quraşdırılmış iri, kobud stolun arxasına qoyub oturmuşdu. Ancaq babamla nərd atmağa başlasa da, bir neçə dəqiqə idi ki, fikrini nərdtaxtanın üstündə cəmləşdirə bilmirdi. Ağacların tutu artıq ağaclardan tökülüb qurtarsa da, yerdə hələ uzun müddət şirəli palçıq formasında öz mövcudluğunu davam etdirirdi və bayaq dediyimiz kimi camaatın ayaqqabılarının, başmaqlarının altına yapışırdı. Mirsəftər də nərd ata-ata çox əlləşsə də, yerdən götürdüyü xırda dəmir parçasıyla başmaqlarının altını tam təmizləyə bilmirdi, görürdü ki, rezin altlığı bir az da qaşısa, cırılıb dağılacaq. Başa düşürdü ki, bu başmaq da artıq kampotluqdu.

Nəhayət, Mirsəftər bezib dəmir parçasını bir kənara ataraq, bütün diqqətini zərlərə və babama yönəldir.

– Şeş cahar, o vaxtlar yəqin sənin yadına gəlməz.. – Babam nərdtaxtanın yanına qoyulmuş armudu stəkanı əlinə götürüb, xoruzquyruğu çaydan bir qurtum içir.. - haçan köçmüsən Bakiyə?

– Dörd il əvvəl, əlli səkkizinci ildə. «Üç-bir» - kirayənişinimiz cavab verib zəri atır.

– Hə, əybi yox, əlli-altmış ildən sonra siz də bakili olarsuz. Babam elə bil Mirsəftərə toxdaqlıq verir. - Elə

bizim özümüz də, altmış-yetmiş il bunnan qabaq gəlmişik Bakiyə. Zirədən köç-külfət yığışıb bura köçəndə, mən xırda uşaq idim. Yadıma gəlir ki, Dumun qabağı çöllü-biyaban idi, Çəmbərəkətdilər taxıl əkirdilər orda, «Pənc-dü».

– Nəyin qabağında taxıl əkirdilər? - Mirsəftər deyəsən yaxşı başa düşmür.

– Dumun.

– Ora haradı ki?

Babam başını qaşıyır, deyəsən, indi həmin binada yerləşən idarənin adını yadını salmağa çalışır.

– Əşi, təpəsində saat olan idarə var e. Bu Qırxpiləkəndan düz aşağı düşəndə, üstünə çıxırsan. İçərişəhərin divarına yapışıq.

– Dörd qoşa, - Mirsəftər gülümsünür. - Bildim, Bakı şəhər İcrayə komitəsini deyirsiz.

– Hə, – babam başını yellədir, – o vaxtlar orda Dumxananın binasıydı. Biz gələndə ordan ta Dağlı məhəlləsinəcən çöllük, qayalıq idi. Bir balaca xəzri əsən kimi, elə tozanaq qalxırdı ki, göz-gözü görmürdü. Adamın ağız-burnu da, torpaqla dolardı. Anam rəhmətlik həmişə atamın dalıyca deyinirdi ki, kəntdəki gül kimi bağ-bağatı qoyub, gətirdi bizi saldı bu daşdarın, tozanağın içinə. Sə-dü.

– Daşlıq niyə? - Mirsəftər təəccüblənir. - İki-bir. Bəs demirdiz ki, taxıl əkirdilər? Taxıl başa gəlirsə, deməli, yaxşı torpaqlar olub da.

– Eh, rəhmətliyin oğlu. - Babam əllərini yellədir. - O taxıl əkilən yerlərə heç yaxın düşmey olurdu ki? Dumun qabağını Həci Zeynalabdin alıb çəpərləmişdi ki,

mektəb tikdirsün. Yan yörəsini də yavaş-yavaş Həci Həcağa, Ağa Murtuz, sonra, o biri xozeyinlər aldılar, mülklər tikdirdilər. Atam yer götürəndə gördü ki, o yannara burun soxmaq mümkün döyül, onunçün qalxdı bir az yuxarı. Onda bu dikdirdə daş-qayadan başqa bir zad yox idi. Buralar İçərişəhərlilərnən Çəmbərəkətdilərin dava meydanı olmuşdu. Həmişə ortaya qan düşəndə, İçərişəhərlilər xəncər bıçaqlarını bellərinə qoyub bura qalxardılar, Çəmbərəkəntdilər də yuxarıda, qayaların üstündə dayanıb onların başına daş kəsək atardılar. Elə biz təzə gələndə də üç-dörd dəfə heləncy davalar oldu. Bir də görürdün, bəli, çəmbərəkətdilər on-on beş dənə sınıq salxaq araba çarxını yandırıb, Qırxpiləkənin üstünnən buraxdılar aşağı, İçərişəhərrilərin üstünə. Dəyən dəydi, dəymiyən gilləndi üzüaşağı, Dumun qabağına tərəf, nə bilim, biri getdi yana-yana girdi bəzzaz dükanına, dükan od tutub yandı, bir alayısı gedib deydi kiminsə evinin divarına, müxtəsəri aləm qarışardı bir-birinə. Elənciy dava-qırğın olanda, heç girdəvoylar da, gözə görünməzdilər, hərəsi qaçıb bir küncdə gizdənərdi. Bilirdilər, bakililərün gözü qızdısa, day heç nə görmür, kimi gəldi yortub buraxıllar.

Axırda bizim məhəllə ağsaqqalları yığışıb getdilər Qoçu Nəcəfqulunun üstünə ki, bəs, amandu, dərdimizə bir əncam elə, bular yenə də bizim məhəllədə dava qırğın salıllar, aləm dəyir biri-birinə, arvad-uşaq yaman qorxur. Nəcəfqulu da, Çəmbərəkətdilərnən İçərişəhərdəki Ağşalvarlıların böyüklərini yanına çağırıb başa saldı ki, day əvvəlki vaxtlar döyül, indi o

yannarda camaat yaşıyır, gedin dava-qırğınçün ayrı bir yer tapun. Onnan sonra məhəllə sakitdəşdi. Sonradan bu yannarın hamısını camaat alıb ev-eşik tikdirdi, arada da bu piləkannarı tikdilər, adını da qoydular Qırxpillekan. Yoxsa Dağlı məhəlləsinnən aşağı, İçərişəhərə düşməyçün gərək fırlanıb Çəmbərəkənd qəbirsannığının içinnən keçeydin. İndi yaxşıdı, camaat yuxarı məhəllələrdən bu piləkannarnan düşür düz aşağı, ta Dumun qabağına. Pənc qoşa.

-Bəs niyə kənddən köçmüşdüz? «Altı dörd», - Mirsəftər zərin şaqqıltısının müşayətiylə soruşur.

Babamın gözləri azacıq dolur, əvvəlcə dərindən nəfəs alır, başını qaldırıb kölgəsiylə bütün həyəti qucaqlamış iri tut ağacının gövdəsinə nəzər yetirir, ağaca çalınmış mismardan asılan və çoxdan bəri istifadə edilmədiyindən artıq pas atmış iri balıqçı tilovlarına baxır və nəhayət, stolun üstündə uçuşan xırda milçəkləri əliylə qovub ağır-ağır dillənir.

– Bilirsən, balası, sən indi qıraqçı döyülsən, evin içinin adamısan, başqası olsaydı, özümü yorub danışmazdım. Bizim kəndin torpaqları çox da fərli döyüldü, onunçün camaatın çoxunun çöreyi dənizdən çıxırdı. Kəndin üç tərəfi sudu, camaatın da yarısı balığa gedərdi, tutduqlarını ərəbələrə doldurardılar, Bakiyə götürüb satardıldar, dolanardılar. Mənim atamın da özünün lötkəsi vardı, qərdeşdəriynən bir yerdə çıxardılar balığa. Bu xaraba qalmış dəniz də, bir verəndə beş almasaydı, dinc dayanmazdı. Neynəsin, adətidü də. Beyəm kimi kimə havayı çörey vərir. Əvəzində mütləq nəsə götürür də. Bu dənizin də, işi bizim balıqçılarnan

idi. Bir il, beş il, on il çörey vərirdi, sonra birdən üzü çönürdü, hansısa hərəkətün xoşuna gəlmirdi, verdiyi çöreyin əvəzində birdəfəlik canuvu alırdı. O vaxtlar bizim qohum-əqrabada öz əcəliynən ölən kişi, diyəsən, heç yox idi. Özü də tək bizimkilər yox, bütün kənd o cür idi. Bizim qəbirsandığımızda çoxusu arvad qəbirləriydi, kişi qəbirlərini barmaqnan saymaq olardı. Cahar pənc. Pay atonnan, pəncxananı da, tutmusan ki.

– Niyə ki? Bəyəm kişiləri qəbiristanlıqda dəfn etmirdiniz? - Mirsəftərin fikri nərdtaxtanın yanında olduğundan babamın sözünün məğzini anlamır.

– Eh, ay rəhmətdiyin oğlu. Kefdən danışırsan. Kişilərin goru vardı ki, kəfəni də olsun? Dimirəm ki, hamısı o xaraba qalmış dənizdə qırılırdı? Balıqçı nədi, qəbir, kəfən nədi? Bizim əsl qəbirsandığımız elə o dəniz idi də. Camaatın canını alırdı, heç meyitlərini də dala qaytarmırdi. Balıqçı ki, qırx beş-əlli yaşına çatdı, sağ-salamat qaldı, camaat ona imam- peyğəmbər kimi baxardı. Hamı diyərdi, gör, kişi nə qədər əməli-saleh adamdı ki, bu neçə illərdə dəniz də, onun canına qıymıyıb. Az qalırdı qapısına nəzir daşısunnar.

– Altı bir, - Mirsəftər zəri atıb soruşur, - yəni kəndin ətrafındakı torpaqlar o qədər pis idi ki, heç cür əkin biçinlə dolanmaq olmurdu?

– Olurdu e, - babam başını yellədir, - ancaq çox çətin idi. Həm torpaq şorannıq, həm külek imkan vermirdi, həm də sulamaq çetin idi. Süzün rayonnardakı kimi çay yox, arx, kəhriz yox. Quyu suyuynan nə əkəceysən ki? Yenə camaatın dadına dəniz

çatırdı. Balığınnan, kürüsünnən daşıyıb götürürdülər, sıxıb yağını işlədirdilər.

-O cür dada çatmaqdansa, çatmasa daha yaxşıdı. – Mirsəftər də ağır ağır başını yellədir, babamın atdığı zərləri əlinə götürür. – Əvvəldən elə şorannıq olub o tərəflər?

-Yox, -babam qətiyyətlə deyir, - əvvəllər, nə bilim, iki yüz il, üç yüz il bunnan qabaq dəniz bizim kəndimizdən xeyli aralıymış, diyilənə görə səhər kətdən çıxanda günorta ancaq çatmaq olurdu dənizə. Pirallahı da, o vaxtlar cəzirə döyülmüş, elə yapışıq imiş bizim torpaqlara. Həmən vaxtlarda kəndin yan-yörəsində çox əntiqə, keyfün istiyən torpaqlar varmış. Kəndin gilavar əlində də sıx meşələr, cəngəlliklərdi. Xanlar, bəylər Bakidən durub biz tərəflərə gələrdilər ki, meşələrimizdə ova çıxsunnar, ceyran vursunnar.

-Doğrudan? – Mirsəftər deyəsən inanmaq istəmir. – Abşeronun qurtaracağı hara, cəngəllik hara.

-Nə var burda ki? Diyirəm meşəlik olub da . – Kirayənişinin onun sözünə şübhəylə yanaşmağı deyəsən babamın xoşuna gəlmir. – Oğlum yaşındasan, hindi durub səni barmağıma dolamiyciyəm ki? Tayımsan?.. Pənc cahar.

Bir neçə dəqiqə ortaya sükut çökür, yalnız nərdtaxtaya dəyib şaqqıldayan zərlərin, bir də bala-bala öz xanalarını dəyişən daşların səsi eşidilir. Nəhayət, yenə, babam dillənir.

– O vaxtlar kənd camaatı əkinçiliklə yaxşı güzaran qurubmuş özünə. Elə bərəkətli torpaqlar olub

ki, day nə istəsən əkmək olurmuş. Amma sonra elə bir hadisə olub ki, kəndin əhvalı korranıb.

– Nə olub ki? - Mirsəftər ani olaraq əl saxlayır, sonra yenə zəri tullayır. – İki bir.

– Bizim kəndin qırağında bir türbə vardı. Vardı diyəndə ki, elə indi də var, ancaq day kəndin qırağında döyül, kənd böyüyüb, türbə qalıb evlərün arasında. Hə, bu türbə çox qədimidü. Heç kim dürüst bilmir ki, haçan tikilib. Biri diyirdi ki, nə bilim İskəndər Zülqərneynin vaxtınnan qalıb, alayısı diyirdi ki, yox, bəs, şah Abbasın vaxtında tikilib. Hə, çox ağır bir pir idi o yer, bu türbəyə də bir seyid nəsli qulluq eliyirmiş, elə öləndə də onları türbənin yan-dövrəsində basdırırmışdar. Sonra bu türbənin kəramətini görüb camaat da yavaş-yavaş başdadı öz ölülərini orda basdırmağa, türbənin dövrəsi də dönüb oldu qəbristannıq. Hə, indi fikir ver, gəlib çıxıram söhbətimin mustafasına. Diməli, iki-üç yüz il əvvəl, kənd camaatının əkin-tikindən qaz vurub qazan dolduran vaxtı bir neçə nəfər nadürüst, tamahkir adamın gözü düşür qəbristanlığın ətrafındakı torpaqlara, başlayırlar camaatın içində söz-söhbət çıxartmağa ki, bəs, kəndin gül kimi yeridü, torpağına da söz yoxdu, ancaq bu seyiddər oranı döndəriblər qəbirsandığa, bir az da belə getsə ölülər artdıqca, kəndin ən yaxşı əkin yeri qəbirsandıq olacey, ölülər bu dünyada da yerimizi dar eliyəceylər, nə bilim filan-beşməkan. Müxtəsəri, camaatın beynini doldurullar ki, day türbənin yan-yörəsində ölü dəfn eləməsinnər, qəbirsandığı da köçürtsünnər kənddən xeyli aralıqdakı daş-kəsəkli bir yerə, deyirlər ki, burda onsuz da heç nə

əkib becərmey olmur, qoy elə ölülərə qismət olsun buralar. Türbənin qulluğunda dayanan seyiddər əvvəlcə razı olmullar, kənd əhlinə başa salıllar ki, bura müqəddəs yerdi, kəramətdi yerdi, ölüləri basdırmaqçün elə buralar məsləhətdü. Ancaq xeyri olmur, camaat o nadürüstdərin fitvasına gedib qəbirsandığı köçürdür kənddən uzaq, həmin daş-kəsəkli yerə. Türbənin dövrəsində də xırda hasar çəkillər ki, daha əlavə ölü basdırmağa yer olmasın. Yan yörədəki torpaqların da hamısında taxıl əkillər.

Kənd camaatının bu hərəkəti seyidlərə xoş gəlmir, məclisdərin birində türbənin axırıncı qulluqçusu olan seyid gəlib camaata deyir ki, siz bir parça torpağuvuzu ölülərə qıymaduz, dünya malını əmvatuvuzun rahatdığından artıq tutduz, Allah sizin cəzavuzu verəcək, qəbirlərivüz meyit üzünə həsrət qalacey, qəbirsandığıvuz da böyümiyəcey, elə xırda qalacey. Onda arzuvuza çatarsuz, day diməzsüz ki, ölülər bu dünyada yerimizi dar eliyir.

Müxtəsəri Seyid o vaxtdan kənd əhlindən küsür, gedir Dübəndidən bir az aralıda, Qılınc qayanın dibində özünə xırda bir daxma tikir, külfətini də köçürdür ora. Bir neçə ildən sonra, ümumiyyətlə bu tərəfləri tərk eliyib gedir.

Camaat da bir neçə vaxt sonra o seyidi də, dediyi sözləri də yadından çıxarır. Amma belə məlum olur ki, məsələ bunuynan bitmirmiş. Camaat təzə qəbirsandıq salannan on beş iyirmi il sonra dəniz başlayır qalxmağa, su da ildən-ilə irəli gəlib kəndə yaxınlaşır, dövrəsindəki meşələr çürüyüb tökülür, əkin yerlərinin də bir qismi

suyun altında qalır, bir qismi şorannaşır, bir qismini də qəmiş basır.

Əvvəlki əkin torpaqlarınnan cəmisi beşdən biri qalır camaata, qalan hamısı xəlqin əlindən çıxır. Əkin-tikin azalır, kənd əhlinin güzaranı korranır, axırda camaat əlacsız qalıb üzünü yaxınlaşmaqda olan dənizə tutur, kişilərin çoxu külfəti saxlamaqçün öz pişələrini dəyişib keçirlər balıqçılıqa, hərəsi ordan-burdan sınıq-salxaq bir lödkə tapıb yay-qış, küleydə də, tufanda da, soyuqda da ruzi dalıyca dənizə çıxıllar. Onu gedir, beşi qayıdır. Beşi gedir, üçü qayıdır. Bu minvalnan kəndin kişiləri day yorğan-döşeydə əcələ can vermeyi yığışdırıb qoyullar bir qırağa. Dəniz özü dönüb olur yekə bir Əzrayıl, xəzrinin köməgiynən kişiləri bala-bala dənniyir özüyçün, heç meyitdərini də dala qeytərmir. Hə, seyidin sözü gəlib öz yerini alır, qəbirlər meyit üzünə həsrət qalıllar, təzə qəbirsannıq da böyümür, elə balaca qalır, day ölülər bu dünyadakıların yerini dar eləmir. Dənizdə batan əmvatını yad eləmey istiyənlər də, ya gün təpəsinə döyə-döyə, ya xəzrinin qabağında soyuqdan əsə-əsə gedib dəniz qırağında qumun üstündə oturub bir dənə yasin oxuyullar, fatihə verillər, yavaş-yavaş çıxıb gəlirlər evlərinə…

Durmuşam sahildə tənha, bir dənizdir, bir də mən,
Gözdən itmiş sanki dünya, bir dənizdir, bir də mən.

Vaxt var idi birgə idik, sevgilim, mən və dəniz,
İndi yox heyf ol dilara, bir dənizdir, bir də mən.

Cümlə aşiqlər səni görmək ümidin üzdülər,
Göz dikən yoluna bica bir dənizdir, bir də mən.

Axşam oldu, hamı yatdı, həsrətindən yatmayan,
Görməyən heç vaxtı röya bir dənizdir, bir də mən.

Çoxları görcək səni öz eşqin elan eyləyib,
Çağlayan eşqinlə amma bir dənizdir, bir də mən.

Bir zaman Məcnun idi divanə, səhra məskəni,
İndi yox Məcnun, nə səhra, bir dənizdir, bir də mən.

Fəhmi, həsrət üçbucağı çəkdi tale ruhuma,
Yaxşı bax, bir qəmli xülya, bir dənizdir, bir də mən.

– Çıxmasınnar da dənizə. Qarın candan əzizdi məgər? – Artıq oyuna fasilə vermiş Mirsəftərin sualı o qədər sadəlövh olur ki, babamı gülmək də tutur.

– Bəs neynəsinnər, ay rəhmətdiyin oğlu? Ölsünnər acınnan?

– Yox, ölməsinlər, – Mirsəftər təslim olmur, - köçüb getsinlər başqa yerə.

– Düz diyirsən. – Babam təsdiq edir. - Ancaq hər adam da öz ev-eşiyini qoyub alayı yerə gedə bilmir axı? Qıraqda üç gün qonaq qalanda, adamın burnunun ucu göyniyir evçün. O ki qaldı biryolluq gedməy ola. Məsəlçün mənim atam da sən diyən kimi elədi. Bir dəfə dənizdə möhkəm tufana düşür, lötkə çövrülür, yoldaşdarı batır. Ancaq atam özünü suda saxlıya bilir. Elə suyun içində allaha dua eliyir ki, sağ-salamet qırağa çıxım, bir də oğraşam əgər dənizə barmağımı da soxsam. Hə, həmin gecəni səhəreycən atam üzür, ancaq gün çıxana yaxın birtəhər özünü qırağa çıxarda bilir. Onnan sonra qıraqda qalan o birisi lötkələrini də satır, qərdeşiynən bir yerdə gəlir Bakiyə, həmin bu yerdə torpaq alırlar, ev tikillər, həyət baca düzəldillər, lövbər salıllar burda. Atam gedib çolaq Ağabalanın deyirmanında işə düzəlir, əmilərim də gedir Bibiheybət mədənnərinə.

– Bəs indi necə? Yenə kənd camaatı balıqçılıqla məşğul olur? - Mirsəftər artıq zəri bir qırağa qoyub soruşur.

– Yox əşi. Əlli-altmış il əvvəl Pirallahıda nöyüt mədənnəri açılannan sonra dənizə çıxmağa çox lüzum qalmadı. Kişilərin çoxu getdi orda işdəməyə, kəndin

qəbirsannığı da düzəldi, day qəbirlər də meyitə həsrət qalmadılar. İndi kətdə cəmisi beş-on nəfər balıqa çıxır. O da, hərdən-bir.

Araya Bakı gilavarı kimi isti bir sükut çökür, yalnız indi hər iki oyunçunun - həm babamın, həm də kirayənişinimiz Mirsəftərin yadına düşür ki, hələ tası başa vurmayıblar. Deyəsən, zəri axırıncı kimin atdığı da yaddan çıxmışdı. Onunçün də, babam nərdtaxtanı hələlik bağlayır, başını geri çevirib nənəmi çağırır.

– Sonaxanım, ay Sonaxanım.

Nənəm xırda pəncərədən başını çıxardır.

– Nə var?

– O gün kətdən pişrast qarpuz götürmüşdim a, onnardan birini kesib göndər bura. Lap ciyərim yandı.

– Mənim əllərim xəmirlidü. Uşaqlar da, yoxdu. Gəl özün seç, götür.- nənəmin səsi eşidilir.

Babam başını yellədib dodaqaltı mızıldanır; «Bu köpey uşaqları da evdə ramazannan ramazana tapılıllar», sonra da ayaqa qalxıb evə keçir və bir o qədər keçmir ki, əlində orta ölçülü bir qarpız, iri dəmir sini və uzun bir bıçaq geri dönür. Nərdtaxtanı enli stolun bir kənarına itələyib qarpızı sininin üstünə qoyur, sonra üzünü stulda külək döyən qamış kimi yellənən kirayənişinə çevirir:

– Süzün rayonda da qarpuz əkillər?

– Yox, bizdə kartof-soğan çox olur. Qarpızı Sabirabaddan gətirirlər.

– Eh, - babam ağzını büzüb əllərini yellədir. – Sabirabadda qarpuza su verillər. Dadı qaçır. Bizim kətdərdə qarpuz yemişi dəniz qırağında əkillər, day

sulamıllar. Özü dənizin suyunnan çəkir canına. Olur bal kimi.

Qarpızdan gözünü çəkməyən Mirsəftər birdən, elə bil, nəyisə xatırlayır, Babamdan soruşur.

– Düz deyirlər ki, Zirə qarpızına çırtma vuran kimi partlıyır?

Babamın əlindəki bıçaq bir anlıq havada donub qalır və qarpızın ömrü bir neçə dəqiqə də uzanmış olur.

– Eh, rəhmətdiyin oğlu, çırtma nədü? Hünərün varsa yaxşı yetişmiş qarpuzun yanında bir az bərkdən danışginən. Atamın goruyçün, o saat partdıyacey. Bizim qarpuzdarın adam kimi canı var, dil bilillər. Ses-küydən də xoşdarı gəlmir, xasiyyetdəri ağırdu, söz götürən döyüllər, – babam əliylə qarşısındakı qarpızı göstərir, - bu pişrastdu, vaxtınnan qabaq yetişir. Bunnar bir az gönü qalın olullar. İnşaallah, yayın axırında bizim əsas qarpuzdar çıxanda özün görərsən. Sağlığ olsun, beş-on dənə götürüb gələciyəm. Bax elə səniynən oturaceyig burda, qarpuzı da qoyaciyik qabağımıza. Elə sənin yanunda bir dəfə bərkdən qışqıraceyəm qarpuzun üstünə, o saat partıyacey.

Babam sözünə fasilə verib bıçağı qarpıza batırır və kəsib səliqəylə dörd yerə bölür.

– Bəh-bəh, əntiqə. Qıpqırmızıdu. - Birdən elə bil babamın yadına nəsə düşür, başını əyib həyət qapısından bayıra, Qırxpilləkənə tərəf boylanır. – O vaxt biz bura təzə köçəndə, nə bilim on yaşım vardı, ya on iki, dürüst yadımda qalmıyıb, bütün günü məhəllə uşaqlarıynan bu damların üstünə atdanıb düşərdik, oynıyardıq. O vaxt İrannan bura çoxlu həmşəri

gəlmişdi. Mədənnərdə fəhləlik eliyib, külfətdəriyçün çörey pulu göndərərdilər. Bizim qoçular, qoluzorrular da çox incidərdi oları. Hə, canım sənə disün, çoxu da Qırxpilləkannan yuxarıda, Həmşəri palanda qalırdılar. Dəniz qırağına, mədənnərə də həmişə bizim bu pilləkannardan düşüb gedərdilər. Biz də, məhəllənin xırda uşaqlarıynan paltarımızın əteyini daş-kəsəklə doldurub damda gizdənərdik, pilləkannanrnan aşağı düşən həmşəriləri nişan alıb atardıq, ləzzət tutardıq.

– Bəs bir şey demirdilər sizə? - Mirsəftər gözünü qarpızın tumların üstündə gəzdirərək təəccüblə soruşur.

– Əşi ay rəhmətdiyin oğlu. Kimdi həmşəriləri adam sayan. Bizimkilər piştovlarını..

– Nəyi?

– Tapançanı diyirəm də, hə, piştovlarını yoxlamaq istiyəndə yoldan keçən həmşəriləri nişan alardılar. Yazıqları heç itirib-axtaran olurdu ki? Biz də böyüklərə baxıb özümüzü onnara oxşadırdıq da. Yoxsa yerri camaata elənçik eləseydik, atamızı dalımıza səriyərdilər. Hə, bir dəfə necə oldusa, atdığım iri daş parçası yekəbaş, keçəl bir həmşərinin parıldıyan kəlləsinin düz ortasından tutdu, daş dəyən kimi başı qarpız kimi partdadı, qanı axıb sifetini tutdu. Yazıq heç sesini də çıxartmadı, bilmirəm qorxdu, ya heç halı olmadı, helə başını tutub uzandı yerə.

– Öldü? – Kirayənişin artıq gözünü qarpızdan çəkib babamın tük basmış üzünə zillənir.

– Mən nə bilim? - Babam çiyinnərini çəkir. - Əvvəlcə nəsə qorxduq, uşaqların hərəsi qaçıb bir yanda gizdəndi. Axşamtərəfi qırxpilləkənə düşəndə baxdıq ki,

kişidən əsər-əlamət yoxdu. Yerdə laxtalanmış qanının ləkəsi qaralıb qalmışdı. Ya özü birtəhər sürünüb getmişdi, ya da o biri həmşərilər gəlib süriyib aparmışdılar. O haqq-hesabdan sonra hər dəfə qarpıza bıçaq vuranda ki, belə partdıyır, həmənki həmşərinin kəlləsi gəlir gözümün qabağına.

Mirsəftər babama toxdaqlıq vermək qərarına gəlir. Amma çox nahaq.

– Eybi yox, uşaqlıqdı da. Adam uşaq olanda, bilmədən çox iş görür. Çox da vicdan əzabı çəkməyin.

Babam sanki diksinir. Qaşlarını çatıb təəccüblə Mirsəftərə baxır.

– Nə? Vicdan əzabı? Nə danışırsan? Əzab nöş çekirəm? Həmşəridü də. Mən olmıyım ayrısı olsun. Onsuz da ya hansısa qoçunun gülləsinə tuş gəliceydi, ya da mədəndə quyuların birində boğulub öləceydi. Bir dənə həmşəri başının partdamağı nədü ki, onunçün də fikir çekim. Məni ayrı şey dilxor eliyirdi. Həmişə qarpuz kesəndə o keçəl həmşərinin partdıyan kəlləsinnən axan qan gəlir gözümün qabağına. Mən də qannan iyrənirəm, ürəyim bulanır. Sonra qarpuz gücnən boğazımnan keçir. Bilmirəm, ağzıma yedim, ya burnuma. Gərəkdi ki, qarpuzu kəsənnən sonra beş-on dəyqə başımı bir işnən qatım, o keçəl yadımnan çıxsun, yoxsa oturub adam kimi yeyə bilmirəm.

Mirsəftər ədəblə babamın əlindən bıçağı alıb qarpızı doğrayır, səliqəylə sininin içinə düzməyə başlayır.

– Düzdü, ağsaqqal, baş yarılmaq nədi ki? Bizim rayonda elə qoyun otaranda, addımbaşı kiminsə uşaqı

qayadan daşdan yıxılırdı, baş-gözü partlayırdı. Adam öldürmək ağır şeydi. O da ola həmşərilər kimi yazıq adamları. Əsas budu ki, öldürməmisiz.

Babam fikrini yayındırmaqçün doğranmaqda olan qarpıza yox, stolun üstündə asudə gəzişən iri qarışqalara baxır və qəfildən barmaqını uzadıb, baş barmaqıyla bir neçəsini əzir. Elə bil ki, barmağındakı qətiyyət dilinə keçir.

– Eh, nöş öldürməmişəm?! O qədər öldürmüşəm, o yana da keçmişəm.

Mirsəftərin bıçaqı qarpızın içində donub qalır, təəccüblə babamın laqeyid gözlərinə baxır.

– Kimi, həmşəriləri?

– Həmşəri də olub, erməni, urus da olub.

– Haçan?

– On sekkizinci ildə. Onsuz da elə əvvəldən həmşərilərnən çox aram yox idi, ancaq on sekkizinici ildən sonra lap zəhləm getdi olardan.

– Niyə ki? - Qarpızın içində qalmış bıçaq yenidən hərəkətə gəlir.

– Əşi, o vaxt beş-altı vağon ərməni saldatı getirmişdilər Bakiyə. Guya burdan keçib davaya gediceydilər, türklərnən vuruşmağa. Bu köpey uşaqları da, dinc diyanmadılar, şəhərdəki ərmənilərnən əlbir olub, başdadılar aşağı məhəllələrdə müsürmannarı incitməyə, evləri talan elədilər. Nə qədər müsürmanı qırdılar. O vaxt bizim məhəllə cavannarı yuxarıdakı Dağlı məhəlləsinin cayıllarıynan birləşib sözü bir yerə qoyduq ki, ərmənilərı yuxarı məhəllələrə buraxmıyaq. Ağsaqqalları göndərdik samballı qoçuların yanına,

axırda Aşurbeyov bizimçün əlli dənə tüfəng, otuz-qırx karobka da güllə göndərdi. Biz də dağlı məhəlləsinnən aşağı səngər düzəltdik, ərməni saldatdarı iki-üç dəfə yuxarı məhəllələrə çıxmaq istiyəndə gülleyə basıb qeytərdik dala. Hə, canım sənə disün, hələ həmin davalar vaxtı bir gün o köpey uşağı ərməniləri qovlıyıb özümüz də aşağı düşmüşdük. Baxdıq Həci Zeynalabdinin qız mektəbinnən yüz addım yuxarıda, ərmənilərin bir saat əvvəl səngər qurduğu yerdən kimsə çağırır ki, ay qardaş, kömək eliyin, ölürəm, canım çıxır. Yaxın gəlib gördük, bir dənə həmşəridü, sağ qolunu güllə aparıb, qanı axıb gedir. Demə, bu vələdüzna da ərmənilərnən imiş. Babam Kərbəlayi Fəttahın qəbrinə and olsun, elə hirsdəndim ki, beşaçılanda nə güllə vardısa, hamısını boşaltdım bu itoğlunun qarnına. O vaxtdan sonra, lap zəhləm getdi onnardan.

-Bəlkə, heç həmşəri deyilmiş? - Artıq qarpızı dilimləyib bıçağı bir kənara qoymuş Mirsəftər dillənir. - Axı deyilənə görə, İranda da erməni çoxdu. Yəqin ki həmşərinlərin içində yaşadıqlarına görə elə bizim dili də bilməmiş olmazlar.

Əlini uzadıb doğranmış qarpız dilimlərindən birini götürmək istəyən babam, kirayənişinin sözündən sonra əl saxlayır, bir neçə saniyə nəsə fikirləşir, gözlərini döyür.

– Deyirsən, yəni, o da elə İran ərmənilərinnənmiş?

– Nə bilim? Axı həmşərini ermənilər özününkü bilib dəstələrinə götürməzdilər.

Babam bir az da fikrə gedir, stolun üstündəki qarışqalardan daha üç-dördünü öldürəndən sonra içini çəkir.

– Doğurdan e. Heç bu vaxteycən ağlıma gəlməmişdi. Mən də, o günnən bu yana qırx ildü hara çatıram, həmşərilərin nəsil-necabətini söyürəm ki, it uşaqları o vaxt ərməniyə kömey eliyirdilər.

Mirsəftər əlindəki qarpız dilimindən bir dişləm qopararaq, çeynəyə-çeynəyə bir müddət babama baxsa da, onun təəssüf hissi keçirib-keçirmədiyini ayırd edə bilmir. Və qəfildən ağlına nə gəlirsə, söhbətin istiqamətini tamam dəyişir, babama ilk baxışdan qəribə görünən bir sual verir.

– Ağsaqqal, heç Lenini görmüsən.

Babam çeynədiyi qarpız tikəsini udub başını yellədir.

– Yox əşi, mən heç Məskoda olmuşam ki, o keçisaqqalı da görəm? Ancaq gürcü balasını görmüşəm.

– Kimi?

– İstalini diyirəm.

– Harda görmüsüz ki?

– Zirədə. – Babamın adi tərzdə verdiyi cavab Mirsəftərə ağ yalan kimi görünür. Amma xasiyyətini bildiyindən kişini özündən çıxartmamaqçün ehtiyatla soruşur.

– Axı mən heç eşitməmişəm ki, Partiyanın o vaxtkı Baş katibi haçansa Abşeron kəndlərinə qonaq gəlsin.

Babam başı üstündəki tut ağacından qarpız dilimlərinin üstünə düşən yarpaqları götürüb yerə atır və gülümsünüb dillənir.

– Əşi o vaxt İstalin baş katib döyüldü. Heç adı İstalin də döyüldü. Cüvəllağının biriydi. Beş-on dənə lotu-potunu yığmışdı başına, bizim xozeyinnərin boynuna tavan qoyurdu, pul alırdı. Özünkilərin içində hamı ona Koba diyirdi, bizim camaat da elə gürcü balası diyən kimi bilirdilər ki, söhbət kimnən gedir. Kasıb-kusub onun xətrini çox istiyirdi. Bizim kəntimiz şəhərdən lap uzaqda, az qala dənizin içindeydi, onunçün də elənçiy cüvəllağılar, araqarışdırannan Urusyətdən gizdin gələndə day poyuznan-zadnan gəlməzdilər. Həştərxannan minərdilər xırda balıqçı gəmilərinə, gələrdilər, bizim kəntin yan-dövrəsində gizdincə çıxardılar qırağa ki, hökumət adamlarının xəbəri olmasun. Sonra şəhərdə nə zibilləri olardısa, aradan çıxmağ lazım olanda yenə də cümardılar gözdən-qulaqdan uzaq olan bizim kəntə, dəniz qırağındaki bağlarda gizdənərdilər. Həm burda axtaran olmurdu, həm də bəd ayaqda elə burda, Pirallahıda balıqçı gəmilərinə minib təzədən qaçardılar Həştərxana. Mən xırda uşaq idim, Bakiyə köçməgimizdən yarım il əvvəl, qonşumuzun oğlu Əbdüləliynən Gürgan tərəfdə, bağların arasında qoyun otarırdıq. Bir də gördük ki, hardansa bağların içinnən yekə, bığlı bir dənə kişi çıxdı, əntiqə kürkü də vardı, hə, yaxınlaşıb Əbdüləlini qırağa çekdi, nəsə danışdı, mən də Əbdüləlidən beş-altı yaş kiçiyiydim diyənə sesimi çıxartmadım, müxtəsəri, bığlı kişi sözünü diyənnən sonra qoyunnarın içindən bir

dənə ətdisini seçib apardı özüynən. O gedənnən sonra Əbdüləlidən soruşdum ki, o kimdi elə, nə didi. Əbdüləli çiyinnərini çekib, dedi, tanımıram, ancaq tapşırdı ki, qoyunun yiyəsinə diyərsən ki, gürcü balası apardı, imkan olanda pulunu da göndərəcey. Axşam kəntə gələndə qoyunnarın yiyesinə hər şeyi necə olub elə də danışdıq. Kişi lap dilxor oldu, dedi bir dənə qoyun nöş vərmisüz, mənim bütün həyvannarım ona qurbandu. Sonra bildik ki, bu bığlı kişi İstalin imiş. Camaatdan eşitdik ki, bizim kətçimiz Mirzəbala gizdədirmiş onu bağlarda. Möhkəm cur imişlər Mirzəbaleynan. Ancaq on yeddinci ildən sonra araları deydi. Mirzəbala qoşuldu Musavata, hökumət adamı oldu, ancaq İstalin qırmızılarnan bir yerdə qaçdı Urusyetə. Onu da diyim ki padşah olannan sonra nə Mirzəbaleya, nə də o vaxtkı alayı currarına əl vurmamışdı. Hərəsi bir yerə düzəlib işdiyirdilər. Sonra Mirzəbala özü qalmadı burda, sağ-salamət çıxdı getdi Türkiyeyə. Yəqin ki, hindi lap qoca kişi olar, əgər ölmiyibsə... Həm də tek İstalin döyüldi, bizim kəntin yan-dövrəsindeki bağların quyularında o qədər inqilabçılar gizdənib ki… – Qəfildən babamın üzünə təəssüflə dolu qəribə bir kinayəli gülüş yayılır, – o vaxt özdəri gizdənirdilər quyularda, hökumətə gələnnən sonra da axunddarı, mollaları, beyləri, ağaları doldurdular o quyulara. Sən çərxi-fəleyün işinə bax e, hələ bil ki, dünyanı tərsinə çövürdülər, quyulardekilər çıxdı dağ başına, dağ başındekilər də doldular qarannıq quyulara. Nə bilim, vallah, uşaq vaxtı heç yatsam da yuxuma girməzdi ki, Molla Muradəli kimi ağzı dualı, nurani bir kişini, bir dəfə müsəllayə çıxmasıynan

göydən yerə yağış yağdıran bir axundu Gürgan bağlarında diri-diri quyuya atıb üstünü qumnan dolduraceylər, Həci Ataxan kimi sözü daşdan keçən, Sabunçidə iki dənə urus girdəvoyunu tepiyinin altına salıb eşşeycən çırpan hörmətdi bir mülkədarı dəniz qırağında boynuna daş bağlıyıb körpüdən aşağı ataceylər. Eh, bilirsən nə qədər eləngiy kişilərin axırına çıxdılar? Bir döyül, iki döyül.

Mirsəftər də, başını yellədir.

– Düzdü, ağsaqqal, yaxşı ki, axır vaxtlar zamanə dəyişib. O vaxtın arxivləri açılır, şəxsiyyətə pərəstiş dövrünə aid sənədlər çıxır, məlum olur ki, nə qədər günahsız adam güllələnib, sürgün olunubmüş. Sağ qalanlar geri qayıdır, vəfat edənlərə də ölümündən sonra bəraət verilir. Odey neçə il bundan əvvəl Hüseyn Cavidin də, Mikayıl Müşfiqin də, repressiya olunmuş başqa şairlərin də təzədən kitabları çıxdı. Bəlkə də görmüsüz. Məndə var, axşamlar bekar olanda oxuyuram.

– Yaxşı eliyirsən, oxu, həyif ki mənim çox oxumaqnan aram yoxdu, hövsələm çatmır, ancaq oxuyan olanda qulaq asıram. – Babam nərdtaxtanın üstündəki daşları oynadaraq nəsə fikirləşir, – yox, yalan diyərəm, nə Cavid, nə də o birsini görməmişəm. Bəlkə də görmişəm, ancaq fikir vərməmişəm. Ancaq Cəfər yadımdadu, yaxşı yadımdadu.

– Cəfər Cabbarlı?

– Bir dənə Cəfər olub da, ayrısı yoxdu ki? Həri, o dağlı balasını diyirəm. Bizim bu Qırxpilləkannan bir az yuxarıda, Savetskinin üstünədə Dağlı məhəlləsində

olurdu. Hər gün burdan düşüb işə gedirdi. Qabiliyyətdi oğlan idi, böyük-kiçiy biləndi, salam verməmiş yanımızdan keçməzdi. Çox vaxt da əlində tar olardı.

– Hə, mən oxumuşam ki, pyeslərinin içindəki mahnıları da özü bəstələyərmiş, çox vaxt elə tamaşa vaxtı da özü ifa edərmiş.

Babam laqeydliklə çiyinlərini çəkir.

– Onu day bilmirəm, tiyatıra-zada gedən olmamışam, ancaq tarı yadımdadu. Bir gün bizim bu pilləkannardan düşürdi, biz də qonşum Kəblə İmamverdiynən pilləkannarın qırağında bax elə bələnçiy üzbəüz oturub nərd atırdığ. Diyəsən yaman tələsirdi dağlı balası, pilləkannarı beş-beş düşürdü. Elə bizə salam vərib təzə aralanmışdı ki, ayağı daşa ilişdi, büdrədi. Özünü birtəhər saxladı, yıxılmadı, ancaq tarı əlinnən düşüb pilləkana çırpıldı, çanağı ortadan bölündi iki yerə. Dağlı balası tara baxdı, rəngi-rufu getdi. Gördik yaman yer eliyib ona tarın sınmağı, oyunu saxlıyıb gəldig yanına ki, sakitdəşdireg onu. Dedi ki, tarın sınmağı bir şey döyül, ancaq iş ondadu ki, on-on beş dəyqədən sonra tiyatırda tamaşam başdıyacey, çoxlu da hökumət adamı gəlicey, mahnıları da tarda özüm çalmalıyam. Bu zibil də vaxt tapdı sınmağa. İndi beş-on dəqiqənin içində hardan təzə tar tapım. Soruşdum ki, tiyatırda ayrı tar yoxdu ki? Didi tapmaq olar e, ancaq hamı arxayındu ki, mənim özumdə var, özüm gəlib çalaceyəm. Mən dilləndim ki, atalar düz diyib, tələsən təndirə düşər, ancaq sən fikir eləmə. Bir şey fikirləşərik. Çönüb Kəblə İmamverdiyə didim ki, Kəbleyi, o əskər gedən kiçik oğlun o vaxt hərdən

bizimçün dınqıldadırdı, onun tarı hayandadu? Kəblə İmamverdi didi ki, vallah, uşaq əsgər gedənnən sonra o biri şeyləriynən bir yerdə yığıb doldurmuşam çardağa, altı aydu ordadı, əgər taxtabitilər axırına çıxmıyıblarsa, qurbandu, götür apar.

Müxtəsəri, Kəbleyi həyitə girib tez dama çıxdı, tarı tapıb aşağı düşdi, Cəfər alıb baxdı, elə ayaq üstə dınqıldatdı, didi sesi yaxşıdu, ancaq kökdən düşüb, eybi yox, tiyatırda kökliyərəm. Tarı alıb əlli dəfə çox sağ ol didi, sonra da tələsik düşdü aşağı. Bir-iki günnən sonra Cəfər gəldi ki, bəs tarı götürmişəm, çox sağ olun. Kəblə İmamverdi almadı ki, mən onu sənə satmamışam, bağışdamışam, dağlı balası çox illah elədi, tarın pulunu verməy istədi, ancaq Kəblə İmamverdi didiyinnən dönmədi. Axırda dağlı balası didi ki, ərməni-müsürman davasınnan taza bir dənə tiyatır yazıram, ordakı adamlardan birinə sənin adıvı qoyacıyam. Day bilmirəm qoydu, ya yox. Ancaq yalan diməz, dağlılar sözdərinün üstündə diyanan olullar. Neçənci ildeydi bu söhbət… bu saat yadıma salaram... hə, Bibi Uçan ili, həri-həri, yüz faiz, Bibi Uçan il idi.

– Kim uçan? – Mirsəftər elə bilir ki, babam onu lağa qoyur.

– Bibi də. – Birdən babam başının yellədir. – Hə, sən Bibini görməmisən axı. Uçmağını hardan biləsən.

– Kimin bibisini?

– Bibiheybətdeki türbəni diyirəm. Orda İmamlardan birinin bacısının qəbri vardı, soradan camaat oranı ziyarətgah eləmişdi, nəzir-niyaz gətirirdilər. Çox kəramətdi yer idi. Hə, birini qoyub

birini danışım, Hüseyn Rəhmanov vardı, köhnə kamunistdərdəndi, o vaxt hökumətin başında diyanan üç adamnan biriydi, bunun da bir nurani, mömin anası vardı, həmişə ona diyərdi ki, nahaq gedib bu allahsızdara qoşulmusan, meçiddəri sökürsüz, mollaları didərgin salırsuz, Allahın qəzəbi tutar süzə. Bu da həmişə anasını lağa qoyurmuş, sözünə fikir vermirmiş. Davadan beş-altı il qabaq hökumət fərman vərir ki, şəhərdəki iri meçiddərin, kilsələrin çoxu sökülsün. Həmən ildə Qızıllı kilsəni də, Bibiheybət ziyarətgahını da söküb qoydular yerə. Hə, didiyim odu ki, Bibiheybət meçidi dağılıb uçulan kimi həmən o Hüseyn Rəhmanov gəlir anasının yanına, zarafatca diyir ki, məmə, ay məmə, muştuluğumu ver, Bibi uçdu. Anası da bir oğluna baxır, bir onun başındakı urus papağına baxır, başını yellədib diyir ki, fikir eləmə oğul, çox qalmıyıb, bir gün sən də uçarsan… doğurdan da davadan bir-iki il qabaq Hüseyn Rəhmanovu vraqnarod eliyib basdılar içəri, gülləni də qoydular təpəsinə. Ancaq «bibi uçdu» kəlməsi o vaxt düşmişdi camaatın ağzına…. Çox yerləri dağıtdılar həmin illərdə. Həyif.- Babam əyilib həyətin qapısına tərəf boylanır və əliylə nəyisə Mirsəftərə göstərir. - Bax, burdan baxanda Qızıllı kilsənin bütün minarələri görsənirdi. Bilirsən hardeydi? Qoşa qala qapısınnan bir az yuxarıda bazar var e, bax onun üstündə. İndi diyəsən məktəbdü yerində. Eh, nolsun ki, kilseydi, bilirsən nə bina idi? Biləcəridən şəhərə girən kimi gümbəzdəri görünürdü, şəhərün hansı yerində azırdunsa, Qızıllı kilsənin parıldıyan gümbəzdərini tutub yolu tapırdun. Çox iri bir şey idi, həm də yaman

möhkəm idi. diyirdilər ki, onu tikəndə malasına filan qədər yumurta sarısı qatmışdılar. Yadımdadu ki, belənciy vurub dağıda bilmədilər, düz dörd il əlləşdilər, kərpic-kərpic sökdülər onu. Şəhərdeki köhnə urusdar hər dəfə sökülən kilsənin yanınnan keçəndə gildir-gildir yaş tökürdülər… Mən dürüst bilmirəm, ancaq camaat danışırdı ki, köhnə hökumətin vaxtında bir dəfə İstalin Bakidə olanda girdəvoylar düşübmiş dalıyca, bu da görüb qaçmağa yer yoxdu, gedib girib o kilseyə, keşişdərün də yazığı gəlib, götürüb gizdədiblər onu ən yuxarıdeki çardaqda, iki gün qalıb orda. Bu kilsənin də zəngləri çox zırpı bir şeydi, səsinnən qulaq tutulurdu. Müxtəsəri, iki günün içində İstalinin baş qulağı elə gedib ki az qalıb zənglərin səsinnən başına hava gəlsün, gic olsun. Birtəhər məqam tapıb aradan çıxannan sonra, guya özü-özünə söz vəribmiş ki, imkan düşən kimi bu kilsəni zənglərinən bir yerdə sökdürüb qoyaceyəm yerə. Padşah olannan sonra elə də eliyir.

-Hə, yadıma düşür. - Mirsəftər babamın sözünü təsdiq edir. – Uşaq vaxtı hansısa tarix kitabında oxumuşdum ki, Stalin inqilabçılıq fəaliyyəti zamanı bir neçə dəfə Bakıda olub, hətta həbs edilib burda.

-Düz yazıblar. Neçə ay bizim Bayıl türməsində də yatıb. O, Bayılda yatanda Nəriman doxtur həmişə gizdincə peredaça göndərirdi onunçün. Eh, o da bir alayı kişiydi. Allah Həci Zeynalabdinə rəhmət eləsün. Doxtur kimi nə qədər cavannarı göndərirdi öz puluna Urusyətə, dərs öyrənmeyə. Həyif, mənim cavannığım pis vaxtdara düşdü, ara qarışdı, məzhəb itdi aləm deydi

bir-birinə, Nukalay padşahın dalınnan deydilər, hökumət deyişdi. Yoxsa mən də gedib oxiyib bir fərri adam olardım. Həci də əlimiz çatan adam idi. Böyük əmim Kəblə Muxtarın arası xod idi onuynan. Həci Zeynalabdin onun xətrini çox istiyirdi, bilirdi ki, ağzı dualı mömin kişidü, həm də heç kimnən qorxu hürküsü yoxdu, sözi kişi kimi üzə diyəndü. Kəbleyinin Şubanı tərəflərdə qoyun sürüləri vardı. Həcinin bütün külfətiyçün, sonra, öz fabrikinin işçiləriyçün əti ancaq Kəbleyidən alardı. Hər ay iki yüz qoyun ayırıb göndərərdik ona. Kəbleyi bircə kəlmə sözü bəs eliyərdi ki, minnətsiz-filansız məni də göndərəceydi Urusyetə dərs oxumağa. – Deyəsən gəncliyi yenə də kino lenti kimi babamın gözünün qabağından keçir, kişi həm kövrəlir, həm də xoşhallanır.

-Deyirlər camaatın qayğısını çəkən adam olub Tağıyev. - Mirsəftər sözünü deyib babamın üzünə baxsa da, görür ki, kişi deysən onu heç eşitməyib, öz aləmindədi, fikri də allah bilir hardadı.

– Bir dəfə Kəbleyi Mərdəkana, Həci Zeynalabdinin bağına gedəndə məni də aparmışdı özüynən. İndiyəcən yadımdadu, elə belençiy isti bir yay günü idi, adamın nəfəsi kesilirdi istidən. Rəhmətdik Həcinin bağınun qabağında faytonu saxladuq, ikimiz də düşdik. Əmim Kəblə Muxtar bir torba təmiz cirə götürmişdi Həciyçün, bilirdi ki, xoşdıyır bizim cirəni. Hə, içəri girəndə gördik Həci bağdakı ikimərtəbəli mülkdən bir az aralıdakı çarhovuzun qabağında dayanıb, əllərini də belində cütdiyib. Diyəsən çarhovuzdakı balıqlara baxırdı. Biz həyətə girən kimi

çönüb dilləndi ki, gəl görək, Kəblə Muxtar, cirənin iyinnən bildim ki sənsən. Rəhmətdik düz diyirdi. Bizim kəntin cirəsini ki, döyüb toz kimi elədün, iyi Allahü-əkbərin qurtaracağınacan gedib çıxır. Həci də yəqin elə biz faytonnan düşəndə iyi hiss eləmişdi. Hə, külafirəngidə oturub kalan söhbət elədik, yəni mən heç nə danışmırdım, elə oturub qulaq asırdım, xırda uşaq idim, ixtiyarım nəydi ki onnarın yanında ağzımı açım, elə Kəblə Muxtar bir yol gözünü ağartseydi mənə gərək xəcalətdən yerə girərdim. Müxtəsəri, şirin söhbətin bir məqamında Həci Zeynaləbdin əmimə baxıb dedi ki, Kəbleyi, bu uşaqa səhərdən gözaltı baxıram, yaman fəhmli uşaqa oxşıyır, yəqin ki, mollaxana da qutarmış olar. Gəl üzümüzə gələn il göndərey onu Urusyətə, qoy oxuyub bir adam arasına çıxsın. Yoxsa batıb gedər, həyifdü. Kəblə Muxtar da mənə baxıb əlini yellətdi ki, bəs lazım döyül, elə bircə o çatmırdı ki, olan qalan namus-qiryətini, müsəlmançılığını da aparıb soxsun matişkələrin ayaqlarının arasına.

Söz Həci Zeynalabdini tutdu diyəsən, qaşqabağını salladıb didi ki, elə nöş danışırsan, Kəblə Muxtar, beyəm bizimkilər gedib oxuyub biqiryət olub gəliblər?

Kəbleyi əvvəlcə istədi söhbəti deyişsün, ağzını büzüb dedi ki, ay Həci, mən ölüm ağzımı açma, allah eləməsün, elə bir söz diyərəm ki, sonra xətrüvə deyər, bilirsən ki, mən bu qurumuş dilimi saxlıya bilmirəm.

Ancaq Həci də Həciydi, üreyi partdıyardı söhbətin kökünə gedib çıxmaseydi. Oturduğu kreslonu bir az da əmimə tərəf çekib dedi ki, Kəbleyi, oxu atıb

yayını gizdətmə, sözün varsa üzümə de, yoxsa pis iş görürəm ki, camaatın uşaqlarını göndərirəm oxuyub adam olsunnar? Hə?

Kəbleyi gördü ki, Həci Zeynalabdin onnan əl çekən döyül, onunçün də dilləndi ki, pis iş görmürsən e, ancaq… nə bilim vallah, özün yaxşı bilirsən ki, ay Həci, bizim camaatın bir əlində namus-qiryətdü, bir əlində din-iman, bu zibilə qalmış elm də elə şeydü ki, onu dişnən, ağıznan götürməy olmur, gərək əlindəki bu iki şeydən birini atasan ki, onu götürəsən. Ayrı yolu yoxdu. Urusyətə, nə bilim Firəngistana oxumağa gedənnər də məcbur olullar ki, bunnardan birini, ya da elə ikisini də birdən atsınnar mürtəddərin ayağı altına, o elm dediyün şeyi götürsünnər. Görmürsən gedib gələn urusdardan beşbətər olur. Özlərinnən başqa heç kimi beyənmillər. Dönüb olullar moltanı. Həm də ki, eşşəyi oxumaqnan adam eləmək olmur axı, ay Həci, eşşeg elə eşşegdü, gedib oxuyandan sonra da olur üstünə kitab yüklənmiş eşşeg.

Həci əvvəlcə dinmədi, qabağındakı stəkandan bir qurtum çay içib dedi ki, yaxşı , ay Kəbleyi, biz neyniyək ki, elm indi olardadı, o dey mülklər tikdiririk, nə bilim, su çəkdiririk, həkim filan lazım olur, o saat cumuruq Urusyetə, Firəngistana, ordan od qiymətinə adam gətizdirib işlədirik. Ondansa elə özümüzünkülər oxusunlar, o pulu da elə özümüzünkülərə yedizdirək də.

Kəbleyi razılaşmadı, dedi ki, ay Həci, axı bu gedib gələnlərin beynini orda elə doldurullar ki, gələnnən sonra mənim kimilərin saqqalına gülüllər,

sənin kimilərin papağına. Elə bilirsən ki, sənə çox sağ ol diyəceylər? Yox, əllərinə imkan düşən kimim elə birinci sənin kimilərin üzünə ağ olaceylar. Çünki elə öyrədillər oları. Elmi verillər, ancaq əvəzində qanacaq qabiliyyəti, hörmət izzəti, müsəlmançılığı alıllar əllərindən. Ondansa elə mollaxana, mədrəsə oxusalar yaxşı olar.

Həci gülüb dedi ki, Kəbleyi, əvvəla mollaxana, mədrəsə oxuyanımız çoxdu, hamısının da hörmətini saxlıyırıq, özün şahidsən. Ancaq Qumda oxuyub müctəhid kimi gələn adama mən buruq qazdırıb, su çəkdirə bilmərəm, incinar döyül axı, canımın müalicəsini ona tapşıra bilmərəm axı. Onun öz yeri var, bunun öz yeri, hər ikisi lazımdı. Düz deyirsən ki, elm öyrənən uşaqlar çox dəyişillər, gələndə tanımaq olmur, oraların havası başdarını xarab eliyir. Amma ki, ayrı yolumuz yoxdu.

Kəbleyi bir az da özünnən çıxdı, dedi ki, ay Həci, bu vaxtecan xoruz yox idi, səhər açılmırdı beyəm? Urus bənnaları olmiyanda bizimkilər beyəm ev tikə bilmirdilər? Yoxsa Xan sarayını, Qız qalasını da urusla, firənglər tikib? Ya da ki, elə həkimləri diyim, allaha and olsun ki, mənim nənəm Xatun arvad sənin o Firəngistanda oxuyub gələn həkimlərindən çox bilirdi, adamı qan almaqnan, otdarnan, dualarnan, nə bilim, cürbəcür şeylərnən elə müalicə eliyirdi ki, ölü də dirilib otururdu.

Həci Zeynalabdini yenə gülmey tutdu, dedi ay Kəbleyi sən də lap ağını çıxardma, o həkimlərin dərmanları, alətləri, var, bədənin hər əzasının ayrı

həkimi var, hər şey təmiz səliqə səhmanlı. Yoxsa əski yandırıb külünü yaraya sürtməynən yara sağaldarlar?

Kəbleyi təslim olmadı, dedi, nə oldu, bu vaxtacan sağaldırdılar, indi eliyə bilməzdər? Nöşün ora-buranı görən kimi özünkiləri bəyənmirsən?

Həci yenə israr elədi ki, ay Kəbleyi, sabah elə sənin özüvün qarnından, nə bilim harandan sancı tutsa, bədənivi yara bassa, görsən ki, bizimkilər əlac eliyə bilmir, beyəm getməzsən təzə həkimin yanına?

Kəbleyi hikkəynən dedi ki, yox, gedmərəm, əgər bizim müsəlman təbibləri əlac eliyə bilməsələr diməli əcəlim çatıb, Allah-təalanın əmriynən canımı təslim eləməliyəm.

Sonra da Kəbleyi bir az yavaşdan dedi ki, mənim kimi adamlar da nə qədər danışsalar da onsuz da heç zad deyişmiyəcey. Zəmanə belədi, ay Həci, səndə də heç bir günah yoxdu. Amma məni yandıran ayrı şeydü, bizimkilər ki, gedib oralarda adamlıqlarını əldən verib elm qazanıllar, mən ki, belə görürəm iyirmi otuz ildən sonra bu məmləkətin camaaatının çoxu elmli eşşeglərdən ibarət olacey. Elə iş başında da onlar olacey, camaatın başının ağası da… Babam nəfəsini dərib qurumuş dodaqlarını ovuşdurur, qəfildən əyilib başmağının tayını götürərək həyətin başındakı divarın dibindən başını çıxarıb qorxu-qorxa stol arxasındakılara boylanan bozumtul siçovula tolazlıyır, sonra da qarşısında oturan Mirsəftərə baxır və yenə də əmisinə işarəylə davam edir: yaman tərs kişiydi Kəbleyi, yetmiş neçə yaşında ciyərinə nəsə yara çıxdı, nə qədər illah eləsəy də hikkəsinə salıb gedmədi urus həkiminə, dedi

əcəlim çatıbsa ölməliyəm. Kişi bir ayın içində şam kimi əriyib getdi. Ancaq həyif, gərək məni də göndərəydi oxumağa. İndiyecən başıma döyürəm ki, bəlkə gərək evdən qaçıb gedəydim oxumağa.

-Hə, -Mirsəftər də nəyisə xatırlayır. - Bizim kənddə də bir oğlan vardı, tək uşaq idi, atası onu qoymurdu oxumağa getsin, bir də onda xəbər tutduq ki, sənədlərini də götürüb evdən qaçıb. İndi neçə ildi Moskvada oxuyur.

-O vaxt çətin olardı elənçiy oxumaq. Sən indikinə baxma, hökumət instruta girənə pul vərir, obşejit vərir, o vaxt pulsuz lap qaçıb getseydim də, oxuya bilməzdim. Yiyib içmey bir yana qalsın, ildə filan qədər oxumaq pulu vardı, onu kim verəceydi?

-Demirsiz, Tağıyev sizi tanıyırdı? Gedib xahiş edəydiz, kömək edərdi də.

- Yox əşi, Həci Zeynalabdin bilseydi ki, evdən gizdin qaçmışam, qulağımnan tutub döyə-döyə qaytarardı evə. Çünki Kəbleyinin xasiyyetini bilirdi. Xəbər tutseydi ki, Həci məni onnan gizdin oxumağa göndərib, ömrü boyu üzünə baxmazdı, məni də Allahu Əkbərin qurtaracağında da olsa tapıb bağırsaqlarımı tökərdi yerə.

-Sovet hökuməti qurulandan sonra oxuyardız…

-Gec idi, atam qərdeşim, taza hökumət gələndə otuza yaxın yaşım vardı, heç əvvəlki həvəsim də qalmamışdı.

Bir müddət hər ikisi susur, babam armudu stəkanın dibində qalmış çayı iki addım aralıdakı tut ağacının dibinə boşaldır, Mirsəftər isə əlində oynatdığı

sınıq ağac budağıyla yerdə gəzən iri qara bir dozanqurdunu beli üstə çöndərməyə cəhd edir, amma buna nail olmur , üzü üzlər, əli əllər görmüş dozanqurdu nəinki heç cür arxası üstə çönmür, əksinə imkan tapan kimi qəfil hərəkətlə ağac budağından yapışıb cəld üzüyuxarı, Mirsəftərin əlinə tərəf dırmaşmağa başlayır və bunu o qədər sürətlə edir ki, Mirsəftər, bir şey başa düşənə qədər dozanqurdu artıq öz xırda , lakin iti caynaqlarını onun ağ əllərinin yumşaq dərisinə batırır. «Ay dədə» qışqıran Mirsəftər tok vurmuş adamlar kimi qəribə bir hərəkətlə dozanqurdunu vurub yerə salır. Qələbə çalan dozanqurdu böyük təvazökarlıqla dalını yuxarı qaldırıb heç geri də boylanmadan öz yoluna davam edir.

Onun dalıyca boylanan Mirsəftərsə əlindəki sınıq budağı həyətin bir kənarına tullayıb belini dikəldir və nərdtaxtanın üstündəki qəhvəyi ləkələri silərək təəccüblə ona baxan babama ağlına gələn ilk sualı verir:

-Əminiz sovet hökuməti qurulandan sonra ölmüşdü?

-Yox, sovetdən qabağ. Şəhərə Şollar suyu çəkilən ili. Yazıq həsrətnən gözdiyirdi o günü ki, krantdar açılsun. Diyirdi ki, bu su çekilib qutarsa gedib Həcinün əllərinnən öpəciyəm. Ancaq qismet olmadı ona. Su gələndə yorğan döşəyə düşmüşdü, yaxşı döyüldü halı. Birinci dəfə Şollar suyunnan doldurub evə gətirəndə, dedi canım da çıxsa içməliyəm onnan. Biz didik içə bilməz, axı bir neçə gündi ki, boğazınnan yemey də keçmirdi. Ancaq kişi kimi iki stekan içdi. Didi, Allah Yezidə lənət eləsin, day bunnan sonra rahat canımı

tapşıra bilərəm. İki günnən sonra rəhmətə getdi yazıq. – Babam sözünə fasilə verib dodaqaltı nəsə mızıldanır və əlini üzünə çəkib «allah rəhmət eləsin» deyir, yalnız bu vaxt Mirsəftər başa düşür ki, babam əmisi üçün ürəyində fatihə verirmiş.

-Heyif - Mirsəftər mənalı mənalı başını yellədir. – Gərək sağ olaydı, təzə zamanəni görəydi.

Babam onunla qətiyyən razılaşmır, gülümsünüb əlini yellədir:

-Eh, nə danışırsan, ay rəhmətliyin oğlu, yaxşı ki taza hökumətin qurulmağını Kəbleyi görmədi. Yoxsa o qədər hikkə ki onda vardı, elə səhəri gün cumaceydi Həci Zeynalabdinin üstünə ki, gördün, mən diyən oldu. Mən sənə dimişdim ki, o pul vərib mürtəddərin, allahsızdarın içinə oxumağa göndərdiyün gədə-güdələr imkan düşən kimi elə birinci sənin özüvün dalınnan deyəceylər. İnanmırdun. Bu da axırı…. – Babam başını qaldırıb Təzə Pir məsçidinin uzaqdan görünən minarəsinə tərəf baxır. - …Alayı şeyləri demirəm, elə kişi görseydi ki, taza hökumət meçiddəri nə günə qoyur, mollaların başına nə oyun açır, vallahi ki, üreyi partdıyardı. Yaxşı ki, vaxtında öldi.

-Hə, biz tərəflərdə də çoxlu məsçidləri, pirləri sökdülər, birini anbar elədilər, birini klub. - Mirsəftər kədərlə başını yellədir, amma sonra nə düşünürsə üzü azacıq gülür. - Yaxşı ki, Bakıda iki üç məsçid qalıb. O Təzə pirin məsçidinin yanından keçəndə hər dəfə öz rayonumuzdakı məsçid yadıma düşür, kövrəlirəm. Yəqin Təzə pir məsçidini də Hacı Zeynalabdin Tağıyev tikdirib..

Babam başını yellədib deyir.

-Yox əşi. Orda Xəlfə damı vardı. Ağır bir ocaq idi ora. Sonra Nabatxanım Aşurbeyova oranı alıb haman Taza Piri tikdirmeyə başdadı. Yaman varlı-hallı arvad idi, özü də kişi kimi qiryətdiydi. Meçidin özülünü qazıyanda Həci Zeynalabdin xəbər yollamışdı ki, əgər tikintiyçün pula paraya ehtiyacı varsa, xəbər eləsin, nə qədər lazımdısa kömey eliyim. Nabatxanım da cavab vermişdi ki, pulunu versin qatığa, çeksün başına. Bir-iki gün sonra başa düşmüşdü ki, qabiliyyətsizdik eliyib, adam göndərib üzr istəmişdi, Həcini çağırmışdı ki, gəlib özülə ilk daşı o qoysun. Həci də gəlmişdi.

Mirsəftər bircə anlıq gözlərini öz qaldığı otağın ağ rənglənmiş qapısına dikir, elə bil bu ağ lövhədə Tağıyevin sifətini canlandırmağa çalışır. Sonra da sanki ixtiyarsız mızıldanır:

-Neftin qüdrətinə bax. Adi bir bənnanı milyoner eliyəsən.

Babam yeyilib qurtarmış qarpızın qabıqlarını sininin içinə yığıb içindəki tumları ayırmağa başlayır.

-Kətdekilər didilər ki, bu qarpuzun tumlarını tullamıyın, gələn il lazım olacey. – Sonra söhbəti yenə də Tağıyevin üstünə gətirir. - Həcini nöyüt milyaner eləmiyib, Allah onu bir günün içində qaldırıb dağın başına bir günün içində də saldı quyunun dibinə.

Mirsəftər təəccüblənir:

-Məgər Tağıyevin neft quyuları olmayıb?

-Atam qərdeşim, beyəm nöyütdi torpaq havayıydı ki, hər yolan keçən bənna alıb quyu

qazdıreydi? Bir parça elə torpaq almağçün bir ətey pul lazım idi. Həciyə də o pulu allah göydən yetirdi.

-Necə yəni göydən?

-O vaxt, hələ Həcinin bənna olan vaxtlarında, bir nəfər gəlib diyir ki, ağam səni görmək istiyir. Evin içində balaca bir divarı tikəceysən, yaxşı da pul vericeylər, ancaq tapşırıb ki, sənin gözdərivi bağlıyaq, hara getdiyivi bilmiyəsən. həci də razılaşır.

-Bəs qorxmurdu?- Mirsəftər təəccüblənir.

-Nədən qorxaceydi? Bənna adam idi də. Döyüb malakeşini əlinnən almayacağdılar ki. Müxtəsəri, onu bir mülkə gətirillər, ancaq içəri otaqlara salannan sonra gözdərini açıllar. Görür ki, əntiqə bahalı bir evdü, kresloda da haldan düşmiş qoca bir dənə kişi oturub, özü də müsürmana oxşamır. Kişi onu getirənnəri həyətə çıxardıb Həciyə diyir ki, sənin haqqında çox eşitmişəm, diyillər usta bənnasan. Sənə bir işim düşüb. Mən möhkəm xəsteyəm, beş-altı günə o yannıq olaceyəm, özüm hiss eləmişəm. Ancaq bir dərdim var, övladdarım bifərdü, bir oğlum piyaniskədü, o birisi də qumarbaz. Bilirəm ki, mən başımı yerə qoyan kimi yığdığım bütün qır-qızılı, malü-mülki satıb başına daş salaceylər. Onunçün istiyirəm ki, bir sandıq qızılı səniynən bir yerdə bu evin pilləkannarının altında gizdədeg. Həci bir söz dimir, hər şeyi tədarük görüllər, sonra kişi evinin içindən həyətə düşən balaca pilləkannarın yanına gətirir Həcini, o də pillələrin birini çıxardıb bir sandıq qızılı onun altına yerləşdirir, pilləkanın daşını təzədən yerinə qoyur, dörvəsini də əhəngliyir. Kişi diyir ki, əgər fərasətdəri olsa, baxıb görəceylər ki, pilləkanın bu daşı o

birilərdən hündürdədi. Biləceylər ki, burda nəsə var, onda qoy halal xoşdarı olsun. Yox ağıllarına gəlməsə qoy qalıb, kimə qismət olursa olsun.

Axşam düşəndə işini görüb qurtarannan sonra Həci gözünə döndüyüm də eləmə tənbəllik, ayaqabısını batırır əhəngə. Sonra nökərlər gəlillər, Həcinin pulunu artıqlamasıynan verib təzədən gözdərini bağlıyıllar, faytona mindirib gətirillər şəhərin içinə, orda gözdərini açıb düşürdüllər aşağı. Həci də elə geceynən təxmin elədiyi məhəllələrdə gəzib baxır ki, hansı mülkün qabağında əhəng ləpirləri var. Axırı səhərə yaxın həmən mülki tapır, rahat çıxıb gəlir evinə. Sonra da o məhəllədəki ev dəllallarına xəbər eliyir ki, o mülk satılsa birinci mənə diyün. Qoca kişi düz diyirmiş, həmən vaqiədən iki həftə sora xəbər gəlir ki, gədələr evi satıllar. Həci dəllalnan bir yerdə müştəri kimi gedib o mülkə baxır, həmin piləkannarı da görəndə fikir vərir ki, ora əl vuran olmuyub. Arxayınnaşır, gedib kimnənsə faizə pul götürüb tez həmin evi alır, pilləkanın altındakı qızılları çıxardır, sonra neftli torpaq alır, buruq qazıyır, quyuları fantan vurur, dönüb olar neftxuda. – Babam danışa danışa öz həyətimizdəki daş pilləkannarı nəzərdən keçirir, elə bil onların da altında qızıl olub olmamağını fikirləşir. Nəhayət sözünə davam edir. – Didiyim odu ki, Həciyə allah-təala özü o qədər varidatı vərmişdi, onunçün də Həci simicdiy eləməzdi, camaatçün əlinnən gələni eliyərdi, bilirdi ki, bir gün gələn bir gün də gedəcey. Elə də olur. Taza hökumət qurulan kimi Həcinin neyi var, alıllar əlindən, bir dənə Mərdəkandakı həmin bağı vərillər ona. Elə orda da

rəhmətə gedir. Rəhmətdiyin dəfnində bilirsən nə qədər adam vardı? Heç İstalin öləndə o qədər məxluq tökülməmişdi küçələrə. Elə bil şəhəri qarışqa basmışdı…

… Söhbətin bu yerində həyət qapısına elə bil möhkəm bir təpik dəyir və geri çönən Mirsəftərlə babam qapının çərçivəsinə söykənən əmimi görürlər. Onun görkəmindən bilinir ki, ayaq üstə güclə dayanır, gözlərinin gilələri də elə bil ayrı-ayrı istiqamətlərə baxır. Lakin bu halsızlıq hamının adət etdiyi kimi sərxoşluğun , yaxud o zəhrimara qalmış anaşanın təsirinə oxşamırdı. Çünki əminin sifətində sərxoş olduğu vaxtlarda parıldayan həmin spesefik təbəssümdən əsər əlamət yox idi. Elə bil nəsə qeyri-adi bir hadisə baş vermişdi.

Bunu ilk olaraq babam hiss edir. Qəfildən ayağa qalxıb oturduğu stulu kənara itələyir, ancaq hələ əmimə tərəf getməyə cürət etmir və yalnız boğuq səslə:

– Nə olub ki? - deyə soruşur.

Əmim düymələri yarıyacan açıq köynəyinin yaxasını dartışdıraraq quyu dibindən gələn qəribə bir səslə cavab verir:

-Cəbrayılın kiçik qızı nöyüt töküb özünü yandırıb. – Sonra özü özüylə danışırmış kimi əlavə edir. - Bu da üç. Allah ikisindən saxladı, üçüncüdən saxlamaq istəmədi…

Bir

Ümid qeyb oldu, ruhumda qaranquşlar ölən gündən,
Mən eşqimdən qaçaq düşdüm sən insafa gələn gündən.

Daha hifz eyləyən yoxdur bəladan ruhumu, yəqin,
Mələklər də küsüb məndən səni tanrım bilən gündən.

Uçub getsəm də yanından, elə bilmə ki, tənhasan,
Başın üstündəyəm hər gün, səmaya yüksələn gündən.

Saralan çöhrəmin irəngi mənimçün yadigar qalmış,
Payız yarpaqlarıyla sən gözüm yaşın silən gündən.

Cəhənnəm quşları açmış mənə öz odlu ağuşun,
Səni tapmaq yəqin ikən gümana çevrilən gündən.

Yuxum üz döndərib məndən, gözüm bağlanmayır bir dəm,
O məsum çöhrəvin əksi gözümdə dincələn gündən.

Atıbdır Fəhmini hiddətlə dərdin qoynuna tanrım,
Sevinclə dərd arasında bu dünyanı bölən gündən.

İki

Güclə vaxt tapmış idim bircə nəfəs gülmək üçün,
Tez bəla gəldi dodaqdan gülüşü silmək üçün.

Sənə dönmək nə səadətdi, burax əllərimi,
Qoy gedim, itməyə yox-bir də sənə gəlmək üçün.

Bütün ömrüm boyu dil tapmadım öz könlüm ilə,
Can verərdim bu çətinlikdə dili bilmək üçün.

Qələmimdən süzülür duyğularım ağ varağa
Dəftərim içrə beş-on günlüyə dincəlmək üçün.

Cismi at, ruhuvu azad elə artıq yükdən,
Bir çinar yarpağı üstə göyə yüksəlmək üçün.

Taleyin fırçasın almış dişinə çərxi-fələk,
Ömrümü rənglərə göy qurşağı tək bölmək üçün.

Mən sürünmək dolu bu ömrü verərdim, Fəhmi,
Bir saatlıq kəpənək tək yaşayıb-ölmək üçün.

Üç

Bu güzgüdəki sənsən, gülmə mələyim gülmə,
Əksin niyə daşlaşdı, bilmə mələyim bilmə.

Biz zirvəsinə eşqin ayrılmaq ilə çatdıq,
Gecdir yanıma artıq gəlmə mələyim gəlmə.

Göz yaşı o günlərdən çöhrəndə qalan izdi,
Gör bir necə acizdi, silmə mələyim silmə.

Son saniyəsi ömrün qopmaqdadı əqrəbdən,
Ölmək də düşüb dəbdən, ölmə mələyim ölmə.

Təkcə sənin olsun qoy, ruhunda onu bəslə
Sən Fəhmini heç kəslə, bölmə mələyim bölmə.

Birinci kitabın sonu